ISSN 2219-5882

KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

Elmi-nəzəri və praktiki jurnal

№ 3 (15)



2014

JURNAL BAKI DÖVLƏT UNİVERSİTETİNİN
95 İLLİYİNƏ
HƏSR OLUNUR

KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL

00358.

№ 3 (15)

"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq İSSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Bakı – 2014

ARXİV

THE JOURNAL IS DEDICATED
TO THE 95 ANNIVERSARY
OF THE BAKU STATE UNIVERSITY

LIBRARY SCIENCE AND INFORMATION

SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

№ 3 (15)

The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.

Baku – 2014

Founder and Editor-in-chief: **Abuzar KHALAFOV** *Honoured Science worker, Academician of International Information Academy by UNO, Doctor of History professor*

Assistant editor-in-chief: **Knyaz ASLAN** *Doctor of Philosophy (of Pedagogy), associate professor*

Executive Secretary: **Parviz KAZIMI** *Doctor of Philosophy (of History)*

Editorial board:

Tuncel Acar, *Director of the National Library of Turkey*
Catherine Nikonorova,*doctor of philosopy, professor, vice-director of Russian State library*
Yildiz Bakashova, *doctor of philology, professor, director of National library of Kyrgyzstan*
Azad Qurbanov, *Doctor of Philosophy (on Physico-mathematical)*
Aybaniz Aliyeva-Kangarli, *Doctor of Philology, director of Scientific library of Azerbaijan National Academy of sciences*
Khalil Ismayılov, *Doctor of History, professor*
Bayram Allahverdiyev, *Doctor of History, professor.*
Karim Tahirov, *Doctor of Philosophy (on History), Chief of the National library of Azerbaijan*
Mayıl Ahmadov, *Chief of the Presidential Library*
Latifa Mammadova, *Doctor of Philosophy (on History), Chief of the division at Ministry of Culture of the Azerbaijan Republic*
Irina Juravieva. *Director of Central Scientific Library of Kharkiv National University V.N.Karazin*
Vladimir Klyuev. *Ph.D., professor of*
Dr. Tunchel Yilmaz. *Ph.D., vice president of library and archival services TBMM*
Hodchaev Asadjon Azadbekovich *Director of the National Library. Alisher Navoi in Uzbekistan*
Nadir Ismayilov, *Doctor of Philosophy (on Pedagogy)*

Journals have been registered in the Justice Ministry of the Azerbaijan Republic.
Certificate 3135, 16.03.2010.

Address of the editorial office: Baku city, Az1148., Z.Xalilov street, 23
Baku State University, the 2nd teaching building, floor 4, Room 410
telephone: 439-03-66; (050) 365-48-41
№3 (15), september-janvary, 2014

© *"Library study and Information", 2014, №3 (15).*

ЖУРНАЛ ПОСВЯЩЕН 95-ЛЕТИЮ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

БИБЛИОТЕКОВЕДЕНИЕ И ИНФОРМАЦИЯ

НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

№ 3 (15)

Журнал «Библиотековедение и информация» включен Международным Центром ISSN (Париж, Франция) в продолжающиеся издание международного реестра под номером 2219-5882 с 08.10.2010

Баку – 2014

Учредитель и главный редактор: **Абузар ХАЛАФОВ**
Заслуженный деятель науки, Академик Международной Информационной Академии при ООН, доктор исторических наук, профессор

Зам. главного редактора: **Князь АСЛАН**
Доктор философии (по педагогическим наукам), доцент

Ответственный секретарь: **Парвиз КАЗЫМИ**
Доктор философии (по историческим наукам),

Редакционная коллегия:

Тунджел Ачар, *директор Национальной Библиотеки Турции*
Екатерина Никанорова, *доктор философских наук, профессор*
Йылдыз Бакашова, *доктор философских наук, профессор*
Азад Гурбанов, *доктор философии (по физико-математическим наукам)*
Айбениз Алиева-Кенгерли, *доктор филологических наук*
Халил Исмаилов, *доктор исторических наук,профессор*
Байрам Аллахвердиев, *доктор исторических наук, профессор, Заведующий кафедры Библиотековедение*
Керим Тахиров, *доктор философии (по историческим наукам) Директор Национальной библиотеки Азербайджана*
Маил Ахмедов, *Директор Президентской Библиотеки*
Лятифа Мамедова, *доктор философии (по историческим наукам)*
Ирина Журавлева, *директор Центральной научной библиотеки Харьковского национального университета имени В.Н.Каразина*
Владимир Клюев, кандидат педагогических наук, профессор

Тунджер Йылмаз, *зам.директора Парламентской Библиотеки Турции, доктор философии*
Асаджон Ходжаев, *директор Национальной Библиотеки Узбекистана им. А.Навои*
Надир Исмаилов, *доктор философии (по педагогическим наукам)*

Журнал регистрирован в Министерстве Юстиции Азербайджанской Республики.
Свидетельство № 3135, 16.03.2010.

Адрес редакции: г. Баку, Az1148., улица З.Халилова, 23
Бакинский Государственный Университет, учебный корпус №2, 4-ый этаж, комната № 410
Телефоны связи: 439-03-66; (050) 365-48-41
№3 (15) сентябр-январь, 2014

© *"Библиотековедение и информация", 2014, № 3 (15).*

Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvəti, milli iftixarıdır.
Heydər Əliyev

BAKI DÖVLƏT UNİVERSİTETİ
- 95 -

95 – İL ELM VƏ TƏHSİLİN XİDMƏTİNDƏ

Abuzər Xələfov
Əməkdar elm xadimi, respublikanın fəxri mədəniyyət işçisi, tarix elmləri doktoru, professor

Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı (H. Əliyev) olan Bakı Dövlət Universitetinin 95 yaşı tamam olur.

Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti olduqca böyük keşməkeşli, daşlı-kəsəkli bir yol keçmiş, hər cür çətinliklərə baxmayaraq öz müqəddəs amalına doğru irəliləmiş, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin yolunu işıqlandırmış, öz elmi- intelektual potensialı ilə ölkəmizdən çox-çox uzaqlarda da tanınmış, böyük beynəlxalq nüfuz qazanmışdır.

1919-cu ilin sentyabr ayının 1-də Azərbaycan Xalq Cumhuriyyətinin Parlamenti uzun və çətin müzakirələrdən sonra Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Bu qərarı səbirsizliklə gözləyən Universitetin ilk rektoru V.İ. Razumovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi bir özümüzü olduqca xoşbəxt hiss edə bilərik"

Bu xeyirxah rus aliminin dediklərində böyük həqiqət və uzaqgörənlik var idi. Universitetin yaranması bütün Şərqdə mühüm hadisə olmaqla, Azərbaycan xalqının mədəni həyatında parlaq səhifənin başlanğıcı kimi onun gələcək inkişafının əsas amili idi.

Bakı Dövlət Universitetinə, onun xalqımız, dövlətimiz qarşısında xidmətlərinə yüksək qiymət verən, universitetin dünya şöhrətli məzunu, Ulu öndər Heydər Əliyev universitetin açılması haqqında yazır: "Əsrin əvvəllərindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisədir."

1919-cu ilin sentyabrında 4 fakültəsi: Şərq şöbəsi olan tarix-filologiya fakültəsi, fizika-riyaziyyat fakültəsi, hüquq fakültəsi və tibb fakültəsi olan

Bakı Dövlət Universiteti fəaliyyətə başladı. 1919-cu il noyabrın 15-i universitetdə ilk dərs günü elan edildi.

Azərbaycan hökuməti 20-ci illərdə respublikada xalq maarifinin olduqca acınacaqlı vəziyyətdə olmasını, milli kadrların çatışmamasını nəzərə alaraq, milli kadrların yetişdirilməsinə xüsusi diqqət yetirirdi. O dövrdə Bakı Dövlət Universiteti milli kadrlar hazırlayan yeganə ali məktəb olduğundan onun inkişaf etdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, tələbə kontingentinin artırılması, tədrisin təşkilinin daha da təkmilləşdirilməsi ön plana çəkilmişdi. Xüsusilə xalqımızın görkəmli ziyalıları universitetin milliləşdirilməsini və tələbə və müəllim kadrları içərisində azərbaycanlıların sayının artırılmasını zəruri hesab edirdilər. Artıq 20-ci illərin əvvəllərində universitet yeni bina ilə təmin edilmiş, tədrisin təşkili üçün auditoriya fondu genişlənmişdi. 1920-ci ildə hələ 1919-cu ildə əsası qoyulan universitetin elmi kitabxanası fəaliyyətə başlamış, zəngin kitabxana fondu yaradılmışdı.

1922-ci ildə SSRİ yaradıldıqdan dərhal sonra Bakı Dövlət Universitetinin adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti adlandırıldı. 1924-cü ildə V.İ. Leninin vəfatından sonra onun V.İ. Leninin adının əbədiləşdirilmək məqsədilə yenidən Azərbaycan Dövlət Universitetinin adı dəyişdirilərək V.İ. Lenin adına Azərbaycan Dövlət Universiteti adlandırıldı.

20-ci illərdə Universitetin həyatında baş verən diqqətə layiq hadisələrdən biri də tədrisin tədricən Azərbaycan dilinə keçməsi olmuşdur. Azərbaycan dilində tədrisin aparılması hər şeydən əvvəl Azərbaycan dilində dərs deyə biləcək milli kadrlarla əlaqədar idi. Belə kadrların olmaması bu sahədə böyük çətinliklər yarandı. Ancaq demək olar ki, fədakar universitet kollektivi və Azərbaycan hökuməti bu işin öhdəsindən gələ bildi. Böyük çətinliklə olsa da Azərbaycan dilində dərs deyən milli kadrlar korpusu formalaşdı.

1920-ci ildən humanitar fakültələrdə qismən, təbiət fakültələrində isə 1922-ci ildən Azərbaycan dilində mühazirələr oxunmağa başlandı. Dövlət dilində dərslərin aparılması mühüm mədəni hadisə olmaqla bərabər həm də siyasi hadisə idi.

20-ci illərdə universitet respublikada sürətli inkişaf edən elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının böyük sahələrini yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin etməli idi. Bu mühüm dövlət vəzifəsini həyata keçirmək üçün universitet yeni-yeni ixtisaslar açmağa, tələbə qəbulunu ilbəil atırmağa müvəffəq oldu. Rəqəmlərə diqqət yetirək: Əgər 1919/1920-ci tədris ilində universitetə 1094 tələbə qəbul edilmişdisə, 1928-1929-cu illərdə qəbul edilən tələbələrin sayı 1925 nəfərə çatmışdı. 1922-ci ildə universitetin tibb fakültəsində ilk buraxılış oldu. Tibb fakültəsini 30 nəfər bitirdi.

Demək olar ki, universitet çətinliklə də olsa özünün şərəfli ilk on illiyini böyük müvəffəqiyyətlə başa vurdu. Respublikamız üçün 1154 nəfər yüksək ixtisaslı kadr hazırlamağa müvəffəq oldu.

20-ci illərdə Bakı Dövlət Universiteti ölkəmizdə milli şüurun, milli özünü dərkin, milli ideologiyanın formalaşmasında soy-kökümüzə, tarixi, milli ənənələrimizə qayıtmaq, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq, daha da inkişaf etdirmək işinə böyük töhfələr vermiş, milli kadrların yetişdirilməsində əvəzsiz xidmətlər göstərmişdir. Bakı Dövlət Universitetinin yetirmələri olan milli kadrlar, respublika təhsilinin, maarifinin, elm və mədəniyyətin bütün sahələrinin milli bünövrə üzərində formalaşmasının əsasını qoymuş, elm, təhsil, mədəniyyət və demək olar ki, xalq təsərrüfatının bütün sahələri üçün yüksək ixtisaslı kadr hazırlığının məbədgahı olmuşdur.

Elm, təhsil və mədəniyyətimizin ilk atributları, forma və metodları Bakı Dövlət Universitetində yaradılmış, formalaşmış, təkmilləşmiş və bütün respublika miqyasında geniş yayılmışdır.

Hər şeyin ilki ol, hər bir işin birincisi olmaq, əsasını qoymaq, bünövrə qurmaq, dünyanın görkəmli mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bu baxımdan Azərbaycanın ilk ali məktəbi, elm, təhsil və mədəniyyət məbədgahı olan Bakı Dövlət Universitetinin üzərinə olduqca çətin və məsuliyyətli və şərəfli bir vəzifə düşmüşdür. Bakı Dövlət Universiteti özünün 95 illik bir fəaliyyəti dövründə bu vəzifələrin öhdəsindən şərəflə gəlmiş, elmimizin, təhsilimizin və mədəniyyətimizin yolunu işıqlandırmış, həmişə birinciliyi əlində saxlaya bilmiş, respublikamızda elmə, təhsilə və mədəniyyətə yeni ideyalar, nəzəriyyələr, elmi kəşflər, ixtiralar vermiş, elmin və təhsilin olduqca səmərəli idarəçilik ənənələrini və inkişaf istiqamətlərini yaratmağa müvəffəq olmuşdur.

20-ci illərdə respublikamızda milli kadrların hazırlanmasında mühüm xidmətləri olan Bakı Dövlət Universiteti elmin, mədəniyyətin, təhsil sisteminin təşkilatı məsələlərinə, ali məktəbin atributlarının yaranmasına, təhsil sisteminin forma və metodlarının müəyyənləşdirilməsinə də xüsusi töhfələr vermişdir.

1920-ci ildə ali məktəblərdə təhsil sisteminin və elmin əsas olan kafedralar tədris və elmi laboratoriyalar, ilk fənn kabinetləri yaradılmışdır. 20-ci illərdə həmçinin Bakı Dövlət Universitetində universitet elminin əsası qoyulmuş ilk elmi- tədqiqat mərkəzləri, elmi cəmiyyətlər, elmi birliklər yaranmış, 1929-cu ildə ilk aspirantura açılmışdır. Universitet həmçinin ilk elmi əsərlərin, elmi- toplıuların müəllifi kimi çıxış etmiş, ilk dəfə olaraq 1921-ci ildə universitet xəbərlərində ayrı-ayrı fakültələrin elmi əsərlərini nəşr etməyə başlamışdır.

Beləliklə, 20-ci illərin axırında Bakı Dövlət Universiteti böyük elmi potensiala malik yüksək ixtisaslı kadr hazırlayan təhsil və elm məbədgahına

çevrilmiş, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin inkişafında həlledici rol oynamağa başlamışdı. Məhz buna görədir ki, universitetin 10 illik yubileyinin qeyd olunması haqqında qərar qəbul olunmuşdur. Yubiley 1930-cu il yanvarn 12-də Bakı Opera və Balet Teatrında keçirildi. Təntənəli yubiley iclasında Azərbaycan Dövlət Universitetinin on il müddətində respublikanın təhsil, elm və mədəni həyatında böyük xidmətləri qeyd edildi. Xüsusilə yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasında əldə etdiyi nəaliyyətlər haqqında məruzələr dinlənildi. Universitetin bir çox əməkdaşları yüksək dövlət mükafatlarına layiq görüldü.

Ancaq çox təəssüflə qeyd etmək lazımdır ki, Avropa və Asiyanın qovşağında məşəl kimi yanan bu elm və təhsil məbədgahı öz inkişafının çiçəkləndiyi dövrdə Moskvanın göstərişi ilə 1930-cu il iyunun 19-da Azərbaycan Xalq Komisarları Sovetinin qərarı ilə fəaliyyəti dayandırıldı onun fakültələri ayrı-ayrı institutlara çevrildi. Onun əmlakı və 100 min nüsxədən artıq kitab fondu olan kitabxanasında yeni yaradılan institutlar arasında bölüşdürüldü.

Artıq 1935-ci ildə universitedə 13 kafedrası olan 4 fakültə fəaliyyət göstərirdi. Universitetin inkişafına xüsusi diqqət yetirildiyindən 30-cu illər universitetin həyatında yeni mərhələ başlandı. Onun fakültələrinin, tələbə kontingentinin və professor-müəllim heyətinin sayı durmadan artmağa başladı. Universitetin elmi potensialı əsaslı sürətdə gücləndi.

Artıq son beş ildə Universitetdə 500 yaxın yüksək ixtisaslı kadr hazırlamışdı. 1939-cu ildə universitetdə 300 yaxın professor-müəllim heyəti fəaliyyət göstərirdi ki, bunlardan da 17 nəfəri elmlər doktoru 54 nəfəri elmlər namizədi, dosent idi.

Bakı Dövlət Universiteti 1941-1945 Böyük Vətən müharibəsi illərində də olduqca böyük çətinliklərə baxmayaraq respublikada aparılan təhsil islahatlarının başında durmuş, univeristetdə birləşən ali məktəblərin işini tənzimləmiş, kadr hazırlığını davam etdirmişdir. 4 ildə 719 nəfər yüklsək ixtisaslı kadr hazırlaya bilmişdi. Müharibə illərində hər cür çətinliyə baxmayaraq universitet elmi kadrların hazırlanmasını ön plana çəkmiş aspirantlar hazırlığını davam etdirmişdir. 1941-1945-ci illərdə 211 aspirant öz təhsilini başa vuraraq namizədlik dissertasiyaları müdafiə etmişdilər.

1941-1945-ci illərdə Universitetin elmi şurasında 13 doktorluq və 118 namizədlik dissertasiyası müdafiə edilmişdi. Müharibə illərinin axırlarında universitetin kadr potensialı xeyli güclənmişdi. 1945-ci ildə univeristetdə professor-müəllim heyətinin sayı 331-ə çatmışdı ki, bunlarında 29 nəfəri elmlər doktoru professor, 107 nəfəri elmlər namizədi dosent 195 nəfəri isə müəllim idi.

Müharibədən sonrakı illərdə Respublika hökuməti universitetdə yeni fakültələrin, laboratoriyaların, yeni ixtisasların açılmasına xüsusi diqqət

yetirirdi. 1946-1947-ci tədris ilində Universitetdə 8 fakültə fizika-riyaziyyat, kimya, biologiya, geoloji-coğrafiya, filologiya, tarix, hüquq, şərqşünaslıq fakültələri fəaliyyət göstərirdi. 1945-1947-ci illərdə təkcə filologiya fakültəsinin yanında jurnalistika, incəsənətşünaslıq, məntiq-psixologiya və kitabxanaçılıq şöbələri yaradılmışdı.

50-60-cı illər universitatin elmi və tədris həyatında böyük inkişaf baş vermişdi. Artıq 60-cı illərin axırında universitetində 12 fakültə fəaliyyət göstərirdi. Son illərdə 4 yeni fakültə: şərqşünaslıq, kitabxanaçılıq, jurnalistika və xarici tələbələr fakültəsi açılmışdı.

Azərbaycanın müasir tarixinə dönüş mərhələsi kimi daxil olan 60-70-ci illər Bakı Dövlət Universitetinin həyatında da əlamətdar illər olmuşdur.

1969-cu ildə Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan özünün həqiqi inkişaf yolunu tapdı. 60-cı illərdə baş verən sosial-iqtisadi böhran aradan qaldırıldı. Bu dövürdə Respublika ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universiteti Heydər Əliyevin qayğısı sayəsində böyük uğurlar əldə etdi. 1969-cu ildə Universitetin 50 illik yubileyi böyük təntənə ilə dövlət səviyyəsində keçirildi. Yubley iclasında yubley komissiyasının sədri kimi Heydər Əliyev çıxış etdi. Bu tarixi çıxış Universitetin həyatında çox əlamətdar hadisə kimi qiymətləndirildi. Çünki üniversitetin yarım əsirlik yubileyində onun dünya şöhrətli məzunu Heydər Əliyevin çıxış etməsi çoxminli universitet kollektivinin böyük fəxri və iftixarı idi. Heydər Əliyevin indiyə qədər mövcud ənənələrin əksinə olaraq Azərbaycan dilində çıxış etməsi xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmaqla milli şüurun formalaşmasına, Azərbaycan dilinin statusunun möhkəmlənməsinə əhəmiyyətli təsir göstərdi. Heydər Əliyevin bu parlaq nitqində univeristetin 50 illik inkişaf və tərəqqi yolunu yüksək qiymətləndirərək deyirdi: "Bu gün Azərbaycan Dövlət Universitetinin keçdiyi yarım əsirlik yola yekun vurarkən tam əsasla deyə bilərik ki, yubliyar bu böyük ada layiq olduğunu özünün bütün fəaliyyəti ilə sübut etmişdir".

Universitetin tarixində yeni mərhələ Heydər Əliyevin mərhələsi kimi qiymətləndirilən 70-80-ci illərdə Bakı Dövlət Universitetinin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni tədris korpusları tikilmiş, yeni avadanlıqla təmin edilmiş, yeni fakültələr açılmış, yeni ixtisaslar açılmış, universitet elmi böyük inkişaf yoluna qədəm qoymuşdu. Məhs bu illərdə universitetinin tələbə kontingentinin sürətlə artımında böyük tərəqqi əldə edilmiş, tələbələrin sayı 13425 nəfərə gəlib çatmışdı. 70-80-ci illərdə universitetin əldə etdiyi ən böyük nəaliyyət universitet təhsilinin və elminin əsas aparıcı qüvvəsi olan kadr potensialının daha da möhkəmlənməsi olmuşdur. Rəqəmlərə diqqət yetirək: 1970/71-ci tədris ilində universitetdə 710 nəfər professor-müəllim heyəti fəaliyyət göstərirdi. Bunların 56 nəfəri professor, 223 nəfəri dosent, 240 nəfəri baş müəllim, 191 nəfəri müəllim idi. On ildən sonra yeni 1988/89-cu dərs

ilində müəllimlərin sayı 1137-ə professorların sayı 170, dosentlərin sayı 442, baş müəllimlərin sayı 342, müəllimlərin sayı 198 nnəfərə çatmışdı. Yeni on ildə müəllimlərin sayı 42 nəfər, profesorların sayı 114 nəfər, dosentlərin sayı 198 nəfər müəllimlərin sayı 7 nəfər artmışdı.

Beləliklə yuxarıdakı rəqəmlər bir daha təsdiq edir ki, 70-80-ci illər universitetin tarixində Heydər Əliyev mərhələsinin təntənəli illəri olmuşdur.

Bakı Dövlət Universitetinin 95 il müddətində əldə etmiş oldu böyük tarixi nəaliyyətlərdə universitetdə 95 ildə rəhbərlik etmiş, böyük vətəndaş görkəmli elm və təhsil təşkilatçıları, elm və təhsil xadimləri rektorların böyük xidməti danılmazdır. Universitetin 95 illik yubileyinin qeyd edildiyi bu bayram günlərində onların adlarını böyük minnətdarlıq hissi ilə yad etmək yerinə düşərdi. Bakı Dövlət Universitetinin fəaliyyət göstərdiyi 95 il ildə ona 24 rektor rəhbərlik etmişdir. Bütün dünyada klassik universitet rektoru olmaq ən şərəfli vəzifə, hesab edilmiş, dünyanın qabaqcıl ölkələrində rektor vəzifəsinə ən böyük yaradıcı alimlər, böyük nüfus sahibləri, elm və təhsil təşkilatçıları, cəmiyyət tərəfindən qəbul edilən, xalq tərəfindən tanınan ziyalılar başçılıq etmişlər. Ötən əsrin 20-80-ci illərində Bakı Dövlət Univeristetinə V.L.Razumovski, T.A.Şahbazi, Ə.M.Əliyev, A.İ.Qarayev, C.Z.Hacıyev, Y.H.Məmmədəliyev, Ş.F.Mehdiyev, M.S.Əliyev, F.M.Bağırzadə, M.Ələsgərov, Y.C.Məmmədov, C.B.Quliyev, M.G.Qasımov və başqaları rəhbərlik etmişlər. Dünyasını dəyişmiş, ancaq qəlblərdə yaşayan bu böyük tarixi şəxsiyyətlərə Allahdan rəhmət diləyir və onların müqəddəs ruhları qarşısında baş əyirəm. Universitetə son zamanlar rəhbərlik edən prof. M.C.Mərdanov və akademik A.M.Məhərrəmovun böyük təşkilatçılıq fəaliyyəti universitet kollektivi tərəfindən yüksək qiymətləndirilmişdi.

Bakı Dövlət Universiteti 95 il müddətində elm, texnika, iqtisadiyyat, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələri üzrə 130 mindən artıq yüksək ixtisaslı kadr hazırlamışdır. Böyük iftixar hissi ilə demək olarkı universitetin hazırladığı kadrlar təkcə ölkəmizdə deyil, dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

Bakı Dövlət Universitetinin çoxminli kollektivi böyük iftixar hissi ilə fəxr edir ki, universitetin dünya şöhrətli məzunu, görkəmli dövlət xadimi, Azərbaycan milli dövlətçiliyinin xilaskarı, müstəqil Azərbaycan Respublikasının memarı, xalqımızın ümumi milli lideri Heydər Əliyev Bakı Dövlət Universitetinin məzunudur.

Ulu öndər universitetin məzunu olması ilə fəxr etdiyini dəfələrlə bildirmiş və universitetə onun xalqımız qarşısında göstərdiyi böyük xidmətlərə yüksək qiymət vermişdir.

O demişdir: "Bakı Dövlət Universitetinin 80 illik fəaliyyəti dövründə Azərbaycan həyatının bütün sahələrinə güclü təsir edərək xalqımız qarşısında əvəzsiz xidmətlər göstərmişdir. Əslində universitetimizin tarixi Azərbaycan

təhsilinin və mədəniyyətinin inkişafı tarixidir." Ulu öndərin Bakı Dövlət Universitetinə verdiyi bu qiymət universitetin çoxminli kollektivinin fədakar əməyinə verilən yüksək qiymətdir.

Bakı Dövlət Universiteti respublikamızın ilk elm və təhsil ocağı olduğundan hər cür çətinliyə baxmayaraq, respublikamızda elm və təhsilin inkişafına böyük töhfələr vermiş, ilk milli kadrların, yetişdirilməsinin əsas bazası rolunu oynamış, ali təhsil sisteminin yaradılmasını təmin etmiş, ali məktəb şəbəkəsinin formalaşmasında yaxından iştirak etmişdir. Bilavasitə BDU-nun köməyi və iştirakı ilə Azərbaycanda onlarla ali məktəblər yaranmışdır.

Bakı Dövlət Universiteti həmçinin respublika elminin, elmi-tədqiqat müəssisələrinin formalaşmasında yaxından iştirak etmişdir. Azərbaycanın ilk milli alimlər nəslinin yetişməsində mühüm rol oynayan Bakı Dövlət Universiteti Azərbaycan Milli Elmlər Akademiyasının yaranmasında elmi baza rolunu oynamışdır. Akademiya universitet alimlərinin bazasında yaradılmışdır.

Bakı Dövlət Universitetinin 95 ildə keçdiyi yolun əsas olduqca mühüm mərhələsi Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı mərhələdir. Məhz bu mərhələdə universitet tarixində böyük izlər qoymuş, Azərbaycan təhsili sistemində mühüm islahatlar aparılmış, universitet təhsili və elmi beynəlxalq arenaya çıxmağa, beynəlxalq standartlara cavab verən bir mərhələyə yüksəltməyə müvəffəq olmuşdur. Bu mərhələdən danışarkən universitetin son illərdəki fəaliyyəti "intibah dövrü, böyük müvəffəqiyyətlər dövrü, böyük axtarışlar dövrü kimi də nəzər diqqəti cəlb edir.

Son illərdə BDU elm və tədris sahəsində qazandığı mühüm nailiyyətlərinə görə dünyanın qabaqcıl ali təhsil ocaqları arasında özünəməxsus yer tutmuşdur. Hazırda BDU-da 18 mindən artıq tələbə təhsil alır, 17 fakültə, 125 kafedra, 2 elmi tədqiqat institutu, 4 elmi tədqiqat mərkəzi, 20 elmi tədqiqat laboratoriyası fəaliyyət göstərir. Universitetin strukturuna daxil olan bu elmi qrumlarda 3 min nəfərə yaxın əməkdaş, kafedralarda 300 nəfərdən artıq elmlər doktoru, professor, 900 nəfərdən artıq fəlsəfə doktoru, dosent çalışır. Onlar müasir elmin nəaliyyətlərindən istifadə etməklə universitet elminə öz töhfələrinə verirlər.

Mən bu müvəffəqiyyətlərin əldə edilməsində, universitetin bir qocaman professoru kimi Universitetə son 15 ildə başçılıq etmiş akademik, millət vəkili Abel Məhərrəmovun böyük əməyini qeyd etmək istərdim.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev Abel Məhərrəmovu universitetin rektoru vəzifəsinə təyin etdi. Abel Məhərrəmovun rektor kimi yaradıcı fəaliyyəti bu təyinatın olduqca uğurlu olduğunu təsdiq etdi. Abel Məhərrəmov rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və

potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirdi, bu təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bildi. Abel Məhərrəmov sözün əsl mənasında çox saylı universitet kollektivini vahid bir orqanizm kimi hərəkətə gətirdi. Bütün professor-müəllim heyətini bir nəfər kimi universitetin tədris metodiki və elmi-tədqiqat işinə cəlb etməyə nail oldu. Müstəqillik illərində elm və təhsil sahəsində başlanan islahatların başa çatıdırlmasında yeni yaradıcılıq zirvəsinin əldə edilməsində, universitetdə böyük quruculuq işlərinin aparılmasında, universitet kollektivi tərəfindən "qurucu rektor" kimi qəbul edilən Abel Məhərrəmovun gördüyü işlər təqdirə layiqdir. Son illərdə Akademik Abel Məhərrəmovun düzgün və məqsədyönlü rəhbərliyi sayəsində BDU-nun maddi-texniki bazası möhkəmlənmiş, universitet binaları əsaslı təmir edilmiş, geniş universitet şəhərciyi, böyük idman korpusu tikilmiş, universitetin yeni tədris korpusu istifadəyə verilmişdir.

Tədris prosesində aparılan islahatlar, Bolonya tədris prosesinə keçid, tədris prosesinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə, tədris prosesində kompüter texnologiyasından istifadə edilməsinə, yeni dərslik və dərs vəsaitlərinin yaradılmasına geniş şərait yaratmışdır.

Universitet elminin inkişafı sahəsində də mühüm işlər görülmüş, kafedraların elmi fəaliyyəti güclənmiş, elmi- tədqiqat planları müasir dövrün tələblərinə uyğunlaşdırılmış, yeni elmi- tədqiqat laboratoriyaları yaradılmış, onların müasir avadanlıqla, cihazlarla təchiz edilmişdir. Yeni elmi layihələrin işlənməsi universitet elminin daha da yüksəlməsinə, beynəlxalq arenaya çıxmasına səbəb olmuşdur. Universitetin son illərdə əldə etdiyi bu böyük nailiyyətləri yüksək qiymətləndirən möhtərəm Prezidentimiz İlham Əliyev demişdir: "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır."

Beləliklə, doğma universitetimiz öz tarixi 95 illik keşmə- keşli yolunu böyük qürurla keçərək Azərbaycan xalqının elm və təhsil məbədgahına çevrilmişdir. Mən Universitetin məzunlarından və qocaman professorlarından biri kimi hazırda öz inkişafının yeni mərhələsini yaşayan bu doğma, əziz universitetimizə, təhsilimizin və elmimizin tərəqqisi naminə böyük uğurlar diləyirəm.

Doğma və əziz Bakı Dövlət Universiteti! Var ol, yaşa, yarat, Ulu Tanrı köməyin olsun.

AVTORITET VERİLƏNLƏR VƏ ONA QOYULAN FUNKSIONAL TƏLƏBLƏR

A.İ.QURBANOV
Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı
azad_kurbanov@mail.ru

Məqalədə avtoritet/normativ nəzarətin əhəmiyyəti, avtoritet verilənlər haqqında məlumat verilir. Avtoritet verilənlərin yaradılması sahəsində beynəlxalq təcrübə, avtoritet verilənlərə funksional tələblər təhlil olunur.

Açar sözlər: *Avtoritet/normativ nəzarət, avtoritet başlıq, avtoritet fayl, seriya başlıqlarının avtoritet faylı, predmet avtoritet faylı, təsnifat avtoritet fayl, GARE, istinad yazısı, soraq yazısı, FRAD modeli*

Avtoritet/normativ nəzarət haqqında ilkin məlumatlar elmi ədəbiyyatda XIX əsrin ikinci yarısından başlayaraq təsadüf edilir. gəlinir. Şəxs adlarına və təşkilatların adlandırılmasına nəzarət ideyası F.Burdonun, Ç.Katterin, E.İ.Şamurinin əsərlərində əinkişaf etdirilmişdir.

Avtoritet/normativ nəzarət praktikada ilk dəfə ABŞ-da tətbiq olunmağa başlamışdır. Belə ki, 1940-cı illərin ortalarında başlayaraq Konqres Kitabxanasının rəhbərliyi altında ABŞ-ın 350-dən artıq kitabxanası müəllif və təşkilat adlarının avtoritet siyahılarının formalaşdırılmasına başladı. Bu siyahılar geniş kitabxana dairələrinin istifadəsi üçün yaradılırdı.

1970-ci illərdən etibarən yeni informasiya texnologiyalırının inkişafı ilə əlaqədar xarici təcrübədə avtoritet nəzarətə kataloqlaşdırma prosesinin müstəqil istiqaməti kimi baxılmağa başlandı. Kitabxana işində Avtoritet/normativ siyahılarına kompüter vasitələrinin tətbiqi maşınla oxunan avtoritet faylları meydana çıxardı. 1976-cı ildə avtoritet verilənlər üçün USMARC formatının ilkin nəşrinin yaradılması avtoritet nəzarətin təşkilində yeni mərhələ açdı. Bu sənəddə avtoritet verilənlərin təsvirinin standartlaşdırılmış strukturu tamamilə əks olunmuşdu.

1970-ci illərin sonlarında avtoritet verilənlərin təşkili üzrə işlərin aktiv şəkildə beynəlxalq səviyyədə aparılmasına başlandı. 1977-ci ildə YUNESKO milli kitabxanalara müəllif adlarının milli avtoritet fayllarının tətbiqini tövsiyə etdi. Qeyd olundu ki, effektiv beynəlxalq universal kitabxana uçotu üçün avtoritet nəzarətin həyata keçirilməsi tələb olunur. 1979-cu ildə İFLA-nın iki bölməsinin təşəbbüsü ilə işçi qruppu yaradıldı. İşçi qrupun vəzifəsi avtoritet yazıların sahə və elementlərinin müəyyənləşdirilməsi, avtoritet yazılar üçün beynəlxalq kommunikativ formatın işlənməsi idi. 1984-cü ildə avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat (GARE) dərc olundu, daha sonra predmet avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat (GSARE) hazırlandı. 1991-ci ildə UNİMARC / Authorities avtoritet

yazılarının təsvirinin beynəlxalq formatı dərc olundu. 1990-cı illərin ortalarında avtoritet nəzarət kataloqlaşdırmada müstəqil istiqamət kimi formalaşdı.

Avtoritet nəzarət - şəxs və təşkilat adları, coğrafi adlar, predmet rubrikaları, təsnifat indekslərini əks etdirən normaya salınmış axtarışın eyniliyinin dəstəklənməsi üçün həyata keçirilən kompleks işlərdən ibarət prosesdir. Buraya avtoritet iş əməliyyatları, kompüterləşdirilmiş biblioqrafik faylda istifadə olunan çıxış nöqtələri və axtarış terminləri üzərində ümumi nəzarət daxildir.

Avtoritet işin məqsədi avtoritet başlıq və avtoritet yazının formalaşmasından və həmçinin başlıqlar (yazılar) arasında əlaqələrin qurulmasından ibarətdir. Avtoritet işin nəticəsi avtoritet nəzarətin həyata keçirilməsi üçün avtoritet faylın formalaşması və biblioqrafik yazıda normaya salınmış çıxış nöqtələrinin əks olunmasıdır.

Normaya salınmış axtarışın kateqoriyalarına uyğun olaraq avtoritet faylların aşağıdakı tipləri müəyyənləşdirilmişdir: *avtoritet fayl, Seriya başlıqlarının avtoritet faylı, Predmet avtoritet faylı, Təsnifat avtoritet fayl.*

Veb-texnologiyaların və elektron resursların inkişafı avtoritet nəzarətin rolunu və əhəmiyyətini gücləndirmişdir. Avtoritet nəzarətə bir proses olaraq təkcə kitabxana kataloqlarına münasibətdə deyil, eləcə də informasiyanın idarə olunması və axtarışı üçün axtarış sistemlərinin köməkçi aləti kimi baxılmağa başlanmışdır. Bu zaman nəzərə almaq lazımdır ki, avtoritet nəzarət ən bahalı kataloqlaşdırma prosesidir. Bəzi mütəxəssislərin fikrincə, informasiya kütləsinin həcminin artması ilə tammiqyaslı avtoritet nəzarətin reallaşdırılması daha yüksək xərclər tələb etdiyindən bu proses tam avtomatlaşdırıla bilməz. Digər tərəfdən texnologiyaların inkişafı axtarış imkanlarını genişləndirir və axtarışı təkcə avtoritet formada deyil, avtoritet yazıya daxil olan istənilən variantlı formada həyata yeçirməyə imkan verir.

Başlıqların bütün formaları üçün vahidliyin, universallığın mövcudluğunu tələb edən universal biblioqrafik nəzarət konsepsiyası öz yerini «çıxışa nəzarət» (access control) konsepsiyasına verir. Bu konsepsiya «Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimatlar»da (GARR) öz əksini tapmışdır. «Çıxışa nəzarət» ideyası son 20 ildən artıqdır ki, müzakirə olunur. Bu ideyinin müəllifi 1977-ci ildə M.Qorman olsa da, termin olaraq ilk dəfə Barbara Tillett tərəfindən 1988-ci ildə istifadə olunmuşdur.

«Çıxışa nəzarət» avtoritet iş prosesinin nəticəsi olaraq «avtoritet» qismində terminin (adın, başlığın, tematik terminin) vahid formasının seçimini əks etdirmir. «Çıxışa nəzarət» yazısı mahiyyətcə avtoritet yazının yeni nəslini təsvir edir. Avtoritet yazı kimi bu yazı da terminlərin variantlı formalarını əlaqələndirir

Avtoritet nəzarətin yeni növü dedikdə, istifadəçi, onun maraqları və kataloqlardan istifadə zamanı rahatlığı nəzərdə tutulur. Unifikasiya olunmuş formanın seçim kriteriyaları çox vaxt şərti xarakter daşıyır; adların əksəriyyəti üçün bütün variantlar eynimənalıdır. Elektron kataloq istənilən forma ilə əlaqəli bütün yazılara birbaşa çıxışı təmin edir - bu fakt istifadəçini unifikasiya olunmuş başlığın yaradılması qaydalarını bilmək və axtarış zamanı məhz bu formadan istifadə etmək zərurətindən azad edir.

Texnologiyanın inkişafı ilə avtoritet nəzarət nəinki öz əhəmiyyətini itirmir, həm də yeni inkişafa qədəm qoyur. Avtoritet nəzarət konsepsiyasının əsas inkişaf tendensiyası onun getdikcə beynəlmiləlləşməsidir. Çoxsaylı beynəlxalq layihələr - NACO, SACO proqramları, AUTHOR layihəsi, virtual beynəlxalq avtoritet faylın (VİAF) yaradılması və s. bu sahədə səmərəli əməkdaşlığın nümunəsidir. Bundan başqa, avtoritet nəzarət konsepsiyasının özü yenidən qiymətləndirilir - avtoritet verilənlərə funksional tələblər işlənilir, avtoritet yazılara əlavə informasiyanın daxil edilməsinin məqsədyönlülüyü tədqiq olunur. Bütün bunlar istifadəçinin tələbatları nəzərə alınmaqla informasiya axtarışının effektivliyini yüksəltməyə imkan verir.

1974-cü ildə UNESCO-nun hökumətlərarası Biblioqrafik konfransında müəllif adının avtoritet formasının yaradılması ilə əlaqədar milli biblioqrafiya müəssisəsinin məsuliyyəti prinsipi müəyyən edildi. O vaxtdan etibarən İFLA-nın rəhbərliyi altında beynəlxalq avtoritet nəzarət sisteminin yaradılmasına istiqamətlənmiş geniş fəaliyyət başlandı. İşlər iki istiqamətdə aparılırdı:

1) Beynəlxalq avtoritet siyahıların nəşr olunması;

2) Müxtəlif kateqoriyalı başlıqların strukturunu müəyyən edən təlimat və beynəlxalq qaydaların işlənməsi.

1978-ci ildə İFLA-nın konfransında yaradılan işçi qrupun qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

- beynəlxalq avtoritet nəzarət sisteminin əsas prinsiplərini tərtib etmək;
- avtoritet/normativ verilənlər üçün UNİMARC formatını işləmək;
- avtoritet verilənlərin mübadiləsini həyata keçirmək üçün effektiv metodlar hazırlamaq.

Birinci tapşırıq yazının əsas elementlərini müəyyən edən normativ sənədlərin işlənməsini, onların ardıcıllığını və yazıda punktuasiya sistemini nəzərdə tuturdu. Universal xarakterli ilk sənədlər arasında 1984-cü il tarixli «Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat» (GARE) da var idi. Sənəd ümumilikdə müxtəlif növlü başlıqlar, o cümlədən predmet rubrikaları üçün avtoritet yazıların məzmunun təsvir edirdi. «Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat» (GARE) da yazının struktur və məzmunu ardıcıllıqla verilir, materialların əsas növləri üçün nümunələr göstərilirdi. Daha sonra predmet rubrikalarının avtoritet və istinad

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

yazılarının strukturunu tənzimləyən analoji sənəd - «Predmet avtoritet və istinad yazılarının tərtibi və tətbiqi üzrə Təlimat» (GSARE) nəşr olundu.

İşçi qrupu qarşısında qoyulan ikinci vəzifə 1991-ci ildə UNİMARC / Authorities formatının birinci nəşrinin işıq üzü görməsi ilə yerinə yetirildi. Bu, milli biblioqrafiya müəssisələri arasında avtoritet verilənlərin maşınlaoxunan formada beynəlxalq mübadiləsini təmin etməli idi.

Avtoritet verilənlərin effektiv beynəlxalq mübadilə sisteminin təşkili vəzifəsinin həlli üçün 1996-cı ildə Barbara Tillettin başçılığı altında Avtoritet yazıların minimal səviyyəsinin müəyyənləşdirilməsi üzrə işçi qrup (MLAR) və İSADN yaradıldı. İşçi qrupun 1998-ci ildə çap olunmuş hesabatında qeyd olunurdu ki, avtoritet verilənlərin beynəlxalq mübadiləsi kitabxanalar üçün böyük əhəmiyyətə malikdir, onun reallaşdırılması kataloqlaşdırma xərclərini azaltmağa və istifadəçilərin tələbatlarını daha yaxşı ödəməyə imkan verir. Hesabatda avtoritet verilənlərin beynəlxalq mübadiləsində vacib olan verilənlərin elementləri belə müəyyənləşdirilmişdir:

- yazının statusu
- yazının tipi
- yazı obyektinin kateqoriyası
- kodlaşma səviyyəsi
- yazı identifikatoru
- İSADN nömrəsi
- yazının fayla daxil edilmə tarixi
- versiya identifikatoru
- kataloqlaşdırma dili
- yazıda istifadə olunan simvolların yığımı
- kataloqlarşdırma qrafikası
- başlıqların tərtibi qaydaları
- yazını yaradan təşkilat
- fərqləndirilmiş/fərqləndirilməmiş şəxs adı
- qəbul olunmuş başlıq
- yazı obyektinin milli mənsubluğu
- başlığın variantlı formaları («bax» istinadı)
- əlaqəli başlıqlar («həmçinin bax» istinadı)
- başlıq haqqında informasiyanın mənbəyi

«Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat»ın (GARE) yeni nəşri 2001-ci ildə «Guidelines for Authority Records and References» (GARR) adı altında işıq üzü gördü.

GARE (və gələcəkdə GARR), GSARE təlimatları avtoritet yazıların minimal səviyyəsinin müəyyənləşdirilməsi üzrə işçi qrupun hesabatı (MLAR) və İSADN avtoritet yazıların struktur və məzmununun əsaslarını müəyyənləşdirdi ki, onlar hazırda da istifadə olunur.

«Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat» (GARR)

«Avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat»ın (GARR) giriş hissəsində sənəddə adı çəkilən bütün terminlərin izahı verilmişdir. Bu terminlər arasında çıxış nöqtəsi, avtoritet yazı, avtoritet başlıq, soraq başlığı, əlaqəli başlıq, istinad/istiqamət göstərmə, İSADN (Avtoritet verilənlərin beynəlxalq standart nömrəsi) və s. vardır.

Avtoritet başlıq - obyektin təyin olunması üçün istifadə olunan unifikasiya olunmuş nəzarət edilən başlıqdır.

Təlimatda obyektlərin aşağıdakı koteqoriyaları müəyyənləşdirilmişdir:

- şəxs adı
- təşkilatın adı
- əsər/ifadə
- unifikasiya olunmuş başlıq
- ad/sərlövhə
- ad/unifikasiya olunmuş tipik sərlövhə

Avtoritet yazı - avtoritet fayldakı yazıdır. Onu təşkil edən element şəxs, təşkilat və ya əsər/ifadə üçün biblioqrafik müəssisə tərəfindən qurulmuş/qəbul edilmiş avtoritet başlıqdır. Avtoritet başlığa əlavə olaraq yazıda informasiya qeydləri, istinad/istiqamət göstərən bütün variantlı və əlaqəli başlıqlar, informasiya mənbəyi və yazıya məsul olan biblioqrafik müəssisə haqqında məlumatlar və İSADN əks oluna bilər.

GARR-da yazının 3 tipi nəzərdən keçirilir: avtoritet, istinad və soraq yazısı. Hər bir tip üçün yazı sahəsi və verilənlərin əsas elementləri müəyyənləşdirilmişdir.

Avtoritet yazı istənilən avtoritet fayl üçün açardır. O, qəbul edilmiş (avtoritet) yazını biblioqrafik müəssisə tərəfindən qəbul olunmuş formada saxlayır. Bundan başqa, avtoritet yazıda istər istifadəçi, istərsə də kataloqlaşdırıcı üçün lazım olan variantlı və ya əlaqəli başlıqlar, informasiya qeydləri verilir.

İstinad yazısı - istinad başlığını əks etdirir ki, bundan da kataloq istifadəçisi üçün müvafiq qəbul olunmuş başlığa (və ya başlıqlara) istinadlar formalaşır. Məsələn, təşkilatın əvvəlki adından (S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti) ən sonrakı adına (Bakı Dövlət Universiteti), ixtisar olunmuş adından (BDU) ixtisar olunmamış adına və s. istinadlar. Variantlı başlıqdan əlavə, istinad yazısı qəbul olunmuş başlığı əks etdirir ki, buna da istinad və «bax» istinad qeydi verilir. İstinad yazısı avtoritet yazıya əlavə olaraq yaradılır. Biblioqrafik yazılarda variantlı başlıqdan istifadə olunmur.

Soraq yazısı - izahedici başlığı əks etdirib, istifadəçinin bir deyil, bütöv bir qrup və ya sinif qəbul edilmiş başlıqlara istiqamətləndirilməsinə xidmət edir. İzahedici başlıqdan əlavə, soraq yazısı istifadəçini axtarışa

istiqamətləndirən başlıq nümunələrinin göstərildiyi ümumi məlumat qeydini əks etdirir. Avtoritet yazılarda izahedici başlıq verilmir və biblioqrafik yazılarda istifadə olunmur.

Yazı tiplərinin təklif olunan modeli, verilənlər elementlərinin yığımı və onların strukturu, həmçinin müxtəlif yazı tipləri arasında qurulmuş əlaqələr bütün avtoritet fayllara tətbiq oluna bilər. Təlimatda göstərilmiş prinsiplər istənilən növ avtoritet siyahı və faylların tətbiqinə istiqamətlənmişdir. İşlənmiş prinsiplər hər şeydən əvvəl milli biblioqrafiya müəssisələri üçün müəyyənləşdirilmişdir. GARR-a uyğun yaradılan yazılar ayrı-ayrı milli və beynəlxalq avtoritet fayllara daxil olunan, eləcə də kataloqlardakı biblioqrafik yazıları dəstəkləyə bilər. Bütün yazılar kataloqlaşdırılan materialın növündən və tipindən asılı olmayaraq yaradılır.

Predmet avtoritet və istinad yazılarının yaradılması və tətbiqi üzrə Təlimat (GSARE)

Predmet rubrika - unifikasiya olunmuş dil ifadəsi olub predmeti təqdim edir və kataloqda və ya göstəricidə sənədlərin məzmununa nəzarət edilən çıxışın təmin olunması üçün istifadə olunur. O, bir (əgər predmeti vahid anlayış və ya adla ifadə etmək lazımdırsa) və ya bir neçə (əgər predmeti bir yazı çərçivəsində bir neçə anlayışla ifadə etmək lazımdırsa) indeksləşdirmə terminindən ibarət ola bilər.

Verilən tərifdə predmet rubrikanın iki vacib aspekti göstərilmişdir: 1) predmet rubrika unifikasiya olunmuş dil ifadəsi kimi; 2) predmet rubrika sənədin məzmununa nəzarət edilən çıxışı təmin edən vasitə kimi.

Sənəddə predmet rubrikanın kateqoriyaları müəyyənləşdirilmişdir:

- şəxs adı
- təşkilat adı
- coğrafi ad
- nəsil adı
- unifikasiya olunmuş sərlövhə
- ad/sərlövhə
- ad/unifikasiya olunmuş sərlövhəni ümumiləşdirən
- mövzunun adı
- sənədin forması, janrı və fiziki xarakteristikası

GARR-da olduğu kimi, predmetləşdirmə və indeksləşdirmə sistemləri üçün verilənlər yığımının hər bir tipinə uyğun olaraq üç yazı tipi müəyyənləşdirilmişdir: avtoritet, istinad və soraq. Hər bir yazı tipi üçün yazı sahəsi və verilənlərin əsas elementləri müəyyən edilmişdir.

Avtoritet yazı - predmet rubrikanın siyahısı üçün açar olub, avtoritet başlığı biblioqrafik müəssisə tərəfindən qəbul edilmiş formada saxlayır. Qəbul edilmiş başlıqdan əlavə, avtoritet yazıda variantlı və ya əlaqəli başlıqlar, istifadəçi və kataloqlaşdırıcı üçün nəzərdə tutulmuş qeydlər ola bilər.

İstinad yazısı - istinad başlığını əks etdirir ki, bundan da kataloq istifadəçisi üçün qəbul edilmiş müvafiq başlığa (və ya başlıqlara) istinadlar formalaşır. Variantlı başlıqdan əlavə, istinad yazısı qəbul edilmiş başlığı əks etdirir ki, buna da istinad olunur və «bax» istinad qeydi verilir. İstinad yazısı avtoritet yazıya əlavə olaraq yaradılır. Biblioqrafik yazılarda variantlı başlıq istifadə olunmur.

Soraq yazısı - izahedici başlığı əks etdirib, istifadəçinin bir deyil, bütöv bir qrup və ya sinif qəbul olunmuş başlıqlara istiqamətlənməsinə xidmət edir. İzahedici başlıqdan əlavə, soraq yazısı ümumi soraq qeydlərini ehtiva edir. Avtoritet yazıya izahedici başlıq daxil edilmir və biblioqrafik yazılarda da istifadə olunmur.

Təklif olunan verilənlər yığımı və onların strukturu həm tezauruslar yazısına, həm də predmed rubrikanın siyahıları yazısına tətbiq oluna bilər. Model avtoritet verilənlərin beynəlxalq mübadiləsini təmin etmək məqsədilə müxtəlif biblioqrafik müəssisələr tərəfindən həm predmet rubrika və deskriptorların çap siyahılarının nəşri, həm də onların on-line rejimində tətbiqi üçün istifadə oluna bilər.

1999-cü ildə İFLA-nın biblioqrafik nəzarət şöbəsi və UBCIM proqramı tərəfindən «Avtoritet yazılara funksional tələblər və onların nömrələnməsi» (FRANAR - Functional Requirements and Numbering of Authority Records) işçi qrupu yaradıldı. İşçi qrupu qarşısında aşağıdakı tələblər qoyulmuşdur:

1. «Biblioqrafik yazılara funksional tələblər» tərəfindən biblioqrafik verilənlər üçün başlanan işi davam etdirərək avtoritet yazılara funksional tələbləri müəyyənləşdirmək.
2. ISADN-ın tətbiqi imkanlarını tədqiq etmək; mümkün tətbiq sahələrini və potensial istifadəçiləri aydınlaşdırmaq; avtoritet verilənlərin hansı tipləri üçün nömrə lazım olduğunu müəyyənləşdirmək; bu nömrənin mümkün strukturunu və verilənlərin idarə olunması üçün zəruri tipi araşdırmaq.
3. Avtoritet verilənlərlə məşğul olan digər maraqlı qruplar (INDECS, ICA/CDS (Təsvir standartları üzrə arxiv komitəsinin beynəlxalq şurası). CERL və s.) arasında İFLA-nın adından rəmsi əlaqələndirici həlqə kimi çıxış etmək və onlarla əməkdaşlıq etmək.

2005-ci ildə işçi qrup qarşısında qoyulan birinci tapşırığın yerinə yetirilməsini ehtiva edən model layihəsi beynəlxalq ictimaiyyətin müzakirəsinə təqdim olundu. «Avtoritet yazılara funksional tələblər» (FRAR - Functional Requirements for Authority Records) adlanan sənəd FRBR modelinin avtoritet verilənlərə tətbiqi üzrə genişlənmiş və detallaşdırılmış variantıdır.

Bu konseptual model avtoritet yazılarda verilənlərin əlaqəsi üçün istifadə olunan istinadların dəqiq strukturunu qeyd etmək və bu strukturu

avtoritet yazıların istifadəçilərinin tələbləri ilə uyğunlaşdırmaq, avtoritet yazıların beynəlxalq səviyyədə - həm kitabxana sektorunda, həm də ondan kənarda birgə istifadəsi imkanlarını qiymətləndirmək məqsədilə işlənib hazırlanmışdı. Avtoritet verilənlərin nömrələnməsi ilə əlaqədar tapşırığa isə ayrıca sənəddə baxılması nəzərdə tutulmuşdu.

Sənədin müzakirəsindən sonra onu FRAD (Functional Requirements for Authority Data) adlandırmaq təklif olundu. 2007-ci ilin aprelində layihənin növbəti redaksiyası geniş ictimaiyyətin müzakirəsinə təqdim edildi.

FRAD modeli

Avtoritet yazılara funksional tələblərin müəyyənləşdirilməsi üçün analoji FRBR metodundan istifadə olunmuşdu - yəni «obyektlər-əlaqələr» konseptual modelinin qurulması, daha dəqiqi, obyektlərin, onların atributlarının müəyyənləşdirilməsi və obyektlər (və ya obyekt qrupları) arasında əlaqələrin tədqiq olunması.

FRAD tədqiqatı tipik kataloqlaşdırma prosesinə tətbiq edilməklə həyata keçirilir. Buraya aşağıdakı əməliyyatlar daxildir:

1.biblioqrafik təsvirin yaradılması
2.axtarışın formalaşdırılması
3.avtoritet yazının yaradılması

FRAD modeli ümumi səviyyədə şəkil 5.10-dakı kimi təyin olunur: biblioqrafik obyektlər - adlar və ya identifikatorlar altında tanınır. Biblioqrafik müəssisələrdə (kitabxanalarda, muzeylərdə, arxivlərdə və s.) həyata keçirilən kataloqlaşdırma prosesində bu adlar və identifikatorlar nəzərət olunan çıxış nöqtələrinin formalaşmasının əsası kimi istifadə olunur.

FRAD modelinin **obyektləri** avtoritet verilənlərin istifadəçiləri üçün xüsusi maraq kəsb edən obyektlərdir. Şəklin yuxarı hissəsində verilən şəxs, soy (ailə), təşkilat, əsər, ifadə, fiziki vahid, konsepsiya/ideya, predmet, hadisə, yer - biblioqrafik obyektlərdir. Qeyd etmək lazımdır ki, real obyekt heç də həmişə biblioqrafik obyektlə üst-üstə düşmür. Real və biblioqrafik obyektlər arasında qarşılıqlı əlaqələrə ayrı-ayrı qaydalar üzrə müxtəlif cür baxıla bilər. Məsələn, kataloqlaşdırma qaydalarının əksəriyyəti təşkilatın adının hər dəfə dəyişilməsi zamanı yeni başlıq formasının qəbul olunmasını tələb edir. Digər tərəfdən predmet rubrikalarının qurulması qaydaları təşkilatın mövcud olduğu bütün dövr üçün vahid ad formasının yaradılmasını tələb edə bilər. Bu halda real təşkilat və biblioqrafik obyekt olan təşkilat üst-üstə düşür.

Biblioqrafik obyektlər kimi tanınan adlar, obyektlərə verilən identifikatorlar və avtoritet faylda qeyd edilən adlar və identifikatorlar əsasında qurulan nəzərət edilən axtarış nöqtələri şəklin aşağı hissəsində verilmişdir.

Ad obyekti biblioqrafik obyektlərin müxtəlif adlarını əks etdirir. Məsələn, «Azərbaycan Respublikası Milli Məclisi» təşkilat biblioqrafik obyekti müxtəlif cür adlandırılır:

AR Milli Məclisi
AR MM
Azərbaycan parlamenti

İdentifikator obyekti birinci qrupda təmsil olunan hər hansı obyektə verilən unikal nömrə, rəqəm, kod və s. olub analoji obyektlər içərisində obyektin differensiasiyasına xidmət edir. Məsələn, bu, nəşrə verilən ISBN nömrəsi ola bilər. Nəzərət olunan çıxış nöqtəsi obyekti - biblioqrafik və ya avtoritet yazının, yaxud istinadın axtarışı üçün istifadə olunan ad, termin, kod və s.-dir.

FRAD modeli avtoritet yazıda əks olunan 4 əlaqə kateqoriyasını müəyyənləşdirir:

1. Obyekt tipləri arasında ümumi səviyyədə funksional əlaqələr.

a) biblioqrafik obyektlər və onların tanındığı adlar arasında əlaqələr;

b) biblioqrafik obyektlər və onlara verilmiş identifikatorlar arasında əlaqələr;

c) bir tərəfdən şəxs, soy, təşkilat, digər tərəfdən isə əsər, ifadə, fiziki vahidlər arasında əlaqələr;

d) bir tərəfdən adlar və identifikatorlar, digər tərəfdən isə bu adlar və identifikatorlar əsasında qurulmuş nəzərət edilən çıxış nöqtələri, onların formasını müəyyənləşdirən qaydalar və nəzərət olunan çıxış nöqtələrini yaradan təşkilatlar arasında əlaqələr.

2) Konkret şəxs, soy, təşkilat, əsər obyektləri arasında əlaqələr. Bu əlaqələr qeydlərdə, avtoritet yazının kodlaşdırılmış informasiyası növündə və ya başlığın iki qəbul olunmuş forması arasında istinadın «həmçinin bax» növündə əks oluna bilər.

3) Bir tərəfdən adlar, digər tərəfdən isə şəxslər, soylar, təşkilatlar, əsərlər arasında əlaqə. Bu kateqoriyanın əlaqələri bir qayda olaraq «bax» istinadları formasında verilir. Bu isə o deməkdir ki, nəzərət olunan çıxış nöqtələrinin həm qəbul olunmuş, həm də variantlı formaları eyni ad əsasında formalaşdırılmışdır.

4) Nəzərət olunan çıxış nöqtələri arasında əlaqələr. Bu əlaqələr nəzərət olunan altsahə və ya sahə əlaqələrinin vasitələrində əks olunur.

ƏDƏBİYYAT:

1. *Масхулия Т. Л., Селиванова Ю. Г. Проблемы создания и ведения национальных авторитетных файлов // Библиотечные компьютерные сети: Россия и Запад. — М., 2003. — Вып. 2.*

2. *Functional Requirements for Authority Data – A Conceptual Model. // Series:*

3. *IFLA Series on Bibliographic Control 34. – : Munchen: K.G. Saur, 2009. – 101 p.*

4. *Ковалева А.М. Авторитетный файл Имя лица /А.М. Ковалева // Библиотечное краеведение в информационном пространстве региона Барнаул, 2008. – С. 172–178.*

5. *Bennett, Rick, Christal Hengel-Dittrich, Edward T. O'Neill, and Barbara Tillett. 2007. "VIAF (Virtual International Authority File): Linking the Deutsche Nationalbibliothek and Library of Congress Name Authority Files."International Cataloging and Bibliographic Control 36,1: 12-19*

6. *Князева, Анна Анатольевна. Автоматический авторитетный контроль [Электронный ресурс]: [доклад на конференции "Корпоративные информационно-библиотечные системы: технологии и инновации" (11; 2013; Санкт-Петербург)] / А.А. Князева, О.С. Колобов. — Электрон. текстовые дан. (1 файл : 229 Кб). — Санкт-Петербург, 2013.*

Authoritative data and functional requirements to them

A.I.Kurbanov

Summary

The article provides information about the importance of authority / regulatory oversight of authoritative data. Analyzed international experience in the field of authority data, as well as functional requirements to them.

Keywords: *Authority / regulatory oversight, authoritative title, authority file, authority file series title, subject authority file, classification authority file, GARE, post links, directory record, FRAD model*

Авторитетных данные и функциональные требования к ним

А.И.Курбанов

Резюме

В статье приводятся сведения о важности авторитетно/ нормативного надзора, об авторитетных данных. Анализируется международный опыт в области создания авторитетных данных, а также функциональные требования к ним.

Ключевые слова: *Авторитет/нормативный надзор, авторитетный заголовок, авторитетный файл, авторитетный файл серийных заголовок, предметный авторитетный файл, классификационный авторитетный файл, GARE, запись ссылки, запись справочника, модель FRAD*

UŞAQ VƏ GƏNCLƏR KITABXANALARININ INFORMASIYALAŞDIRILMASI

E.Y.ƏHMƏDOV
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Məqalədə uşaq və gənclərə xidmət edən kitabxanaların daxili iş proseslərinin təkmilləşdirilməsi, bu prosesdə onların informasiyalaşdırılması, həmçinin rol və əhəmiyyəti təhlil olunur.

Açar sözlər: *Uşaq, gənclər, informasiyalaşdırma, mütaliə, elektron kataloq*

Azərbaycan Respublikasında kitabxana-informasiya sistemlərinin formalaşması cəmiyyət sturukturlarının dinamik inkişafının təmin edilməsinə stimul verir. Bu ilk növbədə müxtəlif tip kitabxanaların daxili iş proseslərinin modernləşdirilməsindən başlayıb əhalinin böyük bir oxucu kontingentinə xidmət edən uşaq və gənclər kitabxanalarında informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq fəaliyyət parametrlərini müəyyən edir. Uşaq və gənclər kitabxanalarının müasir fəaliyyətinin əsas parametrlərindən biri bu tip kitabxanaların informasiyalaşdırılmasıdır. Müasir dövrdə uşaq və gənclər kitabxanalarının metodik mərkəzləri olan F.Köçərli adına Respublika Uşaq Kitabxanası və C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası daxili iş proseslərinin informasiyalaşdırılması məqsədilə müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqinə daha çox üstünlük verirlər.

Müstəqillik illərində uşaqlara kitabxana-informasiya xidmətini daha da yaxşılaşdırmağı, informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivi kitabxana işinin informasiyalaşdırılması və kitabxananın informasiya texnologiyası ilə təmin edilməsi sahəsində müəyyən uğurlar qazanmışdır. Belə ki, kitabxanaya xeyli miqdarda kompüter, elektron məlumat vasitələri, texniki avadanlıq alınmış və bu vasitələrin kitabxana işinə tətbiq edilməsi kitabxana işini qismən də olsa kompüterləşdirmişdir. Hazırda fondunda 209.700 nüsxə ədəbiyyat olan kitabxananın ən böyük nailiyyətlərindən biri uşaqların istifadəsi üçün kompüter zallarının açılması olmuşdur. 2002-ci ildən kitabxanada təşkil edilən "İnternet-sinif" və "Biləyən" multi-media zallarında uşaqlar İnternetdən yararlanaraq istədikləri materialları almaqla yanaşı, CD disklərindən istifadə etməyi də mənimsəmişlər.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Avtomatlaşdırılma və kompüterləşdirilmə şöbəsi 2005-ci ildən fəaliyyət göstərir. 2009-cu ildə şöbənin işçiləri İnformasiya Resurs Mərkəzində təşkil olunmuş kurslarda iştirak etmiş, müəyyən təcrübə qazanmışlar. Əlbəttə, müasir kitabxana işini yeni

informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək bir qədər çətindir. İnformasiya və kommunikasiya texnologiyalarının insan fəaliyyətinin bir sıra sahələrində olduğu kimi kitabxana işində də tətbiqi ənənəvi kitabxana proseslərinin sürətlənməsinə və optimallaşmasına gətirib çıxarır.

Kitabxana işinin avtomatlaşdırılması təcrübəsi dünya ölkələrinə ötən əsrin 60-cı illərindən tanış olsa da, Azərbaycanda bu tip fəaliyyətin həyata keçirilməsi 90-cı illərin sonlarına təsadüf edir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının bir neçə əməkdaşı hələ 2001-ci ildə Amerikanın ölkəmizdəki səfirliyi nəzdində fəaliyyət göstərən Treninq Mərkəzində "Kitabxanalarda avtomatlaşdırılmış idarəetmə sistemləri" ilə bağlı kurslarda iştirak etmiş, bu sahədə müəyyən məlumatları mənimsəmiş, lakin bu işi həyata keçirmək mümkün olmamış və sözügedən fəaliyyətlər nəticəsiz qalmışdı. Bu iş yalnız Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə kitabxanalarda həyata keçirilməyə başlandıqdan sonra bir sıra irəliləyişlərə nail olundu, İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin (AKİS) proqramı alınaraq kitabxanalarda tətbiq olunmağa başlandı.

Məlumdur ki, kitabbxana proseslərinin avtomatlaşdırlıması vahid avtomatlaşdırlımış kitabxana-informasiya sistemi vasitəsilə həyata keçirilməli, kitabxanada tətbiq olunan proqram təminatı bu və ya digər tələblərə cavab verməlidir. Həmin dövrdə isə fəaliyyətlərini avtomatlaşdırmağa cəhd edən bir sıra kitabxanalarımız yalnız katalogizator modulana malik olduqlarından bu işi həmin modul vasitəsilə həyata keçirməklə avtomatlaşma işi sahəsində ilkin addımlarını atdılar. Bir çox xarici dövlətlərdə istifadə olunan İRBİS-64 AKİS-in tam paketi özündə "Kataloqlaşdırma", "Komplektləşdirmə","Kitab verilişi","Oxucu qeydiyyatı","Tammətnli","İnzibatçı" kimi işçi yerlərini, eləcə də veb şlüzü, Z39,50 protokolunu birləşdirir.

Avtomatlaşdırma şöbəsinin inkişaf etməsi və səyi nəticəsində şöbələrarası əlaqələri təmin edən lokal kompüter şəbəkəsi yarandı və avtomatlaşdırılmış inormasiya sisteminin tətbiqi istiqamətində bir sıra vacib işlər görüldü. Hazırda şöbə fondların bütövlükdə elektron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun yaradılması proseslərini müvəffəqiyyətlə həyata keçirir. Belə bir layihəni gerçəkləşdirmək üçün hər bir kitabxana İRBİS-64 AKİS-in proqram təminatına malik olmalıdır. Bir neçə il bundan öncə kitabxanalarda bu işlərin başlanması çətin görünsə də, indi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə regionlarda sürətlə həyata keçirmək üzrədir.

İRBİS-64 AKİS-i əldə etməzdən öncə kitabxanaçılar bu proqramı tam mənimsəməli,ənənəvi kitabxana işini dəqiq bilməlidirlər,çünki proqram məhz ənənəvi kitabxana qaydaları üzərində təkmilləşmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında avtomatlaşdırmanın tətbiqi və əhəmiyyəti bunlardan ibarətdir:

-Ənənəvi kitabxana proseslərinin bir qismi avtomatlaşdırılmış, yeni avtomatlaşdırılmış işçi yerləri vasitəsilə kitabxanaçı əməyi minimuma endirilmişdir;

-Kitabxanaya yeni daxil olan bütün ədəbiyyatın, eləcə də fonddakı ədəbiyyatın bir qisminin retro bazasında elektron kataloqu hazırlanmışdır;

-Elektron kitabxana yaratmaq təşəbbüsləri genişlənmiş, uşaqlar üçün ən maraqlı nağılların elektron variantı hazırlanmışdır;

-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının veb saytı yaradılmış, bütün məlumatlar orada yerləşdirilmişdir. İndi ölkəmizin ən ucqarlarda yerləşən kitabxanaları belə MKS-lərin Mərkəzi Kitabxanasında İnternet xidmətindən istifadə etməklə istər statistik məlumatları, istər metodik vəsaitləri, istərsə də digər müvafiq materialları əldə etmək imkanı qazanmışlar.

Bununla bərabər avtomatlaşdırma və komplektləşdirmə şöbəsi aşağıdakı fəaliyyətləri həyata keçirir:

1.Kitabxanaya daxil olan bütün sənədlərin (kitab, dövri mətbuat, elektron informasiya daşıyıcıları, atlas, xəritə və s.) avtomatlaşdırılmış proqram əsasında işlənərək, fonda daxil edilməsi, o cümlədən retro məlumat bazasında kitabların işlənməsinə nəzarət;

2.Elektron kataloqun və elektron kitabxananın yaradılmasına texniki dəstək;

3.Kitabxananın veb-səhifəsini yeniləşmək və burada elektron kataloqun ümumi istifadəsini təmin etmək;

4.İnternet vasitəsilə elmi forumlar yaratmaq;

5.Kitabxanaya daxil olan elektron informasiya daşıyıcılarını mühafizə etmək və istifadəçilərə çatdırmaq, elektron kitabxanada əks etdirmək;

6.Kitabxananın nəşrlərini çapa hazırlamaq.

Mədəniyyət və Turizm Nazirliyi 2009-cu ili "Kitabxanaların avtomatlaşdırılması ili" elan etmişdi. Bu isə təsadüfi deyildi. Belə ki, ölkə Prezidenti İlham Əliyevin 6 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın icrası ilə əlaqədar olaraq kitabxana şəbəkəsinin informasiyalaşdırılması, elektron kataloqların, elektron kitabxanaların, veb saytlarının yaradılması və İnternetdə yerləşdirilməsi istiqamətində bir sıra səmərəli işlər görülmüşdür. Elə bunun nəticəsidir ki, indi dünyada kitabxanaları əvəz edən çoxlu sayda elektron kitabxanalar da mövcuddur. Sərəncamda "Azərbaycan ədəbiyyatının virtual kitabxana"nın yaradılması vəzifəsi də qayşıya qoyulmuşdur. Həmin sərəncamda latın qrafikası ilə çap edilən kitabların mətnlərinin elektron daşıyıcıları və İnternet vasitələri ilə yayılması qərara alınmışdır. Bu istiqamətdə kitabxanamızda da

müəyyən işlər görülmüşdür. Ayrı-ayrı uşaq yazıçılarının bəzi kitablarının elektron variantı alınaraq veb saytda yerləşdirilmişdir. Bu iş davam etdirilməkdədir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində müvəqqəti iş üsullarından istifadə edəcəkdir. Yəni kompüter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın ötürülməsində yeni metodlardan istifadəsi, qrafik şəkildə informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edəcəkdir.

C.Cabbarlı adına RGK-da oxuculara xidmət sisteminin modernləşdirilməsi məqsədilə yeni informasiya texnologiyasının tətbiqi sahəsində çox işlər görülmüşdür. Kitabxana Soros Fondunun yerli Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu ilə müqavilə bağlamış və 2003-cü ildə "Puşkin kitabxanası" layihəsi əsasında fonda ilə kitab daxil edilmişdir. Ümumiyyətlə, kitabxana Soros Fonduna 2 layihə təqdim etmişdir. 2003-cü ilin sonunda keçirilən müsabiqədə kitabxana yardımçı təşkilat kimi iştirak etmişdir. Kitabxanada qısa müddət ərzində "Soros biblioqrafiya aparatı"nı yenidən tərtib edilmişdir.

Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə çatdırılmasında, cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında kitabxanaların əvəzsiz rolu hamıya bəllidir. Ona görə də kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə əsaslı islahatların aparılması və digər tədbirlərin həyata keçirilməsi baxımından 6 oktyabr 2008-ci ildə qəbul edilmiş "Azərbacan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın böyük əhəmiyyəti vardır.

Dövlət proqramında nəzərdə tutulmuş kitabxanalararası beynəlxalq əlaqələrin qurulması, müasir qabaqcıl texnologiyalardan bəhrələnməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması istiqamətində respublijkanın digər kitabxanaları kimi C.Cabbarlı adına RGK-da müəyyən tədbirlər həyata keçirir. Kitabxananın əməkdaşları Krasnodar vilayətinin Anapa şəhərində keçirilən "Kitabxanalardan gələcəyə", Ukraynanın Sudak şəhərində keçirilən "Krım-2008", "Krım-2009", "Krım-2010",Moskvada keçirilən "LİBKOM-2009", "LİBKOM-2010" və digər beynəlxalq konfrans və kitab sərgilərində mütəmadi iştirak etmişlər. Bu da Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayevin kitabxanalara göstərdiyi dəstək və qayğının bariz nümunəsidir.

Ölkəmizdəki kitabxanaların dünya informasiya məkanına daxil olmasının təminatı, müvafiq dünya standartlarına uyğun olaraq elektron formaya keçirilməsi, elektron kataloqlarının yaradılması və cəmiyyətin inkişafına

birbaşa təsir göstərən elektron mənbələrin sərbəst istifadəsinin təmini məqsədilə "Dövlət Proqramı"na uyğun olaraq 2009-cu il mart ayından C.Cabbarlı adına RGK-da İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) tətbiq edilmişdir. Məlumdur ki, bu sistem İnternet istifadəçilərinin elektron kataloqlara və digər biblioqrafik verilənlər bazasına çıxışının təmini üçün nəzərdə tutulmuşdur.

Respublika Prezidentinin "Azərbaycan dilində latın qrafikası kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il tarixli sərəncamlarına əsəsən nəşr olunan və kitabxananın kolleksiyasına daxil edilən kitabların təsviri elektron kataloqda verilmişdir. Ümumilikdə prezident hədiyyəsi olan 356 adda 1.424 nüsxə ədəbiyyat İnternetdə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir. Və bu istiqamətdə işlər davam etdirilir.

İRBİS-64 AKİS-də elektron kartotekada Azərbaycan dilində 3.068, rus dilində 706, yəni cəmi 5.491 adda dövri mətbuat təsdiq edilmişdir. Elektron kataloqa Azərbaycan dilində 716, rus dilində 736, digər dillərdə 22 retro kitab salınmışdır ki, bunlar da 1.474 adda 5.479 nüsxə ədəbiyyatı əhatə edir. Azərbaycan dilində 203, rus dilində 613, digər dillərdə 43, ümumilikdə 4.718 nüsxə yeni kitab elektron kataloqa salınmışdır ki, bunlar da cəmi 859 adda olmuşdur. Həmin kitabların kartoçkaları çıxarılıb kataloqa düzülmüşdür.

"Oxucu" Avtomatlaşdırlılmış İşçi Yerində 1.201 oxucu elektron kataloqda qeydə alınmışdır.118 oxucuya verilən 366 kitab qeydə alınmışdır.

Yeni kitabkların biblioqrafik siyahı və göstəricisi işçi vəziyyətindədir. Həmçinin yeni kitabların biblioqrafik göstəricisinin elektron formsı demək olar ki, hazır vəziyyətdədir və ənənəvi şəkildə çap olunmaq üçün işlənir. Tezliklə yeni kitabların siyahısı da sayta salınacaqdır.

Elektron kataloqda "Ümummilli lider", "İdman", "Ekologiya", "Neft strategiyası" adlı yeni məlumat bazaları yaradılmışdır. Bu məlumat bazalarında qəzetlər, jurnallar və kitablar öz əksini tapmışdır.

C.Cabbarlı adına RGK-da İRBİS-64 AKİS-in sərlövhə və sərlövhəaltı məlumatlarının Azərbaycan dilinə tərcüməsi üzərində iş davam etdirilir.

Kitabxanada Rusiya Federasiyasının LİBNET Milli İnformasiya Kitabxana Mərkəzinin metodik vasitələrində kitabxana-biblioqrafiyaya aid olan normativ sənədlərdən istifadə edilimişdir.

Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyev 28 dekabr 2006-cı ildə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının təsdiq edilməsinə" dair sərəncam imzalamışdır. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq stendartlara tam uyğunluğunun təmin rdilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçiril-məsi,

dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi və s. bu kimi məsələlər sərəncamda öz əksini tapmışdır. Bu sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək üçün Mədəniyyət və Turizm Naziri əbülfəz Qarayevin təşəbbüsü ilə "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya Komitəsi ilə əldə edilmiş razılığa əsasən Azərbaycanda ilk dəfə olaraq 27 fevral 2008-ci ildə C.Cabbarlı adına Respublika Gənclər Kirabxanasında İctimai Hüquq İnformasiya Mərkəzi (İHİM) yaradılmışdır.

İctimai Hüquq İnformasiya Mərkəzinin yaradılmasında məqsəd bunlardan ibarətdir:

1.Azərbaycan vətəndaşlarının Rusiya Federasiyasının qanunvericiliyi ilə məlumatlandırılmasını təmin etmək;

2.Azərbaycan vətəndaşlarına lazım olan məlumatı tez və operativ çatdırmaq;

3.Rusiya Qanunvericilik toplusundan yararlana bilən 35 məntəqə üçün metodik mərkəz rolunu oynamaq.

İHİM Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında humanitar, hüquqi informasiya münasibətlərinin dostluq müstəvisində cərəyan etdiyinin əyani təzahürüdür. Mərkəzin məhz C.Cabbarlı adına RGK-da yaradılması ölkəmizdə gənclərə və yeniyetmələrə göstərilən qayğı kimi qiymətləndirilə bilər. Bu gün Rusiya Federasiyasında 1.415 bu cür mərkəz fəaliyyət göstərir və onlar Ümumrusiya şəbəkəsində birləşdirilmişdir. İlk mərkəzlər isə 1998-ci ildə yaradılmışdır. Sözü gedən mərkəzlərdə 4.152 kompüter avadanlığı vardır. Əhali mərkəzlərdən Rusiyada yaradılmış 10 hüquqi bazaya daxil ola bilir. Belə təcrübə

ABŞ-da və Avropanın bir sıra qabaqcıl ölkələrində də vardır. Məsələn, Almaniyada 250, fransada 300-dən çox hüquqi mərkəz fəaliyyət göstərir.

Almaniyada bu işin gerçəkləşməsində "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya Komitəsi və onun sədri, Azərbaycanın böyük dostu, professor Yevgeni Kuzminin böyük əməyi olmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin müraciəti əsasında sözü gedən hequqi bazaya "Prezident Kitabxanası", Milli Məclisin Kitabxanası və Nazirlər Kabinetinin Kitabxanası, Konstitusiya, Apellyasiya və Ali Məhkəmələrin kitabxanaları, Ombudsman Aparatının, Ədliyyə Nazirliyi yanında Hüquq-Tədris Mərkəzinin kitabxanaları, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Dövlət İdarəçilik Akademiyasının YUNESKO kafedrası, eləcə də daha 5 idarə və təşkilatın daxil olması barədə "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya Komitəsi ilə razılıq əldə edilmişdir. Beynəlxalq ekspertlər,YUNESKO-nun "İnformasiya hamı üçün" proqramının Rusiya komitəsinin sədri professor Kuzmin və hüquqi informasiyası üzrə 3

ekspertdən obarət işçi qrupu Azərbaycana dəvət edilmişdir. 2007-ci il fevral ayının 26-dan mart ayının 2-nədək treninq keçirilmiş, fevralın 28-də isə İctimai Hüquqi İnformasiya Mərkəzinin açılışı olmuşdur. Açılışda Mədəniyyət və Turizm naziri Ə.Qarayev, Rusiya Kitabxana Assosiasiyasının vitse-prezidenti, professor Y.Kuzmin, Rusiya Federasiyası Federal mühafizə xidmətinin idarə rəisinin müavini V.Yudin, Rusiya federasiyasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri V.İstratov, Azərbaycan respublikasının İnsan hüquqları üzrə müvəkkili, ombudsman E.Süleymanova, BDU-nun kafedra müdiri, professor A.Xələfov, Prezident kitabxanasının direktoru M.Əhmədov, M.F.Axundov adına Milli Kitabxananın direktoru K.Tahirov və başqaları iştirak etmişlər.

Qonaqlar öz çıxışları zamanı yaradılan mərkəzin əhəmiyyətindən geniş söhbət asılmış və bu mərkəzin iki dövlət arasındakı ictimai- hüquqi əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyini vurğulamışlar.

İHİM açıldığı gündən böyük əhali kütləsinin marağına səbəb olmuşdur. Mərkəzin istifadəçiləri arasında müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarının, müxtəlif təhsil ocaqlarının. O cümlədən Bakı Dövlət Universitetinin, İqtisadiyyat Universitetinin, Dillər Universitetinin tələbələri, eləcə də əbliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçiləri, müxtəlif hökümət və qeyri-hökümət təşkilatları əməkdaşları, hüquq məsləhətxanalarının işçiləri və adi oxucu qrupları da vardır. Onlar həm mərkəzdəkui hüquq elmlərindən bəhs edən ədəbiyyatdan tam sərbəst istifadə edə bilir. Həm də onlara təqdim olunan proqramdan yararlanırlar. Müraciət edənlərin sırasında sosial mövzularla maraqlananlar daha çox olmuşdur. belə ki, "AİDS", "Narkomaniya", "Əlillər","Küçə uşaqları", "Təhsil", "Təhsildə korrupsiya" və s. ən çox tələb olunan mövzular sırasındadır.

İctimai Hüquq İnformasiya Mərkəzində əhali və vətəndaşlar Rusiya Federasiyasının Qanunvericilik və Hüquq İnformasiya Bazasına

Virtual daxil olmaq imkanı qazanırlar. Mərkəzin müsbət cəhətlərindən biri də pulsuz xidmət göstərməsidir. Bundan əlavə mərkəz mütəmadi olaraq respublikamızın müxtəlif rayonlarında yaradılan 35 məntəqə ilə əlaqə saxlayır, onların sorğu və problemləri ilə yaxından tanış olur. Mərkəzin qarşısında duran ilkin vəzifə Rusiya Federasiyasının "Qanunvericilik toplusu"nda olan hər bir yeniləşməni kompüterə yükləmək və tələbatçıların istifadəsinə verməkdir. Bu məqsədlə həftədə 2 dəfə proqramın hər bir yeniləşməsi kompüterə yüklənir. Rusiya Federasiyasının Hüquq informasiya Bazasına daxil olan məntəqələrlə əlaqə hazırda yalnız e-mail poçt ünvanı vasitəsilə həyata keçirilir.

25 noyabr 2008-ci ildə İFLA-nın yeni seçilmiş prezidenti Ellen Tisen ictimai Hüquq İnformasiya Mərkəzində qonaq olmuşdur. Mərkəzin əməkdaşları İHİM-in sturukturu, yaranma tarixi, fəaliyyət prinsipləri ilə qonağı tanış etmiş, onu maraqlandıran sualları cavablandırmışdır.

Mərkəz yarandığı gündən C.Cabbarlı adına RGK-nın qarşısında duran ən vacib məsələlərdən biri İHİM-in və burada tətbiq edilən dəyərli proqramların təbliğatıdır. Bu məqsədlə indiyə qədər hərəsi 5 günlük olan 2 treninq təşkil olunmuşdur.

Birinci treninq 20-24 aprel 2009-cu ildə hüquqi qanunvericilik bazası üzrə çalışan mütəxəssislər üçün təşkil olunmuşdu. Treninqdə müxtəlif nazirliklərin, idarə və təşkilatların habelə şəhər və rayon kitabxanalarının mütəxəssisləri iştirak etmişlər. Treninqdə elektron formada hüquqi informasiya mənbələri,"Rusiya Federasiyasının hüquqi-qanunvericilik bazası və qanunlar toplusu", "Hüquqi informasiyanın rəsmi və dövri nəşrləri", "Rusiya İmperiyasının qanunlar toplusu" bazalarından istifadə qaydaları, sözü gedən bazalarda axtarışın həyata keçirilməsi və s. praktik məşğələlər keçirilmişdir. Treninqin ikinci günündə Mədəniyyət və Turizm Nazirliyi Kitabxana işi sektorunun müdiri Lətifə Məmmədova kitabxana işi sahəsində qəbul olunmuş dövlət proqramı haqqında məruzə ilə çıxış etmişdir. Bundan əlavə treninqdə İRBİS-64 proqramı, onun işləmə prinsipləri, Azərbaycan kitabxana saytlarında axtarış sistemlərinə ir dəyərli məlumatlar verilmişdir. Treninqin iştirakçıları proqramla iş prosesində üzləşdikləri problemlər barədə rusiyalı mütəxəssislərdən dəyərli məsləhətlər almışlar. Treninqin yekununda iştirakçılara sertifikat və qanunvericilik bazasını yükləmək üçün disklər verilmişdir.

İkinci treninq isə Azərbaycan respublikası prezidentinin 6 oktyabr 2008-ci il tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın iclası ilə əlaqədar 22-26 fevral 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən şəhər və rayon kitabxanalarında çalışan mütəxəssislər üçün keçirilmişdir. Treninqə Mədəniyyət və turizm naziri Əbülfəz Qarayevin dəstəyi ilə Rusiya Federasiyasından Beynəlxalq EBNİT Assosiasiyasının vitse-prezidenti Kiril Sokolinski dəvət olunmuşdu. Treninqə Mədəniyyət və Turizm Nazirliyi kitabxana işi sektorunun müdiri Lətifə Məmmədova rəhbərlik etmişdir. Treninqdə Veb İRBİS-in əsas funksiyaları, Apache proqramının quraşdırılması, elektron kataloq və elektron resurslarının İnternet beynəlxalq şəbəkəyə çıxarılması, biblioqrafik bazalarının yaradılması, Z39, 50 Şlüzünün tətbiqi və s. məsələləri tədris edilmişdir.

Treninqdə Rusiya Federasiyasının Beynəlxalq EBNİT Assosiasiyasının vitse-prezidenti Kiril Sokolinskidən başqa Mədəniyyət və Turizm Nazirliyi Kitabxana işi sektorunun əməkdaşı Samir Abbasov və C.Cabbarlı adına RGK-nın əməkdaşı Günay Həsənova da məruzəçi kimi çıxış etmişlər. Treninqdə şəhər və rayon kitabxanalarından 60-a yaxın kitabxana əməkdaşları iştirak

edirdi. Birinci treninqdə olduğu kimi bu treninqdə də bütün iştirakçılar sertifikatlarla təltif olunmuşdur.

İctimai Hüquq İnformasiya Mərkəzi birbaşa olaraq hüquqi orqanlarla əlaqəli fəaliyyət göstərdiyi üçün biz öz iş sturukturumuzda hüquqi orqanlar ilə əməkdaşlığa xüsusi diqqət yetiririk. Belə ki, mərkəzimiz fəaliyyət dövründə "Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın profilaktikası və uşaq hüquqlarının müdafiəsi" mövzusunda elmi-praktik konfrans, "Müasir yeniyetmələr, gənclər arasında cinayətkarlıq və narkomaniya" mövzusunda dəyirmi masalar və s. keçirilmişdir.

Bu tədbirlər Azərbaycan Respublikası Baş Prokurorluğunun, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin yetkinlik yaşına çatmayanlar işi üzrə şöbənin əməkdaşları, Uşaq Hüquqları üzrə Azərbaycan Alyansı QHT-nin mümayəndələri ilə birlikdə həyata keçirilir.

C.Cabbarlı adına RGK müxtəlif sahələrə dair ədəbiyyatın təbliği məqsədi ilə kütləvi tədbirləri əyani və şifahi formalarından istifadə etməklə hər ay müxtəlif mövzuları əhatə edən kitab sərgiləri. Foto-stendlər. dəyirmi masalar, sual-cavab gecələri, görüşlər. elmi-praktik konfranslar, təqdimat mərasimləri, disputlar keçirir. "Vətəni biz şəhidlikdən uca tutduq", "Soyqırım, milli genosid", "Unudulmaz milli lider", "Ekoloji saflıq-sağlamlıq", "Böyük qayıdış, milli qurtuluş", "Heydər Əliyev irsi və dövlətçilik işi","Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir", "Narkomaniya, müasir yeniyetmələr, uşaq hüquqları", "Xocalı faciəsi-əfsanəvi reallıq", "ABŞ Konqresinin nümayəndələr palatasının xarici əlaqələr komitəsində qəbul edilən qondarma erməni soyqırımına qarşı etiraz", "Müasir yeniyetmələr, gənclər arasında cinayətkarlıqlar, narkomaniya" başlıqlar altında sual-cavab gecələri. Dəyirmi masalar, disputlar, elmi-praktik konfranslar kemirilmişdir.

Hazırda C.Cabbarlı adına RGK-nın maddi-texniki bazasına 21 kompüter, 2 faks aparatı, 4 sürətçıxarma aparatı, 1 rəngli sürətçıxarma printer aparatı, 1 proyektor, 6 printer, 1 dəst səsgücləndirici aparat, 1 kağızkəsən avadanlıq, 1 CUKLOS kağızkəsən, 1 laminator, 1 stepler skrebba, 1 notebook, 1 metal prujin ilə cildləmə avadanlığı və digər avadanlıqlar daxildir.

Kitabxana hər il oxucu marağını nəzərə alaraq müxtəlif qəzet və jurnallara abunə yazılır. Məsələn, təkcə 2010-cu ildə 17 adda qəzetə, 6 adda jurnala abunə yazılmışıq. Bu qəzet və jurnallar gündəlik olaraq nəzərdən keçirilir, biblioqrafik məlumatlar İRBİS-64 AKİS-ə salınır.

Bu gün kompüter dünyada milyonlarla insanın həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Kompüterləşmə bütün bəşəriyyətin böyük nailiyyətinə çevrilmişdir. Məhz bu təzahür elmi-texniki tərəqqinin müasir mərhələsinin əsasını qoymuşdur. Təxmini hesablamalara görə, yaxın gələcəkdə fərdi kompüterlərin dörddə biri (250 milyon ədəd) kompüter şəbəkəsi ilə əhatə olunacaqdır. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin

2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın icrasını təmin etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitabxanaların informasiyalaşdırılması işi böyük vüsətlə ölkəmizin bütün şəhər və rayon kitabxanalarını əhatə edir. Müasir dövrdə bir kitabxana belə tapmaq mümkün deyil ki, orada kompüterləşmə prosesinə start verilməsin. Kompüter şəbəkəsi, veb sayt, elektron poçt ünvanı müasir kitabxanalarımızın fəaliyyətinin ayrılmaz hissəsidir.

Uşaq və gənclərə xidmət edən kitabxanaların informasiyalaşdırılması hər iki tip kitabxananın müasir dövrdə fəaliyyətinin tənzimlənməsinə əsaslı təsir edir. Məlumdur ki, bu cür yanaşma informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun bir prosesdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının müxtəlif tip kitabxanalarının informasiyalaşdırılması dövrün tələblərinə uyğun olaraq oxucuları operativ və dolğun informasiya xidmətinin təşkili məqsədini daşıyır.

Informatization children and youth libraries

E.Y.Akhmedov

Summary

Internal work processes, their role and importance of libraries that serve children and young people in this process informatsionalizatsii, analysis is also improvement in the article.

Keywords: *Children, youth, information, reading, e-catalog*

Информатизация детских и юнищиских библиотек

Е.Й.Ахмедов

Резюме

В статье детей и молодежи, служащие внутренних процессов информатизации, а также роль в этом процессе усовершенствования работы библиотек, их значение и анализируется.

Ключевые слова: *дети, молодежь, информация, чтение, электронный каталог*

REDAKTƏNİN AKTUAL PROBLEMLƏRİ: *MÜASİR XÜSUSİYYƏTLƏR, MƏQSƏD VƏ VƏZİFƏLƏR, TEXNOLOJİ TƏLƏBLƏR*

Knyaz ASLAN
Bakı Dövlət Universiteti
Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
knyazaslan@mail.ru

Bu məqalədə belə bir fakt müəyyənləşdirilir ki, redaktorun maraqlı və şərəfli işi əhəmiyyətli bilik və davamlı təkmilləşmə tələb edən mürəkkəb və məsuliyyətli işdir. Burada redaktə işi yaradıcı fəaliyyət növü kimi təqdim edilmişdir. Eyni zamanda məqalədə redaktor işinin məqsəd və vəzifələri; redaktora lazım olan bilik və bacarıqlar; redaktor fəaliyyətinin əsas prinsipləri haqqında zəruri məlumat verilmişdir.

Açar sözlər: *redaktor, redaktə, nəşriyyat, nəşr, ədəbiyyat.*

Son zamanlar cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında baş verən köklü yeniləşmələr bütün istiqamətlərdə dəyişikliklər aparılmasını tələb edir. Xüsusilə cəmiyyətin daha da demokratikləşdirilməsi fonunda insan həyatına birbaşa nüfuz və təsir dairəsi geniş olan kütləvi informasiya vasitələrinin (KİV-in) yeni mərhələyə qədəm qoyması, yeni informasiya vasitələrinin və media növlərinin meydana gəlməsi, bununla yanaşı, cəmiyyətdə informasiyaya tələbatın artması bu məsələlərə daha məsuliyyətlə yanaşılmasını tələb edir. Ona görə də hər gün çoxsaylı tələbatçılara – istifadəçilərə, oxuculara, dinləyicilərə və tamaşaçılara təqdim olunan informasiya kütləsi xüsusi peşə və ixtisas sahələrinin mütəxəssisləri tərəfindən nizama salınmalı, yazıldığı dilin üslubiyyatına uyğunlaşdırılmalı, qrammatik qayda-qanunlara tabe edilməli, aydın və səlis şəkildə çatdırılmalıdır.

Müasir dövrdə həm çap, həm də elektron informasiya vasitələrinin sayının çoxalması, bununla yanaşı, ad baxımından çap nəşrlərinin miqdarının artması, lakin tirajının azalması, təəssüf ki, bu sahədə müəyyən işlərin tələsik görülməsinə gətirib çıxarır. Bu da nəticə etibarilə nəşrlərin həm bədii-texniki tərtibatı, həm də ümumi redaktəsi baxımından bir sıra təhriflərin, nöqsanların, anlaşılmazlıqların meydana çıxmasına səbəb olur.

Redaktənin əsaslarının öyrənilməsinin məqsədi bu vacib məsələlərin həlli istiqamətində aparılan işləri elmi təhlil yolu ilə, ümumiləşdirmələrin aparılması əsasında diqqətə çatdırmaqdan, ənənəvi üsullardan istifadə etməklə

redaktor sənətinin incəliklərini əhatə etməkdən ibarətdir. Burada redaktənin nəzəri məsələlərinin təcrübi fəaliyyət sahəsi ilə uzlaşdırılaraq vəhdət şəklində izah olunması zərurəti meydana çıxır. Belə ki, redaktəetmə bütövlükdə nəzəriyyə ilə təcrübənin qovuşuğundan yaranıb inkişaf edən mühüm bir yaradıcı fəaliyyət sahəsidir. İstər mətbu orqanların, istər kitabların, istər elektron nəşrlərin redaktəsi, istərsə də elmin, istehsalatın, mədəniyyətin, ədəbiyyatın və incəsənətin müxtəlif sahələrinə dair hazırlanıb geniş oxucu kütləsinə təqdim olunan digər çap məhsullarının redaktəsi müntəzəm diqqət tələb edən bir sahədir. Redaktə prosesində redaktorun və müəllifin (yaxud müəlliflərin) funksiyalarının nəzərətdə saxlanılması, çap əsərinin əlyazmadan kitaba qədər keçdiyi yolun izlənilməsi və idarə olunması, mətbəə-nəşriyyat sistemində texnoloji prosesin qarşılıqlı əlaqəsi zamanı meydana çıxan problemlər və s. redaktənin vəzifələri sırasında izah olunur.

Bu baxımdan redaktənin əsaslarının öyrənilməsi və öyrədilməsi cəmiyyətdə aparıcı rol oynayan KİV-in, eləcə də müxtəlif sahələrə dair kitabların geniş auditoriyaya çatdırılmasını, fakt və məlumatların daha səhih və dəqiq yoxlanılmasını gündəmə gətirir. Eyni zamanda bu sahədə ixtisaslaşan mütəxəssislərin öz sənətlərinin incəliklərinə daha məsuliyyətlə yiyələnməsi, bir sözlə, cəmiyyətə ünvanlanan əsərlərin sözün tam mənasında anlaşıqlı, oxunaqlı, dəqiq və düzgün olmasını təmin etməsi ən mühüm vəzifələr sırasındadır.

Redaktənin əsaslarının obyekti və predmeti bizi əhatə edən, gündəlik fəaliyyətimizi istiqamətləndirən çoxsahəli KİV sisteminin fəaliyyəti ilə müəyyənləşdirilir. Belə ki, insan peşəsindən, sənətindən, ixtisasından, vəzifəsindən və digər demoqrafik əlamətlərdən asılı olmayaraq istəsə də, istəməsə də həmişə KİV-in və dolayısı ilə redaktə prosesinin təsir dairəsindədir. Ona görə də redaktəetmə hər bir ziyalı şəxs üçün zəruri və vacibdir.

Bəs redaktor peşəsi və ya redaktor sənəti nə deməkdir? Başqa sözlə, redaktorluq peşədir, yoxsa sənətdir? Redaktor kimdir? Redaktə nə deməkdir? Redaktorun başlıca məqsədi, mühüm vəzifələri nədən ibarətdir? Redaktə texnologiyası dedikdə nə başa düşülür?

Bu suallara qısaca cavab verməyə çalışaq.

Çoxcəhətli anlayış olan "redaktə" termini latın dilindəki "redaktus" ("redactus") sözündən alınmışdır, azərbaycanca mənası "nizama salınmış", "qaydaya salınmış", "sahmana salınmış" ("sahmanlanmış"), "sıraya düzülmüş" deməkdir. Redaktə müəllifin əlyazma əsərinin (müəllif orijinalının), eləcə də audio və videomaterialların nəşrə (çapa, yayıma) hazırlıq mərhələsidir.

Moskvada nəşr olunmuş "Книговедение" ("Kniqovedenie" – "Kitabşünaslıq") adlı ensiklopediya lüğətində "Redaktə" termini belə izah olunur:

1) Peşəkar yaradıcılıq fəaliyyətinin növü kimi (redaksiya-nəşriyyat işi, televiziya, radio və kinematoqrafiya məkanında) çap əsərlərinin, teleradio verilişlərinin, kinofilmlərin hazırlanması);

2) Nəşr prosesinin əsas hissəsi kimi, redaktorun hər hansı bir əsərin əlyazması üzərində ideoloji, siyasi, elmi, bədii baxımdan və poliqrafik cəhətdən təkmilləşdirilməsi istiqamətində apardığı yaradıcılıq işi (adətən müəlliflə birgə);

3) Müəyyən bir şəxs tərəfindən yazılmış və ya hazırlanmış hər hansı bir sənədin məzmun və forma baxımından ümumi və xüsusi qaydada qəbul edilmiş tələb və normalara uyğun olaraq sahmana salınması" [9, 437].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə isə yazılır: "Redaktə – mətni yoxlayıb düzəltmək, sonuncu dəfə işləyib hazırlamaq" [1].

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununun "Əsas anlayışlar" adlı 1-ci maddəsində "Redaktə" terminini mənası belə ifadə edilir: "Redaktə – nəşriyyat (naşir) tərəfindən müəllifə (müəlliflərə və tərtibçilərə) verilmiş sifariş əsasında, yaxud müəlliflərin özünün təqdimatı ilə nəşriyyata daxil olmuş əsərin müəllifin razılığı ilə elmi, ədəbi, texniki və bədii cəhətdən təkmilləşdirilməsi, ixtisar, dəyişiklik, əlavə və düzəlişlər etməklə nəşrə hazırlanması" [3].

Mətn materialları haqqında danışarkən "redaktə" anlamında əsərin müəllif orijinalının təkmilləşdirilməsi, məntiqi, faktik, üslub və başqa səhvlərin düzəldilməsi prosesi başa düşülür.

Redaktənin məqsədi mətnin çatışmazlıqlarının aradan qaldırılması və onun mətnin özünə maksimal dərəcədə uyğunluğu formasına – "mükəmməl" şəklə gətirilməsidir. Başqa sözlə, redaktə zamanı mətn müəllifin ifadə etmək istədiyi mətləbi ən yaxşı üsulla oxucuya çatdıra biləcək formaya gətirilməlidir.

Bəs redaktor kimdir? Bu suala belə cavab vermək olar:

1) Redaktor redaksiyada redaktə prosesini həyata keçirən əməkdaşdır;

2) Redaktor müəyyən bir nəşrə (kitab, jurnal, qəzet və s.) rəhbərlik edən, onun məzmununu və istiqamətini müəyyən edən mütəxəssisdir;

3) Redaktor mətni çap üçün işləyib hazırlayan və ya nəşri tərtib edən şəxsdir.

"Azərbaycan Sovet Ensiklopediyası"nın VIII cildində (1984) "Redaktor" termininin izahı bu cür verilir: "1) elmi, ədəbi, bədii və s. materialı redaktə edib çapa hazırlayan şəxs; 2) hər hansı bir əsərin nəşrinə, əsərlər külliyyatının toplanıb çapa hazırlanmasına rəhbərlik edən şəxs; 3) dövri mətbuatın (qəzet, jurnal və s.) məzmun və buraxılışına məsul şəxs" [2, 96].

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda "Redaktor" anlayışı bu cür izah olunur: "Redaktor – nəşriyyatlarda çalışan, yaxud müqavilə əsasında kənardan cəlb olunan, nəşriyyat əlyazmasının

mətnini elmi, ədəbi, texniki və bədii cəhətdən işləyib nəşrə hazırlayan aparıcı mütəxəssis" [3].

"Redaktor" anlayışının bundan başqa da bir çox təyinini tapmaq olar, amma burada göstərilən iki əsas xüsusiyyət qalan bütün xüsusiyyətləri özündə əks etdirir və redaktor-rəhbərlə (məsələn, həftəliyin baş redaktoru) bilavasitə mətnlə, illüstrasiyalarla və s. işləyən redaktor-mütəxəssis arasında prinsipial fərqi göstərir. Belə ki, redaktor-rəhbərin vəzifələrinə strateji məsələlərin həlli, yəni nəşrin siyasətinin müəyyənləşdirilməsi, ümumi rəhbərlik daxildir. Redaktor-mütəxəssisin vəzifəsi isə konkret materiallarla işləmək, onları təkmilləşdirməkdən ibarətdir.

Redaktor-rəhbərin vəzifələri strateji məsələlərin (nəşrin siyasətinin müəyyənləşdirilməsi, ümumi rəhbərlik) həllini əhatə edir. Redaktor-mütəxəssisin vəzifəsi konkret materiallarla işləmək və onları təkmilləşdirməkdir. Redaktor-mütəxəssis nəşri praktik olaraq çap üçün hazırlayan mütəxəssisdir, peşəkardır. Onun bilik və bacarıqları ilkin halda qeyri-mükəmməl olan materialı cilalamağa, yenidən işləyib hazırlamağa, daha da yaxşılaşdırmağa imkan verir. Bununla da o, həm müəllifə köməklik göstərir, həm də nəşrin gələcək oxucusunun qayğısına qalır.

Qısaca desək, biz "redaktor" anlayışı altında praktik olaraq nəşri çap üçün hazırlayan peşəkar mütəxəssisi nəzərdə tuturuq. Əlyazmanın müəllifinə kömək edən və onun gələcək oxucusunun qayğısına qalan həmin mütəxəssis, yəni redaktor öz biliyi və bacarıqları sayəsində qeyri-mükəmməl materialı cilalayır, yenidən işləyib hazırlayır, daha da yaxşılaşdırır.

Belə demək mümkündür ki, yazı yazan hər bir kəs müəyyən mənada özü özünün redaktorudur. Çünki müəllif üçün ən birinci və ən ciddi tənqidçi elə müəllifin özü olmalıdır – müvəffəqiyyətin sirri (rəhni) də elə bundadır!.. Əgər özünütənqid və özünüredaktə müəllif üçün hər hansı bir əsərin yaradılması mərhələsində normaya və qaydaya çevrilərsə, əgər müəllif öz mətnlərinin üstünlüklərini və çatışmazlıqlarını görməyi bacararsa və bu mətnləri daha yaxşı düzəltməyi öyrənərsə, yaradıcılıq sahəsində onun uğur qazanmaq imkanları (şansları) daha əhəmiyyətli dərəcədə artacaqdır.

Redaktor fəaliyyətində ixtisaslaşma da mühüm rol oynayır.

Aydındır ki, ya mətn, ya əyani material (illüstrasiya), ya da nəşrin texniki tərtibatı redaktənin obyekti ola bilər. Nəşrin müxtəlif cəhətləri ilə işlər ayrı-ayrı mütəxəssislərin diqqətini tələb edir. Bu baxımdan redaktor ixtisaslaşmasının bir neçə əsas tipi mövcuddur: 1) Ədəbi redaktor; 2) Elmi redaktor; 3) Bədii redaktor; 4) Texniki redaktor.

1) Ədəbi redaktor – ədəbi redaktəni həyata keçirən nəşriyyat redaktoru və ya ştatdankənar redaktordur. Mətnlərin redaktəsi haqqında danışarkən, adətən məhz ədəbi redaktə nəzərdə tutulur. Redaktor təcrübəsinin göstərdiyi kimi, çoxsaylı müəlliflərin mətnlərinin əksəriyyətinin ədəbi redaktəyə ehtiyacı

olur. Mətnin keyfiyyəti üçün bütün məsuliyyət məhz ədəbi redaktorun üzərinə düşür.

2) Elmi redaktor – elmi redaktəni həyata keçirən nəşriyyat redaktoru və ya ştatdankənar redaktordur. Elmi redaktəyə həmişə ehtiyac olmur: bir qayda olaraq, nəşr üçün cavabdah olan redaktorun erudisiyası və biliklərinin ümumi səviyyəsi mətndə faktiki səhvlər buraxmamaq və ona yol verməmək üçün kifayətdir. Əlbəttə, əgər söhbət darixtisaslı mətnlər haqqında getmirsə. Elmi redaktor o vaxt lazımdır ki, material mürəkkəbdir və xüsusi olaraq hazırlanmış oxucu üçün nəzərdə tutulmuşdur. Buna görə də həmin mətn bu baxımdan ekspertin diqqətini və qiymətləndirməsini tələb edir. Elmi ədəbiyyat üzrə ixtisaslaşdırılan nəşriyyatlar (məsələn, "Elm" nəşriyyatı) müxtəlif bilik sahələrində elmi redaktorlar ştatına malik olur. Adi nəşriyyatlar ehtiyac olduğu halda elmi redaktor dəvət edir.

3) Bədii redaktor – bədii redaktəni həyata keçirən nəşriyyat redaktorudur.

4) Texniki redaktor – texniki redaktəni yerinə yetirən redaktordur.

Redaktora ən müxtəlif mətn materialı üzərində işləmək lazım gəlir. Haqqında söhbət gedən tələblər və iş metodları universaldır və kütləvi auditoriya üçün, orta oxucu kütləsi üçün nəzərdə tutulmuş mətnlərin əksəriyyəti üçün əhəmiyyətlidir.

Redaktorluq olduqca mürəkkəb, məsuliyyətli, ciddi biliklər və fasiləsiz özünütəkmilləşdirmə tələb edən işdir. Eyni zamanda redaktorluq çox maraqlı və şərəfli bir sahədir.

Redaktor əlyazmanın kitaba çevrilməsi prosesini, çağdaş poliqrafiya texnikası və texnologiyasının əsaslarını, çap məhsullarının bədii və texniki tərtibat prinsiplərini bütünlüklə bilməlidir. O, yalnız bu halda bütün redaksiya-nəşriyyat proseslərinin daha səmərəli qurulmasına, yeni texnikanın tətbiqinə, nəşrin buraxılması müddətlərinin qısaldılmasına, çap məhsulları istehsalının maya dəyərinin azaldılmasına, ümumi nəşriyyat mədəniyyətinin yüksəldilmə-sinə yardımçı ola bilər. Yalnız dərin savadı olan, ədəbi dil normalarını gözəl bilən və dilin inkişaf meyllərini duyan, öz əsərini daha parlaq, daha oxunaqlı etməkdə müəllifə kömək göstərmək üçün dilin bütün vasitələrindən istifadə etməyi bacaran mütəxəssis redaktə işini uğurla apara bilər.

Redaktə işinin praktikası tematik planlaşdırmaya rəhbərliyi, müəlliflərin seçilməsini, əlyazmanın nəşriyyata təhvilinə qədər və sonrakı müddətlərdə müəlliflə iş aparılmasını, əlyazmaların qiymətləndirilməsini və rəydən keçirilməsini, əlyazma üzərində düzəlişlər aparılmasını, nəşriyyat korrekturaları üzərindəki işləri, kitabın soraq aparatının hazırlanmasını və s. işləri əhatə edir [4, 99].

Elmi-bədii və praktik fəaliyyətində redaktor göstərdiyimiz bilik və bacarıqlara malik olmalıdır:

1) Ölkədə və dünyada nəşriyyat işinin, kitab nəşrinin ideya və təşkilati prinsiplərinin, ayrı-ayrı insanların və cəmiyyətin həyatında kitabın aparıcı rolunun redaktə baxımından öyrənilməsi;

2) Nəşr olunacaq ədəbi əsərlərin obyektiv səciyyələndirilməsi və qiymətləndirilməsi metodu olan redaktor təhlilinin öyrənilməsi, eləcə də çapa hazırlığın gedişində əlyazmanı təkmilləşdirmə yollarının müəyyənləşdirilməsi;

3) Redaktə metodikasının, redaktor təhlilinin gedişində formalaşdırılmış tövsiyələrin yerinə yetirilməsi üsul və vasitələrinin öyrənilməsi;

4) Nəşriyyat mədəniyyəti vasitəsi və göstəricisi olan kitab aparatına dair məlumatın hazırlanıb redaktə olunmasının öyrənilməsi;

5) Əlyazmaların və korrektura üzlərinin (nüsxələrinin) redaksiya-texniki işlənməsinin metodika və texnikasının öyrənilməsi;

6) Korrektura işində qəbul olunmuş standart işarələrdən düzgün istifadə etmək bacarığı;

7) Kitabın nəşri və oxucuya çatdırılması, mütaliəsi və doğurduğu təsiri, rəy və münasibətlərin redaktor tərəfindən araşdırılaraq gələcək nəşrlərdə nəzərə alınmasının öyrənilməsi [5, 19].

Redaktorun işi orfoqrafiya, punktuasiyalar, stilistikalar, janrların nəzəriyyələri sahəsində xüsusi biliklər tələb edən işdir. Redaktorun mətn üzərində işinin mərhələlərini təxminən belə qruplaşdırmaq olar:

– Materialın məzmununun redaksiya tapşırığına uyğunluğunun qiymətləndirilməsi;

– Mətnin janrının və həcminin müəyyənləşdirilməsi

– Başlığın qiymətləndirilməsi (yerinə düşməsi, orijinallığı, cazibədarlığı);

– Mətnin (informasiya tamlığı, etibarlılıq, orijinallıq) informasiya dəyərinin qiymətləndirilməsi

– Üslub uyğunluğunun yoxlanılması (publisistik üsluba uyğun olmayan sözlərin və ifadələrin ixtisarı);

– Başlıqların, adların, tarixlərin, abreviaturaların yazılışının yoxlanılması;

– Leksik uyğunluğun yoxlanılması;

– Sintaksisin redaktə olunması (mətndə ağırlaşdırıcı sözlər və əksinə, sadələşdirilmiş birtipli konstruksiyalar olmamalıdır);

– Təkrarların (işarə və şəxs əvəzliklərinin, bağlayıcıların, xüsusi isimlərin) mövcudluğunun yoxlanılması;

– İfadəli vasitələrdən istifadənin yerli-yerində olub-olmamasının yoxlanılması;

– Korrektor düzəlişi.

Müasir redaktor nəşriyyat işi və redaktə sahəsində mütəxəssis olmalıdır. Redaktor öz fəaliyyətində redaksiya-nəşriyyat prosesinin xüsusiyyətləri ilə şərtlənən, müəyyən prinsiplərin, metodların və üsulların daxil olduğu yanaşmalardan istifadə edir. Redaktorun müvəffəqiyyətli işinin vacib şərti onun öz funksiyalarını dərk etməsi, bu fəaliyyəti yaradıcı və sərbəst şəkildə həyata keçirməsi, eləcə də redaktənin mahiyyətinin, strukturunun və mexanizminin biliyə əsaslanması ilə bağlıdır.

Redaktorun fəaliyyətinin metodologiyası ilkin şərtlərin yaradılmasını, nəşrin hazırlanması, buraxılışı və yayılması məqsədilə lazım olan əməliyyatlar və proseslər üçün şəraitin və ardıcıllığın qurulmasını nəzərdə tutur.

Redaktordan müəyyən əməliyyatlarda və fəaliyyətlərdə şəxsən iştirak etmək və təşkilatı-idarəetmə funksiyalarını icra etmək, həmçinin bütün onun səlahiyyətlərində olan redaksiya-nəşriyyat prosesinə ixtisaslaşdırılmış nəzarət tələb olunur. Beləliklə, redaktorun əməyi bütün redaksiya-nəşriyyat prosesinin mərkəzi halqasını təşkil edir.

Toplu halda redaktorun fəaliyyətinin təşkil edən yaradıcılıq və praktik işlər və əməliyyatlar qarşılıqlı olaraq şərtləşdirilmişdir və məqsədəuyğun şəkildə bir-birinə bağlıdır, bu da onun sistemli xarakterini göstərir. Sistemlik redaktor fəaliyyətinin ən əhəmiyyətli metodoloji prinsipinə aiddir. Redaktorun əməyinin son məhsulu kimi baxılan kitab redaktor fəaliyyətinin sistem təşkil edən amillərinə aid edilir. Kitab bu fəaliyyətin tərkibini, strukturunu, məzmununu, yerinə yetirilən əməliyyatların və işlərin məcmusunu, onların ardıcıllığını, həmçinin tətbiq edilən forma, metod və vasitələri müəyyənləşdirir. Redaktor fəaliyyətinin hədəfi həmişə konkretdir. O, oxucuların ehtiyacına və tələbatına uyğun gələn kitabın yaradılması, buraxılışı və yayılmasından ibarətdir. Bu buxımdan kitaba obyektiv zərurət mövqeyindən, yəni ictimai və ya subyektiv şəxsi ehtiyaclar mövqeyindən baxıla bilər.

Birinci halda söhbət elə kitab haqqında gedə bilər ki, o, hər şeydən əvvəl cəmiyyətin maraqları ilə şərtləşən sosial cəhətdən əhəmiyyətli məsələlərin həlli üçün tələb olunur (məsələn, tədris kitabı haqqında). İkinci halda isə oxucuların şəxsi maraqlarına uyğun olaraq onların müxtəlif kateqoriyalarına lazım gələn kitab haqqında gedə bilər.

Redaktor fəaliyyətinin hədəfinin daha bir tərəfi isə iqtisadi tərəfdir. Burada məsələ ondan ibarətdir ki, gəlirli kitabı nəşr etmək və onun reallaşdırılmasından qazanc götürmək tələb olunur. Kitabın gəlirliliyinin artımına ilk növbədə o, redaktor tərəfindən hazırlanarkən və tirajı müəyyənləşdirilərkən iqtisadi göstəricilərin ixtisaslaşdırılmış uçotu uyğun gəlməlidir. Əsas effekt, o cümlədən iqtisadi effekt, məsələn, elmi, tədris, soraq, elmi-kütləvi, informasiya xarakterli bir sıra nəşrlərdənbiliklərin, cəmiyyətin inkişafına imkan yaradan elm, texnika və mədəniyyətin

nailiyyətləri haqqında informasiyaların yayılmasından ibarətdir. Ancaq müasir iqtisadi şəraitdə redaktor onunla hesablaşmağa məcburdur ki, nəşriyyat işi biznesdir və kitabları mütləq alıcılara yönəltmək lazımdır. Ona görə də redaktorun fəaliyyətinin iqtisadi tərəfi haqqında danışarkən kommersiya (ticarət) aspektini hökmən nəzərdə tutmaq lazımdır.

Kitab nəşrinin kommersiyalaşması redaktor fəaliyyətinin metodologiyasına təsir edən mühüm amildir. Redaktor belə bir suala cavab verməyə həmişə hazır olmalıdır: Oxucuya hansı kitab lazımdır, daha dəqiq desək, oxucu hansı kitabı almaq imkanına malikdir?

Kitab üzərində işləyərkən redaktor əmtəə kimi kitab haqqında yaranmış təsəvvürə məhəl qoymaya bilmir. Ancaq o bilməlidir ki, kitabda mənəvi və maddi uyğunluğu necə təmin etmək lazımdır.

Bütovlükdə və ümumən müasir redaktorun fəaliyyəti onunla fərqlənir ki, o, yaradıcı, layihə-konstruktorçu, proqramlaşdırıcı xarakterə malikdir. Müasir redaktor cəmiyyətə və oxucuların konkret kateqoriyalarına lazımlı kitabın yaradılmasını və yayılmasını təmin edən bütün prosesləri və fəaliyyətləri əhatə edir. Prinsip etibarilə redaktorun bütün fəaliyyətləri və əməliyyatları qarşılıqlı şəkildə əlaqəlidir və qarşılıqlı şəkildə şərtləşdirilmişdir, yəni özündə müəyyən məcmunu ifadə edir.

Buna baxmayaraq, müasir kitab nəşri sahəsində ixtisaslaşdırılan redaktorun fəaliyyətində bir qədər şərtiliklə 4 istiqamət ayırmaq olar. Onların hər birinə həll edilən məsələlərin öz qrupu uyğun gəlir. Həmin istiqamətləri belə qruplaşdırmaq olar:

a) Sırf redaksiya istiqaməti (nəşrin redaktor hazırlığı);
b) Təşkilatı-idarə istiqaməti;
c) İnformasiya istiqaməti;
ç) Marketinq istiqaməti.

Onlardan birincisinə kitabın nəşrinə və buraxılışına hazırlıq üzərində analitik və metodik iş daxildir. Bu iş redaktor tərəfindən formalaşdırılan nəşr konsepsiyası ilə proqramlaşdırılır. Konsepsiyanın əsaslandırılmasının yaradıcılıq məsələsini həll edərkən redaktor faktiki olaraq kitabın layihəçisi rolunda çıxış edir.

– Daha sonra redaktor konsepsiyaları nəzərə alaraq əsərin müəllif orijinalını təhlil edir və qiymətləndirir, onun təkmilləşdirilməsi üzrə iş aparır;

– Rəssam-tərtibatçının iştirakı ilə kitabın illüstrasiyalaşdırılması və tərtibatı məsələlərini həll edir;

– Kitabın aparatının tərkibini müəyyənləşdiri və onun hazırlığını aparır;

– Nəşrin elementlərini sistemləşdirir və nəşriyyat orijinalını (orijinal-maket) formalaşdırır, nəşriyyatın (redaksiyaların) uyğun olan texniki əməkdaşlarını da bu işə cəlb edir;

– Nəşrin tirajının müəyyənləşdirilməsi və buraxılışı mərhələlərində nəzərət-analitik işi həyata keçirir.

Bir sözlə, qəbul edilmiş konsepsiyaya uyğun olaraq kitabın yaradılmasına nail olmaq üçün redaksiya-nəşriyyat prosesi aparır. Sadalanan məsələlərin əksəriyyətinin həlli müəlliflə məcburi əlaqələr tələb edir. Redaktor əsərin müəllif tərəfindən tərtib olunmuş plan-prospektin işlənilməsində iştirak edir, müəlliflə illüstrasiyalaşdırma və nəşrin tərtibatı variantlarını müzakirə edir, onun aparatla təchizatını və başqa məsələləri həll edir. Redaktorun müəlliflə daha əziyyətli və uzunsürən əməkdaşlığı əsərin orijinalının təkmilləşdirilməsi mərhələsində ola bilər.

Redaktor işi olmadan poliqrafiya istehsalına yararlı sayılan müəllif orijinallarına rast gəlmək hazırda nadir hadisədir. Hətta əgər bu baş verərsə, istənilən halda onların redaktor təhlili və nəşriyyat orijinallarında transformasiya üzrə iş tələb olunur. Müəllif orijinalının təkmilləşdirilməsinə o vaxt zərurət yaranır ki, onda müxtəlif çatışmazlıqlar mövcud olsun. Bu çatışmazlıqlar isə adətən redaktor təhlili nəticəsində aydınlaşdırılır. Redaktor tərəfindən aparılan təhlil ona fikrin reallaşdırılmasına inanmağa, faktoqrafik əsası dəyərləndirməyə, məntiqiliyə, müəllif mülahizələrinin dəlillərinə əmin olmağa, əsərin strukturunu, dilini və üslubunu qiymətləndirməyə imkan verir. Zərurət olduqda müəllif orijinalının məzmununun qiymətləndirilməsi üçün resenzent-mütəxəssisin cəlb edilməsi istisna olunmur.

Kitab nəşrində zəruri sərbəst istiqamət kimi redaktorun analitik və metodik işinin xüsusiyyəti onunla nəticələnir ki, redaktor müəllifi dəyişdirmir, onun yaradıcılıq potensialını fikrin daha uğurlu verilməsinə yönəldir.

Redaktor yadda saxlamalıdır ki, müəlliflə razılaşdırılmamış düzəliş əsərin toxunulmazlığına şəxsi (qeyri-əmlak) hüququn pozulmasıdır. Belə ki, heç kəs müəllifin razılığı olmadan onun əsərinin mətninə dəyişikliklər etmək hüququna malik deyil.

Müəllif mətninə redaktor müdaxiləsinin başqa tərəfi də var. Bir münasibətdə mətni yaxşılaşdırmaq istəyən redaktor məzmuna necə başqa zərər vurduğunu görməyə bilər: hər hansı məna nüansı aradan qaldırdı və ya təhrif etdi, əhəmiyyətli detalı silib aradan götürdü və s.

Dil-üslub düzəlişi həmişə əsərin mənası ilə bağlı olur. Dil-üslub düzəlişinə aludə olan redaktor bəzən özü belə istəmədən yalnız məzmunu dəyişdirməklə kifayənlənmir, o, həm də mətni daha çox cilalamağa çalışaraq öz üslubunu müəllifə təlqin edə bilər. Müəllif mətninə redaktorun müdaxiləsi hər şeydən əvvəl mətnin nəşriyyat standartlarının tələblərinə uyğunluğu ilə diktə edilməlidir. Eyni zamanda müəllifin razılığı ilə səhvlərin düzəlişinə əsaslandırılmış zərurətin yarandığına əmin olmaq lazım gəlir.

Əsərin müəllif orijinalının düzəlişi minimal olmalı, redaktor özbaşınalığına gətirib çıxarmamalı və onun bütün vaxtını almamalıdır. Müəllif

orijinalı üzərində redaktor işi mərhələsində redaksiya-nəşriyyat proseslərinin rasional təşkili və onların dəqiq idarə ediltməsi mühüm əhəmiyyətə malik olur.

Redaktor fəaliyyətinin bu istiqamətinin aktual məsələsi nəşriyyataqədərki mərhələdə əsərin müəllif orijinalının işlənməsi üzrə əsas əməliyyatların aparılması mərhələsidir. Bu ona görə lazımdır ki, nəşriyyata daxil olduqdan sonra mətnin təkmilləşdirməsinə qədərki işlər başa çatdırılmış olsun.

Əgər müəllif əlyazmaya verilən redaksiya tələblərini dəqiq biləcəksə və onları dəqiq yerinə yetirəcəksə, onda bu məsələ həll edilə bilər. Redaktora yalnız müəllifə lazımi qaydaları izah etmək qalır. Müəllif bilməlidir ki, istər kağızda və ya istərsə də maşınla oxunan daşıyıcıda olsun, o öz əsərinin orijinalını tərtib etmək məcburiyyətindədir.

Redaktor mətndə səhvən aparılmış ixtisarların, yanlış ölçü vahidləri işarələrinin aşkara çıxarılması və onların standartlara uyğunlaşdırılması ilə məşğul olur; sitatları tutuşdurur və başqa faktiki materialı yoxlayır; mətndəki istinadların şəkillərlə, cədvəllərlə və biblioqrafik məlumatlarla (arayışlarla) bağlı olub-olmadığını müəyyənləşdirir; mətndə təkrarların aşkar edilməsi ilə məşğul olur; tez-tez mətnin yoxlanılmasında iştirak edir və s.

Nəşrin hazırlığının bütün mərhələlərində redaktordan nəşr kütləsinin formalaşmasından, tematik planların işlənib hazırlamasından və təşkilindən başlayaraq təşkilati-idarəetmə funksiyalarını yerinə yetirmək tələb olunur. Nəşriyyatda nəşrin hazırlığına başçılıq edən aparıcı mütəxəssis kimi redaktor nəşrin üzərində aparılan işdə iştirak edən mütəxəssislər içərisindən uyğun olan qrup (kollektiv) formalaşdırmalı və bütün işlərə rəhbərlik etməlidir. O, redaksiya-nəşriyyat prosesinə yeni texnologiyaların tətbiqinin təşkilatçısı da ola bilər.

Redaktor-naşir nəşrin mədəni səviyyəsi üçün, bütovlükdə kitab üçün cavabdeh olmalıdır. O, informasiyanın xarakterini, məqsəd istiqamətini və oxucu ünvanını, geniş mənada nəşrin növünü, tipini, funksional təyinatını nəzərə alaraq onun aparat ünsürləri (elementləri) ilə təchizatı üçün məsuliyyət daşıyır.

Redaktorun təşkilati-idarəetmə funksiyaları arasında başqaları da var ki, onlardan da biri informasiya aspektidir. Buraya istehsalat müəssisələri, kitabxanalar, elm və tədris ocaqları, kitab icarəti qurumları, ictimai təşkilatlar (məsələn, kitab həvəskarları cəmiyyətləri) ilə daimi əlaqələrin və qarşılıqlı əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi aiddir. Bu əlaqələr ümumi şəraitdə redaktoru məqsədyönlü şəkildə istiqamətləndirir, ona oxucu auditoriyası və onun tələbatı haqqında informasiya verir. O, alınan məlumatlardan kitabların reklamı, kitab nəşri siyasətinin şərhi, tematik

planların müzakirələri, çapdan çıxmış kitablar haqqında rəylərin öyrənilməsi üçün istifadə edir.

Redaktor fəaliyyətində informasiya istiqaməti redaktorluq peşəsinin xüsusiyyəti ilə şərtlənir. İnformasiyasız idarəçilik və marketinq məsələlərinin həlli mümkün deyil. Redaktorun informasiya funksiyaları müəyyyən zaman və məkanda informasiya mənbəyi və ötürülmə vasitəsi kimi kitabın təbiəti və mahiyyəti ilə müəyənləşir. Redaktor kitabı yaratmaqla və onu kommunikasiya sisteminə daxil etməklə əslində informasiya prosesində iştirak edir.

Kitabın informasiya effektivliyi və məlumat-axtarış keyfiyyətləri, oxucu (istifadəçi) tərəfindən kitabdan səmərəli istifadə imkanları onun məzmunundan və formasından, aparatla təchiz edilməsindən, bu aparatın tərkibindən və keyfiyyətindən asılıdır. Kitabın oxucu tələbatına uyğunluğuna və ondan səmərəli istifadə imkanlarına nail olunmasında nəşrin strukturu, xüsusilə onun aparatı daha çox əhəmiyyətə malikdir. Belə ki, aparatın əsas vəzifəsi oxucuya lazımlı informasiyanı bütöv şəkildə və operativ almağa kömək göstərməkdən ibarətdir. Təəssüf ki, təcrübədə aparatın hazırlamasına və nəşrlərin onunla təchizatına az diqqət ayrılır. Elə hallar olur ki, aparat konkret kitabın funksional spesifikasını nəzərə almadan yaradılır. Onun hazırlanması zamanı kitabın nə üçün və kimdən ötrü nəşr olunduğunu redaktorun nəzərə alması çox böyük əhəmiyyət kəsb edir.

Aparatın elementləri oxucunun tələbatını təmin edə biləcək səviyyədə və tərkibdə olmalıdır. Bunun üçün redaktora istifadə şərtlərindən asılı olaraq kitabın effektivliyi haqqında informasiya tələb olunur. Redaktor-naşirin vəzifəsi aparatın ayrı-ayrı elementlərinin keyfiyyətli hazırlığını təşkil etməkdir.

Redaktor tərəfindən həll edilən informasiya vəzifələrinin dairəsi olduqca genişdir. Artıq adlarını çəkdiklərimizdən başqa, burada sadalanan vəzifələr də onlara aiddir:

– Nəşr kütlələrinin və axınlarının təhlili;
– Nəşriyyat işinin effektliliyinin qiymətləndirilməsi;
– Başqa nəşriyyatlarla informasiya mübadiləsi və nəşrlərin buraxılışının koordinasiyası;
– Müəllif orijinalları ilə iş üçün mənbələrin dairəsinin müəyyənləşdirilməsi;
– Biblioqrafik iş;
– Nəşrlərin indeksləşdirilməsi;
– Annotasiyanın və xülasənin tərtibi;
– Kitabın reklamı.

Bu sonuncu vəzifədə bütün əsas rol redaktorun informasiya fəaliyyətində aparılır.

Eləcə də bu fəaliyyətdə kitabın hazırlanması və buraxılışı proseslərinin informasiya ilə təminatına imkan yaradan avtomatlaşdırılmış məlumat bankının formalaşması və aparılması vəzifələri daha böyük əhəmiyyət kəsb edir və ya hər halda kəsb etməlidir. Redaktorun informasiya vəzifəsinə məcburi şərt kimi nəşriyyat işinin və redaktənin qabaqcıl yerli və xarici təcrübəsinin öyrənilməsi də daxil olmalıdır.

Redaktorun vəzifələri çoxcəhətlidir, bir-biri ilə qarşılıqlı əlaqədədir və qarşılıqlı şəkildə şərtləşdirilmişdir. Onların həlli zamanı redaktorun fəaliyyəti sistemli xarakterə malik olur. Bazar münasibətlərində o, kitab marketinqi anlayışı ilə müəyyənləşdirilmiş ola bilər. Belə ki, bu zaman kitabın yaradılması və buraxılışı ideyası faktiki olaraq oxucunun istehlak maraqlarına uyğun olaraq yönləndrilir.

Müəllif öz əsərini yaradarkən ilk növbədə bu məsələlər haqqında düşünür:

– Əvvəllər yaşanmış və hiss edilib duyulmuş hadisə və ya faktlara dair öz münasibətini ümumiləşdirib bildirmək;
– Öz baxışlarını və fikirlərini ifadə etmək;
– Onun nöqteyi-nəzərindən yeni bir şey haqqında, məsələn, müəyyən nəticəyə gəldiyi elmi işi barədə cəmiyyəti xəbərdar etmək.

Müəllif üçün oxucu auditoriyası bəzi hallarda qeyri-müəyyən ola bilər. Məsələn, o, hər hansı bira sahədə yeni elmi nəticələrini aprobasiyaya çıxararkən və ya müəyyən bilik sahəsi üzrə təzə dərslik yazarkən tam şəkildə oxucunun tələbini ödəməyə və onun sorğularını dəqiq nəzərə almaya bilər. Bu zaman onun fikrində ictimai, insani maraqların başa düşülməsi və anlaşılması əks olunur, amma bunlar hələlik oxucu marağı demək deyil.

Oxucunu öyrənmək (tədqiq etmək) – kitab marketinqi məhz bu məsələdən başlanır. Nəşriyyatın vəzifəsi də elə budur. Onun məqsədi oxucunun kitaba potensial tələbatının üzə çıxarılmasıdır. Bazar münasibətlərində oxucu mövcud şəraitin sahibi olur. Burada hansı kitabın nəşrinin lazım olduğu, onun hansı tirajla buraxılması, hansı tərtibatda hazırlanması məsələləri məhz oxucunun tələbatı ilə müəyyənləşdirilir.

Oxucular həmişə öz müxtəlifliklərə ilə fərqlənir. Onlar zaman keçdikcə və şəraitdən asılı olaraq dəyişir. Buradan nəşrlərin hazırlanmasının və buraxılışının operativliyini hər cür yüksəltmək tələbi meydana çıxır. Bu isə oxucunun tələbatını lazımınca və vaxtında ödəməyə xidmət göstərir.

Beləliklə, mövcud elmi-nəzəri ədəbiyyata, beynəlxalq təcrübəyə və təsdiq olunmuş rəsmi sənədlərə əsasən redaktorun vəzifə borclarını, bilik dairəsini və ixtisaslaşma tələblərini yığcam şəkildə belə ümumiləşdirmək olar:

1) Redaktorun vəzifə borcu (redaktor bu işləri həyata keçirməyə məsuldur):

– Nəşrlərin yüksək elmi və ədəbi səviyyəsinin təminatı məqsədi ilə redaksiya-nəşriyyat bölməsi tərəfindən buraxılan elmi və metodik ədəbiyyatın, informasiya və normativ materialların redaktəsini həyata keçirir;

– Müəlliflərlə nəşriyyat müqavilələrinin və kənar rəyçilərlə əmək razılaşmalarının hazırlığında iştirak edir, onların əlyazmalarını və rəylərini nəzərdən keçirir;

– Əlyazmanın təqdim edilmiş şəkildə və ya təklif edilən düzəlişlər, əlavələr, ixtisarlar nəzərə alınaraq yenidən işlənib tamamlandıqdan sonra nəşri imkanları haqqında qərar verir;

– Əlyazmaların nəşrindən imtina edilməsi hallarında müqavilədə müəyyən edilmiş müddətdə əsaslandırılmış yazılı imtina cavabı hazırlayır;

– Nəşrə qəbul edilmiş əlyazmaları redaktə edir, bu halda müəlliflərə əlyazmaların strukturunun daha da yaxşılaşdırılması, terminlərin seçilməsi, illüstrasiyaların tərtibi və s. üzrə lazımi köməklik göstərir, məsləhət görülən dəyişiklikləri onlarla razılaşdırır;

– Redaktə prosesində rəyçilərin qeydlərinin, əlyazmanın işlənilib tamamlaması üçün verilən tələblərin, təqdim edilmiş materialın komplektliyinin, əlyazmanın bölmələrinin adlarının onların məzmununa uyğunluğunun, həmçinin elmin, texnikanın və qabaqcıl istehsalat təcrübəsinin ən yeni nailiyyətlərinin işdə nə qədər əks etdirilməsinin müəlliflər tərəfindən yerinə yetirilməsini yoxlayır;

– Gətirilən sitatların və rəqəmli məlumatların, adların, elmi-texniki terminlərin, ölçü vahidlərinin istifadəsinin və yazılışının düzgünlüyünü, nəşrin soraq aparatının tərtibini, gətirilən simvolların standartlarla müəyyənləşdirilmiş və ya elmi və normativ ədəbiyyatda qəbul edilmiş işarələrə uyğunluğunu ilkin mənbələrə əsasən yoxlayır;

– Əlyazmaların lazımi ədəbi redaktəsini həyata keçirir;

– Əlyazmanın redaktor pasportunu təşkil edir, texniki redaktora, korrektora, yığıcıya (mürəttibə) göstərişlər və izahlar verir;

– Haşiyələri, dublikatları, işçi mündəricatını hazırlayır;

– Müəlliflə və texniki redaktorla birgə əyani materialları (illüstrasiyaları) nəzərdən keçirir, nəşrdə onların yerini müəyyənləşdirir, qrafiklərin və klişenin vaxtında hazırlanması üçün bədii redaktora təqdim edir;

– Redaktə edilən nəşrlərin bədii və texniki tərtibatı ilə bağlı məsələlərin həllində iştirak edir;

–Əlyazmaları istehsala imzalayır, korrektura nüsxələrini yenidən gözdən keçirir və buraxılışdan əvvəl siqnal nüsxələrini yoxlayır;

– Aşkar edilmiş səhvlərin siyahısını tərtib edir [8].

2) Redaktorun bilik dairəsi (redaktor bu məsələləri bilməlidir):

– Qanunverici və normativ hüquq aktları, elmi-metodik ədəbiyyatın, informasiya və normativ materialların redaktəsi metodlarını, rəqəmlərin,

düsturların, simvolların, illüstrasiyaların redaksiya işlənməsini, nəşrin soraq aparatının tərtibi qaydasını;

– Uyğun olan bilik sahəsində elmin və texnikanın yerli və xarici nailiyyətlərini;

– İstehsala təhvil verilən əlyazmaların hazırlanması, korrektura nüsxələrinin çapa verilməsi qaydalarını;

– Standart korrektura işarələrini;

– Terminlərə, işarələrə və ölçü vahidlərinə dair dövlət standartlarını;

– Qüvvədə olan şərti ixtisarları, xarici dillərdə olan biblioqrafiyada tətbiq edilən şərti ixtisarları;

– Azərbaycan dilinin qrammatikasını və üslubiyyatını;

– Müəllif hüququnu;

– Redaktəyə dair qüvvədə olan normativləri;

– Müəlliflərlə nəşriyyat müqavilələrinin, rəyçilərlə əmək müqavilələrinin bağlanması qaydalarını;

– Nəşriyyat işinin iqtisadiyyatını;

– Poliqrafiya istehsalı texnologiyasının əsaslarını;

– Poliqrafiya istehsalının iqtisadiyyatını və təşkilini;

– Əməyin təşkilinin və əmək qanunvericiliyinin əsaslarını;

– Əməyin mühafizəsi qaydalarını və normalarını [8].

3) Redaktorun ixtisaslaşdırılmasına verilən tələblər:

– İş stajına tələblərin təqdimatı olmadan ən yüksək peşə təhsili;

– Redaktorun bilik, bacarıq və peşə vərdişlərinin əsas istiqamətləri müvafiq ali məktəbin tədris proqramı ilə müəyyənləşdirilir.

ƏDƏBİYYAT:

Azərbaycan dilində

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 1999.

2. Azərbaycan Sovet Ensiklopediyası: 10 c.-də. C.8. Bakı, 1984, 608 s.

3. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu: 30 may 2000-ci ildə qəbul olunmuşdur; №887-İQ // "Azərbaycan" qəzeti, 2000, 21 iyun.

4. Nəşriyyat işi (İdarəetmə. Marketinq. Müəlliflik hüququ. Redaktə. Tərtibat. İstehsal). Bakı: Yeni Nəsil, 2001, 218 s.

5. Vəliyev İ. Redaktənin əsasları: Nəzəriyyə və təcrübə (Nəşrin redaktor hazırlığı; Redaktənin metodikası; Mətnin redaktor təhlili; Redaktənin texnikası). Bakı: Günəş, 2009, 404 s.

Rus dilində

6. Антонова С.Г., Соловьев В.И., Ямчук К.Т. Редактирование. Общий курс: Учебник для вузов. Москва: Изд-во МГУП, 1999, 256 с.

7. Воробьева А.Н. Основы редактирования: Учебно-методический комплекс. Томск, 2008.

8. Квалификационный справочник должностей руководителей, специалистов и других служащих (Утвержден постановлением Минтруда РФ от 21 августа 1998 г. №37. Москва, 1998.

9. Книговедение: Энциклопедический словарь. Москва: Изд-во "Советская энциклопедия", 1982, 664 с.

10. Морозова В.А. Редактирование. Общий курс: Учебное пособие. Ульяновск: УлГТУ, 2002.

11. Теория и практика редактирования: Хрестоматия. Москва, 1990, 382 с.

Actual problems of editing:
modern characteristics, goals and objectives,
technological requirements

Knyaz ASLAN

Summary

This article outlines the fact that the interesting and rewarding work online - complex and demanding, requiring significant knowledge and continuous improvement. Here are editing as a form of creative activity. At the same time, the paper summarizes the information about the goals and objectives of editorial work; on the knowledge and skills necessary to the editor; about the basic principles of operation of the editor.

Keywords: *editor, editing, publishing, publishing, literature.*

Актуальные проблемы редактирования:
современные характеристики, цели и задачи,
технологические требования

Князь АСЛАН

Резюме

В этой статье излагается тот факт, что интересная и благодарная работа редактора – сложная и ответственная, требующая серьезных знаний и непрерывного самосовершенствования. Здесь представлено редактирование как вид творческой деятельности. В то же время в статье обобщены информации о целях и задачах редакторской работы; о знаниях и навыках, необходимые редактору; об основных принципах деятельности редактора.

Ключевые слова: *редактор, редактирование, издательство, издание, литература.*

RESPUBLİKA ELMİ TEXNİKİ KİTABXANASININ VƏ ONUN NORMATİV-TEXNİKİ SƏNƏDLƏR FONDUNUN TƏRKİBİ

M. MƏMMƏDOV
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Elmi məqalədə Respublika Elmi-Texniki Kitabxanasının və onun Normativ-Texniki Sənədlər fondunun tematik tipoloji tərkibi açıqlanmış, informasiya resurslar sistemi təhlil edilmiş və burada istifadə edilən dövlət standartları haqqında məlumat verilmişdir.

Açar sözlər: *Respublika Elmi-Texniki Kitabxanası (RETK). Normativ-Texniki sənədlər fondu. Patent fondu. RETK-nın sənəd kütləsinin tərkibi. Patent və standartlar. Kitab, kitabxana və oxucu.*

Müasir dövrdəölkəmizdə elmi-sahəvi kitabxanalar sistemində Azərbaycanın ən nəhəng informasiya ehtiyatlarına malik olan Respublika Elmi-Texniki Kitabxanasının (RETK) özünəməxsus yeri vardır.

RETK-nın fondunda elmin, texnikanın ayrı-ayrı sahələrinə dair 20 milyon nüsxəyə yaxın müxtəlif tip və növ çap məhsulları və digər materiallar saxlanılır ki, bu da Azərbaycanda fəaliyyət göstərən bütün respublika əhəmiyyətli iri mərkəzi kitabxanaların ümumi sənəd fondundan xeyli çoxdur.

RETK təkcə öz fondunun həcminə görə deyil, eyni zamanda yaranma tarixinin qədimliyinə və Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən Yanacaq-Energetika Kompleksinin informasiya təminatının yaradılmasındakı böyük xidmətlərinə görə də başqalarından əsaslı surətdə fərqlənir.

Bu gün Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Respublika Elmi-Texniki Kitabxanası, Respublikanın nazirlik, şirkət, idarə və müəsisələri, elmi-tədqiqat və layihə institutlarına, eləcə də elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən Respublika mərkəzi hesab edilir. Kitabxana fondunun komplektləşdirilməsi üçün müxtəlif mənbələrdən istifadə edilir. Azərbaycan kitabxana kollektoru, Kitab ticarəti bülleteni, müxtəlif kitab mağazaları, müstəqil nəşriyyatlar və s. əsas komplektləşdirmə mənbələridir. Kitabxana fondunun komplektləşdirilməsində xüsusi ədəbiyyat növlərinə və əsasən, elmi-texniki ədəbiyyata, patent və normativ-texniki sənədlərə üstünlük verilir.

Kitabxanaya lazım olan ədəbiyyatı komplektləşdirmək üçün nəşriyyat planları, prospektləri, "Azərmətbuatyayım"ın kataloqları, referativ və biblioqrafik nəşrlər, xarici ölkələrin qəzet və jurnal kataloqları və s. nəzərdən keçirilir.

RETK respublikanın ən böyük kitabxanalarından biri olmaqla yanaşı ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətindən əlavə müəllif şəhadətnamələri və patent ədəbiyyatı, normativ-texniki sənədlər, xarici ölkələrin jurnalları və sairəni özündə əks etdirən, elmi-tədqiqat işi və metodik fəaliyyətlə məşğul olan böyük müəssisədir.

Kitabxananın ümumi fondunun 14858951 nüsxəsini ədəbiyyat təşkil edir. Bunlardan 322781 nüsxə kitab və broşür, 577309 nüsxə dövri nəşrlər, 314 nüsxə xarici kitab, 126066 nüsxə xarici jurnal, 8354 nüsxə avtoreferat, 634294 nüsxə elmi-texniki informasiya xarakterli ədəbiyyat, 929558 nüsxə normativ-texniki sənədlərdir. Oxucuların sayı 21 mindən artıqdır. RETK-nın fondlarında ictimai-siyasi ədəbiyyat, elmi-texniki, sorğu ədəbiyyatı, informasiya xarakterli ədəbiyyat, dərslik və metodik materiallar, dövri və ardı davam edən nəşrlər, təcrübə-konstruktor işləri, tərcümələr, sənaye kataloqları, normativ-texniki sənədlər, ixtiralar, ixtiraçılıq-patent hüquqları haqqında ədəbiyyat, patentlər, mətbuatda dərc olunmayan sənədlər qorunub saxlanılır. Kitabxananın Naxçıvan və Gəncə filialları da mövcuddur. RETK-də 14 şöbə fəaliyyət göstərir.

Kitabxanada geniş məlumat-axtarış sistemi fəaliyyət göstərir. İl ərzində 21000-dən artıq oxucu kitabxananın xidmətlərindən istifadə edir. Xidmət şöbəsi, oxu zalları, məlumat-biblioqrafiya, Xarici ədəbiyyat şöbələri, Depozitar və mübadilə fondu, Respublika Patent, Standart və Normativ-texniki sənədlər fondları daim oxucuların ixtiyarındadır.

1972-ci ildən RETK texniki ədəbiyyatın qorunub mühafizə edildiyi depozitariya hesab olunur. Depozitar- mühafizə və mübadilə fondlarına olan oxucu sifarişləri müntəzəm olaraq vaxtında yerinə yetirilir.

Kitabxanada fəaliyyət göstərən KAA bölməsi öz işini respublika kitabxanaları fondlarından qarşılıqlı istifadə əsasında qurmuşdur. RETK-nın fondunda olmayan ədəbiyyat digər kitabxanalardan alınıb oxuculara təqdim edilir.

1957-ci ildən Respublika Elmi-Texniki Kitabxana statusu aldıqdan sonra qarşısında duran vəzifələrə və funksiyalara uyğun olaraq kitabxananın yeni şöbə və bölmələri yaradılmış, filialları açılmışdır.Kitabxananın informasiya fəaliyyətini gücləndirmək məqsədilə 1967-ci ildə Patent Fondu yaradılmışdır. Bu fondun yaradılıması mütəxəssislərə informasiya xidmətini xeyli yaxşılaşdırdı və onların vaxtına qənaət etmək imkanı yaratdı.

İxtisaslaşmış Patent fondu dünyanın 35 ölkəsinin 27 dildə Beynəlxalq və Avropa Patent idarəsinin sənədləri, həmçinin müəllif şəhadətnamələri ilə komplektləşdirdi. Respublikada yeganə fond olan Patent Fondundan respublikanın müəssisə və təşkilatları müvəffəqiyyətlə istifadə edirdilər (7,s.21).

Respublikanın müxtəlif sənaye sahələrində fəaliyyət göstərən idarə və müəssisələrin, təşkilatların və yaradıcılıqla məşğul olan ayrı-ayrı şəxslərin

patent, standart və normativ-texniki sənədlərinə olan tələbatını ödəmək üçün yaradılan bu filiallar respublikada yeganə patent və standartlar fondudur. Hazırda Respublika Patent Fondu 27 dildə dünyanın 35 ökəsinin Beynəlxalq və Avropa Patent idarələrinin sənədləri ilə komplektləşdirilmişdir (7,s.21).

Respublika Patent Fondu Beynəlxalq ixtira təsnifatının bütün mövzu rubrikalarına görə çapdan çıxan müəllif şəhadətnamələri ilə (kağız daşıyıcıda, mikrofilm və mikrofiş halında) komplektləşdirilmişdir.

RPF-in tərkibinə aşağıda göstərilən növlərdə patent sənədləri daxildir:

–Keçmiş SSRİ-nin patent sənədləri fondu (SSRİ Dövlət İxtiraçılıq komitəsinin rəsmi bülletenləri, SSRİ-nin müəllif şəhadətnamələri və patentlərinə verilən ixtira təsvirləri);

–xarici ölkə sənədlərinin fondu (xarici patent idarələrinin rəsmi bülletenlərinin surətləri və xarici ölkə patentlərinin ixtira təsvirləri mikrofilm, mikrofiş və kağız daşıyıcıda);

–ÜİETMİ-nin rus dilində xarici ixtiraları haqqında biblioqrafik və referativ məlumatları əks etdirən bülletenlər;

–sənaye nümunələri haqqında məlumat materialları (ayrı-ayrı ölkələrin sənaye nümunələri fototekası, beynəlxalq təsnifata görə sənaye nümunələrinin mövzu fototekası altında) patent-lisenziya, patent məlumatı, ixtiraçılığa aid rəsmi və normativ sənədlər;

–keçmiş SSRİ və xarici ölkə sənədlərinə soraq-axtarış aparatı materialları (ixtira sənədlərinin göstəricisi, nömrəli sistemli adlı göstəricilər, kataloq və kartotekalar);

–ixtiraçılığa, patent hüququ və patent lisenziya məsələlərinə dair tədris, metodiki və axtarış ədəbiyyatı;

–ixtiraçılıq və patentşünaslığa dair dövri nəşrlər;

–soraq, lüğət ədəbiyyatı (4,s.11).

Normativ-texniki sənədlər dövlət əhəmiyyəti daşıdıqlarına görə dövlət əhəmiyyətli müəssisələrdə qorunub saxlanılır. Bir çox xarici ölkələrin beynəlxalq və dünya miqyaslı müəssisələrində, təşkilatlarında-Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı, Beynəlxalq Patent Sənədləri Mərkəzi, Beynəlxalq Axtarış Orqanı, Dervent şirkəti və s. normativ-texniki sənədlər və biblioqrafik informasiya ehtiyatları qorunub saxlanılır. Azərbaycanda bu ehtiyatların əksər hissəsi milli səviyyəli sənəd fondlarında təmərküzləşmişdir: Respublika Elmi-Texniki kitabxanası, Respublika Standartlaşdırma və Metrologiya Mərkəzi, Respublika Normativ-Texniki Sənədlər Fondu, Depozitar Mühafizə Fondu və s. Əlbəttə, respublikamızda normativ-texniki sənədlər üzrə biblioqrafik ehtiyatlar təkcə adı çəkilən qurumlarla məhdudlaşmır. Qeyd etdiklərimizdən əlavə, respublikamızın bir çox tədris, elmi-tədqiqat, sənaye müəssisələrində standartlaşdırma şöbələri, elmi-texniki kitabxanalar mövcuddur ki, burada da böyük həcmdə informasiya ehtiyatları vardır. Lakin Azərbaycanda normativ-

texniki sənədlər üzrə ən böyük fond Respublika Elmi-Texniki kitabxanası hesab edildiyindən, biz bu haqda geniş məlumat verəcəyik.

Respublika Elmi-Texniki Kitabxanası normativ-texniki sənədlərin sistematik toplanması üçün əsas baza rolunu oynayır. Bu da öz növbəsində normativ-texniki sənədlərə müraciət edən mütəxəssisləri beynəlxalq və xarici standartlara olan sorğusunu ödəmək istiqamətində məlumat-informasiya xidmətini qəti şəkildə fəallaşdırır. İlk yaranma dövründə bu fondların təşkili təyin olunmuş plana uyğun həyata keçirilirdi. Ancaq bu fondlardan istifadə edən daimi oxucuların, həmçinin müəssisə və təşkilatların əhatə dairəsi hələ ki, geniş deyil. Respublika institutlarının və sahələrarası ərazi elmi-texniki informasiya mərkəzinin Normativ-Texniki Sənəd Fondlarının fəaliyyətində xeyli çatışmazlıqlar var. Belə ki, ilk növbədə bu fondlardan az istifadə olunur. Bu məqsədlə Normativ-Texniki Sənəd Fondlarının işinin fəallaşması üçün xeyli tədbirlər nəzərdə tutulub. Bu Fond çoxsahəlidir. Fondun əsasını dövlət standartları, sahəvi standartlar, müəssisə və respublika standartları, beynəlxalq standartlar və sənaye kataloqları təşkil edir. NTS fondunun əsas məqsədi fonda daxil olan sənədlərin təbliğini təşkil etməkdən ibarətdir. Bu işdə xidmət və kütləvi işlər şöbəsinin rolu böyükdür. Hər ayın sonunda NTS fonduna daxil olan yeni sənədlərin açıq sərgisi keçirilir ki, burada da elm və texnikanın müxtəlif sahələrinə aid sənədlər öz əksini tapır. NTS fondunun obyektinə müxtəlif növ və təyinatlı müxtəlif səviyyələrdə (beynəlxalq, milli, ayrı-ayrı istehsalat və texnika sahələri, müəssisə və təşkilatlar səviyyəsində) yaradılaraq qəbul edilən normativ-texniki sənədlərə ilk növbədə standartlar, sənaye mülkiyyəti obyektləri olan ixtiralar, faydalı modellər, sənaye nümunələri və əmtəə nişanları barədə sənədlər və bu sənədlərdən müxtəlif məqsədlərlə istifadə edən tələbatçılar daxildir. Normativ-texniki sənədlərin bir xüsusiyyəti də həmin sənədlər üzrə axın və kütləsinin yaradılması və qanunlarla xüsusi olaraq nəzərdə tutulmasıdır. Bu sənədləri özündə əks etdirən informasiya mənbələrinin yaranması və nəşri, onlar üzrə informasiya fondlarının yaradılması, tələbatçılara sənədlər haqqında informasiya və lazım gəldikdə isə sənədlərin özlərinin verilməsi (Azərbaycan Respublikasının 1996-cı ildə qəbul edilmiş "Standartlaşma haqqında" qanuna əsasən) mövcud qanunların müvafiq bəndləri ilə nəzərdə tutulur (3). Normativ-texniki sənəd kütləsi digər növ və məzmunlu fondlara nisbətən daha yüksək yekcinsliyə və nizama malikdir. Həm Azərbaycanda, həm də dünyanın əksər ölkələrində normativ-texniki sənədlərin miqdarı və əhəmiyyəti get-gedə artmaqdadır. Belə bir şəraitdə bu sənəd növləri üzrə sənəd kütləsi və axınının optimal təşkili və onlar üzrə biblioqrafik informasiya təminatının təşkili mühüm əhəmiyyət kəsb edir.

Qeyd etdiyimiz kimi elmi-texniki ədəbiyyatın əsas növlərindən birini normativ-texniki sənədlər təşkil edir ki, bu növ sənədlərin işlənməsi və istehsalatda tətbiqi məcburi və rəsmi xarakter daşıyır. Həmin sənədlər

əlaqədar dövlət qanunları əsasında təsdiq edilir. Normativ-texniki sənədlər həm stilistikası, həm də quruluşu etibarilə müəyyən edilmiş qaydalara əsaslanır. Normativ-texniki sənədlərin əsas növlərini standartlar (regional, milli, beynəlxalq), texniki şərtlər, normalar və təlimatlar rəhbər sənədlər təşkil edir.

Standartlaşmanın elmi-təcrübi fəaliyyət sahəsi kimi inkişafı ilk növbədə onun anlayış və terminlər sisteminin işlənməsi ilə bağlıdır. Məlumdur ki, elmin və texnikanın demək olar ki, bütün sahələrində terminlər və anlayışlar standartlaşdırılır, müxtəlif terminoloji standartlar yaradılır. Bu işlə bilavasitə standartlaşdırma orqanları məşğul olur. Standartlaşdırma işləri müstəsna əhatə dairəsinə görə milli və beynəlxalq standartlaşdırmaya ayrılır:

Milli standartlaşdırma müəyyən ölkə miqyasında aparılan standartlaşdırma işləridir. Beynəlxalq standartlaşdırma isə iki və daha çox müstəqil dövlətin qarşılıqlı əməkdaşlığı şəraitində işlənən standartlardır. Belə əməkdaşlıq nəticəsində beynəlxalq standartlar yaradılır.

Standartlaşdırma üzrə normativ-texniki sənədlər müəyyən fəaliyyət sahələrinə də mütləq tətbiq olunmaq üçün səlahiyyətli orqanlar tərəfindən müəyyən olunmuş qaydada işlənmiş kompleks normalar müəyyənləşdirən qaydalar və tələblər sistemidir. Standartlaşma və digər normativ-texniki sənədlər üzrə muvafiq fəaliyyət Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir.

Dövlət standartlaşdırma sistemi xalq təsərrüfatının bütün əsas sahələrini əhatə edir və sənaye tərəfindənistehsal olunan bütün əsas məhsullara vahid dövlət tələbi ilə yanaşmaq üçün effektiv vasitəsi kimi xidmət edir. Dövlətstandartlaşdırma sistemində əsas məlumat daşıyıcıları standartlaşdırma üzrə normativ-texniki sənədlərdir. Onlar eyni zamanda ən aktual məlumat mənbələrindən birini təşkil edir, hansı ki, elmi-texniki inkişafa aktiv yardım edir, sənaye məhsulunun keyfiyyətinin yüksəldilməsinə, istehsalın təkmilləşməsinə xidmət edir. Dövlət standartlarına əsasən (1.0-86) standartlaşdırma üzrə normativ-texniki sənədlər əlaqədar təşkilat tərəfindən təsdiq olunmuş bir sənəddir ki, hər hansı fəaliyyət sahəsində istifadə etmək üçün norma, qayda, tələblər kompleksini təyin edir. Standartlaşdırma üzrə normativ-texniki sənədlər elmin, texnikanın, qabaqcıl təcrübənin nailiyyətləri əsasında işlənib hazırlanır. Istifadə olunan normativ-texniki sənədlərə xalq təsərrüfatının tələblərinə əsasən yenidən baxılır, dəyişdirilir, tamamlanır və ya ləğv edilir. Normativ-texniki sənədlər standartlaşdırma üzrə konkret elmi-tədqiqat işinin nəticəsidir. Bu sənəd bir qayda olaraq, elmi-tədqiqat və təcrübə-konstuktor işinin nəticələrini və onlar haqqında məlumatı əks etdirir.

Hal-hazırda DÖST standartları yenə də istifadə edilməkdə davam edir. Çünki SSR-i dağıldıqdansonra yaranmış müttəfiq dövlətlər normativ-texniki sənədlər, o cümlədən onun ən vacib növü olan DÖST-ü yaratdıqdan və istifadəsinin perspektivlərini təhlil etdikdən sonra belə qərara gəldilər ki, bu

işi tək başına davam etdirmək qeyri-mümkündür. Bunun üçün çox böyük maliyyə vəsaiti və insan ehtiyyatı lazımdır. Ona görə də 1992-ci ildə Belarusiyanın paytaxtı Minsk şəhərində MDB ölkələrinin standartlaşdırma mütəxəssisləri xüsusi müşavirə keçirdilər. Həmin müşavirədə belə qərar qəbul edildi ki, bundan sonra keçmiş SSR-inin DÖST standartları MDB ölkələrinin dövlət standartı kimi qəbul olunsun və tətbiq edilsin. Həmin standartların təkmilləşməsi, yenisi ilə əvəz edilməsi sahəsində fəaliyyəti isə bu ölkələrin yaratdığı xüsusi şura vasitəsilə bütün ölkələrin ayırdıqları maliyyə vəsaiti əsasında davam etdirilsin. Azərbaycan respublikasında da DÖST standartlarının təkmilləşməsi işi ilə müəyyən institutlar, təşkilatlar məşğul olurlar: Məs: "AzərneftkimyaMAŞ" birliyinin tabeliyində olan "Azinmaş"institutu neft-mədən avadanlıqlarının müəyyən növləri üzrə DÖST-in təkmilləşməsi ilə məşğul olurlar. Bundan başqa Azərbaycanın bir sıra digər müəssisələri də DÖST-lə əlaqədar fəaliyyətini davam etdirirlər. DÖST-in əsas aşağıdakı növləri mövcuddur:

1) Texniki şərtlər standartları;
2) Texniki tələblərin standartları;
3) Parametr və ölçü standartları;
4) Ölçü və konstruksiya standartları;
5) Markaların standartları;
6) Sortların standartları;
7) Qəbuletmə qaydası standartları;
8) Nəzarət metodları standartları;
9) İstismar qaydası standartları

Normativ-texniki sənədlərin ən geniş yayılan və mühüm praktik əhəmiyyətə malik növü sahəvi standartlardır. Sahəvi standartlar ayrı-ayrı istehsalat və ya fəaliyyət sahələrinə tətbiq edilən texnoloji tələbləri, iş qaydalarını, keyfiyyət parametrini tənzimləmək üçün istifadə edilir. Sahəvi standartlar iqdisadiyyatın müəyyən sahəsinin istehsal müəssisələrində buraxılan dövlət standartları ilə əhatə edilməyən məhsullar üçün işlənir. Belə sahələrə misal olaraq yüngül, dağ-mədən sənayesini göstərmək olar. Sahəvi standartın dövlət standartından fərqi ondan ibarətdir ki, sahəvi standartlar ancaq məhdud bir sahədə tətbiq edilir. Hal-hazırda sahəvi standartlar texniki şərtlərlə əvəz edilir.

Digər standart növü olan respublika standartı hazırda müstəqil standart kateqoriya kimi mövcud deyil. Lakin keçmiş İttifaqda belə standartlar işlənmişdir. İndi müstəqil respublikalar yaransa da, həmin standartları əvəz edən əlaqədar milli standartlar olmadığına görə bunlar hələlik qüvvədədir. Respublika standartları ayrı-ayrı müttəfiq respublikların standartlaşma idarəsi tərəfindən hazırlanır və qəbul edilir. Belə standartlar Azərbaycanda da mövcuddur. Respublika standartları isə hansı idarənin tabeliyində olmasına

baxmayaraq, bütün müəssisə və təşkilatlarda istifadə olunmalıdır. Respublika standartları sırf bir respublika ərazisində tətbiq edilmək üçün yaradılır və qəbul edilir. Azərbaycanda yaradılan respublika standartlarının əksəriyyəti bizim ölkəmizə xas olan xalq sənəti nümunəsi, milli qida məhsulları və digər bu kimi spesifik məhsulların yaranması və istehsalı üçün tətbiq edilir.

Standartların digər bir növü olan müəssisə və firma standartları xüsusi funksiyalara malik idi. Müəssisə standartları ağır və yüngül sənayenin ayrı-ayrı sahələrində, nəqliyyatda, tikintidə mövcud olan müəssisələr tərəfindən hazırlanır və konkret müəssisələrdə tətbiq edilir.

Standartlar həm də mənsub olduğu ölkəyə görə də təsnifləşdirilir. Bu baxımdan standartlar-milli, ölkələrarası, regional və beynəlxalq standartlara ayrılır.

Milli standart dedikdə, hər hansı dövlət ərazisində qəbul edilmiş və icrası məcbur olan standartlar nəzərdə tutulur, bir sıra hallarda milli standart ölkələrin rəsmi orqanları tərəfindən deyil, ayrı-ayrı təşkilat və institutlar tərəfindən qəbul edilir. Dünyanın aparıcı ölkələrində ayrı-ayrı milli standartlar vardır ki, onlar öz nüfuzuna, yüksək elmi-metodiki səviyyəsinə görə artıq digər ölkələrdə də tanınmağa və tətbiq edilməyə başlayır. Belə standartlara misal olaraq Alman Mühəndislər İnstitunun (DİN) standartlarını, Amerika Neft İnstitutunun (ARİ) standartlarını göstərmək olar. Məs. Respublikamızda əsas Dövlət Neft Şirkətinin iştirakı ilə əsas layihələrdə əsasən ARİ standartları geniş tətbiq olunur. Bir sıra hallarda ölkənin həmin qabaqcıl standartları öz ərazisində milli standartları kimi qəbul edirlər. Hal-hazırda Azərbaycanda "Azərbaycan standartları" adlı milli standartlar sistemi tətbiq edilir. Bundan əlavə respublikamızda türk standartları institutunun (TSİ) hazırladığı milli standartlardan da geniş istifadə edirlər. Son dünya ölkələri arasında iqtisadi, elmi-texniki, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın durmadan artması standartlaşma sahəsində də beynəlxalq əməkdaşlığın artmasına səbəb olur. Bu baxımdan dünya miqyasında standartlaşma işinin təşkilində və əlaqələnməsində Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) böyük rolu vardır. Son dövrlərdə dünyanın bir çox ölkələri öz milli standartlaşma sisteminin inkişafı və təkmilləşməsi üşün İSO standartlarından geniş istifadə edir. İSO-nun əsas məqsədi elmi, iqtisadi, texniki və intellektual fəaliyyətin müxtəlif sahələrində əməkdaşlığın genişlənməsi üçün dünya miqyasında standartların inkişafına kömək etməkdir. İSO standartlarının effektivliyinin artması, onun ölkələrin iqtisadi inkişafına, beynəlxalq ticarət və qiymət siyasətinə təsirinin genişlənməsi axır zamanlarda beynəlxalq standartlara marağın artmasına səbəb olmuşdur. Bir çox beynəlxalq standartlara elm və texnikanın inkişafını, keyfiyyət və təhlükəsizlik qaydalarına yeni tələbləri nəzərə alaraq müntəzəm şəkildə yenidən baxılmalıdır. Qəbul olunmuş qaydalara əsasən İSO beynəlxalq standarlarına beş ildə bir dəfədən az olmayaraq yenidən baxılmalıdır.

İSO standartlarının işlənib hazırlanması ilə hər biri müəyyən sahədə işləyən xüsusi texniki komitələr məşğuldur. İSO standartları iki dildə- fransız və ingilis dillərində dərc olunur və İSO üzvü olan bütün ölkələrə göndərilir. Xüsusən də İSO-9000, İSO-14000 standartları dünyanın bütün ölkələrində tətbiq edilir. Normativ-texniki sənədlər insan fəaliyyətinin bir çox sahələrində olduğu kimi kitabxana işi, biblioqrafik fəaliyyət, nəşriyyat işi, informasiya fəaliyyəti sahələrində də geniş tətbiq edilir. Həmin sahələrin standartlarına nümunə kimi 1988-ci ildə qəbul edilmiş 75-89 nömrəli Kitabxana, İnformasiya və Nəşriyyat işi üzrə Standartlaşma Sistemini (SİBİD) göstərmək mümkündür. Bizim ixtisas üzrə tətbiq edilən standartların demək olar ki, hamısı SİBİD-ə daxildir. SİBİD standartlar sistemi digər Müstəqil Dövlətlər Birliyi (MDB) ökələrində olduğu kimi Azərbaycanda da məcburi qaydada tətbiq edilir. Həmin sistem müntəzəm təkmilləşir və zamanın tələbinə uyğun dəyişikliklər edilir. Normativ-texniki sənədlərin cəmiyyətdə daha geniş nüfuz qazanması onun yeni-yeni sahələrinin tətbiq edilməsinə həsr edilir. Buna təhsil sahəsində yaradılan yeni Azərbaycan satndartlarını misal göstərmək mümkündür. Hal-hazırda mövcud normativ-texniki sənəd fondları həm standartlaşma orqanlarının ayrıca tərkib yarımbölmələrində, həm kitabxana fondlarında, həm də müəssisə və təşkilatların standartlaşma şöbələri də yaradılır və mühafizə olunur. Həmçinin normativ-texniki sənəd fondları bütün respublikaların paytaxtlarında və ölkələrin bir çox sənaye mərkəzlərində fəaliyyət göstərir. Bir qayda olaraq, onlar respublika, yaxud mərkəzi ərazi elmi-texniki kitabxananın tərkib hissəsidir. Respublika əhəmiyyətli hər bir NTS fondu digər respublikaların dövlət standartlarını, respublika orqanlarında qeydiyyatdan keçmiş texniki müqavilələri saxlayır. Respublika əhəmiyyətli NTS fondları dövlət nəzarəti laboratoriyaları da qeydiyyatdan keçmiş bütün texniki müqavilələri saxlayır.

Normativ-texniki sənədlər üzrə sənəd-informasiya tələbatı əsasən müəssisə və təşkilatların şəbəkə və internet saytlarında daha aktual əhəmiyyət kəsb edir. Bu ondan irəli gəlir ki, NTS-lər bu cür müəssisələrdə tətbiq olunur və həmin sənədlərin fərdi şəkildə istifadəsi halları xeyli azalır. Bundan əlavə layihə institutlarında, elmi-tədqiqat müəssisələrində aparılan işlərin böyük bir hissəsi texniki yaradıcılıqla bağlı olur, ona görə də müəssisə və təşkilatlar öz ehtiyacları üçün normativ-texniki sənədlərlə maraqlanırlar. NTS-lər üzrə informasiya tələbatı digər sənədlər üzrə tələbatdan əsasən onunla fərqlənir ki, normativ-texniki sənədlərin tətbiqi məcburi olduğu üçün hər bir müəssisə, təşkilat və onun əməkdaşları bu sahədə ilkin sənədlərə daha çox müraciət edirlər. NTS və onlara dair informasiya tələbatının formalaşmasında zaman amili də güclü təsir edir. Bu iki qrup arasında tələbatın zaman əhatəsi baxımından böyük fərqlər vardır. Bu da həmin sənədin vəzifəsi və əhəmiyyətindən irəli gəlir. NTS-in müəssisələrin, təşkilatların elmi və texniki

kitabxana fondlarında təmərküzləşməsi məqsədəuyğun deyil. Çünki, bu sənədlərin yerinə yetirdiyi funksiyalar məlum olduğundan, onların bu cür yerləşdirilməsi müəssisənin yarımşöbələrində təkrarçılığa gətirib çıxarır. Bu da müəssisənin işinə mənfi təsir göstərir. Bu cür təkrar fondların təşkili xalq təsərrüfatına mənfi təsir göstərir və baha başa gəlir: eyni işlə məşğul olan paralel əməkdaşlar ştatı, paralel otaqlar, avadanlıq və s. Ancaq ölkə, sahə və müəssisə daxilində standartlaşdırma xidmətləri standartlaşdırma işlərinin vəziyyətinə cavabdehdir və normativ-texniki sənədlərin aktuallığına nəzarət edə bilər. Məhz buna görə, normativ-texniki sənədlərin etalon fondlarının təşkili və mövcudluğu labüddür. Beləki, bu fondlar standartlaşdırma və NTS sənədlərinin işlənməsi və istifadəsi sahəsində digər ümumtəyinatlı normativ-texniki sənəd fondları üçün etalon hesab edilir.

Bütün bunları nəzərə alaraq Respublika Elmi-Texniki Kitabxanasının Normativ Sənədlər Fondu mövcud hüquqi sənədlərə və dünya təcrübəsinə əsaslanaraq öz işlərini günün tələbləri əsasında qurmağa çalışır. Bu məqsədlə Normativ-Texniki Sənədlər Fondu dünyanın bir sıra sanballı jurnallarını alır. Bura "Business Excellence", "İzmeritelnaya texnika", "İntel-lektualnaya sabstvennast", "Standartı i kaçestva" və s. daxildir.

1969-cu ildə yaradılmış normativ-texniki sənədlər fondunda 3 şöbə fəaliyyət göstərir:

1.Normativ-texniki sənədlərin komplektləşdirilməsi və işlənməsi şöbəsi
2.Sənaye kataloqlarının komplektləşdirilməsi və işlənməsi şöbəsi
3.Xidmət şöbəsi

Fondun məlumat-axtarış sistemi (əlifba, sistemli, nömrəli, predmet kataloqları) lazım olan sənədlərin operativ şəkildə tapılmasında oxucuya kömək edir.

Xidmət işi əsasən KAA vasitəsilə aparılır. Həm də respublikanın ayrı-ayrı müəssisələri ilə və hüquqi şəxslərlə bağlanan müqavilələr əsasında xidmət göstərilir.

RETK-nın Standart Fondunun 2013-cü il üzrə bəzi statistik göstəriciləri aşağıdakı kimi olmuşdur:

1.Oxucuların sayı-111 nəfər
2.Normativ-texniki sənədlərin və sənaye kataloqları üzrə oxucuların sayı-65 nəfər
3.KAA vasitəsilə normativ-texniki sənədlər və sənaye kataloqları üzrə oxucuların sayı-46 nəfər
4.Müraciət edən oxucuların sayı-135 nəfər
5.Sənəd verilişi-1644 nüsxə
6.NTS fondu və elmi-texniki sənədlər-1450
7.Sənaye kataloqları-194
8.Tematik sorğuların sayı-149

9.Yeni jurnallara baxışlar-12
10.Telefonla verilmiş (şifahi) biblioqrafik arayışlar-165
11.Biblioqrafik arayışlar-234
12.Yeni alınmış sənədlərin sayı-49
13.Oxucuların istifadəsindən qayıdan sənədlərin yerinə qoyulması-1200
14.Sənədlərin nömrələnməsi, redaktəsi, fondda yerinə qoyulması üçün hazırlanması işi-davam edir.

Hazırki ictimai inkişafın vacib şərtlərindən biri olan sənəd-informasiya təminatı sistemi və onun funksiya göstərməsinin mühüm amili olan kitabxana-informasiya təminatı daim təkamül edir və təkmilləşir. Bu təkmilləşmə zamanı həmin sahənin mütəxəssisləri insan təfəkkürünün yaratdığı ən yaxşı üsul və metodları yaradıcılıqla əxz edir və kitabxana fəaliyyətinin bütün istiqamətlərinə tətbiq edirlər.

Belə bir vəziyyətdə intellektual fəaliyyətə yardım edən yeni informasiya texnologiyaları və metodları kibernetikanın, informatikanın, sistemlər nəzəriyyəsinin nailiyyətlərinin öyrənilməsi, onların metod və üsullarına yaradıcı şəkildə kitabxana işinə, informasiya fəaliyyətinə və digər qohum sahələrə tətbiqi vəziyyətdən çıxış yolu oldu.

Bütün bunları nəzərə alaraq 1999-cu ildə Dövlət Elm və Texnika Komitəsi kitabxana-informasiya proseslərini avtomatlaşdırmaq və İnternet sisteminə qoşulmaq üçün kitabxananı müasir kompyüter texnikası dəstilə təchiz etmişdir. İnternetdən istifadə oxuculara xidmət sahəsində kitabxananın imkanlarını genişləndirmiş, zəruri informasiyanı dünyanın istənilən ölkəsindən əldə edib oxuculara çatdırmaq üçün əlverişli şərait yaratmışdır. Yeni informasiya texnologiyaları vasitəsi ilə kitabxananın filialları ilə, o cümlədən Normativ-Texniki Sənədlər Fondu ilə kitabxananın birbaşa əlaqəsinin olmasına baxmayaraq fondda yaradılmış kitabxana-informasiya bazası həm daxili lokal şəbəkə, həm koorporativ şəbəkə, həm İnternet, həm də diskret yolla təqdim edilə bilər ki, bu da tələbatçılar üçün əlavə axtarış azadlığı yaradır.

Həmçinin qeyd etmək lazımdır ki, RETK respublika miqyasında kitabxana işinə həsr edilən bütün tədbirlərdə iştirak edir. Artıq bir neçə ildir ki, RETK Azərbaycan –Açıq Cəmiyyət İnstitutunun üzvü kimi Beynəlxalq Soros Fondunun, eləcə də "Azərbaycan Kitabxana İşinin İnkişafi Assosiasiyası"nın təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak edir.

Beləliklə, RETK mövcud çətinliklərə baxmayaraq, müasir dövrdə öz işini zamanın tələbləri səviyyəsinə uyğun qurmağa və fəaliyyətini bu istiqamətdə genişləndirməyə daim səy göstərir.

Zənnimizcə, RETK-nın nəhəng informasiya ehtiyatlarının dünya informasiya ehtiyatlarına inteqrasiya olunması və kitabxananın işinin dünya

standartlarına və müasir zamanın tələblərinə cavab verməsi üçün aşağıdakı məsələlərin həll edilməsi olduqca önəmlidir:

–Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və daha da təkmilləşdirilməsi;

–İnformasiya istifadəçiləri ilə işi günün tələbləri səviyyəsində təşkil etməklə, onlara müasir standartlar səviyyəsində informasiya xidmətinin göstərilməsi;

–Kitabxanada və onun fondlarında müasir avadanlıqların və müasir texologiyaların tətbiqi;

–Kitabxananın və onun fondlarının daha çox tələb olunan yeni və aktual ədəbiyyatla zənginləşdirilməsi;

–Kitabxana proseslərinin avtomatlaşdırılması günün ən vacib problemidir. İnformasiyanın yeni texniki vasitələrinin tətbiqi informasiyanın səmərəliliyini artırmaq və keyfiyyətini yüksəltmək üçün əsas amildir.

–Ölkənin mühüm kitabxanaları, o cümlədən Respublika Elmi-Texniki kitabxanası və onun Normativ-Texniki Sənədlər Fondu bu sahədəki fəaliyyətlərini daha da intensivləşdirməlidirlər. Yalnız bununla informasiyalı cəmiyyətin tələbatına uyğun kitabxana-informasiya xidməti həyata keçirmək mümkündür.

Nəhayət RETK-nın çoxprofilli, zəngin elmi-texniki ədəbiyyat fonduna malik olduğunu və onun yerinə yetirdiyi funksiyaların milli kitabxanalara xas olduğunu nəzərə alaraq, ona Azərbaycan Respublikasının Milli Texniki Kitabxanası statusunun verilməsi məqsədəuyğundur və bu onun maddi-texniki bazasının möhkəmləndirilməsinə və beynəlxalq əlaqələrinin inkişafına və bir çox problemlərinin həlli yollarının asanlaşdırılmasına köməklik edə bilər.

ƏDƏBİYYAT

1.*Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi Respublika Elmi-Texniki Kitabxanasının Əsasnaməsi.- 2003.- 6s.*

2.*Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.- 1999.- 14 mart.*

3.*Standartlaşdırma haqqında Azərbaycan Respublikasının Qanunu// Xalq qəzeti.- 1996.-12 oktyabr.*

4.*Baxşəliyev Z. Respublika Elmi-Texniki Kitabxanası// Kitabxanaşünaslıq və biblioqrafiya; elmi-nəzəri və təcrübi jurnal.- B., 2000.- N2.- 9.23-28.*

5.*Xələfov A.A Azərbaycanda kitabxana işinin tarixi (1933-1958).- B.: Azərnəşr, 1974.- 244s.*

6.*Xələfov A.A Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə.- B.,2004.- 326s.*

7.Xələfov A.A Respublika Elmi-Texniki Kitabxanası-70.- B., 2001.- 37s.
8.Respublika Elmi-Texniki Kitabxanasının hesabatları (1990-2012).

Republican Scientific and Technical Library and the composition its Normative – Technical Documents Fund

M. Mammadov

Summary

In this article disclosed the thematic and typological composition of the Republiacn Scientific and Technical Library (RLST) and its Fund of Regulatory and Technical Documents, as well as analyzed and talked about the system of information resources and state standarts

Keywords: *Republican Scientific and Technical Library (RSTL); Fund of Regulatory and Techniacl Documents; Patent Foundation; the composition of RSTL mas documents; Patent and standarts; A book, library and reader.*

Состав нормативно – технической документов Республиканском научно – техническом библиотеки

М.Маммадов

Резюме

В научной статье анализирована тематический, типологический состав система информационных ресурсов нормативно – технической документации Республиканского научно – технической Библиотеки и расматривается патетно – стандартное информационное составлияющий в РНТБ.

Ключевые слова: *Республиканская научно-техническая библиотека (RETK,. Фонд нормативных и технических документов, Патентный фонд, патенты и стандарты, книги, библиотеки и читатели.*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN KİTAB VƏ KİTABXANA FƏALİYYƏTİ SAHƏSİNDƏ İNTEQRASİYA PROBLEMLƏRİ

P.F.KAZIMI
Tarix üzrə fəlsəfə doktoru.

Türk xalqlarının birliyi, inteqrasiyası, milli-mədəni yaxınlığı məsələlərinin gündəmə gəlməsi XX əsrin əvvəllərində bir qrup alim, mütəfəkkir və ziyalıların adı ilə bağlıdır.

Açar sözlər. *Kitabçılıq işi, kitabxana-informasiya fəaliyyəti,müasir kommunikasiya sistemləri, inteqrasiya prosesləri.*

Türkçülük ideyaları ilk dəfə Azərbaycan, Krım və Rusiya türkləri arasında yayılmağa başlayır. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl Qaspralı, Yusif Akçura kimi türkçü liderlər vasitəsi ilə bu ideyalar sonralar Osmanlı imperiyasına da nüfuz etmişdi. Adları çəkilən bu dörd mütəfəkkir bir neçə əsr ərzində unudulmağa doğru gedən türkçülük, türk birliyi ideyasını, türk soy düşüncəsini, türk həmrəyliyi ideyasını bərpa etdilər. Sonralar müxtəlif səviyyələrdə – şairlərin, filosofların, siyasi xadimlərin, mütəfəkkirlərin, dövlət başçılarının fikir və arzularında öz dəstəyini tapan bu ideyalar genişləndi və dünyəvi xarakter daşımağa başladı. XX əsrin sonları və XXI əsrin əvvəlləri bu ideyaların həyata keçirilməsi üçün münbit siyasi və iqtisadi zəmin yarandı.

Türk xalqlarının tarixi arzusunun həyata keçməsi, tarixi təcrübənin öyrənilməsi və müasir proseslərin təhlili nəticəsində, bir sıra ümumiləşmələr etməyə bizə imkan verir.

Milli-mədəni (eləcədə, daha dərin) inteqrasiyanın həyata keçirilməsi məqsədi ilə iki mühüm amilin olması vacibdir:

1. Siyasi iradənin mövcud olması.
2. İnteqrasiya texnologiyalarının öyrənilməsi və tətbiqi.

Siyasi iradə xalqların istək və arzularını ifadə edən, dövlət başçılarının müxtəlif səviyyələrdə çıxışları, məruzələri, imzalanan ikitərəfli və çoxtərəfli müqavilələr və bəyanatlarda öz əksini tapır.

İnteqrasiya texnologiyaları XX əsrin sonu və XXI əsrin əvvəllərində bu məqsədləri həyata keçirməyə, çoxistiqamətli fəaliyyət üçün geniş imkanlar yaradır.

Beləliklə, müəyyənləşmiş bu iki istiqamətdə türkdilli xalqların milli mədəni inteqrasiyasını, inteqrasiya proseslərində sosial institutların rolu, kitab, kitabxana-informasiya fəaliyyətinin istiqamətlərini müəyyənləşdirməyə çalışaq.

Türkdilli dövlətlərin dövlət başçılarının zirvə toplantısı altı türk dövlətinin başçılarının (yaxud dövlətin yüksək rütbəli nümayəndələrinin) iştirakı ilə həyata keçirilən zirvələrdir. Suveren dövlətlərin qarşılıqlı münasibətlərinə əsaslanan bu zirvələr, ortaq tarix, soy və mədəniyyətə malik liderləri bir araya toplamağa xidmət edir. 1992-ci ildən başlayaraq təşkil edilən bu zirvələrdə Türk dünyasının ortaq qayğıları gündəmə gətirilməkdədir. İndiyə qədər (2010-cu il) 10 zirvə toplantısı keçirilmişdir:

- 30.10.1992 – Ankara zirvəsi
- 18.10.1994 – İstanbul zirvəsi
- 28.08.1995 – Bişkek zirvesi
- 21.10.1996 – Daşkənt zirvəsi
- 09.06.1998 – Astana zirvəsi
- 08.04.2000 – Bakı zirvəsi
- 26.04.2001 – İstanbul zirvəsi
- 17.11.2006 – Antalya zirvəsi
- 03.10.2009 – Naxçıvan zirvəsi
- 15.09.2010 – İstanbul zirvəsi.

Türkdilli dövlətlər arasında siyasi və iqtisadi münasibətlər Sovetlər Birliyinin dağılmasından sonra başlamışdır. İlk belə zirvə Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın təşəbbüsü və ev sahibliyi ilə 1992-ci ildə Ankarada keçirilmişdir. Bu zirvəyə Azərbaycan prezidenti Əbülfəz Elçibəy, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Əskər Akayev, Özbəkistan prezidenti İslam Kərimov və Türkmənistan prezidenti Saparmurad Niyazov qatılmışlar. Gözlənilənlərin əksinə olaraq, zirvədə geniş miqyaslı qərarlar qəbul olunmadı. Alınmış qərarlar yalnız mədəni sahələrlə məhdudlaşdı: 6 dövlətin mədəniyyət nazirlərinin iclasında TÜRKSOY-un yaradılması və Türk dünyasında elm və mədəniyyət sahəsində böyük xidmətləri olmuş şəxslərinin adlarının birgə anılması qərara alındı.

2009-cu ildə Naxçıvanda keçirilən tədbirdə Özbəkistan xaric, digər dövlətlər təmsil olunmuşlar. Artıq burada Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi institutlaşaraq Türk Şurası adını almışdır. Sözügedən tədbir ümumən Türk dünyasının müasir dövrdəki tarixində, eləcə də Azərbaycanın xarici siyasətində kifayət qədər diqqətəlayiq bir yer tutur. Sammitdə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev, Türkmənistanın baş nazirinin müavini Xıdır Saparlıyev iştirak etmişlər. Sammitdə nə Özbəkistan prezidenti İslam Kərimov, nə də onun rəsmi nümayəndəsi iştirak etməmişdir. .

Naxçıvan sammiti Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının yaradılması haqda qərarı və Azərbaycan prezidentinin çıxışı ilə yekunlaşdı.Eyni zamanda TÜRKPA-nın iclası olmuş, Assambleyanın

nizamnaməsi qəbul olunmuş, katibliyi yaradılmış, büdcəsi müəyyən edilmişdir. Naxçıvan bəyannaməsinin əsas müddəaları əməkdaşlığın gələcək perespektivlərini müəyyənləşdirdi.

2010-cu ildə Ankarada Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Roza Otunbayeva, Türkmənistan prezidenti Qurbanqulu Berdımuhəmmədov Türkdilli dövlətlərin 10-cu sammitində iştirak etdilər. Türkdilli dövlətlərin əməkdaşlıq şurasının Katibliyinin, Ağsaqqallar Şurasının, həmçinin Türk Akademiyasının fəaliyyəti müzakirə olundu, regional sülh və təhlükəsizliyinin saxlanılması, iqtisadi əməkdaşlığın inkişafı, Qırğızıstandakı vəziyyətin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Sammitin gedişində liderlər Katibliyə baş katib vəzifəsinə Türkiyənin Rusiyada səfiri olmuş Xəlil Əkinçinin seçilməsinə razılıq verdilər. Liderlər Bakıda Türkdilli mədəniyyətin dəstəklənməsi və Türkdilli irsin qorunub saxlanması üçün fond yaradılması fikrini dəstəklədilər. Həmçinin, 2011-ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanın müstəqilliyinin 20 illiyinin qeyd olunması və Aşqabadda Türkdilli xalqların festivalının keçirilməsi qərara alındı. Liderlər həmçinin, iqtisadi əməkdaşlığı stimullaşdırmaq üçün İşgüzar Şuranın yaradılması barədə razılığa gəldilər və İstanbulda "Türkdilli dövlətlərin inkişaf bankı"nın və neftlə bağlı olmayan sahələrin inkişafının dəstəklənməsi üçün sığorta şirkətinin yaradılmasının mümkün olub-olmamasını araşdırmağı qərara aldılar. Türkdilli ölkələr üçün həssas olan məsələlərin regional və beynəlxalq təşkilatların gündəliyində daha intensiv yer tutması məqsədilə beynəlxalq təşkilatlarda birgə mövqenin nümayiş etdirilməsinin əhəmiyyətinə diqqət yetirdilər. Bununla əlaqədar, mühüm beynəlxalq tədbirlərdən əvvəl Türkdilli ölkələr arasında görüşlərin keçirilməsinin və əməkdaşlıq imkanlarının müzakirə edilməsinin Türkdilli ölkələr arasında münasibətləri genişləndirəcəyini və gücləndirəcəyini ifadə etdilər.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) ortaq dəyərlərin müəyyən edilməsi, zənginləşdirilməsi, yayılması və təşviqində, həmçinin Türkdilli ölkələr və xalqlar arasında mədəni əlaqələrin dərinləşdirilməsində mühüm bir vəzifəni yerinə yetirdiyini vurğuladılar.

Dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin Türk mədəni irsinin qorunması məqsədilə Bakıda Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılması ilə əlaqədar təşəbbüsün həyata keçirilməsinin əhəmiyyətini təsdiqlədilərvə2012-ci ildə Astananın Türk Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı TÜRKSOY-un təklifini dəstəklədilər.

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Katibliyinin Bakıda fəaliyyətə başlamasından duyduqları məmnuniyyəti ifadə etdilər və

TürkPAnın Türkdilli ölkələrin parlamentləri ilə digər ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini qeyd etdilər.

Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" əsasında təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlər arasında əməkdaşlığa təşkilati xüsusiyyət qazandıracağından və regional əməkdaşlığa müsbət töhfə verəcəyindən əmin olduqlarını bildirdilər.

Astana şəhərində Türk Akademiyasının açılmasından məmnunluqlarını ifadə etdilər və elm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin və Türkdilli ölkələrin elmi potensialının ortaya çıxarılmasının əhəmiyyətini qeyd etdilər.

Türkologiya elmi sahəsində elmi resursların, etno-mədəniyyətin və etnoturizmin təşviqinin əhəmiyyətini etiraf edərək, Türkologiya elminin geniş şəkildə anlaşılması və inkişaf etdirilməsi məqsədilə Türk Tarixi Muzeyinin və "Türk Akademiyası" çərçivəsində Türk Kitabxanasının yaradılması təşəbbüsünü dəstəkləyərək, Türk Akademiyası beynəlxalq təşkilatının yaradılmasının zəruriliyini vurğuladılar. Türk Akademiyasının fəaliyyətini dəstəkləmək məqsədilə universitetlər arasında birliyin yaradılmasını və bu məqsədlə universitetlər arasında birgə tədrisi də əhatə edən əməkdaşlıq formalarını təşviq edəcəklərini bildirdilər.

2011-2015-ci illər üzrə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) İcraedici Şurasının üzvlüyünə 2011-ci ilin oktyabr ayında keçiriləcək seçkilərdə Türkiyənin namizədliyini dəstəkləyəcəklərini təsdiq etdilər.

BMT-nin təşəbbüsü olan və mədəniyyətlər arasında qarşılıqlı hörmət, harmoniya və tolerantlıq mühitinin artırılması məqsədini güdən Sivilizasiyalar Alyansına dəstək verdiklərini və Türkdilli ölkələrin Alyansın işinə göstərdikləri yaxın münasibətdən məmnun qaldıqlarını ifadə etdilər.

Naxçıvan Sazişinin imzalanma gününün (3 oktyabr) Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü kimi qeyd edilməsini qərara alındı.

Qeyd olunduğu kimi, mədəniyyətlərimiz bir-birinə çox bağlı olduğuna görə, humanitar sahədə əməkdaşlıq daha da sürətlə inkişaf etməlidir. Azərbaycan Prezidenti İlham Əliyevin TÜRKSOY Fondunun yaradılmasına dair təklifi də məhz bu amala xidmət edir. Çünki bu Fond bütün türk dövlətlərində və eyni zamanda, bütün türk diyarlarında tarixi abidələrin bərpası, mədəniyyətlərarası əlaqələrin inkişafı ilə məşğul ola bilər, praktiki cəhətdən səmərəli işlərlə xalqlarımızı daha da sıx birləşdirə bilər. Digər tərəfdən, sözügedən Fond türk xalqlarının tarixinin daha dərindən və daha geniş şəkildə tədqiq etməlidir. Eyni zamanda, bu mədəniyyət dəyərlərimizi dünya ictimaiyyətinə tanıtmalıyıq. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təklif etdiyi kimi, Fond çərçivəsində Türkdilli Akademiyanın

yaradılması türkdilli xalqların dilinin, mədəniyyətinin araşdırılması və öyrənilməsinə dəstək ola bilər.

2012-ci ilin oktyabr ayında Almatada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə Toplantısı keçirilmişdir . Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Toplantısında iştirak etmiş və çıxışında demişdi.

Türkdilli ölkələr arasında işbirliyini, əməkdaşlığı şərtləndirən bir sıra mühüm məqamlar mövcuddur. Bunlardan ən önəmlisi həmin qardaş ölkələrimiz arasındakı müştərək dil, din, tarix, mədəniyyət və dəyərlərə əsaslanan tellərin çox güclü olmasıdır. Soykök yaxınlığımız qarşılıqlı münasibətlərin inkişafına və vahid qurum çərçivəsində hər bir dövlətin öz milli mənafeyini qoruyaraq əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar açır.

2012-ci ilin avqustunda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının II zirvə görüşündə müştərək fəaliyyətə böyük töhfələr verdi. Ortaq tarixə və mədəniyyətə malik olan türkdilli dövlətlər arasında siyasi, iqtisadi və mədəni əlaqələr genişlənir. Ölkəmiz türkdilli dövlətlərlə həm qarşılıqlı ikitərəfli münasibətlər çərçivəsində, həm də beynəlxalq təşkilatlar, birliklər formatında yaxın işbirliyi qurur, əməkdaşlığı dərinləşdirir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulamışdır ki, biz türkdilli xalqlar, ölkələr arasında birliyin daha da güclənməsinin tərəfdarıyıq. Çünki bu, hər bir türkdilli dövlətin iqtisadi inkişafına, onun beynəlxalq aləmdəki mövqelərinin daha da möhkəmlənməsinə böyük töhfə verir.

2014-cü ildə Bodrum zirvəsində "türkdilli dövlətlərin birləşdirici strategiyası müəyyənləşdirildi. Keçən müddət ərzində başqalarından fərqli olaraq, bu təşkilat stabil fəaliyyət göstərib. İndi onun rolunun yeni səviyyəyə qaldırılmasına ehtiyac duyulurdu.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) IV zirvə toplantısı 2014-cü ilin iyun ayında baş tutdu. Türkiyənin Bodrum şəhərində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Türkmənistan Prezidentləri səmərəli müzakirələr apardılar. Bu tədbir bir neçə aspektdə ciddi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, son zamanlar qlobal miqyasda cərəyan edən mürəkkəb geosiyasi proseslərin türk dövlətlərinin əməkdaşlıq formatına necə təsir edəcəyi maraq doğururdu.

Türkiyə Prezidenti Abdullah Gül türk dövlətlərinin əməkdaşlığının heç bir təşkilata qarşı yönəlmədiyini vurğuladı. Müasir tarixi mərhələdə sürətlə gedən qloballaşma prosesində, təməlində ortaq köklər, ortaq mədəniyyət və tarix dayanan xalqların əlaqələrini gücləndirmək istəyi tamamilə təbiidir. Azərbaycan Prezidenti İlham Əliyevin bu kontekstdə tədbirdə söylədiyi fikir əhəmiyyətlidir. Dövlət başçısı zirvə toplantısındakı çıxışı zamanı vurğuladı: "...İqtisadi sahədə görülən işlər də təqdirəlayiqdir. Biznes forum keçirilmişdir... Təhsil, nəqliyyat nazirlərinin görüşləri keçirilmişdir. Çox şadam ki, Azərbaycanın təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması

da artıq reallaşır... Mən bu gün xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Çünki TÜRKSOY bizi mənəvi cəhətdən, mədəniyyət sahəsində birləşdirən təşkilatdır. Bizim birliyimizin təməlində, əlbəttə ki, ortaq köklər, ortaq mədəniyyət, tarix dayanır və bu gün biz bu möhkəm təməl üzərində gözəl əməkdaşlıq yaradırıq".

Integration issues in the field of book and library activities Turkic-speaking countries

P.F.Kazymi

Summary

The article considers the development of the book deal and Turkish-speaking countries bibliotech¬nogo activities sovrimennoe his condition. Analyzes the possibilities of integration with In Use-vaniem sovrimennyh integration technology.

Key words. *Book Publishing, Library and Information Activities, modern communication systems, integration processes.*

Вапросы интеграции в сфере книжой библиотечной деятельности тюркоязычных стран

П.Ф.Казыми

Резюме

Статья рассматривает развитие книжного дело и библиотечного деятельности туркоязычных стран его соврименное состояние. Анализирует возможности интеграции с исползо-ванием соврименных интеграционных технологии.

Клучевые слова. *Книжная дело, Библиотечно-информационная деятельность,современные коммуникативные системы, интеграционные процессы.*

INFORMASIYA VƏ KOMMUNIKASIYA TEXNOLOGIYALARININ TƏHSIL PROSESİNƏ TƏTBIQINDƏ ELEKTRON KITABXANALARIN ROLU

N.Ə.HƏSƏNOVA
Bakı Dövlət Universiteti
İnformatika və Kitabxanaşünaslıq kafedralarının müəllimi
Texnika üzrə fəlsəfə doktoru
n_gasanova@hotmail.com

Məqalədə informasiya kommunikasiya texnologiyalarının insan fəaliyyətinin müxtəlif sahələrinə nüfuz etməsilə qlobal informasiya məkanının formalaşdırılması məsələlərinə baxılmışdır. Təhsil mühitinin informasiyalaşdırılmasında elektron kitabxanaların rolunun ön plana çıxması qeyd edilmişdir. Elektron kitabxanaların tərkib hissəsi kimi elektron resurs mərkəzlərinin yaradılmasının vacibliyi əsaslandırılmışdır.

Açar sözlər. *Informasiya kommunikasiya texnologiyaları, qlobal informasiya məkanı, rəqəmsal texnologiyalar, müasir təhsil texnologiyaları, elektron təhsil mərkəzləri, elektron kitabxana, İnternet resursları.*

Hazırda ayrı-ayrı şəxslər, qruplar, kollektivlər və təşkilatların fəaliyyəti mövcud informasiyanın səmərəli istifadə edilməsi imkanından asılıdır. İstənilən sahədə səmərəli həllərin tapılması böyük həcmdə informasiyanın emalını tələb edir. Əksər hallarda xüsusi texnika cəlb olunmadan informasiyanın emalı mümkün olmur.

XX əsrin ortalarında "informasiya böhranına" aid müəyyən problemlər yarandı. İnformasiyanın mənimsənilməsi və emalı ilə əlaqəli insanın məhdud imkanları və saxlanılan böyük həcmdə informasiya axınları və massivləri arasında ziddiyyət qabarıq şəkildə özünü büruzə verdi. Belə ki, biliklərin ümumi həcmi əvvəllər çox ləng dəyişirdi, lakin artıq 1900-cu ildən başlayaraq onun ikiqat artması hər 50 il, 1950-ci ildən ikiqat artma hər 10 il, 1970-ci ildən – hər 5 il, 1990-cı ildən isə bu proses hər il baş verir.

Bundan başqa, böyük həcmdə olan izafi informasiya istifadəçi tərəfindən faydalı informasiyanın mənimsənilməsini çətinləşdirir. İnformasiya böhranı cəmiyyətdə yaranmış vəziyyətlərdən çıxış yollarının axtarılması vacibliyini daha da qabartdı. Müxtəlif fəaliyyət sahələrinə EHM, informasiyanın emalı və ötürülməsinin müasir vasitələrinin tətbiqi industrial (sənaye) inkişaf mərhələsində yaşayan cəmiyyət üçün informasiyalaşdırma adlanan yeni təkamül prosesinin başlanğıcı oldu.

Cəmiyyətin informasiyalaşdırılması – informasiya resurslarının (ehtiyatlarının) formalaşdırılması və istifadəsi əsasında vətəndaşların, hökumət orqan-

larının, yerli idarəçilik orqanlarının, təşkilatların, ictimai birliklərin informasiyaya olan tələbatlarının ödənilməsi və hüquqlarının həyata keçirilməsi üçün optimal şəraitlərin yaradılmasının sosial-iqtisadi və elmi-texniki prosesidir.

İnformasiyalaşdırılmış cəmiyyət dedikdə onu təşkil edənlərin əksəriyyəti informasiyanın, xüsusən də onun ən yüksək forması hesab olunan biliklərin istehsalı, saxlanılması, emalı və həyata keçirilməsi ilə məşğul olan bir cəmiyyət kimi başa düşülür. Müasir tədqiqatlarda informasiyalaşdırılmış cəmiyyətin fərqləndirici xüsusiyyətləri qeyd olunur:

– digər resurslara nisbətən informasiyanın prioritetinin təmin edilməsi;
– informasiya iqtisadiyyatının inkişafın əsas formasına çevrilməsi;
– cəmiyyətin əsasını biliklərin istifadəsinin təşkil etməsi;
– insan fəaliyyətinin bütün sferalarını əhatə edərək informasiya texnologiyasının qlobal xarakter daşımağa başlaması;
– bütün insan sivilizasiyasının informasiya vahidliyinin formalaşması;
– İKT vasitələrinin köməyi ilə hər bir insanın dünya informasiya resurslarına azad müraciətinin mümkün olması;
– cəmiyyətin idarə edilməsi və ətraf mühitə təsirin humanist prinsipləri həyata keçirilməsi [5].

İnformasiyalaşdırılmış cəmiyyət üçün cəmiyyətin bütün nümayəndələrinin tələb olunan məlumatlandırma səviyyəsinin təmini, istifadəçiyə təqdim olunan informasiya xidmətlərinin həcmi və səviyyəsinin artması xasdır.

XXI əsr dünya sivilizasiyası informasiya kommunikasiya texnologiyaları (İKT) ilə xarakterizə olunur. Əgər 2000-ci ildə dünyada İnternet istifadəçiləri cəmi 246 milyon nəzərə alınmışdısa, hal-hazırda onların sayı milyardlarla hesablanır. XX əsrin sonu, XXI əsrin əvvəllərində intensiv kompüterləşdirmə və dünya ictimaiyyətinin informasiyalaşdırılması insan fəaliyyəti sahələrinə çoxaspektli təsir göstərmişdir. Bu özünü əsasən, siyasi-iqtisadi, təhsil, elm və mədəniyyət sahələrində biruzə vermiş və qlobal informasiya məkanının formalaşmasına güclü təsir göstərmişdir.

"Qlobal informasiya məkanı" termini özünü iki əsrin növbələşməsində, informasiya və texnoloji inqilabın son nailiyyətlərinin bir çox dünya ölkələri təcrübəsində tətbiqi ilə əks etdirir. Bu aktual problem üzrə beynəlxalq tədqiqatlarda və sənədlərdə bu anlayış daha dar mənada, əsasən, "Qlobal kibermə̇kan" (*global cyberspace*) kimi qeyd olunur. Hal-hazırda, tədqiqatçıların əksəriyyəti beynəlxalq ictimaiyyətin həyatında İKT-nin rolunu qlobal informasiya məkanının yaradılmasında görür. Qlobal informasiya məkanı isə dövlət və dövlətlərarası kompüter şəbəkələri, telekommunikasiya sistemləri və ümumi təyinatlı şəbəkələr, eləcə də digər rabitə kanallarını təşkil edən informasiya resursları və infrastrukturunun məcmusu kimi təqdim edilir. Nəzəri aspektdə informasiyalaşdırılmış cəmiyyət yüksək informasiya sferası ilə xarakterizə olunur. Buraya informasiyanın yaradılması, emalı, saxlanılması, ötürülməsi və toplanması ilə əlaqəli olan insanın fəaliyyəti daxil edilir. *İnformasiya sferası* (infosfera) – müasir cəmiyyətdə insanları əhatə edən, insan tərəfindən süni olaraq yaradılmış işarələr mühitidir. Müasir cəmiyyət inkişaf etdikcə informasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətlərini qəbul edir [2].

İnformasiya texnologiyaları avtomatlaşdırılmış və ənənəvi (əl ilə) şəkildə həyata keçirilir. Geniş mənada, *avtomatlaşdırma* insan fəaliyyətinin maşın və mexanizmlərlə əvəz olunmasına yönəlir. Avtomatlaşdırma dərəcəsi geniş intervalda dəyişə bilər: idarəetmə prosesinin tam həcmdə insan tərəfindən yerinə yetirildiyi sistemlərdən, bu proseslərin avtomatik yerinə yetirildiyi sistemlərə qədər. Avtomatlaşdırmanın həcmi, texniki vasitələrin növü və istifadəsi xüsusiyyəti konkret texnologiyanın xüsusiyyətindən asılıdır.

İdarə etmənin avtomatlaşdırılması, və deməli, informasiya sisteminin də avtomatlaşdırılması, texnologiyaların avtomatlaşdırılması aşağıdakı hallarda tələb olunur:

– verilmiş prosesin idarə edilməsi üçün insanın fizioloji və psixoloji imkanları kifayət qədər deyil;
– idarəetmə sistemi insanın həyatı və sağlamlığı üçün təhlükəli mühitdə yerləşir;
– prosesin idarə edilməsində iştirak etmək üçün insandan yüksək peşəkarlıq tələb olunur;
– idarə olunmaya məruz qalan proses böhran və ya qəza vəziyyətindədir.

Avtomatlaşdırılmış informasiya texnologiyaları (AİT) informasiya ilə əlaqəli olan bütün əməliyyatlar üçün avtomatlaşdırma vasitələrini istifadə edirlər. Ona görə də avtomatlaşdırılmış informasiya texnologiyalarını aşağıdakı kimi təyin etmək olar. *Avtomatlaşdırılmış informasiya texnologiyaları* dedikdə, verilənlərin ötürülməsi, toplanması, saxlanılması və emalı üçün hesablama texnikası və rabitə sistemlərinin üsul və vasitələrini istifadə edən informasiya texnologiyaları başa düşülür. Bununla əlaqədar olaraq informasiya resurslarının emalı ilə bağlı olan bir sistem kimi avtomatlaşdırılmış informasiya texnologiyaları avtomatlaşdırılmış sistem kimi götürülə bilər.

Avtomatlaşdırılmış sistem dedikdə, müxtəlif proseslərin avtomatlaşdırılması üçün nəzərdə tutulmuş texniki, proqram və digər vasitələrin və işçi heyətin kompleksi başa düşülür.

AİT ilə yanaşı təcrübədə, informasiya texnologiyalarında kompüter vasitələrinin tətbiqini qeyd edən, yeni informasiya texnologiyası terminindən istifadə olunur. *Yeni informasiya texnologiyası* – fərdi kompüter və telekommunikasiya vasitələrini tətbiq edən "dostluq" interfeysi əsasında istifadəçinin işini təmin edən informasiya texnologiyasıdır. "Kompüter" sözü onu qeyd edir ki, onun həyata keçirilməsində əsas texniki vasitə kompüterdir. Yeni İT-nin əsas prinsipləri aşağıdakılardır:

– kompüter ilə interaktiv iş rejimi;
– digər proqram məhsulları ilə inteqrasiya;
– məsələlərin qoyuluşu və verilənlərin dəyişdirilməsi prosesinin çevikliyi.

Yeni informasiya texnologiyalarının fərqləndirici cəhəti son istifadəçiləri (hesablama texnikası və proqramlaşdırma sahəsində peşəkar olmayan idarəetmə sahəsinin mütəxəssisləri) iş yerlərində müasir kompüter vasitələri ilə təmin edərək idarə edici qərarların hazırlanması prosesinə fəal cəlb edilməsindən ibarətdir. Bu, idarə edici qərarların hazırlanması və qəbulu prosesində idarəetmə sahəsində işləyən mütəxəssislərin yaradıcılıq potensialını, təcrübəsini, intuisiyasını birbaşa tətbiq etməyə imkan yaradır. Bundan başqa, nəticəvi informasiyanın alınması operativliyini artırır, idarə edici qərarların texnoloji ardıcıllığında aralıq mərhələlərin götürülməsi ilə əlaqəli olan səhvlərin yaranması ehtimalını aşağı salır.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid zamanı insanı böyük həcmdə informasiyanın mənimsənilməsi və emalına, müasir vasitə, üsul və texnologiyaların öyrənilməsinə hazırlamaq tələb olunur. İnformasiya ilə işləmək üçün insan müəyyən mədəniyyət səviyyəsinə malik olmalıdır. Bu faktın əks olunması üçün "informasiya mədəniyyəti" termini daxil edilmişdir.

İnformasiya mədəniyyəti dedikdə informasiya ilə məqsədyönlü işləmək və onun alınması, emalı və ötürülməsi üçün avtomatlaşdırılmış informasiya texnologiyasının, müasir texniki üsul və vasitələrin istifadə edilməsi başa düşülür. İnformasiya axınında sərbəst hərəkət etmək üçün insan ümumi mədəniyyətin tərkib hissəsi olan informasiya mədəniyyətinə yiyələnməlidir. İnformasiya mədəniyyəti insanın sosial təbiəti ilə əlaqəlidir [7]. O, insanın müxtəlif yaradıcılıq imkanlarının məhsuludur və aşağıdakı aspektlərdə özünü büruzə verir:

– texniki qurğuların istifadə edilməsi ilə bağlı konkret səriştələrdə;
– fəaliyyətində baza tərkib hissəsi kimi çoxsaylı proqram məhsulları olan avtomatlaşdırılmış informasiya texnologiyasının istifadəsi qabiliyyətində;
– müxtəlif mənbələrdən informasiyanın çıxarılması bacarığında;
– informasiyanın aydın formada təsvir edilməsi bacarığında, informasiyanın analitik emalı əsaslarına yiyələnməsində;
– informasiyanın müxtəlif növləri ilə işləmə bacarığında.

İnformasiya mədəniyyəti onun inkişafı və konkret fəaliyyət növünə uyğunlaşmasına şərait yaradan elmlərdən (informatika, hesablama sistemləri və telekommunikasiya şəbəkələri, informasiya texnologiyaları, verilənlər bazaları və bir sıra digər fənlər) bilikləri mənimsəyir. İnformasiya mədəniyyətinin ayrılmaz hissəsi yeni informasiya texnologiyasını bilməsi və onu tətbiqi informasiya proseslərinin avtomatlaşdırılmasında olduğu kimi istifadə etməsi bacarığıdır.

Qloballaşma həyatın bütün sahələrini, xüsusən də təhsil sisteminə ciddi təsir edir. Bu gün qloballaşma proseslərinin təsiri ilə dünyada Vahid İnformasiya Təhsil Məkanı formalaşmaqdadır. Bu vahid təhsil məkanı yüksək beynəlxalq standartlar əsasında yaradılmış milli təhsil məkanlarının inteqrasiyasını tələb edir. Qlobal təhsilin texnologiyası müasir informasiya texnologiyasıdır. Müasir dövrdə təhsil sisteminin məqsədi həm yeni texnologiyaları öyrətmək, həm də bu texnologiyaların cəmiyyət həyatında istifadə edə biləcək mütəxəssislər yetişdirməkdir.

"Biliyə əsaslanan cəmiyyət"in və azad dünya iqtisadiyyatında informasiya sektorunun yaranması birbaşa olaraq informasiya sənayesi və ilə sıx bağlıdır. Müasir kitabxanaların əsas funksiyalarından biri, istehsal informasiya resurslarının hazırlanması, emalı, və informasiya xidmətinin göstərilməsidir. Əvvəllər heç vaxt kitabxanalara istehsal sistemi kimi baxılmırdı, hazırda kütləvi və müstəqil kitabxanaların fəaliyyəti İKT-nin kitabxana təcrübəsinə tətbiqi ilə mümkün olmuşdur. Bu gün kitabxanaların informasiyalaşdırılması prosesi aktiv kompüterləşdirilmə, Avtomatlaşmış Kitabxana-İnformasiya Sistemlərin (AKİS) yaranması və informasiyanın çatdırılmasında istifadə olunan müasir kommunikasiya vasitələrinin tətbiqi ilə xarakterizə olunur.

Kitabxanaların avtomatlaşdırılması yüksək ixtisaslı kitabxanaçıların və kompüter texnikası mütəxəssislərinin birgə əməyini tələb edən mürəkkəb bir texnoloji prosesdir. Bu proses texniki-proqram təminatı əsasında həyata keçirilir. Texniki-proqram təminatı kitabxanaların kompüterləşməsinin baza komponentidir. Avtomatlaşdırmanın uğurla nəticələnməsi məhz texniki-proqram təminatının düzgün seçilməsindən və quraşdırılmasından asılıdır. Lokal kompüter şəbəkəsi kitabxana daxilində şəbəkə ehtiyatlarından birgə istifadəni və kompüterlər arasında operativ informasiya mübadiləsini təmin edir [6].

Kitabxanaların kompleks avtomatlaşdırılması üçün yaradılmış tətbiqi proqram paketləri AKİS-lərdir. AKİS-lərin seçilməsində müəyyən tələblər ödənilməlidir:

– Sistem "açıq" tipli olmalıdır, yəni beynəlxalq maşınla oxunan biblioqrafik, texniki-sistem standartlarına (USMARC, UNIMARC, ISO və s.) uyğun olmalıdır. Əks təqdirdə sistemin ümumi şəkildə istifadəsi, uzaq məsafədən istifadə digər sistemlərlə informasiya mübadiləsi qeyri-mümkün olacaq;

– İnternet texnologiyasına inteqrasiya imkanı olmalıdır. Bu Web texnologiyanın tətbiqi ilə paylanmış informasiya bazalarından istifadəni oxucu sorğusunun uzaq məsafədən operativ ödənilməsini, kitabxananın biblioqrafik və informasiya resurslarının ölkə və dünya informasiya məkanına inteqrasiyasının təmin edilməsini nəzərdə tutur;

- "Genişlənə" bilən olmalıdır. Sistem qeyri-məhdud sayda məlumat bazaları ilə işləmək, qeyri-məhdud həcmli informasiyanı operativ idarə etmək və qeyri-məhdud sayda istifadəçiyə xidmət göstərmək xüsusiyyətinə malik olmalıdır;
- Adaptasiya və modernizasiya oluna bilən olmalıdır. Ümumi kitabxana proseslərindən əlavə, lokal xarakterli və əvvəllər nəzərdə tutulmayan funksiyaların yerinə yetirilməsi üçün modernizasiya oluna bilməlidir;
- Informasiyanın bütün növləri ilə işləmək imkanı olmalıdır. Müasir kitabxana ənənəvi yazı materialları ilə yanaşı, digər video, audio materiallar, ən çox da elektron sənədlərlə işlədiyindən sistem OLE texnologiyasını dəstəkləməlidir;
- UNICODE şriftlərini dəstəkləməlidir;
- Sadə işçi interfeysi olmalıdır;
- Kitabxananın əsas texnoloji proseslərinin kompüterləşdirilməsini təmin edən müvafiq avtomatlaşmış işçi yerləri olmalıdır;
- Avtoritet faylların, predmet göstəricilərinin yaradılmasını və ondan istifadəni təmin edə bilməlidir [4].

Korporativ kitabxana informasiya şəbəkəsi istifadəçilərə online şəkildə şəbəkə resurslarından və şəbəkənin digər kitabxana informasiya mərkəzləri ilə əlaqəsi olduqda isə digər AKİS-lərin informasiya resurslarından istifadəni təmin edir. Bu halda oxucunun informasiya tələbatının ödənilməsi ehtimalı kəskin surətdə artır. Digər tərəfdən xarici ölkələrin kitabxana informasiya mərkəzlərinin elektron kataloqlarından istifadə dünyada elmi nəzəriyyələri, elmi yenilikləri izləməyə imkan verir, tədris və elmi axtarışlar üçün çox əhəmiyyətlidir. Bu səbəblərdən Korporativ Kitabxana-İnformasiya Şəbəkəsi informasiyalaşdırılmış cəmiyyətin yaradılmasında əvəzsiz vasitədir [6].

Korporativ Kitabxana-İnformasiya Şəbəkəsi avtomatlaşmış kitabxanaların könüllü konsorsiumu əsasında yaradılır. Hər bir iştirakçı konsorsiuma daxil olarkən öz üzərinə bəzi öhdəliklər götürür:

- Konsorsiumda uzun müddətli iştirakı;
- Öz biblioqrafik, sənəd və məlumat ehtiyatlarının elektron formada hazırlanmasını və birgə istifadəyə verilməsini;
- Korporativ şəbəkənin iştirakçılarının ümumi işini təmin etmək üçün istifadə olunan texniki-proqram təminatının tərkibi və xarakteristikaları üçün tələblərə əməl olunmasını;
- Korporativ şəbəkənin yaradılması, fəaliyyət göstərməsi və gələcək inkişafı üçün texniki təminatın, maliyyə vəsaitlərinin ayrılmasını;
- Korporativ şəbəkədə ümumi istifadə üçün təqdim olunmuş informasiyanın keyfiyyətinə məsuliyyəti;

- Şəbəkəyə yeni istifadəçiləri cəlb etmək üçün şəbəkənin ehtiyatlarının, xidmətlərinin reklamının təşkil edilməsini və s. [4]

Korporativ Kitabxana-İnformasiya Şəbəkəsi "paylanmış" şəkildə, ərazi cəhətdən uzaq məsafədə yerləşən ayrı-ayrı kitabxana kompüter-informasiya şəbəkələrinin şəbəkəsidir. Şəbəkələr arasında əlaqə müvafiq texniki-proqram vasitələri, rabitə xətləri, İnternet vasitəsilə, telekommunikasiya kanalları ilə təmin edilir. Korporativ şəbəkənin strukturu, topologiyası və proqram-aparat təminatı şəbəkənin qarşıya qoyduğu məsələlərin mürəkkəbliyi, iştirakçıların coğrafi yerləşmələri ilə müəyyən olunur. Böyük şəbəkələrin strukturunda, onların idarə olunmasını təmin edən baza informasiya mərkəzinin – provayderin və ərazi şəbəkə mərkəzlərinin olması zəruridir. Baza informasiya mərkəzi – provayder şəbəkənin bütövlükdə texniki-informasiya, administrasiya xidməti-nin yerinə yetirilməsini və şəbəkənin fəaliyyətinə nəzarəti təmin edir. Ərazi şəbəkə mərkəzi müəyyən ərazidə fəaliyyət göstərən informasiya şəbəkələrinə xidməti və onların korporativ şəbəkədə birgə fəaliyyətini təmin edir.

Korporativ Kitabxana-İnformasiya Şəbəkəsinin informasiya təminatı əsasən şəbəkənin iştirakçısı olan kitabxanaların lokal kitabxana informasiya mərkəzlərində, qismən isə baza informasiya mərkəzində və ərazi şəbəkə mərkəzlərində korporativ şəkildə hazırlanır. Lokal kitabxana informasiya mərkəzləri həmçinin kitabxana filiallarının da informasiya ehtiyatlarının yaradılmasını təmin edir və öz oxucularına kompüter sinifləri vasitəsilə İnternet və İntranet şəbəkəsinin elektron xidmətlərini təşkil edir.

Korporativ Kitabxana-İnformasiya Şəbəkəsinin proqram təminatı ilk növbədə şəbəkənin məhsuldarlığını, etibarlı fəaliyyətini, kompüter, periferiya, telekommunikasiya qurğularının şəbəkədə işlənməsini təmin etməli, beynəlxalq şəbəkə standartlarına cavab verməli, şəbəkənin digər informasiya sistemlərinə inteqrasiyasını təmin etməlidir.

İnformasiya resurslarına mətn sənədləri, məlumat bazaları, audio və vizual sənədlər, qrafik materiallar və veb səhifələr daxildir. Qloballaşma prosesində, İKT-nin diffuziyası nəticəsində yığılmış informasiya ehtiyatları dünyəvi informasiya resursları olaraq qəbul edilə bilər. Onların vahid informasiya məkanında birləşməsi informasiya və kommunikasiya infrastrukturunun vasitəsilə baş verir. Bu özündə bir sıra ictimai və korporativ informasiya bölgüsü sistemlərini, kommunikasiya vasitələrini, şəbəkə və məlumat kanallarını, kommunikasiya qurğuları və məlumat idarəetmələrini əks etdirir. İKİ-nin səmərəli fəaliyyət göstərməsi üçün, hüquqi və tənzimləyici mexanizmlərin tətbiqi lazımdır.

Beynəlxalq standartlara cavab verən elektron kitabxanaların yaradılması çox ağır və mürəkkəb məsələ olub, kifayət qədər vaxt və iri maliyyə resursları

tələb edir. Bu elektron kitabxanaların proqram təminatı, kitabların kartotekası, annotasiyası və kitabların mətninin daxil edilməsi prosesi daxil edilir. Belə olduğu təqdirdə təhsil müəssisələrində elektron resurs mərkəzləri elektron kitabxananın tərkib hissəsi kimi çıxış edir və öz funksional imkanlarına görə elektron kitabxananın funksiyalarını yerinə yetirə bilər. Tədris prosesində istifadə üçün əhəmiyyətli ola bilən İnternet resursların – elektron kitab nəşrlərin virtual elmi konfranslarının materiallarının seçilib xüsusi serverdə yerləşdirilməsi hesabına tədris prosesində informasiya əlyetərliyini təmin etmək mümkündür [5].

"İstənilən yerdə istənilən vaxt rabitədə olmaq" devizi rəqəmsal texnologiyaların hərəkətverici qüvvəsinə çevrilmişdir. Bunun nəticəsində də Wi-Fi, Bluetooth, Firefox, WiMAX kimi yeni texnologiyalardan geniş istifadə edilir. Bu texnologiyalar vasitəsilə təhsildə elektron resurs mərkəzlərinə müraciətin təmin edilməsini perspektiv məsələlərdən hesab etmək olar. Indi İnternetə genişzolaqlı giriş artıq reallıqdır. Prosessorlar istehsalında dünyəvi liderliyini saxlayan İntel şirkətinin naqilsiz texnologiyalar sahəsində apardığı tədqiqatlarda ən əsas istiqamət bir-biri ilə genişzolaqlı naqilsiz rabitə standartı olan WiMAX (Worldwide Interoperability for Microwave Access) texnologiyasıdır. Naqilsiz şəbəkənin iş prinsipi mobil telefonda olduğu kimidir: verilənlərin bir nöqtədən digərinə ötürülməsi adi naqil əvəzinə radiodalğalar vasitəsilə həyata keçirilir. Naqilsiz texnologiya eyni parametrli naqilli texnologiyaya nisbətən sürətli və təhlükəsizdir. Naqilsiz şəbəkə texnologiyaları vasitəsilə elmi informasiyaların məsafədən ötürülməsi özü-özlüyündə distant təhsil texnologiyasının baza ünsürlərini özündə ehtiva edir. Distant təhsil didaktik-metodoloji nöqteyi-nəzərdən qiyabi və əyani təhsilin bir sıra atributlarını təmsil etmiş olur. Belə ki, müəssisənin müvafiq tədris binası çərçivəsində topoloji naqilsiz şəbəkə texnologiyaları vasitəsilə əyani təhsilin tədris metodik məzmununu realizə etmək mümkündür [8].

Təhsil sistemində istifadə olunan metodların inkişaf etdirilməsi ilə bərabər yüksək texnologiyaların da inkişafı və tətbiqi distant təhsilin müasir dövrdə aktuallığını artırmışdır. Distant təhsil sayəsində zaman, məkan və maliyyə çatışmamazlıqları baxımından kifayət qədər uyğun şəraitdə təhsil ala bilmək imkanı ola bilər. Distant təhsil – təhsil almaq istəyən şəxslə təhsil verənin coğrafi uzaqlıqda olduğu hal üçün istifadə olunan öyrənmə-öyrətmə (tələbə-müəllim) sistemidir. Bu zaman müxtəlif informasiya vasitələri və qarşılıqlı təsir kanallarından istifadə edilərək öyrənmək istəyənlə (tələbə) öyrədən (müəllim) bir-biri ilə ünsiyyət qurur. Təhsildə kitablar, nəşr olunmuş əlavə materiallar və əyani vasitələrdən istifadə edilə bildiyi kimi, video-audio disklər, elektron kitablar, kabel, peyk və s. interaktiv telekonfransların yaradılması da öyrədici vasitə rolunu oynaya bilər. Dərs materialları bu zaman daha çox tələbəni əhatə edə bilər və öz sahəsində mütəxəssis olan şəxs eyni

zamanda daha çox sayda tələbəyə dərs keçə bilər. distant təhsil vasitəsilə tələbə müəllimin tərtib etdiyi proqramla deyil, öz imkanlarına uyğun və əlverişli olan proqramla işləyə bilər. Distant təhsil nəinki təhsil təşkilatlarına əlaqə texnologiyalarını əlavə edir, eyni zamanda muasir təhsil sistemində bilik və informasiyanın çox sürətlə dəyişməsi səbəbiylə ömür boyu təhsilə çevrilir. Beləliklə, distant təhsil ənənəvi təhsillə bərabər imkanları təmin edə bilər, bu da təhsilə demokratik xüsusiyyət qazandırır [1].

Distant təhsilin inkişafından bu yana bir çox texnologiyalardan istifadə edilir. Bəzi texnologiyalar ənənəvi təhsili dəstəkləyir, bəziləri də ənənvi təhsilin əvəzinə istifadə edilir. Bəzi texnologiyalar müəyyən çərçəvədə bilik verir, bəziləri isə tələbənin ehtiyacına görə əlavə bilik verə bilər və ya dərs materialını asanlaşdıra bilər. Məsələn, ABŞ-da distant təhsil şagird və tələbələrlə ikitərəsli qarşılıqlı təsiri təmin etmək şəklində qurulmuşdur. Keyfiyyətli distant təhsil sistemi üçün şagird və ya tələbənin iştirakı və qarşılıqlı əlaqə qurmasından asılıdır. Distant təhsil sistemi ənənəvi təhsilə nə qədər çox yaxınlaşa bilərsə, bir o qədər interaktiv bir sistem kimi məqsədini reallaşdıra bilər. Distant təhsildə yeni texnologiyaların istifadəsinin atrması ilə birlikdə qarşılıqlı təsirdə də bir çox müxtəliflik yaradılmağa başlanmışdır. Bu da distant təhsilin əhatə dairəsini genişləndirir. Audio-telekonfrans, video konfrans, e-mail, chat (söhbət) vasitələri, görüntülü toplantılar, şagird və ya tələbələrin bir-birlərini taniya bilmələri imkanı, qarşılıqlı təsirdə bir-birlərini tapa bilmə və sistemi tanıya bilmə imkanları yaradılır [8].

Distant təhsildə qarşılıqlı təsir sistemi üç şəkildə ola bilər:

1. Tələbə ilə müəllim arasında qarşılıqlı təsir sistemi;
2. Tələbə ilə dərs materialı arasında qarşılıqlı təsir sistemi;
3. Tələbə ilə tələbə arasında qarşılıqlı təsir sistemi.

Müvəffəqiyyətli distant təhsil şagirdlər arasında sıx ünsiyyət sisteminin yaradıla bilməsi ilə xarakterizə edilir. Çünki distant təhsil alan şagird yalnızlıq duyğusu hiss edə bilər. Şagirdlərə xüsusilə vaxtlarını düzgün təşkil etmə, təhsil alma qabiliyyətlərinin inkişaf etdirilməsi, tədris vasitələrindən müvəffəqiyyətlə istifadə edə bilmələri üçün məsləhətlər, eləcə də dərslərlə əlaqəli akademik məsləhətlər də verilə bilər.

Distant təhsildə müxtəlif texnologiyalardan istifadə edilir: adi poçt xidməti, kitab və nəşr materialları; radio-səs kasetləri, televiziya, video, telekonfrans, computer, internet və s.

Adi poçt xidməti, kitab və nəşr materialları: Distant təhsildə ilk olaraq adi poçt xidməti vasitəsilə təhsil təşkil edilmişdir. Şagird və tələbələrə kitablar və nəşr materialları poçtla göndərilmişdir. Yüksək texnologiyaların inkişaf etməsinə baxmayaraq kitablar və nəşr materiallarından istifadə hələ də davam edir.

Radio-səs kasetləri: Bu vasitələrin ən sıx olaraq istifadə edildiyi sahə xarici dillərin öyrənilməsi olmuşdur.

Televiziya: Televiziya vasitəsilə mövzular haqqında geniş biliklər verilmiş, hekayə, film və real həyatdan nümunələr göstərilmişdir.

Video: Televiziyadan fərqli olaraq videodan istifadə etməklə vaxt maneəsi aradan qaldırılmış və tədris alanın öz istəyinə görə biliklər əldə edilməsi imkanı yaranmışdır.

Telekonfrans: Telekonfrans vasitəsilə ayrı-ayrı yerlərdə olan qruplar öz aralarında əlaqə yaradırlar. Şagird və ya tələbələrlə müəllimlər bir-birlərilə eyni zaman anında qarşılıqlı ünsiyyət imkanı əldə edə bilirlər. Həm audio-konfrans, həm də video-konfransdan istifadə edilir.

Peyk televiziya şəbəkəsi: Bu tip texnologiya vasitəsilə təhsil çox populyar olub, bir sıra təşkilatlar tərəfindən biliklər əldə etmək üçün istifadə edilir.

Kompüterdən istifadə etməklə təhsil: Kompüterdən istifadə etməklə CD, DVD-lərlə istifadəçiyə çatdırılan təhsildir. Kompüterə qoşulan kamera, skaner vasitəsilə müxtəlif tipli sənədlər və şəkillər bir yerdən başqa yerə göndərilə bilər. İmtahanlar kompüter vasitəsilə keçirilə bilər və dərhal qiymətləndirilə bilər.

İnternetlə təhsil: Bu texnologiyaya bəzən "Veb əsaslı təhsil", "online elektron siniflər" və ya "virtual təhsil birlikləri" də deyilir. İnternetlə təhsil texnologiyası yuxarıda sadalanan hər üç qarşılıqlı təsir sistemini dəstəkləyir. Müxtəlif verilənlər bazası, elektron nəşrlər, jurnallar, kitabxanalar və linklər köməkçi qaynaq olaraq distant təhsilə kömək edir.

Distant təhsildə yuxarıda göstərilən texnologiyalardan biri və ya bir neçəsi birlikdə istifadə edilə bilər. Bu texnologiyalardan hansının istifadə ediləcəyi, hansının daha effektiv olacağı hədəfdə olan şagird kütləsinin xüsusiyyətləri, kursun məqsəd və məzmunu və tədrisin müddətindən asılıdır.

Bu gün multimedia texnologiyaları təhsil prosesinin informasiya-laşdırılmasının ən perspektiv istiqamətlərindən biridir. Proqram və metodiki təminatın, maddi bazanın təkmilləşdirilməsi, müəllim heyətinin ixtisasının artırılması müasir informasiya texnologiyalarının təhsildə uğurlu tətbiqində görünür. Multimedia texnologiyaları təhsil prosesini zənginləşdirir, təhsilin daha effektiv olunmasına imkan verir, tədris olunan informasiyanın əsasən cismani tədris kompanenti kimi qavranması prosesinə təsir edir [3].

Multimedia və hipermedia texnologiyaları təhsil resurslarının güclü bölgülərini özündə birləşdirir, onlar ilk növbədə informasiya və kommunikasiyaya aid olan biliklərin yaranmasını və formalaşması mühitini təmin edə bilirlər. Multimedia və telekomunikasiya texnologiyaları ümumi təhsil sistemində yeni metodiki yanaşmalar açır. *Multimedia* - müasir texniki və proqram vasitələrindən istifadə etməklə interaktiv proqram təminatı idarəsi ilə

vizual və audioeffektin əlaqəsidir. Multimedia texnologiyaları tətbiq olunan tədris ənənəvi tədrisdən fərqli olaraq aşağıdakı üstünlüklərə malikdir:

- Rəngli qrafikadan, animasiyadan, səsli təsvirdən, hipermətndən istifadəyə yol verilir;
- Daimi yeniləndirilmə imkanına yol verilir;
- Nəşri və çoxaldılması üçün kiçik xərclər var;
- Onda interaktiv veb-elementin, məsələn, testlər və ya işçi dəftərin yerləşdirilməsi imkanına yol verilir;
- Sitatlaşdırmaq üçün hissələrin köçürülməsi və surətinin çıxarılması imkanına yol verilir;
- Çoxsaylı hiperistinadlar sayəsində materialın qeyri-xətti ötürülməsi imkanına yol verilir;
- Elektron kitabxanalarda və ya təhsil saytlarında əlavə ədəbiyyatla hiperəlaqə yaradılır [3].

Multimedia kompüter texnologiyaları müəllimlərə öyrənilən materialın dərin və dərk edilmiş şəkildə mənimsənilməsi üçün müxtəlif materialları operativ birləşdirmək imkanı verir, dərs müddətinə qənaət edir, onu informasiya ilə təmin edir.

İKT-nin tətbiqinin yüksəldilməsində yeni istiqamət informasiya və təhsil texnologiyalarının inteqrasiyasıdır. Bu prosesin sürətləndirilməsi üçün aşağıdakı tövsiyyələr məqsədəuyğundur:

- Yeni İKT vasitələrinin təhsilə tətbiqi üzrə seminarların və təlim kurslarının təşkil edilməsi;
- Yeni İKT vasitələrinin tətbiqi ilə əlaqəli İnternet xidmətlərinin inkişafı üçün stimullaşdırıcı şəraitin yaradılması;
- İnformasiya texnologiyaları üzrə beynəlxalq informasiya fəzası çərçivəsində təhsildə informasiya texnologiyalarının tematik sisteminin yaradılması işlərinin aktivləşdirilməsi;
- Təhsildə informasiya texnologiyalarının metodoloji və medodik əsaslarının analizi və sintezinin işlənməsi.

Elmi-texniki inqilab insan fəaliyyətinin bütün sahələrində avtomatlaşdırılmış vasitələr sistemindən istifadə etmək zərurətini yaratmışdır. İKT vasitələrinin tədris prosesində tətbiqi artıq günün tələbinə çevrilməlidir.

ƏDƏBİYYAT:

1. Həsənova N.Ə. Təhsildə müasir informasiya kommunikasiya texnologiyaları, Kitabxanaşünaslıq və informasiya (elmi-nəzəri və praktiki jurnal), ISSN 2219-5882, Bakı-2014, №2 (14), səh 79-86

2. *Koster F. Globalization, Social Strukture and the Willingness to help Others: a Multilevel Analysis Across 26 Countries // European Sociological Review.-2007.-Vol.23, N4-P.540*

3. *Максимова Е.А. – Определение функций электронных пособий как элемент информационных технологий в образовании. «Телекоммуникация и информатизация образования». N 3, 2006.*

4. *Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları, dərslik, Bakı-2006, 190 s.*

5. *Lewis B.A., MacEntee V.M. (2005) Learning Management Systems Comparison. Informing Science and IT Education Joint Conference.*

6. *Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu // Müasir informasiya-kommunikasiya texnologiyası jurnalı. – 2005. – N5.*

7. *Дрешер Ю.Н. Организация информационного производства / - М.: ФАИР-ПРЕСС, 2005. – стр. 36-38.*

8. *Williams D., Coles L., Wilson K., Richardson A., Tuson J. (2000). Teaschers and ICT: Current use future needs. British Journal of Educational Technology, 31(4), pp. 307-320.*

The role of digital libraries in the use of information and communication technologies in education

N.A.Hasanova

Summary

The article discusses the formation of a global information space with the use of information and communication technologies in various areas of human activity. Marked the role of digital libraries in the informatization of the educational environment. Substantiated the importance of creating centers of electronic resources as part of the electronic library.

Keywords: *information and communication technology, global information space, digital technology, modern educational technologies, digital learning centers, electronic library, internet resources.*

Роль электронных библиотек в применении информационно коммуникационных технологий в процессе образования

Н.А.Гасанова

Резюме

В статье рассмотрены вопросы формирования глобального информационного пространства с применением информационно коммуникационных технологий в различные области человеческой деятельности. Отмечена выход на первый план роль электронных библиотек в информатизации образовательной среды. Обоснованы важность создания центров электронных ресурсов, как часть электронной библиотеки.

Ключевые слова: *информационно коммуникационные технологии, глобальное информационное пространство, цифровые технологии, современные образовательные технологии, электронные образовательные центры, электронная библиотека, Интернет ресурсы.*

İNCƏSƏNƏTİN RETROSPEKTİV BİBLİOQRAFİK MƏNBƏLƏRİNİN AXTARIŞ İMKANLARI

S. İSMAYILOVA
Bakı Dövlət Universiteti
Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi
pedaqogika üzrə fəlsəfə doktoru

Məqalədə incəsənət sahəsinin ümumi retrospektiv biblioqrafik mənbələri haqqında məlumat verilmiş, ümumi biblioqrafik mənbələrlə yanaşı, xüsusi biblioqrafik mənbələrin informasiya axtarış sistemlərinin rolu açıqlanmış, incəsənətin bibloqrafik informasiya təminatında mövcud biblioqrfik informasiya mənbələrinin əhəmiyyəti işıqlandırılmışdır.

Açar sözlər: *İncəsənət ədəbiyyatı, retrospektiv biblioqrafik mənbələr, informasiya axtarış sistemləri.*

Mədəniyyətin mühüm tərkib hissəsini təşkil edən incəsənət insan mənəviyyatının zənginləşməsində, şəxsiyyətin hərtərəfli inkişafında, gənc nəslin estetik tərbiyəsində mühüm rol oynayır.

Respublikamızda incəsənət üzrə sənəd kütləsinin sürətlə artması və bu sahəyə tələbatın genişlənməsi onun biblioqrafik mənbələrinin yaranması zərurətini qarşıya qoymuşdur. İncəsənətin retrospektiv biblioqrafik informasiya mənbələri həm ümumi, həm də xüsusi biblioqrafik vəsaitlərdə öz əksini tapır. Retrospektiv biblioqrafiya (retrospektiv – "keçmişə nəzər" deməkdir) iki əsas vəzifəni yerinə yetirir: a) müəyyən vaxt ərzində sənəd axınının inkişafını yekunlaşdırır; b) biblioqrafik xidmət və öz-özünə xidmət zamanı toplanmış sənəd kütləsində retrospektiv axtarışı təmin edir. Yekunlaşdırıcı xarakterli retrospektiv biblioqrafik əsərlər həmişə dəqiq və bir qayda olaraq, müəyyən şəkildə əsaslandırılmış uçot dövrünə malikdirlər. Bu dövr böyük və ya nisbətən kiçik ola bilər.

Sənəd axınının müəyyən dövr üzrə dolğun biblioqrafik qeydi ilə o dövrün sənəd məhsulunun inkişafı vəziyyətinin elmi cəhətdən işlənmiş həqiqi mənzərəsi yaradılmış olur. Yekunlaşdırıcı xarakterli retrospektiv biblioqrafik vəsaitlərin axtarış imkanları daha böyükdür. Bu imkanlardan yaxşı istifadə etmək məqsədilə onlar həm də mükəmməl axtarış aparatlarına (köməkçi göstəricilərə) malik olurlar. Məsələn, retrospektiv xarakterli "Azərbaycan kitabı" biblioqrafik göstəricisinin birinci cildi (1963) bu cəhətdən çox səciyyəvidir (1).

1963-cü ildə çap olunmuş "Azərbaycan kitabı" retrospektiv biblioqrafik göstəricinin birinci cildi 1780-1920-ci illərin məhsulu olan 1329 adda kitabın biblioqrafik təsvirini əks etdirir. Biblioqrafik təsvirlər həsr olunduqları kitabların nəşr olunma ilinə görə xronoloji prinsiplə qruplaşdırılmış və xronologiya daxilində müəlliflərin familiyalarının və ya əsər adlarının

əlifbasına görə düzülüş prinsipi əsas götürülmüşdür. Biblioqrafik təsvirlərdə müəlliflərin familiyası əsas götürülür, təxəllüslər isə mötərizədə verilir. Biblioqrafik göstəricinin müvafiq yardımçı aparatında buna müəyyən qədər aydınlıq gətirilmişdir. Belə ki, "Müəlliflərin əlifba göstəricisi" adlanan yardımçı aparatda əvvəlcə təxəllüs qeyd olunur və sonra familiyalara isnad verilir. Biblioqrafik göstəricinin "Mövzu göstəriciləri" adlanan köməkçi göstəricinin - "İncəsənət" başlığı altında 135, 880, 904, 1268, 1284 faktiki mənbələrdən istifadə etməklə incəsənətə dair materialları vaxt itirmədən əldə etmək olar.

Retrospektiv ümumi xarakterli "Azərbaycan kitabı" nın ikinci cildinin I kitabı 19 illik fasilədən sonra meydana gəlmişdir. Bu biblioqrafik göstərici birinci cilddən tərtibat metodikasına görə fərqlənir. Belə ki, biblioqrafik göstəricinin birinci cildində Azərbaycan dilində dünyanın müxtəlif ölkələrində çap olunmuş kitablar haqqında biblioqrafik informasiya verilib. İkinci cildin birinci kitabında isə keçmiş SSRİ ərazisində Azərbaycan dilində çap olunmuş kitablar nəzərə alınmışdır. Biblioqrafik göstəricidə Azərbaycan dilində 1920-1940-cı illərdə çap olunmuş və əldə edilmiş 7063 adda kitabın biblioqrafik təsviri əhatə olunmuşdur (2).

"Azərbaycan kitabı"nın ikinci cildinin I kitabında elmin yalnız humanitar profilli ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Biblioqrafik göstəricinin əsas bölmələrindən biri də vəsaitin XXVIII bölməsində "İncəsənət" başlığı altında 148 adda ədəbiyyatın azərbaycan və rus dillərində biblioq-rafik təsviri verilmişdir.

Azərbaycan elminin inkişafında xüsusi xidmətləri və rolu olan Azərbaycan Milli EA-nın Mərkəzi Elmi Kitabxanasının ümumi retrospektiv biblioqrafik mənbələrin yaradılması sahəsində fəaliyyəti diqqətəlayiqdir. Mərkəzi Elmi Kitabxananın ümumi xarakterli biblioqrafik nəşrlərindən biri Akademiya nəşriyyatının çap əsərlərilə əlaqədardır.

"Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası (1945-1959)" adı ilə 1962-ci ildə çap olunmuş və Akademiyanın çap əsərlərinin biblioqrafik təsvirini verən ilk göstəricidir. Biblioqrafik göstəricidə 1945-1959-cu illərdə çap olunmuş 10 mindən çox kitab və jurnallardan, elmi əsərlərdən, məcmuələrdən götürülmüş məqalələr öz əksini tapmışdır. Biblioqrafik göstəricidə materiallar bölmələr üzrə qruplaşdırılmışdır ki, 13-cü bölmə "İctimai elmlər" adlanır. Bu bölmə daxilində "Sənətşünaslıq" yarımbölməsi verilmişdir ki, bu da incəsənətin elmi, nəzəri əsaslarını və tarixi problemlərini işıqlandıran yüzdən çox kitab və jurnal məqalələrinin biblioqrafik təsvirini əhatə edir. Biblioqrafik təsvirlərin düzülüşündə müəlliflərin familiyalarının əlifbası əsas götürülmüşdür. Azərbaycan dilində çap olunmuş əsərlərin təsvirindən sonra müəlliflərin familiyaları və əsər adları rus dilində qeyd olunmuşdur.

"Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası" nın III cildi 1960-1965-ci illəri əhatə edir. Göstəricinin III cildi 7 kitabda - elmlər üzrə VII kitabda incəsənətə dair materiallar 1984-cü ildə çap olunmuşdur. (3) Yeddinci kitab filologiya, dilçilik, memarlıq, incəsənət, mətbuat, kitabxana işi üzrə 1960-1965-ci illərdə çap olunmuş ədəbiyyatın biblioqrafik təsvirini əks etdirir.

Azərbaycanda incəsənətin ümumi retrospektiv xarakterli biblioqrafik nəşrlərindən danışarkən Azərbaycan SSR Elmlər Akademiyasının 1966-cı ildə nəşr etdirdiyi "Memarlıq və incəsənət İnstitutunun əsərləri" adlı biblioqrafik vəsait haqqında da bəhs etmək lazımdır. Biblioqrafik göstəricini institutun əməkdaşı N.Bağırbəyov tərtib etmişdir. Biblioqrafik vəsait yalnız İncəsənət institutunun əməkdaşlarının əsərlərini, namizədlik və doktorluq dissertasiyalarını əhatə etmişdir. Biblioqrafik göstəricini tərtib etməkdə məqsəd institutun 20 illik (1945-1965) fəaliyyətinə bir növ yekun vurmaq olmuşdur. Göstəricidə materiallar iki bölmədə qruplaşdırılmışdır: birinci bölmə institut əməkdaşlarının bilavasitə institut tərəfindən nəşrə hazırlanan əsərləri; ikinci bölmə isə onların institutdan kənarda dərc olunmuş kitab və məqalələridir.

Hər iki bölmə institutun fəaliyyət dairəsinə uyğun olaraq bir neçə yarımbölməyə ayrılır. Yarımbölmələr isə hər iki bölmədə arxitektura, təsviri sənət, musiqi, teatr və kino məsələləri üzrə ədəbiyyatı əhatə edir. Vəsaitin sonunda isə namizədlik və doktorluq dissertasiyalarının siyahısı incəsənətin növləri üzrə qruplaşdırılmışdır. Biblioqrafik göstəricidən aydın our ki, institutun arxitektura sahəsindəki apardığı tədqiqatlar daha əhatəli, daha geniş xarakter daşımışdır.

İncəsənət sahəsinin ümumi retrospektiv biblioqrafik mənbələri içərisində H.B.Abdullayevin tərtib etdiyi "Azərbaycan SSR Mədəniyyət abidələri" adlı biblioqrafik göstərici mühüm əhəmiyyət kəsb edir. Retrospektiv xarakterli bu biblioqrafik vəsait 1920-1962-ci illərdə nəşr edilmiş ədəbiyyatı əhatə edir. (4) Biblioqrafik göstərici bu sahədə tərtib olunan vəsaitlər içərisində tərtibat xüsusiyyətinə və tamlığına görə demək olar ki, ən əhəmiyyətlisidir. Biblioqrafik vəsaitin müəllifi daha geniş tədqiqat apararaq mədəniyyət abidələrimiz haqqında həmin dövrdə nəşr olunmuş qəzet, jurnal məqalələrini və kitabları əks etdirmişdir. Biblioqrafik göstərici giriş, beş bölmə və inqilabaqədər bu sahədə nəşr olunan ədəbiyyat siyahısından, müəlliflərin əlifba göstəricisindən ibarətdir.

Biblioqrafik vəsaitin "Arxitekrura abidələri" bölməsi daha geniş miqyasda ədəbiyyatı özündə cəmləşdirir. Bu bölmədə materiallar göstəricinin ümumi quruluş prinsipinə uyğun olaraq əlifba sırası ilə sistemləşdirilmişdir. Biblioqrafk göstərici rus dilində tərtib olunduğundan Azərbaycan dilində olan ədəbiyyat üçün təsvirdən əlavə məlumat verilir. "Arxitektura abidələri" bölməsində 300 adda ədəbiyyatın biblioqrafik təsviri əks etdirilmişdir ki, onlardan tərkib

etibarilə qəzet, jurnal məqalələri, eləcə də ayrı-ayrı kitablardan arxitektura məsələlərinə dair bölmələrin analitik təsvirindən ibarətdir.

Göstəricinin "Monumental heykəltaraşlıq abidələri" bölməsi də 270-dən artıq problem xarakterli ədəbiyyatı əhatə edir. Bu biblioqrafik vəsait elmi-köməkçi xarakter daşıdığından biblioqrafik təsvirlərə annotasiya verilməmişdir. Biblioqrafik göstəricinin sonunda "İnqilaba qədər arxeologiya, arxitektura və epipqrafiya ədəbiyyatının siyahısı" verilmişdir ki, bu da informasiya istifadəçilərinə ətraflı biblioqrafik axtarış aparmağa imkan verir.

"Azərbaycan Mədəniyyət abidələri" biblioqrafik göstəricisinin mədəniyyət abidələrimizin öyrənilməsi kimi mühüm bir işin həyata keçirilməsində böyük əhəmiyyəti vardır. Ən başlıcası isə mədəniyyət və incəsənət tariximizin tədqiqatçıları üçün vəsait əvəzsiz informasiya mənbəyi hesab olunur.

İncəsənət sahəsinin biblioqrafik informasiya təminatında mühüm əhəmiyyət kəsb edən elmi-köməkçi retrospektiv biblioqrafik informasiya mənbələrindən biri də S.İ.Allahverənov və İ.İ.Qaracayev tərəfindən tərtib olunmuş, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında nəşrə hazırlanmış və 1986-cı ildə çap olunmuş "Sovet Azərbaycanının incəsənəti: Təsviri incəsənət" (1959-1980) adlı biblioqrafik göstəricidir. (6) Biblioqrafik göstəricini tərtib etməkdə əsas məqsəd Azərbaycanda təsviri incəsənət sahəsində 1959-1980-ci illərdə fəaliyyət göstərmiş görkəmli sənətkarların əsərlərinin aşkara çıxarılması olmuşdur. Bununla yanaşı, respublikamızda təsviri sənətin ayrı-ayrı növlərinin inkişaf yolunu, görkəmli sənətkarların yaradıcılığını əks etdirən qiymətli kitablar da nəşr edilib sənətsevərlərin istifadəsinə verilmişdir.

"Sovet Azərbaycanının incəsənəti: Təsviri incəsənət" adlı elmi-köməkçi retrospektiv biblioqrafik göstəricinin qarşısında duran əsas məqsəd təsviri sənətin rəngkarlıq, qrafika və heykəltaraşlıq sahəsindəki mövcud materialları toplu halında informasiya istifadəçilərinə çatdırmaqdır. Biblioqrafk göstərici 1959-1980-ci illərdə təsviri sənətə dair respublikamızda Azərbaycan dilində çap olunmuş kitab, kitabça və dövri mətbuat materiallarını əhatə edir. Vəsaitdə 1700-dən çox mənbə haqqında məlumat verən bu biblioqrafik mənbə zəngin informasiya potensialına malikdir.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən nəşrə hazırlanmış digər retrospektiv xarakterli biblioqrafik vəsait 1974-cü ildə Hüseyn Kərimov tərəfindən tərtib edilmişdir. İncəsənət ədəbiyyatını əks etdirən bu vəsait "Azərbaycan xarici mətbuatda: İncəsənət" (1960-1970) adı ilə nəşr edilmişdir.

Biblioqrafik göstəricidə respublikamızın şair, yazıçı, alim və başqa sənət sahiblərinin xarici ölkələrdə nəşr edilmiş əsərləri də öz əksini tapmışdır. Həmin materiallarla oxucuları tanış etmək məqsədilə kitabxana "Azərbaycan xarici mətbuatda" seriyası ilə göstəricilər nəşr etmişdir. İncəsənətə dair materialları əks etdirən bu biblioqrafik göstərici 1960-1970-ci illərdə

M.F.Axundov adına Dövlət Kitabxanasının fonduna daxil olan ədəbiyyat əsasında tərtib edilmişdir. (5)

Biblioqrafik vəsaitin ilk bölməsi "İstifadə edilmiş jurnal və qəzetlərin siyahısı" verilmişdir. Bu başlıq altında əvvəlcə jurnallar, sonra isə xarici qəzetlər orijinalın dilində verilmiş, qarşısında isə Azərbaycan dilində tərcüməsi, mötərizədə xarici ölkənin adı göstərilmişdir. Vəsaitə "Xarici mətbuat Azərbaycan incəsənəti haqqında" adlı geniş oçerk yazılmışdır. Bu oçerkdə zəngin Azərbaycan incəsənəti və bu sahənin görkəmli xadimləri, rəssamları, bəstəkarları, heykəltaraşları, onların yaradıcılıqları haqqında geniş məlumat verilmişdir. On illik bir dövrü əhatə edən bu bibliorafik göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə vəsaitə "Adlar göstəricisi" adlı köməkçi aparat tərtib edilmişdir.

Respublikamızda incəsənət ədəbiyyatının sürətlə artması, incəsənətin yeni-yeni sahələrinin yaranması, zəngin sənət əsərlərinin yaradıcılarına və incəsənətin ən aktual mövzularına həsr edilmiş biblioqrafik informasiya mənbələrinin yaradılması müasir dövrün tələbatına çevrilmişdir.

ƏDƏBİYYAT:

1. *Azərbaycan kitabı:Biblioqrafiya (1780-1920); 3 cilddə, I cild/Tərt.ed.:Ə.Əliyev; Azərbaycan Dövlət Kitab Palatası.-B.,1963.-220s.*

2. *Azərbaycan kitabı: Biblioqrafik göstərici (1920-1940); 3 cilddə, II cild, I kitab /Azərbaycan Dövlət Kitab Palatası.- B.:Yazıçı, 1982.- 744s.*

3.*Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası (1960-1965; IIIc. VII kitab /Azərb.EA MEK.-B.:Elm, 1984.-319s.*

4. *Azərbaycan SSR Mədəniyyət abidələri / tərt.ed.:H.B.Abdullayev.- B.:Elm, 1963.-220s.*

5. *Azərbaycan xarici mətbuatda: İncəsənət (1960-1970); / tərt.ed.: H.Kərimov; M.F.Axundov ad.Kitabxana.- B., 1974.-84s.*

6. *Sovet Azərbaycanının incəsənəti: Təsviri incəsənət (1959-1980); / tərt.ed. S.İ.Allahverənov, İ.İ.Qaracayev; M.F.Axundov ad.Kitabxana .- B.,1986.-176s.*

Search capabilities of retrospective bibliographic sources of art

S.P.Ismailova

Summary

In the article is given an information about the retrospective bibliographic information sources of the art, as well as the bibliographic sources, bibliographic sources described the role of information retrieval

systems, highlighting the importance of bibliographic sources of information provision of bibliographic information of art.

Key words: *Art, literature, and retrospective bibliographic sources, information retrieval systems.*

Поисковые возможности источников ретроспективных библиографических источников по искусству

Г. Исмайлова

Резюме

В статье даны сведения общих библиографических источниках ретроспективной библиографии по искусству. Раскрыты поисковые возможности и роль в источников специальной библиографии по искусству и освешено значение существующих библиографических пособий.

Ключевые слова: *литература по искусству, ретроспективных библиографических источников, информационный поисковые системы*

CƏMİYYƏTİN İNFORMASİYALAŞDIRILMASINDA ELEKTRON KITABXANALARIN ROLU VƏ VƏZİFƏLƏRİ

N.N.İSMAYILOVA
BDU-nun Kitabxanaşünaslıq kafedrasının baş müəllimi
n.musaeva@rambler.ru

Məqalədə cəmiyyətin informasiyalaşmasında elektron kitabxanalar və ondan istifadə, elektron kitabxanaların yaradılmasının texnoloji xüsusiyyətləri, elektron kitabxanaların effektivliyi, təhsilin informasiyalaşmasında elektron kitabxanaların rolu, gənclər elektron kitabxanaların istifadəçiləri kimi, lokal və uzaq məsafədəki istifadəçilərə xidmətin təşkili və s. haqda məlumat verilir.

Açar sözlər: *elektron kitabxanalar, yaranması, istifadə problemləri, elektron kitabxanaların yaradılmasının texnoloji xüsusiyyətləri, təhsilin informasiyalaşması, elektron kitabxanaların effektivliyi, lokal və uzaq məsafədəki istifadəçilərə xidmət,*

Cəmiyyətin müasir inkişaf dövrü informasiyaya və sosial-mədəni dəyərlərə əsaslanan informasiya cəmiyyətinə keçidlə xarakterizə olunur. İnformasiya cəmiyyətinin atributu informasiya-kommunikasiya texnologiyalarıdır. Bu texnologiyalar əvvəllər informasiya və biliklərə əlçatmaz görünən imkanları hazırda insanlar üçün əlçatan etməkdədir. Onların əsas növlərindən biri hazırda ənənəvi kitabxanalara alternativ olan elektron kitabxanalardır.

Elektron kitabxanaların fərqləndirici funksiyası informasiya resurslarının inteqrasiyası və onlardan effektiv istifadə yollarının tapılmasıdır. Əgər ənənəvi kitabxanalar ayrıca saxlanma vahidi kimi sənədlərlə əməliyyat aparırdısa, elektron kitabxanalarda mənbələrin məzmununun analizi vacib funksiyaya çevrilir. Məhz informasiyanın yaranması, onun nizama salınması, ixtisar olunması, annotasiyalaşdırılması, deskriptor və açar sözlərin seçilməsi və s. sayəsində istifadəçinin böyük informasiya kütləsi içərisində düzgün istiqamət seçməsini asanlaşdırır. Elektron kitabxanaların yaradılması çoxsaylı lokal məlumat bazalarının və informasiya sistemlərinin çoxaldılmasına sərf olunan xərcləri azaltmağa imkan verir.

Bununla belə, hüquqi statusunun olmaması elektron kitabxanaların inkişafını ləngidir. Elektron məkanda müəllif hüququ məsələsi mübahisəli problem hesab olunur. Elektron kitabxanalar informasiyanın ənənəvi qorunması, təsnifləşdirilməsi və təqdimatı üsullarından fərqli olaraq, informasiyanın ötürülməsinin yeni sistemini nümayiş etdirməklə informasiya cəmiyyətinin elementi kimi spesifik funksiyalarla səciyyələnir.

Elektron kitabxanaların informasiya cəmiyyətinin inkişafındakı rolunu qiymətləndirmək çətindir. İnformasiya resurslarından istifadəçilərin kütləvi istifadəsinin təmin edilməsi elm, mədəniyyət və təhsilə xidmət edilməsi üçün prioritet məsələyə çevrilmişdir. Bu problem ümummilli və daha geniş, ümumbəşəri əhəmiyyət kəsb etməklə, strateji planlaşdırma, əsaslı investisiya qoyuluşu və bir çox təcrübi və nəzəriyyəçi mütəxəssislərin birgə səylərini tələb edir.

Elektron kitabxanalar zəruri məlumatın axtarışı və çatdırılması sahəsində geniş axtarış imkanlarına malik olan aparat-proqram kompleksidir. Elektron kitabxana sənədlərin maşınla oxuna bilən, yəni elektron formada saxlanılıa və istifadə edilə bilən informasiya sistemidir. Müasir elektron kitabxanalar istifadəçiləri yalnız öz elektron resursları ilə deyil, eyni zamanda şəbəkə də daxil olmaqla, müvafiq proqram təminatı olan digər təşkilatların ehtiyatları ilə də təmin edə bilər. Elektron kitabxanalar səpələnmiş informasiya resurslarının ümumi interfeys altında birləşmiş məcmusundan ibarətdir. Buraya idarəetmə modulu, aparat-proqram kompleksi və referativ məlumat bazaları - tammətnli sənədlərə daxil olmaq üçün referatların təhlili vasitələri - İnternetdə digər resurslar üçün hiperistinadlardan ibarət olan resurslar daxildir.

Elektron kitabxanalar informasiyanın yaradılması, axtarışı və istifadəsi üçün elektron resurslar və müvafiq texniki imkanların toplusudur. Bu mənada onlar müxtəlif şəbəkələrdə mövcud olan müxtəlif növ (mətnlər, şəkillər, səslər, statistik və ya dinamik şəkillər) rəqəmsal məlumatlarla əlaqədar olan informasiyanın mühafizəsi və əldə edilməsi sisteminin davamı və genişləndirilməsinin təzahürüdür. Elektron kitabxanalar cəmiyyətin informasiya ehtiyaclarının təmin edilməsinə, informasiya xidmətlərinin təqdim edilməsinə, informasiyanın rahat istifadəsinin təşkilinə, informasiya mühitinin idarə olunmasına, informasiyanın istifadəçilərə və onların vasitəçilərinə ötürülməsinə kömək edən mürəkkəb informasiya sistemləridir.

Elektron informasiyadan istifadə edilməsinin səmərəliliyini artırmağın ən yaxşı yolu məlumatın təhlükəsiz saxlanılması və onun məqsədəuyğun istifadəsini təmin etmək üçün müvafiq informasiya sistemlərinin yaradılmasıdır. Elektron kitabxana ilə iş mürəkkəb təşkilati kontekstdə - cəmiyyət, texnologiya, xidmət və məzmun kontekstində həyata keçirilir.

Təhsilin informasiyalaşmasında elektron kitabxanaların rolu

İnformasiyalaşma bu gün mütəxəssislərin böyük əksəriyyəti tərəfindən cəmiyyət həyatının bütün sahələrinə bu və ya digər dərəcədə toxunan və sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid prosesini xarakterizə edən qlobal dünyəvi tendensiya kimi qəbul olunur. Cəmiyyətin informasiyalaşmasının təhsilə qlobal dünyəvi tendensiya kimi təsiri aşağıdakı prosesləri ehtiva edir:

- təlim və tədris prosesinin informasiyalaşması;

- ali məktəblərin idarə olunmasının informasiyalaşması;
- ali məktəbin xidmət və bölmələrinin fəaliyyətinin informasiyalaşması;
- ali məktəbin fəaliyyət mühitinin informasiyalaşması.

Təhsildə informasiya texnologiyalarının tətbiqi tədris prosesinin texnologiyalarının yenilənməsinin və təhsil sahəsində innovasiya fəaliyyətinin nəticəsidir. Təhsil sisteminin informasiyalaşmasının digər istiqaməti tədris prosesinə konkret informasiya texnologiyalarının tətbiqi və işlənməsi, üçüncü tendensiya isə təhsil fəaliyyətinin bütün subyektləri tərəfindən onların mənimsənilməsidir.

Tədqiqatçılar qeyd edirlər ki, hazırda təhsil sisteminə elektron məkanın inkişafı və genişlənməsi ilə birbaşa bağlı olan aşağıdakı faktorlar təsir edir:

- yeni kommunikasiya mühiti informasiyanın axtarışı və istifadəsi standartlarını dəyişir;
- əhalinin kompüterləşdirilməsi və internetləşdirilməsi fasiləsiz olaraq artır;
- ənənəvi oxu əhali, xüsusən gənclər arasında populyarlığını itirir;
- yeni kommunikasiya vasitələrinin ideologiyasına cavab verən elektron kitab yeni bilik daşıyıcısına çevrilir.

Elektron resurslar sahəsində rus tədqiqatçılardan olan A.İ.Zemskov qeyd edir ki, elektron kitabxanalar təlim vasitəsi kimi təhsil mühitinin təbii elementidir. Onlar tələbələrin lazımi ədəbiyyatı əldə etməsi üçün sərf olunan vaxtı azaldır ki, bu da aktiv təlim prosesində çox vacibdir. Elektron kitabxanalar ərazi sərhədləri ilə məhdudlaşdırılmır və fasiləsiz fəaliyyət göstərir. Bu isə tələbələrin səmərəli təhsil alması üçün əlverişli şərait yaradır.

Artıq bir çox ölkələrdə peşəkar ali təhsil standartları hər bir təhsil alanın elektron kitabxana sisteminə fərdi çıxış imkanı ilə təmin olunmasını nəzərdə tutur. Təhsilin informasiyalaşması şəraitində digər informasiya-texniki vasitələr kimi, elektron kitabxanaların da rolu kifayət qədər böyükdür. Lakin bu vasitələrin aktiv istifadəsinə mane olan amillər də mövcuddur. Bunlara müəllim heyətinin informasiya-texniki vasitələrdən istifadə etməyə hazır olmamasını və tədris prosesinin subyektlərinin kifayət qədər informasiyalı olmamasını misal göstərmək olar.

Tələbə gənclər elektron kitabxanaların istifadəçiləri kimi

Hazırda elektron kitabxanaların aktiv istifadəçi auditoriyası əsasən iqtisadi və humanitar sahələri təmsil edən ali məktəb müəllimləri, doktorantlar və tələbələrdir. Bu, sözügedən kateqoriyadan olan istifadəçilərin informasiyaya çıxış zamanı minimal məhdudiyyətlərlə üzləşməsi ilə əlaqədardır.

Sonrakı tədqiqatlar göstərmişdir ki, elektron kitabxanaların istifadəçiləri arasında iki əsas kateqoriya - təhsil alan gənclər və intellektual elita, əsasən alim və müəllimlər üstünlük təşkil edir. Elektron kitabxanaların istifadəçiləri soraq, təhsil və elmi ədəbiyyat, ənənəvi kitabxanaların istifadəçiləri isə bədii

ədəbiyyat oxumağa meyllidirlər.

Beləliklə, təhsil alan gənclik internet şəbəkəsindən, elektron kitabxanalardan və informasiya texnologiyalarından aktiv istifadə edən xüsusi sosial qrup kimi çıxış edir. Bu isə onlarda kompüter informasiya texnologiyaları ilə işləmək bacarıqlarının inkişafına gətirib çıxarır.

Elektron kitabxanalar tədris prosesinin informasiyalaşmasının komponenti kimi

Gənclərin elektron materiallara və elektron kitabxanalara münasibətinin öyrənilməsi məqsədilə Rusiyada aparılan sosial tədqiqatlar maraqlı nəticələr ortaya qoymuşdur. Məlum olmuşdur ki, gənclərin 92%-i tədrisdən kənar elektron resurslardan, məsələn, musiqi redaktorlarından, kompüter oyunlarından və poçt proqramlarından istifadə edir.

Tədris prosesində kompüter texnologiyaları və elektron kitabxana resursları tələbələrin böyük əksəriyyəti tərəfindən istifadə olunur. Tələbələrin 90%-i referat, məruzə hazırlayarkən və tədris ədəbiyyatının axtarışı zamanı, 70%-i isə təqdimat hazırlamaq məqsədilə kompüter texnologiyalarına və elektron kitabxanalara müraciət edir. Rəyi soruşulanların 64%-i kitab, jurnal, qəzet və digər çap məhsullarını elektron formada oxumağa üstünlük verir. Tələbələrin 93%-i isə tədris materiallarını elektron formada istifadə edir. Respondentlərin 90%-i lazımi informasiyanı internetdə axtardığını, 30%-i isə kitabxanalarda və universitetin metodiki kabinetində aldığını bildirib. Qeyd edək ki, tələbələr tədris prosesində materialları elektron formada oxumağa üstünlük versələr də, informasiyanı çap formasında oxumağın daha rahat olduğunu da qeyd edirlər.

Beləliklə, elektron kitabxanalar informasiya cəmiyyətinin elementi kimi spesifik funksiyalarla xarakterizə olunur ki, bu da onları ənənəvi mühafizə üsullarından, informasiyanın təsnifat və təqdimatından fərqləndirərək informasiya cəmiyyətinə xas olan keyfiyyətcə yeni informasiya ötürmə sistemini nümayiş etdirir. İnformasiya cəmiyyətində yeni texnologiyaların, elektron kitabxana və resursların, maqnit daşıyıcıların yaranması və inkişafı ənənəvi kitabxanaların yaşamasına, fəaliyyət göstərməsinə, cəmiyyətin informasiya tələbatının ödənilməsində onların roluna heç bir xələl gətirmədən kitabxana işində dövrün tələblərinə uyğun yeni iş forma və metodlarından istifadəyə inkan verir.

ƏDƏBİYYAT:

1. *Земсков А.И., Шрайберг Я.Л. Электронная информация и электронные ресурсы: публикации и документы, фонды и библиотеки / А.И. Земсков, Я.И. Шрайберг; под ред. Л.А. Казаченковой. - М.: «Издательство ФАИР», 2007. - 528 с.*

2. *Земсков А.И. Электронные библиотеки / А.И. Земсков, Я.Л.*

Шрайберг. - М.: Либрея, 2003. -351 с.

3. Рейблат А.И. Электронные библиотеки: комплектаторы и читатели. // Книжная индустрия. 2010. №4. С. 23-27.

4. Хомерики О.Г. Роль электронных библиотек в процессе распространения результатов инновационной деятельности в образовании // Высшее образование сегодня. 2010. №10. С. 80-87.

5. Электронизация информации в библиотеках и образовании // Университетская книга. 2010. №9. С. - 72-77.

6. Электронные ресурсы и электронные библиотеки / под ред. Я.Л. Шрайберг и др. - 89 с.

7. Arms W. Y. Digital Libraries. — Cambridge, MA: The MIT Press, 2000, p.69-72

8. Bailey C. W. Jr. Scholarly Electronic Publishing Bibliography. Houston: Univ. of Houston Libraries, 1996-2001. - 2001. – p.544.

Role and duties of the electronics libraries informatized society

N.N. Ismayilova

Summary

In this article are discussed the questions of creation and development of electronic libraries and the basic approaches to understanding of electronic libraries; specificity of Electronic Libraries in comparison with other information systems; definitions and the terms used in this area.

Key words: *electronic libraries, national information, electronic information, information societies, Internet, information search, information service, databases, digital library.*

Роль и задачи электронных библиотек в информатизации общество.

Н.Н.Исмаилова

Резюме

В статье обсуждаются вопросы создания и развития электронных библиотек; специфика Электронных Библиотек в сравнении с прочими информационными системами; определения и термины, используемые в этой области; основные подходы к пониманию ЭБ.

Ключевые слова: *электронные библиотеки, национальная информация, электронная информация, информационная общества, Интернет, информационный поиск, информационная служба, базы данных, цифровая библиотека.*

AZƏRBAYCAN ALİ MƏKTƏB KİTABXANALARINDA İSTİFADƏÇİLƏRƏ ELEKTRON İNFOMASİYA VASİTƏLƏRİ İLƏ XİDMƏT

S. İ.MƏMMƏDOVA
Bakı Dövlət Universiteti

Məqalədə Azərbaycan ali məktəb kitabxanalarında istifadəçilərə elektron informasiya vasitələri ilə xidmətdən bəhs olunur. Bu xidmətin yaranması, inkişafı və müasir vəziyyəti geniş şəkildə izah olunur.

Açar söz: *Ali məktəb kitabxanaları, elektron vasitələr, kitabxana xidməti, informasiyalaşdırma*

"Elektron inqilab" informasiya texnologiyalarını dövlət orqanlarına, insan fəaliyyətinin bütün sahələrinə kütləvi tətbiq etməklə " Elektron hökumət" adlanan yeni idarəetmə üsulunun yaradılmasına, sənədlərin "kağız dünyasından" rəqəmli məkana keçirilməsinə, işin keyfiyyətinin və şəffaflığının artırılmasına, bürokratik əngəllərin aradan qaldırılmasına, vətəndaşların keyfiyyətli təhsil, tibbi xidmət və sosial təminatlar alması üçün əlverişli şəraitin yaradılmasına yol açmışdır.

Dünyada müasir iqtisadi vəziyyət və fəal rəqabət mühiti kitabxanaları informasiya xidmətlərinin geniş spektrini (ənənəvi kitabxana anlayışları çərçivəsindən çıxaraq) mənimsəməyə, öz təyinatını istifadəçilərə (kitabxana fondları ilə məhdudlaşmayan) istənilən sənəd informasiyasını çatdırmaqla əlaqələndirməyə məcbur edir. Buna görə də müasir kitabxanalar onun sosial statusu və cəmiyyət tərəfindən kütləvi istifadəsini nəzərə alaraq oxucuların informasiya tələbatlarının ödənilməsində yalnız ənənəvi kitabxana məhsulları və xidmətləri ilə kifayətlənə bilməz, eyni zamanda elektron informasiya məhsulları və xidmətlərinin geniş çeşidindən də, müxtəlif məlumat bazalarından geniş istifadəni təmin etmək vacibdir. Nəzərə alınmalıdır ki, bugünkü oxucular (istifadəçilər) artıq kitabxanadan onlayn xidmətlərə üstünlük verir. Baş verən elmi texniki inkişaf cəmiyyətin ümumi tələbləri ilə kitabxana-informasiya proseslərinin inkişafını qarşıya vəzifə qoyur. Müasir informasiya cəmiyyəti müasir oxucunu yaradır, müasir oxucu isə müasir kitabxana-informasiya xidmətini tələb edir.

Ümummilli liderimiz, ulu öndər Heydər Əliyev M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında çıxış edərkən demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.Mən əvvəllər bu kitabxanaya dəfələrlə gəlmişəm, amma bu gün kitabxananın astanasından keçərkən çox böyük

hörmət və ehtiram hissi duyuram, kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bıldirmək istəyirəm." [4.]
Umumili liderin kitabxanalara və kitabxana informasiya fəaliyyətinə verdiyi mühüm qiymət bu gün də öz əhəmiyyətini itirmir.

Ölkəmizdə fəaliyyət göstərən kitabxanalar "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut" səviyyəsində mühüm işlər görürlər. Qanunda yazıldığı kimi, indiki dövrdə "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir[1.s.12].

Cəmiyyətdə mühüm sosial funksiyaları həyata keçirən kitabxanalar elmi-texniki tərəqqinin sürətlənməsində, insan amilinin formalaşmasında, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafında yaxından iştirak etməli, müstəqil dövlətimizin əsas ideyalarının həyata keçirilməsi və bu ideyaların qidalandığı milli ideyalogiyanın geniş xalq kütlələri arasında yayılması üçün böyük təbliğat-təşviqat və təşkilatçılıq işi aparılmalıdır. Görkəmli kitabxanaşünas alim, professor A.Xələfovun dediyi kimi, "Kitabxana işi dövrlə, zamanla ayaqlaşmalı, həmişə canlı və dinamik olmalıdır." [6.s.6]

Azərbaycan xalqının ümummilli lideri, mərhum prezident Heydər Əliyev cənabları bir qrup təhsil işçiləri ilə görüşündə demişdir: "Təhsil elə bir sahədir ki, bunsuz xalqın, dövlətin inkişafı yoxdur." [5]

Təhsil kitabxanaları içərisində ali məktəb kitabxana şəbəkəsinin xüsusi mövqeyi var. Ali məktəb kitabxanalarının qarşılarında duran vəzifələrə görə həm universal elmi, həm də xüsusi kitabxanalar tipinə daxil etmək olar. Ancaq ali məktəb kitabxanaları dünya təcrübəsində bir qayda olaraq hərtərəfli, bütün elm sahələrini əhatə edən, ali məktəblərdə tədris edilən bütün fənlərə dair ədəbiyyatı toplayıb saxlayan universal elmi kitabxanalar hesab edilir.

Respublikamızda yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasına yaranan böyük tələbatla əlaqədar geniş ali məktəblər şəbəkəsi yaranmışdır.

Burada tədris və elmin informasiya təminatı olaraq kompüterləşmiş ali məktəb kitabxanaları öz oxucularının internetdən, elektron kataloqdan, elektron kitabxanalardan və digər elektron vasitələrdən istifadəni təmin etməkdədirlər.

Ümumiyyətlə, hazırda respublikamızda təhsil sistemini əhatə edən 7135 təhsil müəssisəsi vardır. Bu təhsil müəssisələrində 2 milyona yaxın gənc təhsil

alır və onların təlim-tərbiyə prosesi ilə 242551 nəfər müəllim və tərbiyəçi məşğul olur.

Respublikamızın ali məktəblərində 81 istiqamət və 270-dən çox ixtisas üzrə mütəxəssis hazırlanır. Ali məktəblərin 130-a qədər fakültəsində 100 min-dən çox tələbə təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 650-dək kafedrada çalışan 11 min nəfərdən çox professor-müəllim məşğul olur . [18]

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə dövlət ali məktəbləri ilə yanaşı, özəl ali məktəblər də yaranıb formalaşmışdır. Hazırda respublikamızda 28 min 700 tələbəsi olan 18 özəl ali məktəb vardır. Özəl ali məktəblər bir qayda olaraq fəaliyyətə başlamazdan əvvəl ali məktəb kitabxanasının əsasını qoymuş, zaman keçdikcə onu formalaşdırmışlar. Özəl ali məktəblərin bir çoxu kitabxana işinin kompüterləşdirilməsi sahəsində də xeyli irəliyə getmiş, müasir ali məktəb kitabxanaları yaratmağa müvəffəq olmuşlar.

Ümumən respublika miqyasında götürdükdə tam qətiyyətlə demək olar ki, hazırda ali təhsil müəssisələrinin kitabxanaları dövlət kitabxana şəbəkələri, ictimai təşkilatların, digər idarə və nazirliklərin kitabxana şəbəkələri ilə müqayisədə maddi-texniki təminat baxımından kifayət qədər əlverişli imkanlara malikdir. Xüsusilə son illərdə dövlətin büdcədən təhsilə ayırdığı vəsaitin ildən-ilə artması, ali məktəblərdə ödənişli təhsilin tətbiq edilməsi sistemi dövlət ali məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, orada çalışan kitabxana işçilərinin maddi–rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir.

Elmi-tədqiqat işlərinin müvəffəqiyyətlə yerinə yetirilməsinin əsas şərtlərindən biri sayılan informasiya təminatı ali məktəblərin kitabxanaları və informasiya mərkəzləri tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Prezindentinin 6 oktyabr 2008-ci il tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş elektron kitabxanaların yaradılması, kitabxana fondlarının yeni ədəbiyyatlarla zənginləşdirilməsi kimi tədbirlər elmin informasiya təminatının daha da yaxşılaşdırılmasına xidmət edir.[2]

Ali məktəb kitabxanaları kitabxana işinin bütün forma və üsullarından istifadə etməli, oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə, milli ideologiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəltməlidir. Kitabxanalar informasiya xidmətini müvəffəqiyyətlə təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa, kitabxana işinin əlaqələndirilməsinə, informasiya ehtiyatlarından səmərəli istifadə işinə də diqqət yetirməlidirlər.

Ali məktəb kitabxanalarında oxuculara elektron informasiya vasitələri ilə xidmət işinin təşkili qloballaşan informasiya cəmiyyətinin tələbləri kimi qarşıya çıxmışdı. XX əsrin sonlarında informasiya əsrinin və informasiya

iqtisadiyyatını səciyyələndirən proseslər az bir müddətdə kitabxana proseslərini, o cümlədən ali məktəb kitabxanalarında xidmət işinə təsir etməyə başladı və günün tələbinə çevrildi.

Azərbaycan ali məktəb kitabxanalarında elektron informasiya vasitələri ilə xidmətdən danışarkən dünya təcrübəsinin araşdırılması, ümumiləşdirilməsi zərurəti meydana gəlir. Odur ki dünya kitabxanalarının indiyə qədərki elmi araşdırmaların, təcrübələrin, elmi nəticələrin öyrənilməsi olduqca vacibdir.

60-70-ci illərdə elektron vasitələrin mövcud olması və bu vasitələrlə bir sıra fəaliyyətlərin göstərilməsi, hərbi-müdafiə sənayesində, dövlət təhlükəsizliyi, kosmik araşdırmalarda tətbiq olunması haqqında mütəxəssislərin əsərlərində rast gəlirik. Kitabxana-informasiya proseslərində də elektron vasitələrin tətbiqi məhz 60-cı illərin ortalarında başlamış və texnologiyanın kompleks inkişafı ilə nəhayət 90-cı illərin ortalarında kütləvi şəkildə istifadə olunmaqdadır.

Məhz bu prinsipdən çıxış edərək qeyd edilməlidir ki 1966-cı ildə ABŞ Konqres Kitabxanasının əməkdaşları tərəfindən ənənəvi kitabxana-biblioqrafiya proseslərini avtomatlaşdırmaqla elektron kataloqun ilk prototipini maşınla oxunan kataloq formatını (MARC) yaratmağa nail oldular. Bu formatın yaradılmasında məqsəd oxuculara xidmət işinin keyfiyyətini yüksəltmək deyil, kartoçkalı kataloqları daha təkmil formada (maqnit lentlərində) mühafizə etmək idi. 60-ci illərin sonlarına doğru ABŞ-ın 16 universiteti Konqres Kitabxanasına müraciət edərək MARC formatını əldə etdi və eyni qayda ilə kitabxana kartoçkalarını maşınla oxunan lentlərə köçürüdü. Bu ilk elektronlaşdırılmış biblioqrafik yazı forması idi.

Artıq 70-ci illərin əvvəllərində MARC formatının kitabxanaçılar tərəfindən yekdilliklə qəbul olunaraq kitabxana-biblioqrafiya işinə tətbiq olunması, ABŞ universitetlərinin yeni tipli kataloqlaşdırma işinə dəstək verməsi maşınla oxunan kataloqun imkanlarını genişləndirdi. Bütün bunlara baxmayaraq kataloqa hələ də köməkçi vasitə kimi yanaşırdılar. Ənənəvi kataloq sistemini maşınla oxunan formata keçirməklə ilk dəfə iri informasiya massivlərini–kompüterləşdirməyi bacaran ABŞ kitabxanaçıları proses zamanı bir sıra texniki çətinliklərlə qarşılaşırdılar. Yeni tipli ilk kataloqları yaradanların ən böyük problemi kompüterlərin və maqnit lentlərinin həddindən artıq baha olması, kompüter interfeysinin qəlizliyi və şəbəkə infrastrukturunun yoxluğu idi. [26.s.17] Bir çox proseslərdən sonra 90-cı illərin əvvəllərindən etibarən 1980-ci ildə Yerusəlim Yəhudi Universiteti (İsrail) tərəfindən yaradılan və sonradan təkmilləşdirilən "Ex-Libris-Aleph" ABŞ-ın VTLS sistemi istisna olmaqla, mövcud bütün kataoqlaşdırma proqmalarını geridə qoyaraq Avropa ölkələrinin kitabxanalarına nüfuz etdi. 1996-cı ildən etibarən Rusiya kitabxanalarında biblioqrafik kartoçkaların elektronlaşdırılması

prosesi vüsət aldı.Qısa zamanda Rusiyanın iri mərkəzləri milli AKİS-lər yaradaraq Qafqaz regionu kitabxanalarının elektron kataloqla təminatına zəmin yaratdılar. Azərbaycan EA Mərkəzi Elmi kitabxanası ilə yanaşı 70-80 illərdə Respublika Elmi Texniki kitabxanası, ADU (BDU) Elmi kitabxanası, Respublika Elmi Pedoqoji kitabxanası, Respublika Gənclər və Respublika Uşaq kitabxanası –da Avtomatlaşdırılmış idarəetmə sistemlərinin qurulması və biblioqrafik yazıların kartoçka kataloqlarından maqnit lentlərinə köçürülməsi işi həyata keçirilib.

80-ci illərin əvvələrindən etibarən kitabxanalarda ənənəvi proseslərin avtomatlaşdırılması sahəsində durğunluq dövrü başlandı. Bu vəziyyət 90-cı illərin əvvələrində ümummilli liderimiz H.Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Və nəhayət 1998-ci ildə "Kitabxana işi haqqında qanun"un qəbul olunmasından sonra yəni 90-cı illərin sonlarından etibarən Azərbaycan kitabxanalarında o cümlədən ali məktəb kitabxanalarında kompüterləşdirilmə işinə, oxuculara müasir formada xidmət işinə başlandı.

60-cı illərin ortalarında elmi-texniki tərəqqinin qarşıya çıxardığı texnoloji imkanların kitabxana proseslərinə tətbiqi eksperimental xarakter daşıyırdı, çoxmərhələli tətbiq prosesinə əsaslanan layihələr uzun müddətli olmur, hər texnoloji yenilik yeni layihələndirmə tələb edirdi.

Nəhayət 90-cı illərin ortalarında informasiyalaşdırma fəaliyyətinin prinsipləri işlənib hazırlandı ki bu elektron vasitələrdən çoxistiqamətli istifadənin elmi-nəzəri əsaslarını müəyyənləşdirdi.

Bu prinsipləri Azərbaycanda ilk dəfə öyrənən və baş verən qlobal informasiya proseslərini düzgün qiymətləndirən mərkəz əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, prof. A. A. Xələfovun təşəbbüsü və rəhbərliyi ilə 1999-cu ildə yaradıldı. Bu işdə prof.A.A. Xələfovun təşəbbüsü ilə 1999-cu ilin mart ayında BDU-nun kitabxanaşünaslıq kafedrasının yanında təşkil edilən "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının mühüm rolu oldu.

Ali məktəb kitabxanalarının yeni informasiya texnologiyalarına keçidi nəinki Azərbaycan kitabxanaları ucun, dünya kitabxanaları üçün də xarakterik olan bir sıra mürəkkəb problemlərin həllini qarşıya qoyur. Bu problemlər əsasən aşağıdakılardır:

- Maliyyə problemləri
- Normativ –hüquqi təminat problemləri
- Proqram və texniki təminat problemləri
- Dil təminatı problemləri
- İxtisaslı kadr təminatı

Bu problemlər içərisində dil təminatı problemi Azərbaycan kitabxanaları üçün daha kəskin nəzərə çarpmaqdadır. Burada ilk növbədə aşağıdakı problemlər öz əksini tapır:

-Vahid elektron kommunikasiya formatlarının işlənməsi

-Dünya kitabxanaları üçün vahid təsnifat sxeminin qəbul edilməsi və onun elektron versiyasının hazırlanması

-İnformasiyanın indeksləşdirilməsi üçün lüğət tezarus sisteminin, predmet rubrikatorunun və linqvistik konvertorların yaradılması

-Müxtəlif əlifba sistemlərinin qarşılıqlı kodlaşdırma və konversiya protokollarının işlənməsi və s.

-Elektron informasiyalara müəlliflik hüququ

-İnformasiyadan sərbəst istifadənin hüquqi normaları

-İnformasiya mübadiləsində normativ sənədlərin və standartların işlənməsi

-İnformasiya ehtiyatlarının formalaşdırılmasında və istifadəsində kitabxanaların hüquqi statusu

Elektron daşıyıcıların sayı artdıqca, kitabxanaçılar müəlliflik hüququ və rəqəmsal informasiyaya münasibətdə digər intellektual mülkiyyət hüquqları ilə tez-tez rastlaşırlar. Elektron mühitdə müəlliflik hüququ fəlsəfəsinin özü şübhə altına alınır. Əsas çətinlik ondan ibarətdir ki, fərdi (qurucuların, hüquq sahiblərinin) və ictimai (istifadəçilərin, cəmiyyətin) maraqları balanslaşdırılsın. Müəlliflər öz əsərlərini kitabxanaya gətirərkən onların elektron mətnlərini də şəxsi razılıqları ilə diskdə və digər elektron daşıyıcılarda təqdim edirlər, bəzən isə bir çox müəlliflər kitablarının elektron kitabxanada yerləşdirilməsinə tərəddüd edir, icazə vermirlər. Məlum məsələdir ki, elektron versiyası əldə edilə bilən kitabın satış imkanları avtomatik azalacaqdır. Ancaq onu da qəbul etməliyik ki, müasir şəraitdə istifadəçilər öz tələbatlarının ödənilməsi zamanı bütün imkanlardan yararlanmaq istəyirlər.

Qlobal şəbəkədə biz Azərbaycan dilində hər hansı bir məlumat axtarırıqsa, bu heç də müsbət nəticə vermir. Həmin məlumatı ya rus, ya ingilis, ya da digər dillərdə axtarmalı oluruq. Əgər axtarış sistemində Azərbaycan dilində hər hansı bir məlumat çıxırsa da onlayn olaraq çox gec yüklənir. Bəzən isə adı çıxan səhifələr, ümumiyyətlə açılmır. Baş verən texniki və texnoloji nasazlıqlar bu sahədə peşəkar daim fəaliyyət göstərən işçi qruplarının fəaliyyətini tələb edir. Daim yeniləşən proqram təminatı, proqram təhlükəsizliyi məsələləri, linqvistik adaptasiya problemləri həll olunmalıdır.

Ölkənin informasiya cəmiyyətinə doğru irəliləməsinin səviyyəsini müəyyənləşdirmək və mövcud problemləri aradan qaldırmaq məqsədilə ölkədə ali məktəb kitabxanalarındakı elektron vəziyyətin daimi monitorinqi-

nin aparılması məqsədəuyğundur. Belə monitorinqlər kitabxanada həyata keçirilən müxtəlif proseslərin işləmə mexanizminin yoxlanılması, tətbiq edilən elektron kitabxana sistemlərinin təhlili, oxuculara xidmətin, onların informasiya tələbatının ödənilməsinin səviyyəsinin müəyyən edilməsi məqsədilə keçirilə bilər.

Ali məktəb kitabxanalarının saytlarının müntəzəm və aktiv fəaliyyəti, elektron məlumat bazalarının yaradılması, oxuculara elektron xidmət işinin təşkili məsələlərinə diqqət yetirilməlidir. Belə ki, təhlillər və keçirilən monitorinqlər nəticəsində ali məktəb kitabxanalarının fəaliyyətində yeni iş üsullarının tətbiq olunması, istifadəçilərə müasir tələblərə uyğun kitabxana-informasiya xidmətinin göstərilməsi üçün yeni təkliflərin hazırlanması, kitablarla yanaşı qəzet və jurnalların rəqəmsallaşdırılması sahəsində mövcud problemlərin həll edilməsi məqsədilə müasir texniki avadanlıqlarla kitabxanaların təchizatı, proqram təminatı, servis xidməti və inzibatçılığın təmin edilməsi, resursların təhlükəsizliyinin təmin olunması və bir sıra digər istiqamətlərdə fəaliyyətin stimullaşdırılması işləri görülməlidir.

ƏDƏBİYYAT:

1. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal / BDU.-B., 1999.-№1.- S.12.*

2. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan-2007.-21 aprel*

3. *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında: Azərbaycan Respublikası Milli Məclisinin Qanunu// Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 1998.- №6.-1214-1222*

4. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında miniatür kitabın təqdimetmə mərasimində çıxışı // Azərbaycan.-1996.-21 iyun*

5. *Təhsil sahəsinə diqqət və qayğı artırılmalıdır: Azərbaycan Prezidenti Heydər Əliyevin təhsil işçilərinin bir qrupu ilə görüşü // Azərbaycan.-1995.-14 fevral.*

6. *Xələfov A.A Bakı Dövlət Universitetinin Elmi kitabxanası 90 il elm və təhsilin xidmətində: Monoqrafiya.-B.: Bakı Universiteti nəşriyyatı,2009.-210 s.*

7. *Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Elmi əsərlər: Bakı Universiteti xəbərləri : humanitar elmlər seriyası.- Bakı., 2004.- №.-s 316-326*

8. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika, 2002.- 17 aprel
9. Xələfov A.A. İnformasiya xidməti/Kitablar biliklər cəmiyyətində .-B., 2006.-s.64-74
10. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri/mülahizələr, təkliflər və proqnozlar.-B., 2006.-160 s.
11. Mərdanov M. Azərbaycan Respublikasında milli təhsilin inkişafı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr: Azərbaycan müəllimlərinin qurultayında məruzəsi // Azərbaycan müəllimi.-1998.-1 oktyabr
12. S.H. İbrahimova. BDU elmi kitabxanasının informasiyalaşdırılması tendensiyasının əsas istiqamətləri. Kitabxanaşünaslıq və informasiya. 2010-№ 2.-s.47
13. Cəfərov C. Kitabxana-informasiya fəaliyyətində elektron kataloqlar. B., Proqres, 2012.-224 s.

The electronic library services in the Azerbaijan university libraries

S. Mammadova

Summary

The article is dedicated the electronic library serving in the Azerbaijan university libraries for users. The formation and modern state of these services are explained in article.

Keywords: *University libraries, electronic tools, library services, informatization*

Электронно-информационных обслуживания в библиотеках Азербайджанских высших учебных заведениях

С. Мамедова

Резюме

Статья посвящена на электронных библиотечных услуги в Азербайджанский ВУЗ библиотеках. Также в статье подробно описаны формирование, развитие и современного состояние этих услуги.

Ключевые слова: *ВУЗ, электронные средство, библиотечное обслуживание, информатизация*

MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKA ELMİ TİBB KİTABXANASININ İNFORMASİYALAŞDIRILMASI

H.O.ZEYNALOVA
Bakı Dövlət Universiteti

Müstəqillik illərində Azərbaycanda tibb və səhiyyənin inkişafı haqqında məlumat verilmiş, Respublika Elmi Tibb Kitabxanasında kitabxana işininin əsas istiqamətləri, Respublika Elmi Tibb Kitabxanasının informasiyalaşdırılması, 2005-2010-cu illər ərzində qəbul edilən qanun və sərəncamlar verilmişdir.

Açar sözlər: *səhiyyə, təbabət, tibb, informasiya, infomasiyalaşdırma, kitabxana*

Azərbaycanın müstəqillik əldə edərək, demokratik, hüquqi dövlət quruculuğunu həyata keçirməsi tibb sahəsində də islahatların aparılmasını zəruriləşdirmişdir. Bu islahatlar həmin sistemə daxil olan kitabxanaların da fəaliyyətinə öz təsirini göstərir və onların informasiya xidməti vəzifələrini xeyli mürəkkəbləşdirir.

İnformasiyalı cəmiyyətin əsasında informasiya texnologiyaları durur. İnsan fəalliyyətinin müxtəlif sahələrini əhatə edən bu texnologiyalar dünyada tibb sahəsində də tətbiq olunmaqdadır. Dünya Səhiyyə Təşkilatı tərəfindən Elektron səhiyyəyə tibb müəssisələrində informasiya və telekommunikasiya texnologiyalarının istifadə edilməsi kimi geniş imkan verilmişdir. Tibbi-sanitar xidmətinin ən dinamik inkişaf edən istiqaməti olaraq, elektron səhiyyə ölkələrin səhiyyə sistemində olan bərabərsizliyi aradan götürən amillərdən biridir. Elektron səhiyyənin əsasını səhiyyə müəssisələrində İKT texnologiyalarının istifadə olunması mexanizmləri təşkil edir. Bura, əlverişli elektron səhiyyə siyasəti, infrastrukturun əsaslanmış inkişafına diqqət, təminat və təchizat problemlərinə iqtisadı cəhətdən effektivli yanaşma, ölkənin məqsədlərinə uyğun düzgün maliyyələşdirilmə, uzunmüddətli partnyorluğun yaradılması və səhiyyə mütəxəssislərinin tədrisi daxil olunur.

Respublikamızda səhiyyə sahəsində nailiyyətlərin əldə edilməsində, tibb elminin aktual məsələlərini, səhiyyə müəssisələrinin zəngin iş təcrübəsini, elmi-tədqiqat institutlarının nailiyyətlərini təcrübi həkimlərə çatdırmaq üçün geniş tibb kitabxanaları şəbəkəsi fəaliyyət göstərir.

Azərbaycanda Səhiyyə Sektorunda İslahatlar layihəsinin (SSİL) məqsədi səhiyyə sistemi üzrə idarəetmə və maliyyələşdirməni təkmilləşdirməkdən və sağlamlıq göstəricilərini yaxşılaşdırmaq baxımından maliyyə təminatını və davamlılığını təmin etməklə seçilmiş pilot rayonlarda zəruri səhiyyə xidmətlərinə çıxış imkanlarını və bu xidmətlərin keyfiyyətini artırmaqdan ibarətdir.

SSİL Azərbaycan hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 09.10.2006-cı ildə imzalanmış və 20.12. 2006-cı ildə qüvvəyə minmiş Maliyyələşdirmə Sazişinə əsasən həyata keçirilir və 20.12.2006-31.12.2012-ci illəri əhatə edir. Layihənin ümumi dəyəri 78.25 milyon ABŞ dolları məbləğindədir. Bu vəsaitin 50 milyon ABŞ dolları Beynəlxalq İnkişaf Assosiasiyasının ayırdığı kredit, 28.25 milyon ABŞ dolları isə Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilir. Layihə 5 (beş) komponentdən ibarətdir: **I** Səhiyyə Nazirliyinin idarəetmə potensialının gücləndirilməsi, **II** səhiyyə xidmətlərinin çatdırılmasının yaxşılaşdırılması, **III** Səhiyyənin davamlı maliyyələşdirilməsi və resursların səmərəli bölgüsünün təmin edilməsi, **IV** Kadr resurslarının inkişaf etdirilməsi, **V** Layihənin idarə edilməsi, monitorinq və qiymətləndirilməsi.

Azərbaycan dövlətinin qarşısında duran başlıca vəzifələrdən biri ölkənin elm siyasətində islahatların aparılması zərurətidir. Buna görə də elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması, mədəniyyətimizin dirçəldilməsi sahələrinə yönəldilmiş bir sıra qərarlar qəbul edilmişdir.

Son dövrlərdə ölkə başçısı, prezident İlham Əliyevin səhiyyə, tibb sahəsi ilə əlaqəli qəbul etdiyi qanun və sərəncamlar olkəmizin səhiyyə sistemində müsbət dəyişikliklərə gətirib çıxartmışdır. "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, "Qan və onun komponentlərinin donorluğu haq-qında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanunlar 2006-2011-ci illərdə qəbul edilmişdir. Eyni zamanda "Tibbi sığorta haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Psixiatriya yardımı haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Dərman vasitələri haqqında" qanun və sərəncamlar 2009-2011-ci illər ərzində qəbul olunmuşdur.

"İnformasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü idarə orqanlarının, təşkilatı, hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının

təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir." Elmin ən aktual problemləri ilə əlaqədar dünya səviyyəsində əldə edilən nailiyyətlərin fasiləsiz olaraq çatdırılması məsələsi əsrin aktual problemlərindəndir. XXI əsr informasiya əsri adlanır. XXI əsr kitabxanaların qarşısında kitabxana-informasiya xidmətinin təkmilləşdirilməsi və yenidən baxılması vəzifəsini qoymuşdu.

"Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda göstərilir ki, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətlərindəndir. Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyasının "Sağlamlığın qorunması hüququ" adlı 41-ci maddəsində deyilir:

I Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

II Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya sağlamlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

III İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Professor A.Xələfov yazır: "Respublikamızda əhaliyə kitabxana xidmətinin təşkili sistemində tibb kitabxana şəbəkəsinin də xüsusi mövqeyi vardır. Əsasən xüsusi kitabxanalar tipinə mənsub olan tibb kitabxanaları mütəxəssislərə, orta və ali tibb təhsilli müəssisələrinin müəllim və tələbələrinə, tibbə dair elmi-tədqiqat institutlarının alim və elmi işçilərinə xidmət etmək üçün yaradılır. Azərbaycanda 60-cı illərdən başlayaraq ixtisaslaşdırılmış tibb kitabxanalarının çoxşaxəli şəbəkəsi təşəkkül tapmağa başlamışdır. Tibb kitabxanalarının qarşısında əhalinin sağlamlığı keşiyində

duran bütün səhiyyə müəssisələrinin, tibb sahəsi üçün kadrlar hazırlayan ali və orta tibb təhsili müəssisələrinin, elmi-tədqiqat institutlarının işçilərinə kitabxana-informasiya xidməti göstərmək, onların sorğularını ödəmək vəzifəsi qoyulmuşdur."

Tibb kitabxanalarının əksəriyyətinin bilavasitə Səhiyyə Nazirliyinin sərəncamında olması onlara vahid rəhbərliyi asanlaşdırmaqla, kitabxanaların işinin əlaqələndirilməsinə və metodik təminatına da müsbət təsir göstərir.

Məlumdur ki, əhaliyə tibb xidmətinin səmərəliliyinin yüksəldilməsi bilavasitə dünya tibb elminin ən yaxşı nailiyyətlərinin təcrübi işdə tətbiqinə nə dərəcədə operativ nail olmaqla əlaqədardır. Elmin nailiyyətlərinin tibb praktikasında tətbiqinin müasir baxımdan anlaşılması səhiyyə müəssisələrinin yeni profilaktika, diaqnostika və müalicə metodlarının ən tez mənimsənilməsinə yönəldilmiş elmi-tədqiqat və praktiki tədbirlərin tam bir sistemini nəzərdə tutur. Bu tədbirlər sistemində tibb yeniliklərini özündə əks etdirən informasiya mənbələrinin daha operativ və səmərəli şəkildə informasiya istifadəçilərinə çatdırılmasına təsir edən bütün vasitələr, informasiya mənbəyi olan kitabxanalar mühüm rol oynayır. Tibbə dair informasiya ehtiyatlarını özündə toplayan, mühafizə edən, informasiya istifadəçilərinə çatdıran, kitabxana xidməti həyata keçirən Respublika Elmi Tibb Kitabxanası bu sahədə mühüm işlər görür. Kitabxananın qarşısında duran əsas məqsəd Azərbaycanın informasiya məkanında Respublika Elmi Tibb Kitabxanasının yerini müəyyən etməkdən və sahə üzrə kitabxananın fəaliyyətinə dair sənədləri, məlumatları, faktları dərindən təhlil edib elmi dövriliyə daxil etməkdən ibarətdir.

Məlumdur ki, ayrı-ayrı sahələr üzrə mütəxəssislərə və elmi-işçilərə xidmətin təkmilləşdirmək üçün onların informasiya tələbatının müntəzəm olaraq öyrənilməsi və alınan nəticələrin praktikaya tətbiqi mühüm əhəmiyyət kəsb edir.

İnformasiya tələbatının subyekti informasiyanı tələb edən ayrı-ayrı şəxs, eləcə də kollektiv ola bilər. Tibb sahəsi üzrə informasiyanın kollektiv tələbatçısı respublikamızın müvafiq müəssisələri hesab olunur. Azərbaycanda tibb üzrə mütəxəssislərin təbabətin ayrı-ayrı sahələri üzrə məşğul olması onların biblioqrafik informasiya istifadəçisi kimi qruplaşdırmağa imkan verir. Bu informasiya istifadəçilərini təsnifləşdirən zaman peşə fəaliyyət sahəsi də mühüm rol oynayır. Buna uyğun olaraq tibb üzrə informasiya tələbatçılarını aşağıdakı kimi qruplara bölmək olar:

Rəhbər işçilər, tədqiqatçılar, ali və orta ixtisas tibb məktəblərinin pedaqoji kadrları, praktiki işçilər, həkimlər, orta tibb işçiləri.

Bu informasiya istifadəçiləri də öz növbəsində tutduqları peşə fəaliyyət sahəsinə görə daha kiçik qruplara bölünürlər. Məsələn, tədqiqatçılar qrupu öz növbəsində tibb sahəsində fundamental tədqiqatlar aparan alim nəzəriyəçilərə, müxtəlif təcrübələr aparan alim praktiklərə bölünür. Ali və orta məktəblərdən olan informasiya istifadəçiləri isə öz növbəsində müəllim, tədqiqatçı və laborantlara bölünür. Tibb işçilərini vəzifəyə görə qruplaşdırmaq ən geniş yayılmış təsnifatdır. Bu vaxt tələbatçıları üç qrupa bölürlər:

1. Tibb üzrə elmi-tədqiqat müəssisələrinin direktoru, onun müavinləri, elmi katib.
2. Şöbə, sektor, qrup müdirləri.
3. Elmi işçilər, aspirantlar, magistrantlar.

Kollektiv tələbatçıları təsnifləşdirdikdə əsasən kollektivin əmək fəaliyyəti tipini, məqsədini, informasiya istifadəçisinin fəaliyyət vəzifələrini və s. nəzərə almaq lazımdır. Belə hallarda tələbatçılar rolunu elmi-tədqiqat müəssisələri, elmi ocaqlar, laboratoriyalar, şöbələr, müəyyən mövzu ətrafında işləyən bir qrup alim oynayır.

Tibb üzrə avtomatldaşdırılmış məlumat axtarış sisteminin mənimsənilməsi mütəxəsislər tərəfindən xüsusilə qiymətləndirilir. Belə ki, bu sisitemin köməyi ilə tədqiqatçı ona lazım olan informasiyanı daha dolğun və operativ surətdə alır. Belə olan surətdə tədqiqatçı daha düzgün və tezliklə nəticə əldə edib, onu praktikaya tətbiq edir. Belə hallarda biblioqrafik xidmətin yüksək keyfiyyəti biblioqraifk məlumatlarda tələbatı stimullaşdırır, tədqiqatçıda bu məlumatlara qarşı xüsusi maraq yaradır.

Tibb elmi ilə məşğul olan şəxslərdə xarici ədəbiyyata daha çox maraq olur. Tədqiqatlar göstərir ki, yüksək ixtisaslı kadrlar daha çox xarici ədəbiyyatla maraqlanırlar. Tibb sahəsində informasiyaya olan münasibət xüsusi xarakter daşıyır. Tibb sahəsində çalışan tədqiqatçıların maraq və tələbi çox olur. Bu da onunla əlaqədardır ki, bu sahədə çoxlu əsərlər dərc olunur. Belə tələbat yüksək inkişafla əlaqədardır.

Respublika Elmi Tibb Kitabxanasında əldə etdiyi nailiyyətləri ilə bərabər çatışmayan cəhətlər də mövcuddur. Belə ki, kitabxanada 2005-2010-cu illər arasında tərtib olunan bir sıra metodik vəsaitlər maliyyə vəsaiti çatmadığına görə hələ də çap olunmamış qalmaqdadır.

İnformasiyalaşdırılmış cəmiyyətin formalaşdığı, dünya informasiya məkanında inteqrasiya proseslərinin getdikcə gücləndiyi bir şəraitdə kitabxanaların yeni statusunu müəyyənləşdirən metodik vəsaitlər sisteminin formalaşması ölkədə informasiya təminatının səmərəliliyinin mühüm amili kimi meydana çıxır. Yeni tipli sənədlər informasiyalaşdırılmış cəmiyyətdə kitabxana işinin strateji inkişaf yollarının, kitabxanalarda yeni texnologiyaların tətbiqinin, milli kitabxana-biblioqrafiya strategiyasının yaradılmasının təminatında əsaslı rol oynamalıdır. Bu sənədlər respublikamızda fəaliyyət göstərən bütün metodik mərkəzlərdə hazırlanmalı, toplanmalı və geniş istifadə edilməlidir. Belə sənədlər dünya təcrübəsindən istifadə edilməklə hazırlanmalı, bütün kitabxanalara tətbiq edilməlidir.

Respublika Elmi Tibb Kitabxanasının yaxın gələcəkdə fəaliyyətinin yeniləşməsi və gələcək inkişafının strateji istiqamətlərini belə müəyyənləşdirmək olar: Azərbaycanda ictimai həyatın müasir səviyyəsi, müstəqillik şəraitində ölkədə baş verən çox dərin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklər Respublika Elmi Tibb Kitabxanasının kitabxana fəaliyyətinin qarşısında yeni ciddi tələblər qoyur. Bu ilk növbədə kitabxana informasiya tələbatçılarının fəallaşması və onların ümumbəşəri mənəvi dəyərlərə yiyələnmək və bu məqsədlə dünya informasiya məkanına sərbəst və maneəsiz daxil olmaq zərurəti ilə bağlıdır.

Bu baxımdan oxucuların kitabxana informasiya təminatında heç bir məhdudiyyətə yol verilməməlidir.

Kitabxanaya il ərzində Azərbaycanın müxtəlif regionlarından tibbi mütəxəssislər müraciət edir. İl ərzində oxucu gəlişi 4000 nəfərə bərabərdir. Burada onların ixtiyarına rahat oxu zalları verilmişdir. 2005-2010-cu illərdə kitabxananın kitab verilişi 23000 vahid nüsxə olmuşdur. Oxuculara xidmət müasir səviyyəli informasiya texnologiyası əsasında aparılır. Burada İnternet vasitəsilə müxtəlif verilənlər bazasına girişi təmin edən iki müxtəlif kompüter zalı fəalliyyət göstərir.

Oxucularının sorğularının tam ödənilməsi məqsədilə kitabxana fondunda olmayan ədəbiyyat kitabxanalararası abonement (KAA) vasitəsilə əldə edilir.

Son illər RETK-sı tibb üzrə ədəbiyyatın toplanması, mühafizəsi və istifadəsilə məşğul olan mədəni-maarif müəssisələrindən respublikanın tibb və səhiyyə üzrə həqiqi informasiya və kitabxana xidməti mərkəzinə çevrilmişdir. Kitabxana həm də elmi-tədqiqat fəaliyyəti ilə məşğuldur. Burada müxtəlif səpgili biblioqrafik göstəricilər işlənib hazırlanır.

Kitabxananın fəaliyyət sahəsinə həmçinin informasiya materialları əsasında tibb mütəxəssislərinə ən son nailiyyətlər haqqında informasiyanın çatdırılması, informasiyanın seçilib yayılması (İSA), səhiyyə rəhbərlərinə differensial xidmət, «İnformasiya günü», «Mütəxəssis günü» kimi operativ xidmət formalarını müəqillik illərində də həyata keçirir.

Kitabxana ölkənin tibb müəssisələrinin kitabxanalarına təcrübi kömək göstərir və tibb kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına yardım edir.

Respublika Elmi-Tibb kitabxanasında aparılan işin əsas vəzifəsini tibb sahəsi üzrə elmi fəaliyyətin və tədris-tərbiyə təşkil edir. Bunlar orada aparılan китабхана işinin əsas funksiyalarını təyin edir. Tibb sahəsi üzrə ali məktəbin, şəbəkəyə daxil olan digər kitabxanaların aparılan elmi fəaliyyət elmi informasiya şöbəsi ilə əlaqələndirilir.

Azərbaycan səhiyyəsinin XXI əsrdəki perspektiv inkişafına gəldikdə isə, təbii ki, onun da qarşısında geniş üfüqlər açılacaqdır. Azərbaycan səhiyyəsi

bütün əsr boyu dünya təbabət elmindən bəhrələnərək, inkişaf etmiş dünya ölkələrinə inteqrasiya olunacaqdır. Ümid etmək olar ki, Respublika Elmi Tibb Kitabxanası və şəbəkəyə daxil olan kitabxanaların bu sahədəki fəaliyyətləri daha da intensivləşəcək, informasiyalı cəmiyyətin tələbatına uyğun biblioqrafik fəaliyyəti ən yeni forma və üsullarla yeni texnologiyaların tətbiqi yolu ilə operativ həyata keçirməyə nail olacaqdır.

ƏDƏBİYYAT:

1. *Azərbaycan Respublikasının Konstitusiyası :12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələrlə). B.: Qanun, 2004, 48 s.*

2. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1999, 14 mart.*

3. *"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramı"//Bakı, Respublika qəz., 2008, 7 oktyabr.*

4. *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında: Azərbaycan Respublikası Milli Məclisinin Qanunu //Azərbaycan Respublikası Qanunvericilik toplusu, 1998, №6, s. 1214-1222*

5. *Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu //BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası. B.,1999, №4, s.221-227.*

6. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika, 2002, 17 aprel.*

7.*Respublika Elmi-Tibb Kitabxanasının hesabatları. 2005-2010*

The scientific medical library information
years of independence

H.O.Zeynalova

Summary

The article is devoted on the development of medicine and health care in the years of independence of Azerbaijan, also in this article highlights the main aspects of the Republican Scientific Medical Library, its computerization, laws and decrees adopted by 2005-2010-s years.

Keywords: *health, medicine, medical, information, information, library*

Информатизация Научно-медицинской библиотеки в лет независимости

Х.О.Зейналова

Резюме

Статья посвяшена на развитие медицине и здравоохранения в годе независмости Азербайджана, также в этой статье освещаются основные аспекты Республиканская научная медицинская библиотека, ее компьютеризация, законы и постановления, принятые 2005-2010 –е годы.

Ключевые слова: *здоровье, медицина, медицинская, информация, inforinformasiyalasdırma, библиотека*

MEDIEVAL THE FIRST SCIENTIFIC RESEARCH INSTITUTIONS IN AZERBAIJAN - THE MARAGHA OBSERVATORY AND ITS LIBRARY

E.E. Mammadov
Employee of Scientific Library of BSU,
Candidate for a degree of department
«Librarianship», a teacher

In this article, using a brief historical excursion investigated the role of the medieval (XIII-XIV centuries) the first research institutions in Azerbaijan – the Maragha observatory and its library in the development of Azerbaijan culture and library science in the period of their activity.

Keywords: *Scientific library, library, history of librarianship, Library Science, Maragha observatory, Nasiraddin Tusi, medieval.*

In the XIII century in Azerbaijan the scientific library of Maragha observatory, which could contend with the biggest libraries of the world for its rare and rich fund and had no equal in the East, began its activity. That library was the first one in Azerbaijan, which had exact history of origin and duty, own aim in history of librarianship. The base of that scientific tomb, which was well-known in the East that time, was laid down by a prominent son of our nation, a scientist, having an encyclopedic knowledge, Nasiraddin Tusi.

Nasiraddin Tusi (1201-1274) was a very prominent thinker of his time, a famous scientist,who investigated scientific areas such as - maths, astrology, cosmology, mineralogy, trigonometry, geography, history, law, medicine, morality, logic, theology, poetics, calligraphy and etc., he brought world fame to Azerbaijan science, raised it to summit.

In authority period of Atabeys state in Azerbaijan culture achieved great progress, science, literature, poetry, architecture and art prospered. Azerbaijan culture reached its golden age just in Nasiraddin Tusi's - the cleverest and wiseble person, master of humanity, the sultan of scientists, active period.

Nasiraddin Tusi achieved powerful development and progress of Azerbaijan science in Azeri Atabeys' - Jahan Pahlavan, Kizil Arslan and Abu Bakr period, enriched the science with new inventions and could raise to higher summits. Being busy with natural sciences directly, Nasiraddin Tusi was a prominent person, who knew also the humanities and political science, showed a serious affect on educational system of his time, and he was a patriotic educated man. Nasiraddin Tusi was a great poet, a master of poetry theory, a scientist of poetics, too.

Nasiraddin Tusi's greatest scientific achievement was his Maragha observatory and new scientific investigations, which were given with that

scientific memorial. This scientific centre was built under Nasiraddin Tusi's leadership. The foundation of this grandiose monument in all Eastern culture was laid in 1259 year, and the building was finished in 1271, for 12 years. Besides having serious scientific works in Maragha, Tusi invented some new exact apparatus, gave the project of the observatory, and took the hardest work, such as strengthen its material and technical basis.

To build the observatory and supply it with necessary technical means requested big sum. To get that sum, Tusi applied to Hulaku khan, who he had good relations with. Hulaku khan asked about the sum. When Tusi told him the sum, Hulaku khan was surprised and asked: "Is the science about stars really so useful, that so great amount would be used for an observatory?". For answer Tusi said: "Let someone to climb this mountain absolutely secretly and bring him a large copper basin, but no-one must know about it".

And they did that. When a large cooper basin was coming down the mountain, a great sound rose. It caused great panic among Hulaku khan's army. Nasiraddin Tusi and Hulaku khan observed that noise calmly. That time Nasiraddin Tusi applying Hulaku khan said: "We know the reason of this noise but your army is anxious. If we know the secrets of heavenly bodies, we will be calm here". This event influenced Hulaku khan and he agreed to part 20 000 dinars for building an observatory.

After allocations for an observatory were parted, its building began soon, and the architect of the observatory was Fakhr al-Addin Ahmed ibn Osman Maraghai.

That observatory was in activity for about 50 years, and gave very valuable inventions and scientific works for astronomy. Specialists show that, there were very valuable apparatus and equipment in that observatory for its time. Scientific researches, which were done in that observatory showed a big affect on development of European science. More than 100 Tusi's valuable works, which were written there, such as "Ilkhanid tables", "The picture of intersection", "Akhlaq-i Nasiri", "Javahirname", "Philosophical booklet", "The rules of medicine", and etc. enriched Azerbaijan science.

A prominent scientist wrote monumental works about music, financial problems and etc. The books, compiling for astronomy and geometry attained importance as education means. N.Tusi's geometric methods were used as an educational means at the library for a long time.

Scientists-investigators show that, a special madrasa was established in Maragha observatory to bring up personnel sing. The noblest students were chosen and sent to that medrese. Leading the medrese works directly, Nasiraddin Tusi also taught there. Also, very prominent scientists were invited from interior of the country and from the outside to teach at medrese and work at the observatory. Tens of foreign students were studing at that education

institution, too. There was paid special attention on translating valuable books from foreign languages. Under Tusi's leadership lots of rare books were translated from Greek into Arabian and Persian languages. A big scientist army was having activity under Tusi's leadership there, and they were busy with work of scientific research. There is information, in historical sources, about 100 persons working there. A prominent mathematician H. Mammadbeyli defined 20 ones of them.

Giving a large place on learning the activity of Maragha observatory in his researches, academician Ziya Bunyadov revealed very valuable facts about this observatory. In his article, called "Nasiraddin Tusi and development of science in Azerbaijan in the XIII century" (The news of Academy of Sciences of Azerbaijan SSR. Series of history, philosophy, and law, 1982, №1, p.3-8) he writes: "With Nsireddin Tusi's suggestion Hulaku khan invited prominent scientists of that time - Fakhraddin Maraghai, Fakhraddin Akhlati, Muayyaddin Urdi, and Najmeddin Gazvini to the capital of Ilkhans - Maragha. They formed head scientists council for preparing the project of Maragha observatory and finishing its building under Nasiraddin Tusi's leadership".

Hulaku khan gave the order to begin the building of the observatory in May of 1259 year. The whole building of the observatory finished in 1273. Hulaku khan separated a great amount of money for building the observatory and also the library, named "The house of science and wisdom".

"The house of science and wisdom" and Maragha observatory, founded by Tusi, can be considered as the first academy in Eastern countries for their status and system. Nasiraddin Tusi took care on choosing and placing the workers of the both science hearths, paid special attention on providing them, and improving conditions of work. Scientific researches, surrounded lots of comprehensive and voluminous scientific areas were running in the observatory. The richest and rarest scientific library of that academy had an important role in great achievements of the academy in middle ages".

The origin of the library is directly closed with Nasiraddin Tusi's name. Being the author of more than 100 works, Nasiraddin Tusi was a great amateur of book, a book lover, and a person, who appreciated books. We won't be mistaken, if we say that he spent most of his life in libraries, among books, he read hundreds of books and he was a great reader. Even in youth, being kept at "Alamut" castle, he led "Sayiddane" library there and spent all his life in that library. He was a person, who knew librarianship and works of forming it. When he began to create an observatory, he also kept on mean to open a big library, too. Getting 20 thousand dinars from Hulaku khan, Nasiraddin Tusi spent it on establishing an observatory and especially a library. Having wide reations with big libraries of Eastern countries and

prominent scientists helped him not only on establishing the library, but also made circumstances to get new valuable books.

Having experience on carring big scientific researches, Nasiraddin Tusi knew that, no scientific research institution can work without a library. A deep scientific research work demands establishing a rich libraries. Nasiraddin Tusi went to lots of big Eastern centres of science and culture, and was acquainted with construction of their libraries. Especially, deep acquaintance with scientific rules at the library of "Nizamiyye" academy in Baghdad, and a well-known library of caliphate, named "Book treasury", gave a positive affect on foundation the library of the observatory on scientific basis.

Just because of it, on a result of Nasiraddin Tusi's effort, a library, known as Fundamental Scientific Library in the East and having incredibly big fund for that period, was established at the observatory. 400 000 manuscripts were collected at the library. Having 330 square metre place, that library was situated in a wonderful building, built near the observatory. During excavation, carring in library building, was defined that, it was impossible to save 400 000 volumes of books there. So, a share of library books was kept at the observatory. It was considered as an unattainable peak for those times.

This big temple of science and politeness, treasury of knowledge may be considered as great Nasiraddin Tusi's masterpiece. The scientist spent a very productive and valuable part of his life on establishment and development of that temple.

According to historical sources, this great scientist had very valuable own library. He gave his rich own library, which he founded for years, to the observatory library, too.

He was also a great politician, too. Appreciating political events by him correctly, gave big profit on development of Azerbaijan science and culture, saving Azerbaijan national riches - books and libraries. When the Mongolians occupied Azerbaijan, being under arrest on "Alamut" castle, the scientist was serving for Ismails. He understood the state being in the decline and he proved the last ruler Ruknaddin Khurshakh that opposition would be useless. Finally he could persuade him to surrender to Hulaku khan in 1256 year. Fazlullah Rashidaddin wrote about it in his work "Jami-at-Tavarikh" (Collection of dates): "Hulaku khan appreciated Tusi' prescience and permitted him anything, he wanted. Nasiraddin chose the sole and the most honest way - the Ismails' rich library was rescued". The rich fund of rescued "Sayyidane" library was included into the observation library.

Academician Ziya Bunyadov shows that, when the Mongolians occupied Baghdad in 1252 year, Nasiraddin Tusi based the conquest of the capital of Abbasid caliphate and especially he agitate the ruler on this work. When

Hulaku khan asked Tusi's opinion he said that, getting Baghdad wouldn't cause any danger for Hulaku. For his wiseble advice Nasiraddin's award was rescuing a great number of books, kept in Baghdad libraries. In 1258 after capturing Baghdad Hulaku khan had the books removed, kept in caliphate library to Maragha city with Nasiraddin Tusi's request. Nasiraddin Tusi wrote in his "Ilkhanid tables": "Hulaku khan ordered to bring books from Baghdad, Sham and Mosul for the observation".

As it known from history of world libraries, the richest libraries, collecting and keeping ancient and middle age books for hundred years in Eastern countries were in Baghdad. The most valuable and rarest manuscripts of the world were kept in those libraries. Bringing the books, kept in those libraries, to the library of Maragha observatory turned its fund to stock of gold of that time. Besides books, brought from Baghdad, also the books from Iran, Syria, Middle Asia and other states of the world were included into observatory library.

As the fund of the library formed a great number quantitatively, it was very rich and valuable by quality, too. The books, collected at The Baghdad Caliphate Library for hundreds of years, and manuscripts, considered approximately as the most valuable pearls of the East, enriched the fund of the library. One of the greatest achievements of that library was collecting and saving books of Azeri authors and becoming the treasury of Azerbaijan book culture.

According to academician Ziya Bunyadov's writings, among manuscripts in Maragha observatory, the works of Azeri authors such as Abu Ali Ahmed ibn Muhammad Bardai's "History", Shamsaddin Muhammad ibn Osman Saravi's "Sijili Fatan al fityan" (Collection of admonitions for the youth), Muhtasaddin Abulkheyr's "Tarikhi Azerbaijan" (Azerbaijan history) and others were kept. After Nasiraddin Tusi's death, his little son Fakhraddin Abulqasim Ahmed Maraghai led the observatory and its library. Ahmed Maraghai was a perfect astronomer, scientist and doctor. Giving superiority to being busy with mathematical sciences, Ahmed Maraghai had a perfect gift of speech. After his death (1301) Nasiraddin Tusi's second son Sadraddin Abul Ali, and later, the third son Asiladdin Hasan led the observatory.

The libraries of Eastern countries in middle ages have operated as scientific centres, served free of charge for readers, being busy with science, and gave them scientific advice in necessary times and formed lectures. Just because of it, the most prominent persons of that time led the libraries, the most educated persons and scientists of that time worked in libraries. Nasiraddin Tusi led Maragha library directly himself. Very prominent scientists were working at the library. Investigators show names of librarians, working at observatory library such as Kemaledin Mesud ibn - Muhammad

Tiflisli, Najmaddin Baghdadi, and Kemaluddovle Abu Ali ibn Abu Faraj. Collecting 400 000 books at that library informs about forming the library work on scientific basis. No doubt, there was used special scientific classification, special technique of librarianship science, to keep books at the library. Investigations show that, as Nasiraddin Tusi had close relations with Kemaleddin Abdulrezzag ibn Ahmed Baghdadi, who headed caliphate Motesim's world-wide famed library, called "Book treasury" in Baghdad, he was informed about structure, scientific classification, technology of Baghdad library and other scientific rules, used at the library, the information system of it. And by the way, he used that wide experience at his observatory library. Using scientific classification in order of books at the library, and using the rules of giving a separate code on each book, having description rules, compiling of book cataloques, informs us about origin of scientific basis of Azerbaijan librarianship, maybe in embryo, even in those time. The works, which were prepared by the library in type of bibliographic information, and had an encyclopaedic character, also attract attention. From this point of view, the head librarian of the library, a prominent explorer scientist al-Fuvat's written work "The famous of the East", which was written on the base of books, kept at the library, attracts attention especially. This valuable encyclopaedic work, consisted of 53 volumes, not only caused big interest of great Eastern scientists, but also has great scientific importance in learning the life and activity of prominent Eastern scientists. No doubt, to find such works, to get them from big libraries of the world, must be our modern explorers' duty.

The library of Maragha observatory showed activity till 1335 year, until Sultan Abu Said Bahadur khan's death. After Abu Said's death, getting shattered the Ilkhanid state and its weaken, destroyed the observatory and its library because of desolation. An explorer scientist M. H. Musaddiq shows that, after coming Jalairis, Teymurids and Aghgoyunlu dynasties to Azerbaijan one after another, the observatory and its library in Maragha got destroyed. A part of the library was sent to Soltan Ahmed Jalair's and Ulugh bey's library in Samarkand. From seals, set on copies, which came to our days, it is possible to define the following adres of observatory libraries. It's very pity that, we don't have wide information about the fund of the library, arranging service work to readers, the work of information-bibliography and other activities. Further scientific researches, doubtless, will give an opportunity to learn the activity of the library comprehensively.

In authority period of Mongolian Hulaku khan and Gazan khan rulers, big work was done in development of science and culture in Azerbaijan, also in establishing new scientific and cultural institutions, 5 great scientific and cultural areas were founded. An explorer scientist M. H. Musaddiq, who had researches about it, shows that, our scientists founded 5 big scientific hearths

in authority period of Mongolians in Azerbaijan. One of them was an observatory, the second one, was the university, established in Alishakh mosque in Tabriz, on purpose to research literary and historical sciences. The third one was a scientific centre in Shanbe-Gazan, the fourth was the university in Rabi-Rashidi settlement near Tabriz, which was established by Rashidaddin Fezlullakh. And the fifth, was a scientific centre in Sultaniyye city of Azerbaijan. Establishing such big scientific centres and their activity, informs about very big achievements of Azerbaijan science. A fact, excited curiosity on library historians, attracts attention that, all those scientific institutions had rich libraries, which earned world-wide fame. The most prominent scientists took part closely, on establishing and activity of those libraries and took on themselves the leading of them. Scientific institutions appreciated the libraries as sections of structure of institutions, considered as one of basic factors in founding scientific institutions. Such a scientific thought was formed in those times, that, before establishing a scientific – research institution, first its library had to be founded. As those libraries took a duty to serve the duties and purpose of institutions, to answer the questions and requirements of scientists, working at scientific institutions, they carried the status of a scientific library.

The libraries of scientific institutions, founded and formed in XIII-XIV centuries, may be called as the first scientific libraries for their activity status, duties and purpose. As scientific libraries served directly to scientists, scientific workers, who had a scientific-research work at institution, and educated men, to work in such libraries demanded a wide professionalism. Just because of it, only prominent scientists,experienced educated men worked in scientific libraries and led them.

So, being the first Azerbaijan scientific library, established on a result of Azerbaijan scientist Nasiraddin Tusi's great work and strong will, the library of Maragha observatory takes an honest place as the first library for richness and rarity of its fund in history of librarianship, which was open not only for scientists of the observatory, but also for other readers and it is praised as one of world libraries pearls. Having historical facts, arguments and historical sources, about learning the activity of the library, give an opportunity to say a thought that, the library of Maragha observatory, built by Nasiraddin Tusi, is the first scientific library in Azerbaijan, which had exact history. That library was one of the biggest libraries in the East for richness of its fund, difference and status of methods and new forms, used in formation of service work for readers. Saving books in the library, their scientific classification, arrangement, scientific methods and rules about usage the information at libraries, is a thorough argument about rising the librarianship science to a high scientific level.

LITERATURE:

1. *Bunyadov Z. Nasiraddin Tusi and development of science in Azerbaijan in the XIII century // The news of Academy of Sciences of Azerbaijan SSR. Series of history, philosophy, and law, 1982, №1, p.3-8.*
2. *Ibrahimov C. Azerbaijan culture in the XV century: tutorial for correspondence students. Baku, 1961, 41 p.*
3. *Khalafov A.A. History of librarianship in Azerbaijan: Manual (In two parts): Part I (From the most ancient times until the twentieth century). Baku: Baku State University publishing house, 2004, 328 p.*
4. *Mammadbeyli H. C. Muhammad Nasiraddin Tusi/ ed. Sh. Kuliyeva. Baku: Ganjlik, 1980, 173 p.*

Orta əsrlər Azərbaycanında ilk elmi-tədqiqat müəssisələri-marağa rəsədxanası və onun kitabxanası

E.E. Məmmədov

Xülasə

Məqalədə konkret olaraq orta əsrlər (XIII-XIV əsrlər) Azərbaycanının ilk elmi-tədqiqat müəssisələri – Marağa rəsədxanası və onun kitabxanasının tarixinə qısa bir ekskursiya edilərək onların Azərbaycan mədəniyyətinin və kitabxanaşünaslıq elminin inkişafında hansı rol oynadığı məsələsi araşdırılmışdır.

Açar sözlər: *Elmi kitabxana, kitabxana, kitabxana işinin tarixi, kitabxanaşünaslıq, Marağa rəsədxanası, Nəsirəddin Tusi, orta əsrlər.*

Средневековье первые научно-исследовательские учреждения в Азербайджане - обсерватория марага и ее библиотека

Э.Э. Мамедов

Резюме

В этой статье с использованием краткого экскурса исследована роль средневековых (XIII-XIV веков) первых научно-исследовательских учреждений в Азербайджане - обсерватория Марага и ее библиотека в развитии Азербайджанской культуры и библиотековедение в период их деятельности.

Ключевые слова: *Научная библиотека, библиотека, история библиотечного дело, библиотековедение, обсерватория Марага, Насираддин Туси, средневековье.*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ PREZİDENT KİTABXANASINDA KİTABXANA-İNFORMASİYA PROSESLƏRİNİN İNFORMASİYALAŞDIRILMASI

C.R. ŞİRİNOV
Kitabxanaşünaslıq kafedrasının müəllimi
BDU-nun dissertantı

Zamanın tələbinə müvafiq informasiya texnologiyasının kitabxana işinə tətbiqi, kitabxana işinin informasiyalaşdırılması, komputerləşdirilməsi, elektron ktabxanaların, kataloqların, fondların yaradılması, kitabxanaların elektron vasitələrlə: elektron kitablarla, elektron daşıyıcılarla, müxtəlif elmi məsələləri əks etdirən disklərlə, multimediya vasitələri ilə, kitaba, kitabxana xidmətinə, xüsusilə müxtəlif elm sahəsinə aid olan populyar xarakterli diafilmlərlə, telefilmlərlə, filmlərlə təchiz edilməsi və bütün coğrafi sərhədləri aşan internetdən istifadə edilməsi kitabxanaların strukturunda olduqca ciddi radikal dəyişikliklər yaradıb və indiyə qədər mövcud olmayan, həll edilməsinə böyük ehtiyac duyulan tamaimlə yeni problemlər ortaya çıxartdı.

Açar söz: *informasiyalaşdırma, Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası, cəmiyyətin informasiyalaşdırılması, informasiya kommunikasiya texnologiyaları, informasiya təhlükəsizliyi.*

Bu problemlərin həlli isə müasir innovasiyaları öyrənmək, kitabxanalarda informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi ilə mümkündür. İKT–informasiyanın əldə edilməsi, emalı, saxlanması və ötürülməsi məqsədilə proqram-texniki vəsaitlərin, istehsalat proseslərinin və metodlarının yığımıdır. İnformasiya kommunikasiya texnologiyalarına (İKT) aid olan məsələlərdən biri informasiya proseslərdir. Əsas informasiya proseslərinə aşağıdakılar aiddir: informasiyanın axtarışı, seçimi, yaradılması, saxlanması, ötürülməsi, kodlaşdırılması, emalı və qorunması. İnformasiya cəmiyyəti (İC) quruculuğu və ya başqa sözlə desək cəmiyyətin informasiyalaşdırılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafın təmin edilməsi üçün güclü vasitədir. Azərbaycanda informasiyalaşmış cəmiyyətin əsas xüsusiyyətlərinə qlobal informasiya mühitinin yaradılması, sosial və iqtisadi fəaliyyətin yeni formalarının meydana gəlməsi, informasiya və bilik bazarının yaradılması, müxtəlif səviyyədə informasiya mübadiləsi sistemlərinin inkişafı, vətəndaş və təşkilatların istənilən məlumatı almaq, onu yaymaq və ondan istifadə etmək kimi hüquqlarının tam təmin edilməsi və s. aiddir. İnformasiyalaşdırma anlayışı keçən əsrin 80-90- cı illərində formalaşmışdır. Yeni elmi istiqamət kimi formalaşan informasiyalaşdırma qısa müddət ərzində cəmiyyətin informasiya ehtiyatları ilə təminatında mühüm rol oynamışdır. "İnformasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə

olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə idarə və təşkilatların cəmiyyətin bütün strukturlarının, vətəndaşların informasiya tələbatının və bu sahədəki hüquqlarının təmin edilməsi məqsədilə optimal şəraitinin yaradılması üçün həyata keçirilən təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir" (4). İnformasiyalaşdırma prosesində, ilkin olaraq, informasiyanın toplanması, emalı, onun saxlanması və analizi üçün böyük işlərin görülməsi zəruridir. İstənilən sahədə rasional həll yollarının tapılması böyük həcmdə informasiyanın emalına əsaslanır, bu isə xüsusi texniki vasitələr cəlb olunmadan praktiki olaraq qeyri-mümkündür. İnformasiyalaşdırma prosesi kortəbii proses eyil. Bunun nəzəri, fəlsəfi, praktiki tərəfləri aşkarlanır.

Müasir informasiya texnologiyaları vasitəsilə cəmiyyətdə aparılan informasiyalaşdırma prosesi – iqtisadi, maliyyə, maddi qənaətləri nəzərə alaraq informasiyanın dəyərini daha da artırmışdır. Cəmiyyətin informasiyalaşdırılması maddi və əmək ehtiyatlarına qənaət etmək, insan sivilizasiyasının yaşaması və inkişafı üçün fəlakətlərin qarşısını almaq, hər bir insanın vahid informasiya fəzasına daxil olub cəmiyyətin və özünün inkişafı üçün bu ehtiyatlardan istifadə etməsinə şərait yaratmaq məqsədini güdür.

İnformasiyalaşdırma elmin bütün sahələrinin inkişafına böyük təsir göstərmişdir. Bundan başqa o cəmiyyətin təhlükəsizliyində də böyük əhəmiyyətə malikdir. Bu proses dahada irəliləyərək gələcəkdə insanı narahat edən təbii fəlakətlərin, mənfiyə yönəlmiş antropoloji təsirlərin qarşısının alınmasına kömək edəcəkdir. Məhz bu prosesdə vahid dünya informasiya məkanının yaradılması əsas rol oynayacaqdır.

İnformasiya eyni zamanda cəmiyyətə ziyan vura bilən silahada çevrilə bilər. Ona görə də, mütləq neqativ informasiyanın yayılmasının qarşısının alınması və informasiyanın özünün qorunması üçün tədbirlərin grülməsinə mütləq diqqət yetirmək lazımdır. Hal-hazırda düzgün, keyfiyyətli informasiyaları seçmək və yalan informasiyaların yayılmasının qarşısının alınması problemi yaranmışdır. Kitabxanaların xüsusilə belə informasiyaların seçimində diqqətli olmaq tələb olunur. Bəzi şöbələrin işinin yeni keyfiyyətlərlə təkmilləşdirilməsi zəruridir. İnformasiya mühitində neqativ informasiyalardan qorunmaqla inkişaf informasiya təhlükəsizliyinin təmin olunmasıdır.

Texniki tərəfdən informasiyanın qorunması EHM – lərin təhlükəsizliyinin qorunması, açarların qoyulması, kriptoqrafik müdafiə vasitələri ilə həyata keçirilir. Kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın komputerləşməsi prosesi kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, struktur quruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabaxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha

böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır. (1,səh 467)

Dünyanın əksər ölkələrində cəmiyyətə göstərilən kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir və bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir. Müasir tipli kitabxana informasiya cəmiyyətinin atributudur. Respublikamızın informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə istifadəçilərə yüksək səviyyədə informasiya xidməti göstərən kitabxanalardan biri Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasıdır. Kitabxananın fəaliyyətinin əsas istiqamətləri - Kitablar və digər sənəd növləri üzrə fondlar formalaşdıraraq informasiya ehtiyatları yaratmaq, onları mühafizə etmək, həmin fondları özündə əks etdirən mükəmməl ənənəvi və elektron kataloq-kartoteka və biblioqrafik vəsaitlər sistemini tətbiq etmək, onu daim inkişaf etdirməklə bu fondları oxucuların hərtərəfli istifadəsinə verməkdən ibarətdir.

Kitabxanada müasir informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verilir. Kitabxanada lokal kompyuter şəbəkəsi yaradılmış, İnternetə çıxış təmin edilmişdir. Portativ kompyuterləri olan oxucular kitabxananın oxu zalından İnternetə simsiz əlaqə sistemi ilə də qoşula bilərlər. Kitabxanada İRBİS Kitabxana Avtomatlaşdırılma Sisteminin son versiyasının (İRBİS 64) tam komplekti tətbiq edilmişdir. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem həm də oxuculara Kitabxanada hazırlanmış tammətnli verilənlər bazasından istifadə etməyə imkan verir. Bundan əlavə, hər bir İnternet istifadəçisi Kitabxananın Web səhifəsi vasitəsi ilə onun Elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilər.

Kitabxanada Azərbaycan, rus və digər dillərdə olan ədəbiyyatı əks etdirən əlifba və sistemli kataloq tərtib edilmişdir. 2003-cü ildən etibarən Kitabxananın aldığı bütün kitablar haqqında məlumat Elektron kataloqa (EK) daxil edilir. 2004-cü ildən isə fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialların biblioqrafik təsvirləri də EK-nın tərkibindəki ayrı bir verilənlər bazasına daxil edilir. Kitabxanada müxtəlif təyinatlı biblioqrafik vəsaitlər də tərtib və nəşr edilir. EK-dan və biblioqrafik vəsaitlərin elektron variantlarından həm də Kitabxananın Web səhifəsi ilə də istifadə etmək olar. Kitabxana öz istifadəçilərinə tam həcmdə soraq-biblioqrafiya və biblioqrafik informasiya xidməti göstərir. Xüsusi oxucu qruplarına elektron poçt (E-mail) vasitəsilə də biblioqrafik informasiya xidməti göstərilir.

Kitabxanada ənənəvi kitabxana-biblioqrafiya xidmətləri ilə yanaşı, İnternetdən istifadə, müxtəlif təqdimatlar və mətbuat konfranslarının keçirilməsi, skaner, surətçıxarma, laminasiya və s. əlavə xidmətlərdən də

istifadə etmək olar. Kitabxanada informasiyalaşdırma proseslərinin dünya səviyyəsinə qaldırmaq, dünya təcrübəsini öyrənmək məqsədilə görüşlər keçirilir. 2014-cü ilin iyun ayının 12-də Türkiyənin Biləcik Şeyx Ədəbəli Universitetinin Kitabxana və informasiya mərkəzinin müdiri Mustafa Sərin Prezident Kitabxanasında olmuşdur. Görüş zamanı kitabxana proseslərinin avtomatlaşdırılmasıda RFİD sisteminin tətbiqindən geniş söhbət açılmışdır. Gələcəkdə bu sahədə təcrübə mübadiləsi aparmaq üçün razılıq əldə olunmuşdur. Bundan başqa Rəsul Həmzətov adına Xasavyurt Mərkəzi Şəhər Kitabxanasının (Dağıstan) kollektivi 2014-cü ilin iyul ayının 13-də, 2013-cü ilin noyabr ayının 25-də "Amerika Kitabxanaları" jurnalının keçmiş baş redaktoru Leonard Kriffel, Litva Respublikasının Martinas Majvidas adına Milli Kitabxanasının baş direktoru Renaldas Qudauskas 2013-cü il sentyabrın 25-də, Avropa Milli Kitabxanaları Konfransının Bakıda keçirilən XXVII illik iclasının iştirakçısı, Boris Yeltsin adına Rusiya Federasiyası Prezident Kitabxanasının baş direktoru Aleksandr Verşinin 2013-cü ilin sentyabrın 26-da, 2013-cü il sentyabrın 26-da Avrasiya Kitabxanaçılar Birliyinin başqanı Suna Gercik və başqan yardımçısı Ekrem İşıq, 2011-ci il 5 noyabr tarixində OCLC (Onlayn Kompyuter Kitabxana Mərkəzi) təşkilatının MDB ölkələri üzrə koordinatoru Reyn van Haldropinin rəhbərlik etdiyi nümayəndə heyəti və.s Prezident Kitabxanasında olmuşlar. Görüş zamanı üasir kitabxanaların inkişaf problemləri ilə bağlı geniş fikir mübadiləsi aparılmış, kitabxananın informasiyalaşdırma və avtomatlaşdırma məsələləri xüsusi olaraq qabardılmış, onun dünya təcrübəsindən yararlanmaq perspektivləri müzakirə edilmişdir.

Elektron sənəd-informasiya resurslarının yaradılması Prezident Kitabxanasının fəaliyyətinin əsas istiqamətlərindən biridir. Aktual mövzulara dair tammətnli elektron resurslar istifadəçilərin (oxucuların) tələbatını daha da dolğun ödəmək məqsədi daşıyır. 2003-cü ilin oktyabr ayından "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri, bəyanatları" adlı tammətnli elektron resurs tərtib olunmağa başlanmışdır. Resursda 2003-cü ilin oktyabr ayının 31-də İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi ilə əlaqədar andiçmə mərasimində etdiyi nitqdən başlayaraq bu günə qədər bütün nitqlərinin, çıxışlarının, müsahibələrinin, bəyanatlarının tam mətni öz əksini tapmışdır. Prezident Kitabxanasında yaradılan və müxtəlif prioritet mövzuları əhatə edən iri həcmli elektron layihələr istifadəçilər üçün zəngin informasiya mənbəyidir.

Prezident Kitabxanası yarandığı gündən ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün sahələrinə aid sənədlərin toplanması və onların elektron variantının hazırlanması üzrə sistemli iş aparır. "HEYDƏR ƏLİYEV. Elektron sənədlər toplusu" - geniş oxucu kütləsinin istifadəsi üçün nəzərdə tutulan informasiya resursu, sənədlərin rəqəmsal formatda toplanması və qorunması baxımından kompleks informasiya sistemidir. Müxtəlif oxucu

qruplarının, o cümlədən tədqiqatçıların ümummilli liderin zəngin irsini öyrənməyə çox böyük marağını nəzərə alaraq, internet resursda Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdəki nitqlərinin, çıxışlarının, məruzələrinin, bəyanatlarının, müsahibələrinin elektron versiyaları hazırlanmış və illər üzrə qruplaşdırılmışdır. Bundan başqa "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 45 cildinin elektron variantı, "İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti" adlı elektron toplu, "Azərbaycanın neft diplomatiyası" və "Azərbaycanda Olimpiya hərəkatı" elektron resursları, "ODLAR YURDU AZƏRBAYCAN" adlı tammətnli elektron toplu, "XX əsrin faciəsi – Xocalı soyqırımı" adlı tammətnli elektron nəşr, "Azərbaycan. Dövlət rəmzləri və atributları" adlı elektron nəşr, "Naxçıvan Muxtar Respublikası" adlı internet resurs, "Təcavüz. Bakı. 20 Yanvar 1990" adlı beş fəsildən ibarət olan elektron resursu, "Azərbaycan ekologiyası" adlı beş fəsildən ibarət olan sənəd-informasiya resursu, "Azərbaycan Respublikası – 20" adlanan İnternet layihə - elektron resurs, "Virtual Azərbaycan tarixi" layihəsi hazırlanmışdır.

Prezident Kitabxanasının biblioqrafik informasiya fəaliyyətinin mühüm istiqamətlərindən biri olan biblioqrafik göstəricilər müxtəlif mövzuları əhatə etməklə istifadəçilərin informasiya tələbatının ödənilməsi məqsədilə yaradılır. Bunlara misal olaraq "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası"adlı cari biblioqrafik göstərici, "Azərbaycan Respublikası Prezidentinin Fərmanları və Sərəncamları" adlı göstərici, "Azərbaycan Respublikasının qanunları" adlı biblioqrafik göstərici, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları" adlı göstərici, "İlham Əliyev. Azərbaycanın neft diplomatiyası" adlı göstərici, "Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə çap olunmuş kitablar" adlı göstərici, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004 - 2008)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009 - 2013)" və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014 - 2018)" adlı elektron biblioqrafik göstərici, "Mir Cəlal Paşayev - 100" adlı elektron biblioqrafik göstəriciləri göstərə bilərik.

Kitabxana-informasiya xidmətinin müasir formalarından biri olan məlumat bülletenləri ən aktual mövzular üzrə yeni biblioqrafik informasiyanı tələbatçılara operativ şəkildə çatdırmaq məqsədilə tərtib olunur. Məlumat bülletenləri Prezident Kitabxanasının elektron kataloquna daxil edilmiş dövri mətbuat materialları əsasında hazırlanır. Bunlara misal olaraq "İqtidar. Müxalifət. Xalq" adlı məlumat bülletenini, "Tarix. Mədəniyyət. Elm" adlı məlumat bülletenini, "Azərbaycan iqtisadiyyatı" adlı məlumat bülletenini, "Azərbaycan Respublikasında seçkilər" adlı bülletenini, " Xarici siyasət və beynəlxalq münasibətlər" adlı məlumat bülletenini, "Neft və qaz" adlı

məlumat bülletenini və s. misal göstərmək olar. (5) Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasında kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması prosesində veb saytlar yaradılır. Veb saytların yaradılması həm istifadəçilərin, həm də işçilərin iş qabiliyyətinin artmasında mühüm rol oynayır. Hal-hazırda Veb səhifələrin sayı kifayət qədər artmışdır. Bunların arasında sadə fərdi səhifələrlə yanaşı, iri həcmli, konkret proseslərin avtomatlaşdırılmasına yönəlmiş Veb portallar da var. Web səhifələr yaratmaq üçün çoxlu miqdarda texnoloji vasitələr-sistemlər mövcuddur və bu texnologiyalardan yerində istifadə olunmalıdır. Əvvəl onu qeyd edək ki, Web şəbəkələr HTML sənədlərlə işləmək üçün nəzərdə tutulub. Web server klient kompyuterin sorğusu əsasında HTML səhifəni ona göndərir. Bu zaman Web server ya mövcud HTML səhifədən istifadə edir, ya da bu səhifəni dinamik olaraq yaradır. Yalnız HTML səhifələrdən ibarət Web səhifələr daha sürətlə yüklənir və Web serveri əlavə yüklənmələrdən qoruyur. Sırf HTML səhifələr informativ, yüksək funksionallı Web səhifələrin yaradılması üçün kifayət deyil. Yalnız HTML səhifəli çox sadə və statik saytları bu şəkildə yaratmaq olar. Mürəkkəb, çoxfunksiyalı, dinamik saytları yaratmaq üçün digər texnologiyalara müraciət etmək zəruriyyəti ortaya çıxır. İnternetdə mövcud saytların böyük əksəriyyəti PHP və MySQL texnologiyaların hər ikisindən istifadə edirlər. Web proqramçılar bəzən öz işlərini asanlaşdırmaq üçün yerli-yersiz Verilənlər Bazasından istifadə edirlər. Bu saytın yüklənməsi, saytın mühafizəsi məsələlərinə ciddi problemlər yaradır. Buna səbəb Veb səhifələrin əksəriyyətinin ictimai Veb serverlərdə yerləşdirilməsidir. Bəzən bir serverdə yüzlərlə sayt ola bilər. Saytlara müraciətlərin sayı artan zaman Verilənlər Bazasının sürəti aşağı düşür, Xaker hücumları zamanı isə Verilənlər Bazası tamamilə dayana və ya sıradan çıxa bilər. İnternetdə saytların böyük əksəriyyəti "SQL inyeksiya" adlanan metodla "sökülür". Bütün bunları nəzərə alaraq, mütəxəssislər bildirir ki, sayt quruculuğunda PHP/HTML cütlüyü ən ideal variantdır. Hesab edilir ki, bu metod proqramçıdan daha çox zəhmət tələb etsə də saytın yüklənməsi, trafik, mühafizə məsələlərində doğru həlldir. PHP script-dən istifadə edən web-proqramçı təhlükəsizlik məsələlərini həmişə nəzərə almalı və hackerlərə "SHELL" imkanı verməməlidir.

Mütəxəssislərin fikrincə,Verilənlər Bazalı Web səhifələri ayrıca Web serverdə yerləşdirmək lazımdır. Əgər bu mümkün deyilsə, o zaman az müştərili və daha sürətli Web serverdə hostinq götürmək lazımdır. Verilənlər Bazasına əsasən daim dəyişdirilən-korrektə olunan məlumatların yerləşdirilməsi məqsədəuyğundur. Məsələn, hər hansı bankın müştərisinin hesabının və bu hesabla bağlı məlumatların və müştərilərin avtorizasiyası ilə bağlı məlumatların Verilənlər Bazasında yerləşdirmək olar. Bu zaman http protokolu əvəzinə mühafizəsi yüksək olan https protokolundan istifadə etmək

zəruridir. Verilənlər Bazalı Web saytların adminləri daim istifadə etdikləri bazanın yaradıcılarının saytlarını nəzarətdə saxlamalı və yeni Boşluqları (Bug) qapamalıdırlar. Maliyyə məsələləri ilə məşğul olan qurumlar ümumiyyətlə kənar serverlərdən istifadə etməməli, öz serverlərini yaratmalı və İnternet bağlantı imkanlarını təmin etməlidirlər. Web saytın effektiv işləməsi üçün və təhlükəsizliyinin tam təminatı üçün Web server həlledici rol oynayır. Web saytın ideal şəkildə tərtib olunmasına baxmayaraq, onun həm sürət, həm proqram təminatı nöqteyi-nəzərdən zəif serverdə yerləşməsi nəinki, Web saytın sürətli işləməsinə, eyni zamanda təhlükəsizliyinə ciddi ziyan gətirə bilər. İT ekspertlərinin sözlərinə görə, Web serverin öz sahibləri var və onlar bütün yenilikləri nəzərə alaraq, yeni versiyanı yükləyirlər. Amma bəzən Web serverin sahiblərinin səhlənkarlığı ucbatından serverdə boşluqları olan sistemlər fəaliyyət göstərir. Bu isə gec-tez savadlı hacker tərəfindən serverin boşluğundan istifadə edərək, orda olan saytlara ziyan vurmasına şərait yaradır. Bu səbəbdən Web saytın adminləri daim HACKER resurslarını və eyni zamanda server üçün proqram təminatı hazırlayan şirkətlərin Web resurslarını nəzarətdə saxlamalı və lazım gələrsə bu haqda Web server adminini xəbərdar etməlidir. (2)

ƏDƏBİYYAT:

1. *Xələfov.A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 552 s.*
2. *Мельников В.П, Клейменов С.А, Петраков А.М. Информационная безопасность.-М., «Академия», 2005,-336с*
3. *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasinin Qanunu*
4. *http://az.wikipedia.org/informasiyalaşdırma*
5. *http://preslib.az/*

Informatization of library and information processes in Administrative Department of the President of the Republic of Azerbaijan Presidential Library (2000-2015)

J.R. Shirinov

Summary

In the article is talked about theory of informatization library-information activity in Administrative Department of the President of the Republic of Azerbaijan Presidential Library using ICT.

Keyword: *informatization, the Office of the President of the Republic of Azerbaijan's Presidential Library, information society, information and communication technology, information security.*

Информатизация библиотечно-информационных процессов в Управление делами Президента Азербайджанской Республики Президентская Библиотека (2000-2015)

Д. Р. Ширинов

Резюме

В статье говорится об информатизация библиотечно- информационная действие в Управление делами Президента Азербайджанской Республики Президентская Библиотека исползуя информатционная коммуникационная технология.

Ключевое слово: *информатизация, Канцелярия Президента Республики Президентской библиотеки Азербайджана, информационное общество, информационно-коммуникационных технологий, информационной безопасности.*

RESPUBLIKA ELMI KƏND TƏSƏRRÜFATI KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

V.B QULİYEVA
Baki Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının dissertantı
vefa_quliyeva@rambler.ru

Məqalədə müstəqillik illərində Respublikamızda REKTK-da mütəxəssislərə kitabxana xidmətinin təşkili haqqında məlumat verilmişdir. Bu sahəyə dair qanun və qərarlar aqrar islahatlara dair keçirilən tədbirlər yeni layihələr və proqramlar haqqında söhbət açılıq.

Açar sözlər: *kitabxana, kənd, torpaq, nazirlik, təsərrüfat, aqrar, REKTK, informasiya*

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası öz fəaliyyəti ilə aqrar sektoru informasiya sahəsində əhəmiyyətli rol oynayır. Aqrar kompleksə xidmət edən müstəqil kitabxana şəbəkələrinin fəaliyyətinin səmərəliliyi özünü müvafiq istehsal sahələrinin inkişafında, orada çalışan əməkçilərin peşə səviyyəsinin yüksəldilməsində göstərir. Bundan başqa elmə, kadr hazırlığına xidmət edən kitabxanalarin fəalyyətinin nəticələri cəmiyyətin iqtisadi potensia-linin inkişafına müsbət təsirini göstərir. Məlumdur ki, kitabxanalar öz oxucularının mənəviyyatına, intellektual və peşə səviyyəsinə kitab və informasiya xidməti ilə səmərəli təsir göstərərək, onların fəaliyyətində yaradıcılıq ünsürlərinin formalaşmasına, alimlərin, mütəxəssislərin və sair informasiya istehlakçılarının zehni əmək potensialının zənginləşməsinə və bu potensialdan ictimai həyatda, o cümlədən istehsalatda səmərəli istifadə olunmasına kömək edir. Aqrar texnikanın inkişafında rolu olan REKTK-sı 1921-ci ildə Xalq Torpaq Komissarlığı tərəfindən yaradılmışdır. 1923-cü il aprel ayının 12-də Xalq Torpaq Komissarlığının 47/213 nömrəli əmri ilə rəsmiləşdirilərək müstəqil kitabxana kimi fəaliyyətə başlamışdır. REKTK kitab və biblioqrafik xidmətlərlə yanaşı xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrləri, nadir nüsxələri, avtoreferatları, müxtəlif ensiklopediyaları, lüğətləri, ünvan-soraq kitablarını daimi oxucuların istifadəsinə verir. REKTK-sı Azərbaycan Respublikası ərazisində yerləşən Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan idarə və müəssisələrin, elmi-tədqiqat institutları və Aqrar Elm Mərkəzlərində fəaliyyət göstərən 51 şəbəkə və filial kitabxanaları üçün metodik mərkəz hesab olunur. Bu mərkəz il boyu kitabxanalarla sıx əlaqə saxlayaraq seminarlar keçirir, yerlərdə onlara lazımi kitabxana işinə dair məsləhətlər verir, "Məlumat-mütəxəssis" günləri keçirirlər. Kitabxana bütün il ərzində kitabxanalararası mübadilə yolu ilə MDB-nin

kənd təsərrüfatı kitabxanalarının 47-si ilə kitab mübadiləsi aparır, Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və başqa ölkələrin kitabxanaları ilə sıx əlaqə saxlayırlar. Müstəqillik illərində cəmiyyətin strukturlarında müstəqillik ideyalarının bərqərar olması kitabxana-informasiya sistemlərinin fəaliyyət istiqamətlərinin yeniləşməsini tələb edirdi. Xüsusilə kolxoz və sovxozların ləğvi, kənd təsərrüfatının inkişafının yeni parametrlərinimüəyyən etmişdir. İslahatların həyata keçirilməsi, kəndli-fermer təsərrüfatının yaradılması aqrar sektorunyeni parametrlərini müəyyən etmişdir. Kənd təsərrüfatının mütəxəssislərinin informasiya təminatını ödəyən Respublika Kənd Təsərrüfatı Kitabxanası bu baxımdan müstəqillik illərində öz iş təcrübəsini xeyli təkmilləşdirmişdir. REKTK ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətlərindən əlavə xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrlərini, avtoreferatları, plakatları və digər sənədləri özündə əks etdirən, metodiki fəaliyyətlə məşğul olan böyük müəssisədir. Hazırda kitabxananın ümumi fondu 743461-ə yaxındır. Kitabxanada fəaliyyət göstərən soraq-məlumat aparatı, kataloq-kartoteka sistemi vasitəsilə kitabxana fondları haqqında operativ məlumat verilir. Müxtəlif ensiklopediyalar, lüğətlər, ünvan-soraq kitabları daim oxucuların istifadəsindədir. İl ərzində 12247-dən artıq oxucu kitabxananın xidmətindən istifadə edir. (5) REKTK-sı 2002-ci ildə yeni binaya köçürülmüşdür. REKTK ölkədə fəaliyyət göstərən 27 filial və şəbəkə kitabxanasına metodik rəhbərlik edir. Kitabxana 1982-ci ildən kənd təsərrüfatı üzrə depozitar mühafizə mərkəzidir. Hazırda kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatların hüquqi əsasını Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Torpaq məcəlləsi», «Mülkiyyət haqqında», «İcarə haqqında», «Kəndli (fermer) təsərrüfatları haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Torpaq vergisi haqqında», «Aqrar islahatın əsas istiqamətləri haqqında», "Əmlakının bölüşdürülməsi" kimi hüquqi normativ sənədlər təşkil edir (5). Bu sahədə müsbət nəticələrin əldə olunmasının əsas səbəbkarı isə ümummilli lider Heydər Əliyevin iqtisadi siyasətində kənd təsərrüfatının prioritetliyi olmuşdur. MDB ölkələrində ilk dəfə torpağın təmənnasız olaraq kəndliyə verilməsi, torpaq üzərində xüsusi mülkiyyətin yaradılması, kənddə sahibkarlığın gələcək inkişafı regionların sosial-mədəni həyatı üçün olduqca böyük imkanlar açdı. Heydər Əliyev tərəfindən Azərbaycan kəndində aqrar islahatı həyata keçirmək üçün imzalanmış qanunlar və fərmanlar aqrar islahatların qəbulunu əsaslandırmışdır. 1999-cu ildə prezident xüsusi fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair dövlət proqramını təsdiq etdi. Bu proqram kənddə özəlləşdirmənin həyata keçirilməsinə böyük təkan verdi. Nəticədə kəndlilər əldə etdikləri torpaqdan daha səmərəli istifadə etmək üçün öz məqsədlərinə uyğun istifadə etməyə başladılar. Ümummilli lider Heydər Əliyevin kənd təsərrüfatı sahəsində atdığı

uğurlu addımları davamı hazırda İlham Əliyevin siyasətində öz əksini tapır. Bunun bariz nümunəsi kimi 23 oktyabr 2004-cu il tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 yanvar 2007-ci ildə" kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamları müsbət qiymətləndirilməlidir. Sonuncu sərəncam dövlət büdcəsində kənd təsərrüfatına subsidiyaların verilməsi ilə bağlı mühüm mərhələnin başlanğıcı olmuşdur. Dövlətin bu sahədə yürütdüyü uğurlu siyasətin nəticəsidir ki, kənd təsərrüfatı sahəsi üzrə yeni proqramlar, layihələr həyata keçirilir. Kitabxanalar cəmiyyətin əsas sosial tələbatını yerinə yetirmək üçün yaradıldığından onun həyata keçirdiyi funksiyalar da bilavasitə sosial xarakter daşıyır (3, 114). RETK-na iqtisadi islahatların həyata keçirilməsində və mütəxəssislərin elmi biliklərinin artırılmasında böyük rol oynayır. Qeyd etmək lazımdır ki, mütəxəssislərə kitabxana xidmətinin səmərəli təşkili birinci növbədə mütəxəssislərin kitabxana biblioqrafiya və informasiya sorğularının hərtərəfli, dolğun və operativ yerinə yetirilməsini tələb edir, hər bir kitabxananın bütün işləri məhz bu vəzifənin yüksək səviyyədə yerinə yetirilməsinə yönəldilməsində əsas meyar oxuculara xidmət işinin keyfiyyəti sayılır.

Məlumdur ki, kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislərə və bu sahə ilə maraqlanan oxuculara kənd təsərrüfatı kitabxanaları xidmət göstərir. Hazırda Kənd təsərrüfatı sahəsinin informasiya təminatında Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası (REKTK) mühüm rol oynayır Respublika Elmi kənd Təsərrüfatı Kitabxanası aşağıdakı funksiyaları yerinə yetirir:

a) Respublikanın kənd təsərrüfatı sahəsində çalışan elmi işçiləri və mütəxəssisləri kitab və biblioqrafik məlumatla təmin edir;

b) Respublikanın kənd təsərrüfatının idarə edilməsi orqanlarına öz qarşısında duran vəzifələrin həllində kitabxana biblioqrafiya və elmi informasiya xidməti göstərir.

c) Respublikanın kənd təsərrüfatı işçilərinə xidmət edən bütün kitabxanalar üzrə elmi-metodik və əlaqələndirmə mərkəzidir (5).

REKTK kənd təsərrüfatının müxtəlif sahələrində çalışan müətxəssislərin sorğularının ödənilməsində elmi işçilərə və mütəxəssislərə xidmət işini həm abonement qiraət şöbəsi və qismən də KAA vasitəsilə həyata keçirir. Kitabxananın bu sahədəki topladığı iş təcrübəsini tədqiq edib ümumiləşdirmək, kitabxananın fəaliyyətinin ümumi istiqamətləri haqqında qısa şəkildə də olsa məlumat vermək məqsədə uyğun olardı. Kitabxananın tədqiq edilən iş təcrübəsini ümumiləşdirmək müəyyən çətinliklərlə bağlı olmuşdur. Kitabxana illik hesabatları, əsas etibarilə statistik cədvəllər şəkilində tərtib edir ki, bu da lazımı qədər məlumat və faktlar toplanması işini qismən çətinləşdirir. Kitabxana öz fondunu qismən kitabxana kollektorundan və kitab mağazasından aldığı qiymətli bağlamalar hesabına genişləndirmişdir.

Müstəqillik illərində Azərbaycanın kənd təsərrüfatı tədqiqatları sistemi üçün, ilk növbədə ümumi strateji məqsədlərin formalaşdırılması, iqtisadi münasibətlər sistemi şəraitində fəaliyyət prinsiplərinin və prioritetlərin müəyyənləşdirilməsi, islahatların aparılması ilə xarakterizə olunmuşdur. Aqrar sahədə aktivliyin artması şəraitində elmi işçilərə və mütəxəssislərə xidmətdə keyfiyyət dəyişiklikləri baş vermişdir. Kənd təsərrüfatı üzrə alim, aspirant, müəllim və tələbələrin kitabxanadan geniş istifadəsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Əgər REKTK-nın 2006-cı ildə fondunda 365441 nüsxə ədəbiyyat olmuşdursa, 2009-cu ildə bu rəqəm 367859 nüsxəyə çatmışdır. Şəbəkə üzrə ümumi fond isə 1.000651 nüsxədir. 2008-ci il üçün depozitor mühafizə fondunun həcmi 23362 nüsxə təşkil edirdisə, 2009-cu ildə bu göstərici 23580 nüsxəyə çatmışdır. Mübadilə fondunun həcmi isə 2009-cu il 10749 nüsxə olmuşdur. Vahid qeydiyyat uçotuna görə kitabxanada oxucuların sayı 2006-da 10.092 nəfər olmuşdursa, 2009-cu ildə bu rəqəm 10.122-yə çatmışdır. Kitabxanaya gəliş 2006-cı ildə 48616, 2009-da 48624 olmuşdur. (5)

REKTK-sı oxuculara kitabxana xidməti sistemində abonement və oxu zalları başlıca yer tutur. Abonement və qiraət zallarında xidmət işi fəal və məqsədəyönlü xarakter daşımalıdır. Mütəxəssislərin bir qismi abonement, bir qismi qiraət zalının xidmətindən istifadə edir.

Oxucu kartotekaları yenidən işlənmişdir ədəbiyyatlar oxucuların tələbatına uyğun olaraq vaxtında onlara çatdırılmışdır. Az istifadə olunan ədəbiyyat əsas fonddan çıxarılıb depozitar fonduna verilmişdir. Bilirik ki, kitabxanaların profilindən asılı olaraq müxtəlif abonement növlərindən istifadə edilir. REKTK-da əsasən sahəvi abonementdən istifadə edilir. Sahəvi abonement ayrı-ayrı elm sahələri üzrə ədəbiyyatı fondunda toplayan və kitabxanalardan kənarda, həm də kitabxana şəratində istifadə üçün oxuculara tövsiyyə edilən abonement şöbəsi nəzərdə tutulur.

Müstəqillik illərində REKTK-ın oxucularının təhsil və peşə sorğularının mürəkkəbləşməsi ilə əlaqədar olaraq hal-hazırda əhaliyə kilabxana-biblioqrafiya xidmətinin təşkilində oxu zallarının əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artmışdır. Oxu zalının işinin təşkilində onun yardımçı fondu muhüm rol oynayır. Bu fond kitabxana üzrə kitab verilişinin təşkilində mühüm yer tutur. Düzgün seçilmiş yardımçı fond oxucularla fərdi işi asanlaşdırır, oxucu sorğularının tam və tez bir şəkildə ödənilməsini təmin edir. Yardımçı fond oxu zalının məqsədinə, onun oxucularının maraq və sorğularına müvafiq olaraq komplektləşdirir. Oxu zallarının yardımçı fondları oxucu sorğularının operativ şəkildə ödənilməsi məqsədinə xidmət etdiyinə görə burada əsas etibarilə son illərdə dərc edilmiş nəşrlər öz əksini tapmalıdır. Lakin bu zaman nəzərə almaq lazımdır ki, müxtəlif tipli ədəbiyyat üçün köhnəlmə mexanizmi müxtəlifdir. Məsələn, elmi əsərlər oxucular tərəfindən daha uzun müddət ərzində soruşulur. Təbiidir ki, belə olan halda yardımçı fondda müxtəlif tipli kilabların

saxlama müddəti də müxtəlifdir. Oxu zallarında kitab verilişinin texnikası və uçotu abonementdən bir qədər sadədir. REKTK-ın oxu zalı kitabxananın başlıca kitab verilişi məntəqəsidir. Otuz beş nəfərlik bu oxu zalının yardımçı fondundan istifadə açıq rəf üsuluna əsaslanır. Daha doğrusu, burada soraq biblioqrafiya nəşrləri müxtəlif növ ensklopediyalar oxucuların açıq istifadəsinə verilmişdir. Mütəxəssislər oxu zalından tez-tez geniş və səmərəli şəkildə istifadə edirlər. Qeyd etmək lazımdır ki, oxu zalının işini tam şəkildə aydınlaşdırmaq və izah etmək məhz bu səbəbə görə mümkün olmamışdır. Daha dəqiq desək, oxucuların yardımçı fondun bir hissəsindən sərbəst şəkildə istifadə etmələrinin uçotunun aparılmaması oxu zalının işi haqqında tam təsəvvür əldə etməyə imkan verir. Lakin kitabxanaların, xüsusilə də oxu zalının gündəlik iş təcrübəsinin öyrənilməsi göstərir ki, tələbələr, aspirantlar, o cümlədən elmi işçilər və mütəxəssislər bu və ya digər dərəcədə oxu zalının sərbəst yardımçı fonduna müraciət edirlər.

Müşahidə nəticəsində müəyyən edilmişdir ki, ən geniş istifadə oxu zalından olmuşdur. 2009-da oxu zalından istifadə edən oxucuların sayı 28.519 nəfər olmuşdur, ən çox istifadə etdiyi nəşr qəzet və qəzet komplekti olmuşdur. Dillər üzrə isə ən çox rus dilli nəşrlərdən istifadə olunmuşdur. Oxu zalında kitab verilişinin uçotu tam şəkildə aparılmasa da, burada gedən işi qənaətbəxş hesab etmək olar. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, kitabxananın oxu zalı elmi işçilər və mütəxəssislər üçün "yeni ədəbiyyat" kitab sərgilərinin təşkili işinə böyük əhəmiyyət vermişdir.

Kitabxana tərəfindən 2009-cu ildə başqa kitabxanalara 1822 ədəbiyyat göndərilmiş, 396 ədəbiyyat alınmışdır. Bu baxımdan respublikamızda kənd təsərrüfatınadair ədəbiyyatın qorunub saxlanmasında, elmi metodik mərkəz olan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının rolu əvəzedilməzdir. (5)

Müasir dövrdə Azərbaycanda aqrar sahənin inkişaf etməsi kitabxanalarda xidmətin təkmilləşməsinə bilavasitə təkan verən amillərdən ən mühümüdür. Müstəqillik əldə etdiyimiz bir dövrdə azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemə keçirilməsində elmi işçilərin və mütəxəssislərin çox böyük rolu vardır. Buna görə də onların müxtəlif xarakterli məlumat tələbatlarının ödənilməsi vacib məsələlərdən biri kimi həmişə diqqət mərkəzindədir.

Hazırda REKTK daxili iş prosesinin təkmilləşdirilməsi baxımından müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi nəzərdə tutulur. Həmin dövrün tələblərinə uyğun olaraq REKTK-da avtomatlaşdırılmış kitabxana – informasiya sistemini, o cümlədən electron kataloqun tətbiqi qismən də olsa həyata keçirilməkdədir.

ƏDƏBİYYAT:

1. *Xələfov A. Kitabxanaşünaslığa giriş. Dərslik. I h. Bakı, 2001.290. s.*
2. *Cəfərov A. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaranması və inkişafı tarixindən (1920-1940) // Dil və ədəbiyyat. 1997. №1. s.114.*
3. *Cəfərov A. Respublika Elmi Kənd Təsərrüfati Kitabxanasinda oxuculara kitabxana xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri./ Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktik jurnal: 2010.-.№3 s.67-75.*
4. *REKTK-nın 2000-2009-cu il hesabatları.*
5. *http://www.apa.az/news.php?id=42297 (07.12.2006).*

Republican scientific library of agriculture years of independence

V. Guliyev

Summary

The article in the modern period Republican Scientific Agricultural Library organization of specialists In Our Country were given information about the library service. The agrarian reform law and decisions on new projects and programs talk about opening the measures on this area.

The keywords: *Libraries, rural, agricultural, farming, land, ministries, RSAL, information*

Республиканский научно библиотека сельского хозяйства годы независимости

В. Кулиева

Резюме

В статье в годы независимости В Нашей Республике в РНСХБ специалистам была предоставлена информация об организации службы библиотека. В этой сфере аграрной реформы закона и постановления о мерах, новые проекты и программы речь о открытия.

Ключевые слова: *Библиотека, сельское хозяйство, аграрный, РНСХБ, информации министерства, земля.*

KİTAB VƏ OXUCU MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ KITABXANALARIN ROLU

L.C.MƏMMƏDOVA
Azərbaycan Milli Elmlər Akademiyası
İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun elmi işçisi,
İctimaiyyətlə əlaqələr şöbəsinə məsul şəxs

Bu məqalə kitab və oxucu münasibətlərinin cəmiyyətdəki rolunu və onların inkişaf perspektivlərini əhatə edir. Eyni zamanda kitab və oxucu münasibətlərinin tənzimlənməsində kitabxanaların əhəmiyyəti barəsində məlumat verilir.

Açar sözlər: *kitab, kitabxana, oxucu, informasiya, sənəd.*

Əsrlərdən bəri Azərbaycan kitabı bəşəriyyət qarşısında ali məqsədlərə - humanizmə və gözəl əxlaqi, estetik ideallara, cəmiyyətin daha mütərəqqi və kamil inkişafına, şəxsiyyətin bütövlüyünə, mənəvi zənginliyinə xidmət etmişdir. Buna görə də, Azərbaycan kitabı əlyazma və çap şəklində müxtəlif ölkələrə yayılmış və öz dərin məzmunu, elmiliyi ilə insanları, müxtəlif xalqların nümayəndələrini heyrətə gətirmişdir.

Azərbaycan kitabı xalqın dilini, mənəvi dəyərlərini, mədəniyyətini daha çox qoruyub saxlamışdır. Azərbaycan kitabı xalqın zəngin aləmini, düşüncə tərzini, dünyaya baxışını və s. əks etdirir. Hansı dövrdə və şəraitdə yaranmasından asılı olmayaraq həqiqi, obyektiv Azərbaycan kitabı ilk növbədə mənsub olduğu xalqın, millətin müstəqilliyinə xidmət edir, bütün mənəvi və intellektual imkanlarını buna yönəldir. Bu ideya əsl Azərbaycan kitabının milli funksiyasıdır, öz ideallarına sədaqətinin təzahürüdür. Buna görə də, Azərbaycan kitabının oxucusu çox və müxtəlif olmuş, həm də müxtəlif əsrlərdə müxtəlif oxucu quruplarını əhatə etmişdir. [1, s.4]

Kitab oxucunun hərtərəfli inkişafına məqsədyönlü təsir göstərən vasitə kimi cəmiyyətdə mühüm yer tutmuşdur. Kitab indiki formasını alana qədər məzmun, quruluş, istehsal cəhətdən inkişaf etmiş və müxtəlif oxucu qruplarının mütaliə tələbatının təmin edilməsinə əsaslı təsir göstərmişdir və gös- tərməkdədir. Kitab, kitabın məzmunu, istehsal səviyyəsi, tərtibatı gözəl olduqda oxucular arasında daha tez yayıla bilir. Başqa sözlə, kitabın mahiyyəti və məzmunu, elmi səviyyəsi yüksək olduqda kitabın yayılması, istifadəsi artır.

Digər tərəfdən kitabın informativ səviyyəsinin yüksək olması, bilik vermə qabiliyyəti və əlverişli dili asan qəbul edilən, başa düşülən olduqda oxucular arasında daha geniş yayılır. Kitabın yerinə yetirdiyi müxtəlif funksiyalar kitab və oxucu arasında münasibətlər yaradır, bu münasibətləri inki- şaf etdirir, dərinləşdirir. Bütün dünya ölkələrində oxucu ilə kitab arasında müəyyən münasibətlər mövcud olmuşdur. Bu münasibətlər qarşılıqlı

şəkildə bir-birinin inkişafına müsbət təsir göstərmişdir. Buna görə də, kitab ən qədim dövrdən müasir dövrə qədər oxucular arasında geniş şəkildə istifadə edilir. Bu vəziyyət kitab və oxucu arasında münasibətləri daha da dərinləşdirir və prob- lemə çevirir.

Hər il müxtəlif elm və bilik sahələri ilə məşğul olan, öyrənən, istehsalat sahələrində çalışan, müxtəlif ixtisas və peşələrə yiyələnən bütün insanlar kitabı sevir və onun mütaliəsini müstəqil şəkildə həyata keçirirlər. Çünki hər oxucu artıq il ərzində öz fəaliyyət sahəsinə, ixtisasına və peşəsinə aid yüzlərlə kitabı mütaliə edir, kitab haqqında öz fikir və mülahizələrini rəylər şəklində ifadə edir, resenziyalar yazır, televizorlarda çıxış edir, dövrü mətbuat səhifələrində məqalələr dərc edirdilər. Məsələn, Fransanın qiraət tədqiqatçısı Eskarpi belə hesab edir ki, Qərbi Avropanm ən iri dövlətlərində ay ərzində azı bir kitab oxuyanlar daimi oxucular sırasına daxil edilirlər. Bunlar, yəni bir kitab oxuyan oxucular bütün oxucuların müəyyən hissəsini, başqa sözlə əhalinin 3-5%-ni təşkii edirlər. Keçmiş Sovet sosioloqları ayda azı iki kitab oxuyanları oxucu kateqoriyasına daxil edirdilər. Bu şərt nəzərə alındıqda əhalinin 75,3%-i müntəzəm surətdə kitab, 72,3%-i jurnal, 89,5%-i qəzet oxuyurdu.

Avstriya sosioloqları bildirirlər ki, ölkə əhalisinin yalnız 5%-ni daimi oxucular kateqoriyasına daxil etmək olar. Sovet hakimiyyəti illərində, keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda zəngin kitabxanalar yaranmışdı. Azərbaycanda 10 minə qədər müxtəlif kitabxananın yaranması və fəaliyyət gös- tərməsi oxucu auditoriyasının genişlənməsində böyük rol oynamışdır. Sovet hakimiyyəti illərində müəllif - nəşriyyat - oxucu dairəsi bir-biri ilə daha sıx əlaqədə idi və biri digərinin formalaşmasına və inkişafına təsir göstərirdi. Bunlar arasında qarşılıqlı əlaqənin mövcudluğunu bir sıra amillər şərtləndirir. Bu kitabın çapı və yayılmasına qədərki mövcud olan bütün 4 mərhələdə özünü göstərir. Oxucuların mütaliə dairəsinin və səviyyəsinin yüksəldilməsinə daim diqqət yetirilməlidir. Oxucuların mütaliə dairəsi və səviyyəsi aşağı olduğu hallarda kitabın təbliğ edilməsinə və yayılmasına daha böyük qayğı göstərilməlidir. [1, s.12]

Bəşər sivilizasiyasının yaranmasında xüsusi xidmətləri olan kitabxanaların sosial institut kimi formalaşmasında və inkişafında kitabxana işi mühüm rol oynamışdır.

Azərbaycan milli kitabxanaşünaslığının banisi, əməkdar elm xadimi, professor A.A.Xələfovun fikrincə kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun tələbatını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxanaların yaranması, formalaşması inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə onu yaradan cəmiyyətlə bağlıdır.

Cəmiyyət necədirsə, onun kitabxanası da özünəməxsus olmalı, ona xidmət etməlidir. Cəmiyyətin tələbatına xidmət etmiş, onun tələbatını ödəmiş bilavasitə kitabxananın fəaliyyətində, bu fəaliyyətin təzahür forması olan kitabxana işində özünü göstərir. Görkəmli hind kitabxanaşünas alimi Ş.R.Ranqanatanın dediyinə müvafiq kitabxananı «inkişaf edən orqanizm» kimi qəbul etsək, bu orqanizmin inkişafını təmin edən amil kitabxana işidir. Kitabxana işi kitabxanaların-inkişaf edən orqanizmin varlıq formasıdır.

Hər bir canlı orqanizm hərəkətsiz mövcud olmadığı kimi, kitabxana da kitabxana işindən təcrid olunmuş şəkildə mövcud deyildir. Kitabxana işi kitabxananın-inkişaf edən orqanizm kimi hərəkət və inkişaf formasıdır. Onun fəaliyyətinin, cəmiyyətə xidmətinin, insanlarla əlaqəsinin əsas amilidir. Kitab- xana işi olmadan kitabxana cansız, hərəkətsiz kitab anbarına çevrilə bilər.

Bu baxımdan kitabxana ilə kitabxana işi arasındakı qarşılıqlı əlaqələrin öyrənilib, dəqiqləşdirilməsi müasir kitabxanaşünaslığın əsas vəzifələrindən biridir.

Müasir dünya kitabxanaşünaslığında kitabxanalar cəmiyyətdə elmə, informasiyaya, mədəniyyətə, təhsilə və tərbiyəyə xidmət edən institut kimi qiymətləndirilir.

Dünya kitabxanaşünaslığında olduğu kimi, bir çox ölkələrin kitabxana işi haqqında qəbul edilmiş qanunlarında kitabxanalar institut adlandırılır, mədə- niyyətin mühüm sahəsi kimi onların qarşısında çox böyük sosial vəzifələr qoyulur. Belə qanunlara misal olaraq Azərbaycan Milli Məclisinin 1998-ci ildə qəbul etdiyi «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununu göstərə bilərik. Bu qanunda göstərilir: «Kitabxana- elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər in- formasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur».

Sosial institut kimi kitabxanalardan istifadəçilər üçün optimal olan müddətə, istədiyi keyfiyyətdə informasiya məhsulları və xidmətlərinin müxtə- lif çeşidlərinin onlara çatdırılması yolu ilə cəmiyyət tərəfindən sənəd resurs- larının effekli istifadəsi tələb olunur. İnformasiya məhsulları və xidmətlərinin kitabxana istehsalı və keyfiyyətinin effektliliyinin qiymətləndirilməsi, tədqiqatçıların və praktiklərin diqqət mərkəzində yerləşdirilir. [2- s.240]

Əməkdar elm xadimi, professor A.A.Xələfov qeyd edir ki, əgər kitab- xana institutdursa, kitabxana işi onun orqanıdır. Məlumdur ki, kitabxana işi olmadan kitabxanalar cəmiyyətin onun qarşısında qoyduğu vəzifələri: kitabla insanlar arasında əlaqə yaratmaq, kitabı təbliğ etmək, cəmiyyətin informasiya tələbatını ödəmək, insanların mədəni, intellektual səviyyəsinin yüksəlməsində, tərbiyə prosesinin təşkilində yaxından iştirak etmək vəzifələrini həyata keçirə bilməz. Deməli, kitabxana işi kitabxananın sosial institut kimi yaşamasını,

inkişaf edib təkmilləşməsini, cəmiyyətin əsas təsisatlarından biri kimi fəaliyyət göstərməsini təmin edən əsas amildir, orqandır. Məsələn, kitabxana sosial institutdursa, onda ilk növbədə kitabxanada işləyən adamlar qrupu və kitabxananın yerinə yetirdiyi funksiyanın təşkilati formaları nəzərdə tutulur. Bunlar isə bilavasitə kitabxana işinin, yəni orqanın köməkliyi və iştirakı ilə baş verir. Beləliklə, kitabxana işi sosial institut olan kitabxananın orqanı, əsas vasitəsi kimi çıxış edir, kitabxana fəaliyyətinin kompleks təşkilini təmin edir.

Dünya kitabxanaşünaslığında XIX əsrin axırı- XX əsrin əvvəllərinə qədər kitabxana ilə kitabxana işi arasında fərqlər dəqiqləşdirilməmişdi. Bunlar əksər hallarda bir-birindən fərqləndirilmədən öyrənilirdi.

İlk dəfə rus kitabxanaşünaslığında «kitabxana işi» anlayışı XIX əsrin axırı - XX əsrin əvvəllərində işlənməyə başlamışdır. Bu vaxta qədər bir çox rus kitabxanaşünasları «kitabxana» və «kitabxana işi» anlayışlarını bir-biri ilə eyniləşdirirdilər. Bu dövr kitabxanaşünasları nəzərdən qaçırırdılar ki, ayrıca götürülmüş, bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərən kitabxanalar öz sosial mənasında kitabxana işini təşkil etmirlər. Kitabxana işi o zaman geniş fəaliyyət sahəsinə çevrilir ki, o, ictimai əhəmiyyət kəsb etsin, cəmiyyətin mədəni həyatının ayrılmaz hissəsinə çevrilsin, cəmiyyət üzvlərinin, tərbiyə və təhsilində yaxından iştirak etsin. Bu mühüm vəzifələrin yerinə yetirilməsi, kitabxanaların ictimai rolunun artmasına, kitabxanaların fəaliyyətində, əhaliyə xidmət işi sahəsində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsinə, beləliklə, kitabxana işinin ictimai xarakter almasına gətirib çıxartdı. Cəmiyyətdə kitabxana işi anlayışı ayrı-ayrı kitabxanaların dar çərçivəsindən çıxaraq ümumi region, ümumölkə xarakteri almağa başladı.

Xalq kütlələrinin kitabxanalardan daha geniş şəkildə istifadə etməyə başlaması, kitabxanaların oxucu dairəsinin genişlənməsi, kitabxanalardan ictimai istifadənin forması olan kitabxana işini insanların müasir mədəniyyətin zirvələrinə qovuşmasına və bəşəriyyətin yaratmış olduğu milli sərvətlərdən geniş istifadəsini təmin edən sosial kommunikativ sistemə çevirdi. Beləliklə, «kitabxana işi» anlayışı kilabxanaların əsas vasitəsi, orqanı kimi geniş elmi informasiya, mədəni, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi formalaşmağa başladı.

Cəmiyyətdə kitabxanaların rolu artdıqca onların strukturunun və əsas elementlərinin öyrənilməsinə ciddi tələbat əmələ gəlmişdir. Dünya kitabxanaşünasları genetik təhlil metoduna əsaslanaraq bele bir nəticəyə gəlmişdilər ki, kitabxana quruluşca dörd elementdən ibarətdir. Bu elementlərsiz heç bir kitabxananın mövcudluğu və fəaliyyəti mümkün deyildir. Bu elementlər aşağdakılardır:

1. Sənəd (kitab və digər nəşrlər, o cümlədən elektron vasitələr).
2. Oxucu (istifadəçi).
3. Kitabxanaçı.

4. Maddi-texniki baza. [4- s.156]

Görkəmli kitabxanaşünas, əməkdar elm xadimi, professor Abuzər Xələfovun "Kitabxana və Cəmiyyət" monoqrafiyasında kitabxana elementləri haqqında ətraflı məlumat verilmişdir. Həmin monoqrafiyada kitab və istifadəçi arasındakı əlaqələr, oxucunun kitaba marağının artması üçün zəruri olan vərdişlərin aşılanması, kitabxanaçı və oxucu münasibətləri, kitabxananın maddi texniki bazası – kitabxana fondunun yaradılması, sistemləşdirilməsi, təsnifləşdirilməsi, düzülməsi və onun idarə edilməsini təmin edən amillər içərisində, kitabsaxlayıcının yaradılması yaradılması, onun müasir texniki vasitələrlə təmin edilməsi, avtomatlaşdırılması və s. mühüm əhəmiyyət kəsb edən elementlər haqqında geniş məlumat əldə edə bilərsiz.

Kitabxananın zənginliyini həm də əsas olaraq kitablarla əlaqələndirsək bu fikir məqsədəuyğun olar. Kitab rəflərdə yığılıb qaldıqca deyil, oxucusunu tapdıqca özünə olan maraq dairəsini daha da genişləndirir. Bir növ kitabxanalar kitab və oxucu arasında əlaqələndirici körpü rolunu oynayır. Kitabxananın zəngin arxivi olmasa ora gələn oxucu axtardığı materialı tapmayınca kitabxanaya gəlmə həvəsi aşağı düşür. O üzdən kitabxananın zənginliyi müəlliflərdən də birbaşa asılıdır. Dövlət müəssisə və təşkilatlarından nəşrlərindən fərqli olaraq, fərdi müəllifli kitabı müəllif özü kitabxanalara təqdim etməlidir. Aydındır ki, hər hansı bir institut, təşkilat və ya müəssisənin nəşri çox hallarda həmin idarə tərəfindən müvafiq orqanlara və yaxud da kitabxanalara göndərilir. Müəllif kitabın satışını, ondan gələn gəliri düşünməzdən əvvəl onu da nəzərə almalıdır ki, heç də hamı kitab almaq gücünə, imkanına malik deyil. Ancaq oxucu kitabxanaya müraciət edib istədiyi kitabı əldə etdikdə kitabxanaya olan marağı daha da arta bilər.

Bu proseslərdə kitabxanaçı ilə oxucu arasında baş verən kommunikasiya növləri içərisində ən çox istifadə edilən ünsiyyət, söhbət və məsləhət formalarıdır. Kitabxanaçı ilə oxucu arasında baş verən ünsiyyət kommunikasiyanın bilavasitə fərdlə üzbəüz aparılan canlı təsir növü olduqca böyük əhəmiyyət kəsb edir. Ünsiyyət vaxtı oxucu ilə kitabxanaçı arasında baş verən kommunikasiya oxucu haqqında kitabxanaçının geniş məlumat almasını, oxucunun maraq dairəsini, şəxsiyyətini, sənətini öyrənməsini və oxucu marağının gələcəkdə ödənilməsini müəyyənləşdirmək imkanı verir. Məlumdur ki, kitabxana-oxucu münasibətləri həmişə kitabxanaların əsas problemi hesab edilmiş, informasiya cəmiyyəti şəraitində bu münasibətlər daha ciddi xarakter almışdır. (5-15)

ƏDƏBİYYAT:

1. *"Kitabşünaslıq və nəşriyyat işi". –Bakı, Mütərcim, 2008, №3, iyul-sentyabr.- 69 s*
2. *Xələfov.A.A. Kitabşünaslığa giriş. (IIhissə).– Bakı, Bakı Universiteti Nəşriyyatı , 2003. –S. 313*
3. *Xələfov. A.A. Kitabxana və Cəmiyyət. Monoqrafiya.– Bakı, Azərnəşr, 2011, 348 s.*
4. *Kitabxanaşünaslıq və informasiya. №1 (4). –Bakı, Bakı Universiteti Nəşriyyatı, 2011, 139 s.*

The role of the libraries in the regulation of relations book and readers

C.L.Mammadova

Summary

In this article, the reader of the book, and the role of society and their development perspectives. At the same time, the book and the reader is informed about the importance of libraries relations.

Key words: *book, library, information, reader, document*

Роли библиотек в регулировании отношений читателя с книгой

Л.Ч.Мамедова

Резюме

В этой статье, читатель этой книги, и роль общества и их перспективы развития. В то же время, книга и читатель сообщил о важности библиотек отношений.

Ключевые слова: *книга, библиотека, информация, читатель, документ.*

1962-1972-Cİ İLLƏRDƏ AZƏRBAYCAN EA MƏRKƏZİ ELMİ KİTABXANASININ XARİCİ ƏLAQƏLƏRİ

N.BABAXANOVA
Azərbaycan Milli Elmlər Akademiyası

Məqalədə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının 1962-1972-ci illərdəki beynəlxalq əlaqələrindən, o cümlədən xarici tərəfdaşlarla ədəbiyyat və elmi informasiyanın qarşılıqlı mübadiləsindən bəhs olunur.

Açar sözlər: *AMEA, Mərkəzi Elmi Kitabxana, beynəlxalq kitab mübadiləsi, qlobal informasiya mühiti, 1962-1972-ci illər*

Azərbaycan EA Rəyasət Heyətinin "Azərbaycan SSR EA üçün xarici ədəbiyyata abunə və ondan istifadə vəziyyətinin yaxşılaşdırılması" haqqında 1962-ci il 27 fevral 121 saylı və "Azərbaycan SSR EA-nın nəşrlərinin təbliği" haqqında 16 iyun 334 saylı qərarları Mərkəzi Elmi Kitabxananın 1962-ci ildəki beynəlxalq fəaliyyəti üçün daha geniş imkanlar açdı. Təkcə 1962-ci ildə Kitabxana 40 ölkənin 280 elm və təhsil müəssisəsinə Azərbaycan EA-nın 8000 nüsxə çap məhsulunu göndərmişdi. 1962-ci ildə müxtəlif mənbələrdən əldə olunan xarici dillərdə ədəbiyyatın sayı 19400 nüsxə idi, o cümlədən xarici partnyorlardan mübadilə yolu ilə alınan ədəbiyyat 6550 nüsxə, "Akademkitab", "Azərkitab", "Beynəlxalq kitab", Kitab Palatası və bukinist mağazalarından satın alınan çap məhsullarının sayı isə 12850 idi. Əldə olunan ədəbiyyatın 5060 nüsxəsi kitab, 14340 nüsxəsi isə jurnal idi [1].

Berlin Dövlət Kitabxanası, Pekin Dövlət Kitabxanası, ABŞ-ın Konqres Kitabxanası, Harvard kollecinin kitabxanası, Nyu-York Kütləvi Kitabxanası, Fransa Milli Kitabxanası, Helsinki, Bağdad və Tehran Universitetlərinin kitabxanaları, İran Arxeologiya Cəmiyyəti Mərkəzi Elmi Kitabxana ilə daha sıx əməkdaşlıq edir, kitab və jurnalların vaxtında yola salınmasına xüsusi diqqət yetirirdilər. MEK xarici kitab mağazalarından və nəşriyyatlardan ala bilmədiyi bir sıra kitab və jurnalları əməkdaşlıq etdiyi təşkilatlardan mübadilə yolu ilə əldə edirdi. Belə nəşrlərə aşağıdakıları misal göstərmək olar:

Kitablar:

1. "Klassik və müasir fizikada kütlə konsepsiyası" (ABŞ)
2. "Dünya kitabxanalarında olan İran əlyazmalarının kataloqu" (Tehran)
3. "Türk poeziyası antologiyası" (Macarıstan)
4. "Şərq incəsənəti" (AFR)

Jurnallar:

1. "Kənd təsərrüfatı texnikası" (ABŞ)

2. "Sakit Okean riyaziyyat jurnalı" (ABŞ)
3. "Tətbiqi biologiya salnaməsi" (İngiltərə)
4. "Yaxın Şərq-iqtisadiyyat icmalı" (İngiltərə)
5. "Kimya arxivi" (İsveç)
6. "Fizika arxivi" (İsveç)

Xarici jurnal və kitabları alim və tədqiqatçıların diqqətinə çatdırmaq məqsədilə Kitabxana vaxtaşırı sərgilər təşkil edir, ekspress informasiya bülletenləri hazırlayıb Elmi-tədqiqat institutlarına göndərirdi [2].

60-cı illərin əvvəllərindən etibarən Mərkəzi Elmi Kitabxana ilə yanaşı, başqa təşkilatlar da beynəlxalq kitab və informasiya mübadiləsinə intensiv şəkildə qoşulmağa başladılar. Məsələn, 1962-ci ildə Azərbaycanın Kitab palatası Leypsiq şəhərinin kitab palatası ilə əlaqə yaratdı və həmin ildən etibarən hər il Azərbaycandan Almaniyaya "Bir illik Azərbaycan kitabiyyatı" göndərilməyə başlandı. Buna baxmayaraq, Azərbaycan EA-nın Mərkəzi Elmi Kitabxanası Respublikada beynəlxalq kitab mübadiləsi mərkəzi olaraq qalırdı [3].

1963-cü ildə Mərkəzi Elmi Kitabxana 47 ölkənin 343 təşkilatı ilə əməkdaşlıq edirdi. Bu isə o demək idi, Kitabxana il ərzində 63 yeni təşkilatla mübadilə və əməkdaşlıq razılığı əldə edib. Həmin ildə ilk dəfə Türk Tarixi Qurumu, Təbriz və Əhvəd Universitetləri (İran) ilə kitab mübadiləsi başlandı. İngiltərə, İran, Fransa, Türkiyə və AFR-dən qiymətli Şərq nəşrlərinin mikrofilmləri əldə olundu. Kuba, Əlcəzair, Çili, Seneqal, Tunis, Meksika və İndoneziya ilə sıx əməkdaşlığa başlanıldı. 1963-cü ildən etibarən Kitabxana Azərbaycan EA-nın nəşrləri ilə yanaşı, yerli nəşriyyatların da çap məhsullarını xaricə göndərməyə başladı. Belə nəşrlər mübadilə üçün nəzərdə tutulan çap kütləsinin 20%-dən artıq olmurdu.

O dövrdə Mərkəzi Elmi Kitabxana beynəlxalq informasiya mühitinə aşağıdakı funksiyalarla qoşulmuşdu:

1. Xarici kitabxanalar, elm və təhsil müəssisələri ilə ənənəvi məktublaşma yolu ilə;
2. Xarici nəşriyyatlardan ədəbiyyatı satınalma (invalyuta ilə) və ya abunə yolu ilə. Kitabxananın bu prosesi vasitəsiz həyata keçirmək hüququ vardı. Buna baxmayaraq, Kitabxana xarici ədəbiyyata abunə olmaq üçün Elmi Kitabxanaların Mərkəzi Kollektoru (Moskva), Respublika Kitabxana kollektoru, Ümumittifaq "Beynəlxalq kitab" Cəmiyyətinin "Soyuzkniqa" birliyi, "Azərkitab"ın mağazaları və "Akademkitab"ın Bakı şöbəsi ilə əməkdaşlıq edirdi;
3. Xarici kitabxanalarla qarşılıqlı kitab mübadiləsi yolu ilə;
4. Birbaşa və Ümumittifaq "Beynəlxalq kitab" Cəmiyyətinin "Sovinkniqa" birliyi vasitəsilə xaricə kitab göndərmək yolu ilə;

5. Xarici elm və mədəniyyət xadimləri ilə birbaşa əməkdaşlıq etmək yolu ilə. Kitabxanaya xarici kitab hədiyyələri məhz bu yolla daxil olurdu.

Müasir dövrdə olduğu kimi, 60-cı illərdə də Mərkəzi Elmi Kitabxananın qarşısında xarici ədəbiyyatı tam və vaxtında komplektləşdirmək vəzifəsi dururdu. Kitabxana komplektləşdirmənin tamlığına əməl etsə də, nəşrləri vaxtında əldə edə bilmirdi. Təhlillər göstərir ki, 1963-cü ildə Kitabxana tərəfindən əldə olunan xarici nəşrlərin yalnız 10%-i həmin ildə nəşr olunub. Xaricdən daxil olan kitabların 50%-i 1962, 30%-i isə 1961-ci illərin çap məhsulları olub. Belə nəticəyə gəlirik ki, həmin illərdə abunə yolu əldə olunan kitablar Kitabxanaya ən azı 1-2 il gecikmə ilə daxil olublar. Statistik göstəricilər sübut edir ki, mübadilə ilə daxilolmalar daha sürətlə həyata keçirilib.

1963-cü ildə Mərkəzi Elmi Kitabxananın fondunda 652795 nüsxə ədəbiyyat, o cümlədən 145592 nüsxə xarici kitab və jurnal var idi. Fondda toplanan xarici ədəbiyyatın böyük əksəriyyəti təbiyyat, dəqiq və texniki elmlərə aid idi. İl ərzində 7000 kitab və broşür, 10360 jurnal daxil olmuşdu.

Həmin ilin göstəricilərinə görə, Şərq ədəbiyyatı fondunda (1958-ci ildə yaradılmışdır) ərəb, fars, türk və b. Şərq dillərində 15000 nüsxə ədəbiyyat var idi. Təkcə 1963-cü ildə Şərq ədəbiyyatı fonduna mübadilə və abunə yolu ilə 3000 nüsxə kitab (məsələn, 11 cildlik "İslam ensiklopediyası", 2 cildlik "Osmanlı tarixi" və s.) və dövri nəşr göndərilmişdi. 26 adda 800 nüsxə jurnalın 453 nüsxəsi abunə, 347 nüsxəsi isə mübadilə yolu ilə əldə olunmuşdu.

Polşadan professor Zayanqkovski, Türkiyədən professor Əhməd Atəş, AFR-dən professor V.Brands, Macarıstandan professor G.Hazai, İrandan professor Hayəmnur və başqaları ilə şəxsi əməkdaşlıq nəticəsində kitabxananın xarici ədəbiyyat fonduna qiymətli kitablar hədiyyə olunmuşdu.

1963-cü ildən etibarən Kitabxana hər il "Azərbaycan xarici mətbuatda" adlı məlumat bülleteni nəşr etməyə başladı. Məqsəd xarici nəşrlərdə, o cümlədən xarici mətbuatda Azərbaycanla bağlı dərc olunan materialların xülasəsini vermək və oxucuları bu haqda məlumatlandırmaq idi.

1964-cü ildə Mərkəzi Elmi Kitabxanaya xarici ədəbiyyatın abunə yolu ilə alınması üçün ayrılan vəsait 30% azaldıldı. Bununla Akademiyanın rəhbərliyi xarici ədəbiyyatın komplektləşdirilməsini invalyuta ilə deyil, əsasən mübadilə yolu ilə tənzimləməyi qarşıya məqsəd qoymuşdu. Məhz bunun nəticəsində, Kitabxana 1964-cü ildə dəstləşdirdiyi ədəbiyyatın 50%-ni mübadilə vasitəsilə əldə etməli olmuşdu.

Həmin ildən etibarən Kitabxana xarici bədii ədəbiyyatın abunəsini dayandırdı. Yaxın və Orta Şərq ölkələri ilə əməkdaşlığın genişlənməsi nəticəsində fonda türk, ərəb və fars dilində daxilolmaların sayı artdı. Şərq ədəbiyyatı fonduna 2080 nüsxə kitab, 860 nüsxə elmi jurnal daxil olmuşdu.

1964-cü ildə Kitabxananın əməkdaşlıq etdiyi təşkilatların sayı 530-a çatdı. Onlar dünyanın 50 ölkəsini təmsil edirdilər.

1964-cü ilin may ayında SSRİ Mədəniyyət Nazirliyi "Sovet kitabxanalarının beynəlxalq kitab mübadiləsinin əlaqələndirilməsi haqqında Əsasnamə"ni təsdiq etdi. "Əsasnamə"yə müvafiq olaraq Mərkəzi Elmi Kitabxana Bakı şəhərinin iri kitabxanaları-M.F.Axundov adına Dövlət Kitabxanası (ind. Milli Kitabxana), Respublika Elmi-Texniki Kitabxanası, Azərbaycan Dövlət Universitetinin (ind. Bakı Dövlət Universitetinin) Elmi Kitabxanası ilə beynəlxalq elmi əlaqələri, sənəd-informasiya kommunikasiyalarını, kitab mübadiləsini əlaqələndirməyə başladı.

Təhlillərimiz göstərir ki, 60-cı illərdə Mərkəzi Elmi Kitabxana ədəbiyyat mübadiləsini Xalq demokratiyası ölkələrinin (Albaniya, Bolqarıstan, Macarıstan, Vyetnam, Almaniya Demokratik Respublikası, Çin Xalq Respublikası, Koreya Xalq Respublikası, Polşa, Rumıniya, Çexoslovakiya, Yuqoslaviya) elm və təhsil müəssisələri ilə "birin üçə" prinsipini (3 kitab əvəzinə 1 kitab) rəhbər tutaraq, inkişaf etmiş kapitalist ölkələrinin kitabxanaları ilə "birin-birə" yolu ilə, inkişaf etməkdə olan ölkələrin təşkilatları ilə isə ekvivalentliyə riayət etmədən həyata keçirmişdir. Bir qayda olaraq, Kitabxanaya daxil olan xarici nəşrlər "Komplektləşdirmə və beynəlxalq kitab mübadiləsi" şöbəsində tərcüməçilər tərəfindən üç gün ərzində yoxlandıqdan sonra kataloqlaşdırılmaya verilirdi. Siyasi cəhətdən "yararsız" ədəbiyyat Xüsusi fonda göndərilirdi.

1965-ci ildə Kitabxana EA-nın Elmi-tədqiqat institutlarının xarici ədəbiyyata olan tələblərini məhdudiyyətsiz ödəməyə başladı. Kitabxana 50 ölkənin 467 təşkilatı ilə əməkdaşlıq edirdi. Ən çox kitab mübadiləsi müvafiq olaraq ABŞ (53 təşkilat), AFR (46 təşkilat) və Yaponiya (41 təşkilat) ilə aparılırdı. İl ərzində mübadilə yolu ilə xarici kitabxana və universitetlərdən 9240 nəşr vahidi, o cümlədən 1650 kitab, 7583 jurnal və 7 qəzet alınmışdı. Əvəzində mübadilə yolu ilə 10022 nüsxə çap məhsulu, o cümlədən 3120 kitab və 6902 jurnal xarici oxucuların istifadəsinə verilmişdi. 1965-ci ildə "Davis Book Company Limited" (Kanada), "Ad Orientem" və "Thornton and sons" (İngiltərə) kimi bir sıra xarici kitab ticarəti şirkətləri ilə əməkdaşlıq yaradıldı. 1965-ci ilin yazında Bakıda olarkən "Kubon və Zaqner" Qərbi Almaniya firmasının (Münhendə Sovet kitablarının ticarəti ilə məşğul olurdu) direktoru ilə Kitabxana arasında nəşr mübadiləsi haqqında müqavilə imzalandı. Eyni zamanda, firma Kitabxana üçün alman istehsalı olan avadanlıqların əldə olunmasına yardım etməklə bağlı öhdəlik götürmüş oldu. Bu əməkdaşlığın nəticəsi özünü çox gözlətmədi. Belə ki, artıq noyabr ayında Kitabxana "Komplektləşdirmə və beynəlxalq kitab mübadiləsi" şöbəsi üçün AFR istehsalı olan sürətçoxaldan aparat almışdı. Bu aparatın köməyi ilə makinada yığılan eks-

press informasiya bülletenlərini (xarici ədəbiyyat siyahıları və onların xülasələri) çoxaldır və Elmi-tədqiqat institutlarına göndərirdilər.

Həmin il ABŞ, İngiltərə, Fransa, ADR, Çexoslovakiya və digər ölkələrin kitabxana və elmi idarələri ilə əlaqələr xeyli möhkəmləndi və ilk dəfə olaraq Mərakeş, Livan və Yeni Zelandiya ilə beynəlxalq kitab mübadiləsinə başlanıldı. Mübadilə nəticəsində biri-birindən dəyərli elmi materiallar əldə olundu. Məsələn, ABŞ Kimya Cəmiyyətinin "Selenium and Tellurium Abstracts" jurnalının dəsti (1959-1965-ci illər üzrə), Alan R. Katriçkinin "Advances in Heterocyclic Chemistry" əsəri (3 cilddə) və başqa nəşrlər xarici ədəbiyyat fonduna daxil oldu.

1966-cı ildə "Xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi" şöbəsi 52 ölkənin 488 təşkilatı ilə əlaqə saxlayırdı. İl ərzində mübadilə yolu ilə xarici kitabxana və universitetlərdən 9822 nəşr vahidi, o cümlədən 1782 kitab, 8032 jurnal və 8 qəzet alınmışdı. Əvəzində mübadilə yolu ilə 11039 nüsxə çap məhsulu, o cümlədən 3347 kitab və 7692 jurnal xarici oxucuların istifadəsinə verilmişdi. Bu illərdə Mərkəzi Elmi Kitabxana ABŞ Konqres Kitabxanası, Kaliforniya, Kolumbiya, Harvard və Vaşinqton Universitetlərinin kitabxanaları ilə yanaşı İngiltərədə Britaniya Muzeyi və Bodlean Kitabxanası, Fransada Milli Kitabxana və Ali tədqiqatların praktika məktəbi, AFR-də isə Alman Tədqiqat Cəmiyyəti ilə sıx əlaqələr qurmuş, intensiv təcrübə və kitab mübadiləsinə nail olmuşdu [5].

1967-ci ildə Kitabxana xarici ədəbiyyat fondunu 2 yolla dəstləşdirməyə davam edirdi: "Beynəlxalq kitab" vasitəsilə valyuta hesabına kitab və jurnalların əldə olunması və mübadilə yolu ilə. Həmin il Kitabxananın əməkdaşlıq etdiyi təşkilatların sayı 502-yə çatsa da, xarici ədəbiyyatın əldə olunması göstəriciləri xeyli aşağı düşmüşdü. 1967-ci ildə Kitabxana xaricə 7.960 kitab göndərmiş, mübadilə və satınalma yolu ilə ümumilikdə 5890 nüsxə ədəbiyyat, o cümlədən 4916 jurnal və 974 kitab əldə olunmuşdu. Xarici ədəbiyyatın komplektləşdirilməsi, xüsusən də kitabların alınması üzrə göstəricilərin aşağı olmasının bir neçə səbəbi var idi:

a) Kitabxana xarici əlaqələr sahəsinə əsas diqqəti Azərbaycan EA Elmi-Tədqiqat İnstitutları tərəfindən sifariş edilən xarici elmi jurnalların əldə olunmasına yönəltmişdi. 1967-ci ildə ilk dəfə olaraq, bütün sorğular tam ödənilmişdi.
b) 1965-ci ildən etibarən xarici elmi jurnalların satış qiymətində kəskin artım müşahidə olunmağa başlamışdı və bu proses davam edirdi.
c) Kitabxana daha çox nadir və qiymətli əsərlər alırdı. Məsələn, 1967-ci ildə Kitabxananın əldə etdiyi 12 cildlik "Fars incəsənətinin icmalı" əsərinə həmin il monoqrafiyaların əldə olunması üçün ayrılan valyutanın dörddə üçü xərclənmişdi.

Həmin il mübadilə yolu ilə əldə olunan ədəbiyyatın sayının kəskin azalmasının da bir neçə səbəbi var idi:

a) 1967-ci ildə Mərkəzi Elmi Kitabxana hazırda yerləşdiyi binaya köçmüşdü. Bununla əlaqədar olaraq, Kitabxananın mübadilə fondu ancaq ilin ikinci yarısından sonra normal fəaliyyət göstərməyə başlamışdı.

b) Mübadilə və abunə işində "Kapitalist ölkələrində nəşr olunan ədəbiyyata abunə olma, onları saxlama və istifadə etmə qaydaları haqqında" SSRİ Baş Ədəbiyyat və Nəşriyyat İdarəsinin (Qlavlit) Təlimatı, həmçinin "Xaricə göndərilən cari Sovet nəşrlərinin qiymətləndirilməsi haqqında" SSRİ Dövlət Kitabxanası yanında "Beynəlxalq Kitab Mübadiləsi və Abonement Şurası"nın 20 aprel 1967-ci il tarixli Qərarı rəhbər tutulduğundan həm xaricə göndərilən elmi-texniki ədəbiyyatın qiyməti nominal dəyərdən 60% bahalaşdırılmış, həm də xarici kitab ticarəti firmaları ilə ticari əlaqələr məhdudlaşdırılmışdı.

1967-ci ildə Kitabxana sosialist ölkələrin elmlər akademiyalarının kitabxanaları, Bolqarıstan, ADR və Fransanın milli kitabxanaları, ABŞ Konqres kitabxanası, Kolumbiya Universitetinin, eləcə də Varşava, Pxenyan, Bağdad, Parisdəki universitetlərin kitabxanaları ilə daha aktiv əməkdaşlıq edirdi. Bu əməkdaşlıq nəticəsində fonda biri-birindən maraqlı əsərlər daxil olmuşdu. "V Milli konqresin materialları" (3 cilddə, Paris, 1967), fiziki kimya, fiziologiya, mikrobiologiya üzrə "İllik"lərin (ABŞ) bir neçə komplekti, şərqşünaslıq üzrə "Əsaslı türk filologiyası", "İstanbul kitabxanalarındakı tarixi-coğrafi əlyazmaların kataloqu" və onlarca monoqrafiya bu sırada idi.

Yeni binaya köçməsi ilə əlaqədar olaraq Kitabxananın beynəlxalq kitab mübadiləsi sektoru fərqli üsulla işləməyə başladı. Sərgi zalında xarici ədəbiyyatın mütəmadi yenilənən daimi sərgisi açıldı. Artıq Kitabxana oxucular tərəfindən xarici ədəbiyyat sifarişini əvvəlki dövrlərdə olduğu kimi ildə 2-3 dəfə deyil, il boyu qəbul edirdi.

1967-ci ildə Kolumbiya Universitetinin baş kitabxanaçısı R.Karloviç və Oksford Universitetinin (İngiltərə) Bodlian kitabxanasının beynəlxalq əlaqələr üzrə direktor müavini C. Uoll və Kitabxananın qonağı olmuş, kitab və elmi informasiya mübadiləsi məsələlərini müzakirə etmişlər.

1968-ci ildə xarici ədəbiyyatın alınması üçün Kitabxanaya ayrılan vəsait 4 dəfə azaldıldı və 10000 rubl (invalyuta) məbləğində müəyyənləşdirildi. Məqsəd ədəbiyyatın satınalma yolu ilə deyil, mübadilə vasitəsilə komplektləşdirilməsinə nail olmaq idi. O il Kitabxanaya beynəlxalq əməkdaşlıq sayəsində 17511 nüsxə çap vahidi daxil oldu. Onların 48%-i mübadilə, 43%-i satın alma, 9%-i isə hədiyyə edilmə yolu ilə komplektləşdirilmişdi. Kitabxana isə beynəlxalq kitab mübadiləsi yolu ilə

8221 kitab və jurnal göndərmişdi. Kitabxana 47 ölkənin 507 təşkilatı ilə sıx əməkdaşlıq edir, əsasən təbiət və ictimai elmlər üzrə ədəbiyyatın əldə olunmasına çalışırdı. Lakin bir sıra ölkələrdən tələbnamə üzrə ədəbiyyat əldə etmək mümkün olmurdu. Məsələn, 1968-ci ildə Kitabxana Türkiyədən xarici valyuta ilə sifariş etdiyi kitab və jurnalların heç birini əldə edə bilməmişdi. "Beynəlxalq kitab"a bununla bağlı göndərilmiş sorğu da cavablandırılmamışdı. Təhlillər göstərir ki, həmin illərdə "Beynəlxalq kitab" Azərbaycan və İttifaqın digər türkdilli ölkələrinin kitabxanaları tərəfindən türk və ərəb dillərində nəşr olunan ədəbiyyatın əldə olunmasında maraqlı deyildi. Kitabxananın daim əməkdaşlıq etdiyi "Siroviç" (Misir) firmasından kitab ala bilməməsi, Azərbaycan alimləri üçün maraq kəsb edən bir çox türk və ərəbdilli nəşrlərin "Beynəlxalq kitab"ın kataloqlarına salınmaması buna bariz nümunə idi. Düşünmək olar ki, bunun bir səbəbi həmin illərdə Türkiyədə (məsələn, milli azadlıq uğrunda solçu gənclər hərəkatı "1968-in nəsli"in meydana gəlməsi) və ərəb ölkələrində mövcud siyasi vəziyyətin gərginləşməsi, digər səbəbi isə Azərbaycanda istər ədəbiyyat, istər təsviri incəsənət, istərsə də musiqi sahəsində millilik ideyalarının yenidən cücərməsi, "60-cılar nəslinin" xeyli dirçəlməsi idi.

Kitabxana Türkiyə və ərəbdilli ölkələrdən ədəbiyyatı satın alma yolu ilə lazımi səviyyədə əldə edə bilməsə də, bu boşluğu mübadilə sayəsində doldurmağa nail olmuşdu. Türkiyə Dilçilik Cəmiyyətindən əldə olunan çoxlu sayda kitab və jurnal, Bağdad Universitetindən göndərilən qiymətli nəşrlər (dəqiq elmlər üzrə), Fransa Neft İnstitutundan göndərilən 30 monoqrafiya, başqa partnyorlardan əldə olunan "Elektrokimya ensiklopediyası", "Elektronika ensiklopediyası", "Fiziki və üzvi kimyanın uğurları" (5 cilddə), "Alkaloidlər" (4 cilddə), "Heyvanların biokimyəvi inkişafı" (2 cilddə), "İslam ensiklopediyası" (2 cilddə), "Qafqaz və Zaqafqazıyanın biblioqrafiyası" və başqa nəşrlər xarici ədəbiyyat fonduna daxil olmuşdu. 1968-ci ildə Kitabxana "Azərbaycanşünaslıq" və "elmi proqnozlaşdırma" üzrə sorğularla əməkdaşlıq etdiyi təşkilatlara müraciət ünvanlamış və çoxlu sayda material əldə edə bilmişdi.

Mərkəzi Elmi Kitabxana ilə yanaşı, 1968-ci ildən Azərbaycan SSR Nazirlər Sovetinin Mətbuat üzrə Dövlət Komitəsi də aktiv şəkildə beynəlxalq əlaqələrə qoşuldu. 1968-ci ildə xarici kitab ticarəti şirkətlərinin respublika nəşriyyatları tərəfindən buraxılan kitablara olan tələbatının artması ilə əlaqədar olaraq, Mətbuat üzrə Dövlət Komitəsinin qərarına əsasən "Azərkitab" kitab ticarəti birliyi nəzdində xüsusi ixrac şöbəsi yaradıldı. Artıq 1969-cu ildə həmin şöbə respublika nəşriyyatları tərəfindən buraxılan kitabları sifariş əsasında 30-dan artıq xarici ölkəyə göndərirdi. Azərbaycan kitablarının daimi sifarişçiləri arasında ABŞ, İngiltərə, Fransa, Yaponiya, AFR kimi böyük ölkələr, eləcə də Cənubi Amerika, Afrika, Asiya və Avropanın bir sıra

digər ölkələri var idi. 1 yanvar 1969-cu ildən 1 yanvar 1970-ci ilə kimi olan dövr ərzində Azərbaycan nəşriyyatları tərəfindən buraxılan 12773 rubl məbləğində kitab Mətbuat üzrə Dövlət Komitəsinin ixrac şöbəsi tərəfindən xaricə göndərilmişdir. Bu dövrdə xarici kitab ticarəti şirkətləri tərəfindən neft üzrə elmi-texniki ədəbiyyata xüsusilə böyük tələbat var idi. İri həcmdə sifarişlər yalnız sosialist ölkələrindən deyil, eləcə də ABŞ, Fransa, Yaponiya, AFR, İran və Norveç kimi bir çox kapitalist ölkələrindən də daxil olurdu [4].

1960-cı illərdə SSRİ-nin Çin Xalq Respublikası və Albaniya ilə münasibətlərinin korlanması nəticəsində Mərkəzi Elmi Kitabxananın bu ölkələrin kitabxanaları ilə mübadilə işində fasilə yarandı. 1968-ci ildə Çexoslovakiyada yaranmış sosial-siyasi böhran vəziyyəti və bunun ardınca Varşava müqaviləsi ölkələrinin (Rumıniya istisna olmaqla) qoşunlarının bu ölkəyə daxil olması Çexoslovakiya cəmiyyətində SSRİ-yə mənfi münasibət formalaşdırdı. Bunun ardınca Rumıniyanın da SSRİ ilə münasibətlərində soyuqluq yaranmağa başladı. Vəziyyətin bu məcraya yönəlməsi Kitabxananın adıçəkilən ölkələrin kitabxanaları ilə elmi-mədəni əlaqələrinə mənfi təsir göstərdi.

1969-cu ildə Afrika, Yaxın Şərq və bir sıra digər ölkələrdə də mürəkkəb siyasi vəziyyət beynəlxalq kitab və informasiya mübadiləsi prosesinə ciddi zərbə vurdu. Mərkəzi Elmi Kitabxana Çexoslovakiya və Rumıniya ilə yanaşı Koreya Xalq Demokratik Respublikası, Əlcəzair, Qana, Tunis və CAR-dan ədəbiyyatın alınmasını minimuma endirdi.

Buna baxmayaraq, Kitabxana beynəlxalq informasiya mühitinin bir parçası olaraq qalır və qlobal kitab və elmi-texniki informasiya mübadilələrini davam etdirirdi.

1969-cu ildə Kitabxana beynəlxalq mübadilə yolu ilə 9470 çap vahidi, o cümlədən 1630 nüsxə kitab, 7836 nüsxə jurnal və 4 nüsxə qəzet almış, əvəzində isə 9200 nəşr vahidi (3294 kitab və 5906 jurnal) göndərmişdi. Kitabxana kitab mübadiləsi sahəsində dünyanın 53 ölkəsindən 520 müəssisə ilə əməkdaşlıq edirdi.

Həmin ildən Kitabxana Yaxın və Orta Şərq ölkələrinin kitabxana, elmi idarə və təşkilatları ilə əməkdaşlığın inkişafına xüsusi diqqət ayırmağa başladı. Çünki uzun illər keçməsinə baxmayaraq, Kitabxananın Şərq ədəbiyyatı fondunu lazımi səviyyədə formalaşdırmaq mümkün olmurdu. Şərq dillərində ədəbiyyat çatışmazlığı həmin fondun normal fəaliyyətinə imkan vermirdi. Bütün bu çətinliklərə rəğmən, Azərbaycan və xarici ölkə kitabxanaları arasındakı səmərəli əməkdaşlıq beynəlxalq mədəniyyət mübadiləsinin mühüm tərkib hissəsinə çevrilmiş və respublikanın beynəlxalq miqyasda tanınmasına müsbət təsir göstərmişdi.

1950-1960-cı illərdə aparılan beynəlxalq kitab mübadilələrinin miqyas və statistikasının təhlili belə deməyə əsas verir ki, bu illər ərzində Mərkəzi Elmi Kitabxana xarici elm və təhsil müəssisələri ilə əlaqələrini genişləndirmiş,

lazımi təcrübəyə yiyələnmiş, Azərbaycan elminin uğurlarını SSRİ-nin hüdudlarından kənarda təbliğ etməyə nail olmuş, alimlərin tədqiqatlarını elmi informasiya ilə təmin etmiş və ən əsası respublikada vahid beynəlxalq kitab mübadiləsi mərkəzinə çevrilə bilmişdi. Bu illər ərzində bəzi kapitalist ölkələrlə əlaqələrin davamiyyəti dəfələrlə dəyişsə də, sosialist ölkələri ilə kitab və informasiya mübadiləsi daim artan xətt üzrə inkişaf etmişdir.

1970-ci ildə Mərkəzi Elmi Kitabxana dünyanın 53 ölkəsinin 538 təşkilatı ilə əməkdaşlıq edirdi. Xaricə göndərilən və xaricdən alınan ədəbiyyatın həcmi xeyli artmış, Şərq ölkələri ilə əməkdaşlıq möhkəmlənmişdi. Kitabxana Türkiyənin (Türkologiya İnstitutu), İraqın (Kürd Akademiyası), Kanadanın (Albert Universiteti), Hollandiyanın ("Scentia" kitab ticarəti şirkəti) və İranın ("Qardaşlıq" jurnalı və İran Mədəniyyətinin İnkişaf İnstitutu) bir neçə müəssisəsi ilə əməkdaşlıq əlaqələri qurmuşdu. Həmin il, beynəlxalq kitab mübadiləsi yolu ilə 9880 nüsxə çap vahidi (2340 kitab, 7519 jurnal və 21 qəzet) xarici partnyorlara göndərilmiş, əvəzində 7950 adda xarici ədəbiyyat (4830 kitab, 2470 jurnal və 650 qəzet) əldə olunmuşdu.

1971-ci ildə Kitabxanada Şərq ədəbiyyatı şöbəsi yaradıldı. Bununla, Kitabxana Şərq dillərində ədəbiyyatı daha səmərəli şəkildə komplektləşdirilməyə nail oldu.

O illərdə kitabxana dünyanın bir çox kitabxanaları ilə, o cümlədən Nyu-York İctimai kitabxanası (ABŞ), Britaniya Muzeyi, Kral kitabxanası (Böyük Britaniya), Milli Kitabxana, Ali Tədqiqatların Təcrübə Məktəbi (Fransa) və s. kimi kitabxanalarla uğurlu əməkdaşlığını davan etdirir, kitab və elmi-texniki informasiya mübadiləsi sahəsində imkanlarını genişləndirirdi. Təsadüfi deyil ki, həmin il kitabxana 53 ölkənin 543 təşkilatı ilə sıx əlaqəyə malik idi.

1972-ci ildə Kitabxana abunə yolu ilə (valyuta ilə) 4281 nüsxə xarici ədəbiyyat əldə etmişdi. Beynəlxalq kitab mübadiləsi vasitəsilə daxilolmalar isə 8500 nüsxə idi. Kitabxana dünyanın 41 ölkəsindəki 445 təşkilatla əməkdaşlıq edirdi. Fəal partnyorlar sırasına Bad-Qodesberqdəki Alman Tədqiqat Cəmiyyəti, Boston-Spadakı Milli Elmi-Texniki kitabxana, Roma şəhərindəki Şərqşünaslıq İnstitutu, Bolqarıstan Elmlər Akademiyasının kitabxanası, Bağdad Universiteti, İranın Mədəniyyət Fondu və s. daxil idi.

Həmin il mübadilə yolu ilə xüsusi olaraq Nizami adına Ədəbiyyat Muzeyi üçün İraq Milli Muzeyindən 100-dən artıq kitab alınmışdı. Əvəzində Bağdada Azərbaycan yazıçılarının 400-dən artıq kitabı göndərilmişdi.

1972-ci ildə Azərbaycan EA-nın Elmi-tədqiqat institutlarının kitabxanaları ilə Mərkəzi Elmi Kitabxananın Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradıldı və xarici ədəbiyyat üzrə sorğuların koordinasiyası daha da asanlaşdı [2].

24-29 aprel 1972-ci ildə Vyana şəhərində Avstriya Milli Kitabxanasının bilavasitə dəstəyi ilə Nəşrlərin beynəlxalq mübadiləsi üzrə 2-ci Avropa

Konfransı keçirildi (1970-ci ildə İFLA-nın 36-cı sessiyasında qəbul olunmuş qərara əsasən). Konfransda 19 Avropa ölkəsinin, o cümlədən SSRİ-nin nümayəndə heyəti iştirak edirdi. Əsas məqsədi YUNESKO tərəfindən 1958-ci ildə qəbul olunmuş iki konvensiyanın icra vəziyyətini müzakirə və təftiş etmək idi. Beynəlxalq mübadilənin inkişafı üzrə nəticələrin yekunlaşdırılması, iş təcrübəsinin ümumiləşdirilməsi və bunun əsasında mübadilə münasibətlərinin sonrakı inkişafına dair tövsiyələrin işlənib hazırlanması, həmçinin Asiya, Afrika və Latın Amerikasının inkişaf edən ölkələri ilə beynəlxalq kitab və informasiya mübadiləsinin inkişaf perspektivlərinin müzakirə edilməsinə həsr olunmuş konfransda SSRİ nümayəndə heyətinin təqdim etdiyi hesabatda qeyd olunurdu ki, İttifaq ölkələrindən 79 kitabxana, o cümlədən Azərbaycan EA-nın Mərkəzi Elmi Kitabxanası müstəqil şəkildə beynəlxalq əlaqələr qurur və bu sahədə imkanlarını daim genişləndirir.

ƏDƏBİYYAT:

1. *Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının arxivi, 1960-1973-cü illər.*

2. *Багиров М. Международные научные связи Академии наук. Книжный фонд ЦНБ // Elm. – 1985. – 14 сент.*

3. *Вассерман Л.Х. О международном книгообнеме ЦНБ АН Аз ССР// ББИ библиотек АН СССР и АН союзных республик. – 1962. № 38. – С. 117 -122.*

4. *Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). – Тбилиси, изд. Артануччи, 2005, 300 с.*

5. *Кязимов Р.Ф. Книги сближают народы // Вышка. – 1966. – 21 янв.*

International relations of Central Scientific Library of the Academy of Sciences of Azerbaijan in 1962-1972 years

N.H.Babahanova

Summary

In the 1960s, Central Scientific Library of Azerbaijan EA collaborated with 350 foreign institutions, providing a foundation for a major expansion of book exchange. At the end of 1960 the number of foreign partners has increased to 520 from 47 countries. Flourish of International relations of CSL came in the early 1970s and have seen strong growth of volume of

international book exchange. The article highlights a number of events related to the international book exchange CSL in 1962-1972 years.

Keywords: *NASA, Central Scientific Library, internatonal book exchange, global information space, 1962-1972 years*

Международные связи Центральной Научной Библиотеки АН Азербайджана в 1962-1972 годах

Н.Х.Бабаханова

Резюме

В 1960-е гг. Центральная Научная Библиотека Азербайджанской ЕА сотрудничала со 350 иностранными учреждениями, была создана основа для значительного расширения книгообмена.

В концу 1960-х гг. число зарубежных партнеров возросло до 520 из 47 стран. Расцвет международного книгообмена ЦНБ пришелся на начало 1970-х годов и наблюдался активный рост обьема международного книгообмена. В статье освещается ряд мероприятий связанных с международным книгообменом ЦНБ АН в 1962-1972 годах.

Ключевые слова: *НАНА, Центральная Научная Библиотека, международный книгообмен, глобальная информационная среда, 1962-1972 годы*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 91 İLLİK YUBILEYİ QARŞISINDA

Heydər Əliyev irsinə dair informasiya nəşrləri

A.V. HƏSƏNOVA
Bakı Dövlət Universiteti
Kitabxanaların kompüterləşdirilməsi elmi-tədqiqat laboratoriyasının laborantı

Məqalədə Heydər Əliyevə həsr olunmuş məlumat bazası, biblioqrafik göstərici, biblioqrafik məlumat kitabı və Beynəlxalq elektron kitabxana haqqında məlumat verilmişdir.

Açar sözlər: *Heydər Əliyev, biblioqrafik göstərici, biblioqrafik məlumat kitabı, verilənlər bazası, Beynəlxalq elektron kitabxana*

Heydər Əliyevin kitabxanalara göstərdiyi qayğının nəticəsi olaraq kitabxanaçı mütəxəssislər və kitabxanaçılar Heydər Əliyev şəxsiyyətinə dərin ehtiramını bildirmək üçün Heydər Əliyevin ictimai və siyasi fəaliyyətini araşdırır və Heydər Əliyev irsinin təbliği məqsədilə tədqiqatlar aparır, monoqrafiya, məqalə nəşr etdirir. Bundan əlavə biblioqrafik vəsaitlər-biblioqrafik göstəricilər və biblioqrafik siyahılar hazırlayır. Bu işə nümunə kimi ilk öncə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq – İnformasiya fakültəsinin fəaliyyətini göstərmək olar.

Ulu öndərin irsinin biblioqrafiyası sahəsində ilk addım "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"nın nəşridir. (2, s. 66)

Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmovun «Heydər Əliyev: biblioqrafik məlumat kitabı»na yazdığı «Azərbaycan intibahının böyük memarı» adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, əsrin təxminən üçdən birini əhatə edən Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir. Ön sözdə deyilir:

«Siyasi dövlət xadiminə həsr olunan biblioqrafik informasiya mənbələri həmin şəxsin dünyagörüşünün, çoxcəhətli, ictimai-siyasi, ideoloji fəaliyyətinin cəmiyyətin inkişafında və dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq iqtisadi, elmi və mədəni əlaqələrin genişlənməsindəki misilsiz rolunun təbliğində və yayılmasında mühüm vasitədir. Nüfuzlu biblioqrafiyaşünas alimlər biblioqrafik informasiya nəşrlərinin tarixin ayrı-ayrı mərhələlərində tədqiqatçılar və kitab həvəskarları üçün nadir və qiymətli çap əsərlərinə dair «Qırmızı kitab» rolu oynadığını iddia etməkdə yanılmırlar...».

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq «Dünyanın görkəmli dövlət xadimləri» seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk

addımdır. 434 səhifəlik Azərbaycan dilində, 446 səhifəlik rus dilində, 455 səhifəlik ingilis dilində çap olunmuş bu sanballı biblioqrafik əsər BDU-nun rektoru, akademik Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi-müəllifləri Əməkdar elm xadimi, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi Solmaz Sadıqovadır.

Biblioqrafik məlumat kitabında materiallar dörd hissə, səkkiz bölmədə qruplaşdırılmış və mənbələr xronoloji ardıcıllıqla düzülmüşdür.

Müstəqillik illərində ulu öndər H.Əliyevin kitabxana işinə diqqət və qayğısının parlaq təzahürünü M.F.Axundov adına Milli Kitabxanaya münasibətində daha aydın görmək olar. Kitabxanaları mədəniyyətimizin mühüm tərkib hissəsi, xalqımız üçün müqəddəs bir yer, bilik və zəka mənbəyi kimi qiymətləndirən H.Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrdə-1995-1997-ci illərdə beş dəfə bu kitabxanaya gəlməsi, onun işi ilə, əməkdaşları ilə tanış olması, kitabxanada keçirilən tədbirlərdə iştirak və çıxış etməsi dediklərimizə parlaq sübutdur.

Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Respublika Kitabxanasına ilk dəfə 1995-ci il iyunun 3-də Azərbaycan Qadınları Milli Komitəsinin, Respublika Kitab Cəmiyyətinin və ABŞ-ın "Stark enterprayz" firmasının təşəbbüsü ilə kitabxanada "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat sərgisində iştirak etmək üçün gəlmişdi.

Heydər Əliyev miniatür kitablar sərgisinə gələrkən M.F.Axundov adına Dövlət Kitabxanasına bağışlamaq üçün öz şəxsi kitabxanasından 400 kitab gətirmişdi. (1)

Mərasimlərdə Heydər Əliyevin iştirakı, yeni təqdim olunan kitablar haqqında çıxışı belə tədbirlərin daha geniş yayılmasına, bu işin mühüm mədəni əhəmiyyət kəsb etməsinə, geniş kütləvi hal almasına səbəb olmuşdur.

Milli Kitabxana tərəfindən yaradılan və Heydər Əliyevə həsr olunan informasiya bazası "Mədəniyyətimizin hamisi" adlanır. İnformasiya bazası Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə yaradılmışdır. (6)

Elektron məlumat bazası "Ana səhifə", "Prezidentin sərəncamı", "Azərbaycan xalqının ümummilli lideri", "Heydər Əliyev milli kitabxanada", "Mədəniyyətimizin inkişafinin Heydər Əliyev mərhələsi", "Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə", "Xatirəsinin əbədiləşdirilməsi", "Fotoqalereya" bölmələrindən ibarətdir.

"Ana səhifə" bölməsinin üzərinə kursoru gətirib siçanın sol düyməsini sıxdıqda məlumat bazasının ilkin təqdimat pəncərəsi açılır. "Prezidentin sərəncamı" bölməsininin üzərində siçanın sol düyməsinin sıxdıqda isə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsi bağlı prezident İlham Əliyevin imzaladığı sərəncamın tam mətni açılır.

Digər bölmələr öz növbəsində alt bölmələrə ayrılır ki, ixtiyari bir bölmənin üzərinə kursoru gətirib siçan qurğusunun sol düyməsini sıxdıqda həmin bölmənin alt bölmələrinin açıldığını aydın görmək olar.

Burada "Azərbaycan xalqının ümummilli lideri" başlıqlı bölmənin üzərində siçanın sol düyməsini sıxdıqda bu altbölmələr açılır: "Həyat və fəaliyyəti", "Görkəmli şəxslər Heydər Əliyev haqqında", "Əsərləri", "Müdrik kəlamları", "Haqqında", "Təltiflər" bölmələrində ibarətdir.

"Heydər Əliyev Milli Kitabxanada" adlı bölməsi də öz növbəsində "Nitqlər", "Video görüntülər", "Fotoalbomlar" adlı yarımbölmələrdən ibarətdir.

"Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi" bölməsi "Heydər Əliyevin mədəniyyətlə bağlı" ("fərman və sərəncamlar", "çıxışları, məruzələri, nitqləri, təbrikləri", "Mətbuatda çıxan mədəniyyət xəbərləri") "Kitablar" ("Heydər Əliyevin mədəniyyətlə bağlı əsərləri" (4 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilib), "Heydər Əliyevin mədəniyyət sahəsində fəaliyyəti haqqında əsərlər"(13 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilib"), "Video görüntülər" (Heydər Əliyev haqqında 5 sənədli filmin video versiyası daxil edilib), "Fotoalbom" (Dahi liderin fotolarından ibarət slayd şou") altbölmələrindən ibarətdir.

"Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə" adlı bölmə "Heydər Əliyevə ithaf olunmuş musiqilər" (16 adda musiqinin biblioqrafik təsviri ilə yanaşı audio versiyası da daxil edilmişdir.), "Heydər Əliyev bədii ədəbiyyatda", "Filmlər" altbölməsindən ibarətdir. "Heydər Əliyev bədii ədəbiyyatda" adlı altbölmə "Poemalar" (9 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilmişdir), "Povest" (1 adda ədəbiyyatın biblioqrafik təsviri), "Şeirlər" (dövrü mətbuatda çap olunmuş 44 adda, kitablarda çap olunmuş 4 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilmişdir) adlı yarımbölmələrdən ibarətdir. "Filmlər" adlı altbölmə "Filoqrafiya" və "Videolar" adlı alt bölmədən ibarətdir.

"Xatirəsinin əbədiləşdirilməsi" bölməsi "Rəsmi sənədlər", "Orden, medal və mükafatlar", "Xatirə sikkələri" və s. alt bölmələrdən ibarətdir.

"Fotoalbomlar" bölməsi "Ailə albomu", "Heydər Əliyev Milli kitabxanada", "Heydər Əliyev və mədəniyyətimiz", "Ulu öndər Heydər Əliyev", "Ulu öndərin abidələri", "Heydər Əliyevə ithaf olunmuş kitablar" adlı yarımbölmələrdən ibarətdir. Hər bir bölmə adına müvafiq olaraq Ulu Öndərin siyasi və ictimai fəaliyyətini əks etdirən fotoları təqdim edir.

Heydər Əliyev irsinin təbliği ilə məşğul olan kitabxanalardan biri də Prezident İşlər İdarəsinin prezident kitabxanasıdır. Bu kitabxananın Heydər Əliyev irsinin təbliği məqsədilə "Heydər Əliyev: Elektron toplu" e- layihə tərtib edir.

Bu e-layihə 2007-ci ilin may ayının 8-də istifadəyə verilmişdir. Resursda Heydər Əliyevin həyatı və fəaliyyəti ilə əlaqədar materiallar toplanmışdır. Layihə 7 fəsildən, biblioqrafiyadan və fotoqalereyadan ibarətdir. Layihəyə vaxtaşırı olaraq yeni materiallar əlavə edilir. Resursdakı mətnlər pdf faylı, fotoşəkillər isə html fayl formatındadır. "Heydər Əliyev haqqında elektron kitablar və məqalələr" adlı beşinci fəsildəki bölmələrin tərkibində digər dillərdə verilmiş materiallardan başqa topludakı bütün materiallar Azərbaycan dilindədir. (9)

Birinci fəsil "Ümummilli lider" adlanır. Onun daxilində beş bölmə (Bioqrafiyası, Rəhbərlik illəri, Təltiflər, Seçilmiş fikirləri, Xatirəsinin əbədiləşdirilməsi) verilmişdirş. Zəruri halda onlardan daxilində daha detallı mövzu bölmələri verilmişdir. Məsələn: "Rəhbərlik illəri" altbölməsinin daxilində "Azərbaycan KP MK-nın birinci katibi (1969-1982)", "SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1982-1987)", "Naxçıvan dövrü (1990-1993)", "Azərbaycan Respublikasının prezidenti (1993-2003)" bölmələri verilmişdir. Fəslin həcmi 125 səhifədir.

İkinci fəsil "Xronologiya. (1923-2003)" adlanır. Burada Heydər Əliyevin həyatı ilə bağlı əsas tarixlər və hadisələrin xronoloji siyahısı verilmişdir. Bu fəslin də daxilində H.Əliyevin fəaliyyətinin tarixi dövrlərinə uyğun olaraq beş xronoloji bölmə verilmişdir. (1923-1969, 1969-1982, 1983-1990, 1990-1993, 1993-2003). Bu bölmələr əsasən onun ayrı – ayrı vəzifələrdə çalışdığı dövrlərə uyğun gəlir. Fəslin həcmi 292 səhifədir.

Üçüncü fəsil "Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları xronoloji ardıcıllıqla həyatının tarixi dövrləri üzrə 13 bölməyə ayrılmışdır. Birinci bölmə - 1969 (noyabr) – 1982 (oktyabr), ikinci bölmə - 1990 (yanvar) – 1993 (may) dövrlərini əhatə edir. Sonrakı dövrə dair materiallar ayrıca birillik bölmələr şəklində (11 bölmə) verilmişdir. Fəslin həcmi 7037 səhifədir.

Dördüncü fəsil "Xarici siyasət fəaliyyətinin xronologiyası. (1993-2003)" adlanır. Burada materiallar Heydər Əliyevin vətənə qayıdışından sonra 1993-2003-cü illər ərzində xarici siyasət sahəsində fəaliyyətinin xronologiyasını əks etdirir. Burada hadisə və faktlar illər üzrə qruplaşdırılmış, onun daxilində isə düz xronoloji adıcıllıqla verilmişdir. Fəslin həcmi 183 səhifədir.

Beşinci fəsil "Müstəqilliyimiz əbədidir. Elektron külliyat" adlanır. Bu fəsil Heydər Əliyevin "Azərbaycan" nəşriyyatı tərəfindən hazırlanmış və 1997- 2012-ci illərdə kağız versiyasında çap edilmiş 42 cildli nəşrin elektron versiyasıdır.

Altıncı fəsil "H. Əliyev haqqında elektron kitablar və məqalələr" adlanır. Fəslin daxilində iki bölmə vardır. Birinci bölmədə Heydər Əliyevə həsr olunmuş əvvəlcə kağız variantında nəşr edilərək sonra rəqəmləşdirilmiş

kitabların elektron versiyaları toplanmışdır. Burada Azərbaycan dilində 25, rus dilində 5 və ingilis dilində 9 adda kitabın tam mətni verilmişdir.

İkinci bölmədə isə Prezident Kitabxanasında məqalələrin elektron kartotekası yaradıldığı vaxtdan (2004) indiyə qədər respublikamızın dövri nəşrlərində Heydər Əliyevə həsr olunmuş və Prezident Kitabxanasında rəqəmləşdirilmiş məqalələrin tam mətni verilmişdir. 2014-cü il aprel ayına olan vəziyyətə görə 240 adda məqalə verilmişdir ki, bunların ümumi həcmi 1058 səhifə təşkil edir.

Yeddinci fəsil "Məşhur adamlar Heydər Əliyev haqqında" adlanır. Fəslin daxilində iki bölmə vardır. Birinci bölmədə görkəmli şəxslərin Heydər Əliyev haqqında onun sağlığında, ikinci bölmədə isə vəfatından sonra söylədikləri fikirlər toplanmışdır. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə bu fəslin ümumi həcmi 27 səhifə təşkil edir.

Səkkizinci fəsil "Biblioqrafiya" adlanır. Fəslin daxilində üç bölmə vardır. Birinci bölmə "Kitablar" adlanır və özü də iki alt bölmədən ibarətdir.

Birinci alt bölmə "Əsərləri" adlanır və burada Heydər Əliyevə məxsus ayrıca olaraq Azərbaycan dilində 96 adda (1974-2011), Rus dilində 16 adda (1972-2011), xarici dillərdə 3 adda, o cümlədən türk dilində 1adda, ingilis dilində 2 adda (1994, 1997) nəşr edilmiş kitabların biblioqrafik siyahısı verilmişdir. Hər bir dil üzrə material ayrıca olaraq düz xronoloji qaydada qruplaşdırılaraq verilmişdir. İllərin daxilində isə təsvirlər əlifba ardıcıllığı ilə düzülmüşdür.

İkinci altbölmə isə "Haqqında" adlanır. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə 456 adda Azərbaycan dilində, 58 adda rus dilində, 37 adda xarici dillərdə nəşr edilmiş kitabların biblioqrafik siyahısı verilmişdir. Hər bir dilin daxilində biblioqrafik təsvirlər əlifba ardıcıllığı ilə düzülmüşdür.

"Biblioqrafiya" fəslinin ikinci bölməsi "Avtoreferatlar" adlanır. Burada Heydər Əliyevin fəaliyyətinin müxtəlif aspektlərinə həsr edilmiş 11 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir.

"Biblioqrafiya" fəslinin üçüncü bölməsi "Məqalələr" adlanır. Burada Prezident kitabxanasında məqalələrin universal elektron kartotekasının yaradıldığı 2004-cü ildən başlayaraq dövrü mətbuatda Heydər Əliyev haqqında dərc edilmiş məqalələr öz əksini tapmışdır. Burada materiallar 2014-cü ildə daxil olmaqla illiklər şəklində 11 altbölmədə toplanmış, onların daxilində Azərbaycan, rus və digər dillər üzrə qruplaşdırılma aparılmışdır. Dillər daxilində isə məqalələrin dərc olunma tarixinin düz xronoloji ardıcıllığı əsas götürülmüşdür. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə 2233 adda material haqqında biblioqrafik informasiya öz əksini tapmışdır. Altıncı fəslin ümumi həcmi 237 səhifədir.

Layihənin son fəsli "Fotoqalereya" adlanır ki, bu Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən fotoşəkillər toplusudur. Burada 50-dən çox fotoşəkil vardır.

2014-cü ilin aprel ayına görə e-layihədə toplanmış materialın ümumi həcmi (elektron kitablar və "Müstəqillimiz əbədidir" külliyatı istisna olmaqla) 8959 səhifə təşkil edir.

Azərbaycan xalqının ümummilli lideri, müasir dövrün görkəmli siyasi xadimi Heydər Əliyevin irsinə həsr edilmiş "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası 10 may 2004-cü ildə fəaliyyətə başlamışdır. Heydər Əliyev irsini araşdırma mərkəzinin nəznində fəaliyyət göstərən kitabxanada bu böyük siyasət adamının yüzlərlə əsəri - çıxışları, müsahibələri, görüşləri, bəyanatları və məktublarının mətnləri ilə 50 dildə tanış olmaq olar.

Heydər Əliyevin əsərlərinin müxtəlif dillərdə nəşri politoloqlar, iqtisadçılar, jurnalistlər və Azərbaycanın ən yeni tarixi və inkişafı, keçmişi və gələcəyi ilə maraqlanan bütün insanlar üçün faydalıdır. Oxucularımızdan aldığımız məktublar da göstərir ki, kitabxana onları çox maraqlandırır. Mübaliğəsiz demək olar ki, ötən dövr ərzində dünyanın 200-dən artıq ölkəsindən yüz minlərlə oxucu kitabxana ilə tanış olmuşdur. Dünyanın qabaqcıl elm və təhsil mərkəzləri, nüfuzlu dövlət təşkilatları, məşhur media orqanları, kitabxanalar, nəhəng transmilli şirkətlər və başqalarının təmsilçiləri kitabxananın daimi oxucularındandır.

"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası nəşriyyat fəaliyyəti ilə də məşğuldur. Müxtəlif xarici dillərdə nəşr olunmuş kitabların bəziləri ilə saytda tanış olmaq olar.

"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası gündəlik olaraq yeniləşir, zənginləşir.

2014-cü ilin aprel ayına olan vəziyyətə görə beynəlxalq elektron kitabxananın saytının ilkin təqdimat pəncərəsinin sol tərəfində "Menyu" pəncərə yerləşdirilmişdir ki, bu pəncərə "Böyük liderin 90 anı", "Oxuculara müraciət", "Tərcümeyi-hal", "Əsərləri", "Məlumat-soraq materialları", "Tarixi arayışlar", "Ümumi tarixi arayışlar", "Dünya mətbuatı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin səfərləri haqqında", "Məşhurlar Heydər Əliyev haqqında", "Əlavə sənədlər", "Oçerklər", "Video-blok", "Xəritə və qrafiklər", "Əlamətdar tarixlər","Kitabxananın xəritəsi" bölmələrdən ibarətdir.

Ulu öndərin belə bir fikri var *"Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik."* Ona görə də biz irsimizi öyrənməli və öyrətməliyik. O cümlədən də Azərbaycan tarixində, mədəniyyətində, incəsənətində cığır açmış Heydər Əliyev irsini.

ƏDƏBİYYAT:

1. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.: Azərnəşr, 2006, 312 s.*
2. *Sadıqova S. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş biblioqrafik informasiya nəşrləri // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri, təcrübi jurnal. - 2011. - №1. - S. 66-77.*
3. *Sadıqova S. Sosial-siyasi elmlərin biblioqrafik informasiya təminatında "Heydər Əliyev və Azərbaycan elmi" adlı biblioqrafik göstərici mühüm mənbədir // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2010. - №2.- S.138-143.*
4. *Sadıqova S. Tarix elminə həsr olunmuş mövzu xarakterli biblioqrafik informasiya mənbələri // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. - B., 2010. - №2. - S. 413-420.*
5. *Hacıyeva Q. Azərbaycan biblioqrafiyasının inkişafında yeni mərhələ // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2012.- № 2.- S. 54-60*
6. *anl.az*
7. *csl- az. com*
8. *lib.aliyev-heritage.org*
9. *preslib.az*

Before 91 years great leader:
informational publications on the heydar aliyev 's heritage

A. V. Hasanova

Summary

In article was informed about bibliography, referens book, database, International electronic library which dedicated to Heydar Aliyev.

Key words: *Heydar Aliyev, bibliography, referens book, database, International electronic library*

Перед 91-летию великого лидера:
информационная публикация о наследии гейдара алиева

А.В. Гасанова

Резюме

В статье был информирован про библиографии, справочника, базы данных, Международной электронной библиотеки которая посвящена Гейдара Алиеву.

Ключевые слова: *Гейдар Алиев , библиография, библиографический справочник, база данных, Международная электронная библиотека*

MÜNDƏRİCAT

A.A. XƏLƏFOV	95 – İL ELM VƏ TƏHSİLİN XİDMƏTİNDƏ	7
A.QURBANOV	AVTORİTET VERİLƏNLƏR VƏ ONA QOYULAN FUNKSİONAL TƏLƏBLƏR	15
E.Y. ƏHMƏDOV	UŞAQ VƏ GƏNCLƏR KİTABXANALARININ NFORMASIYALAŞDIRILMASI	26
K.İ.ASLAN	REDAKTƏNİN AKTUAL PROBLEMLƏRİ: *MÜASİR XÜSUSİYYƏTLƏR, MƏQSƏD VƏ VƏZİFƏLƏR, TEXNOLOJİ TƏLƏBLƏR*	36
M.MƏMMƏDOV	RESPUBLİKA ELMİ TEXNİKİ KİTABXANASININ VƏ ONUN NORMATİV-TEXNİKİ SƏNƏDLƏR FONDUNUN TƏRKİBİ	51
P.F. KAZIMI	TÜRKDİLLİ DÖVLƏTLƏRİN KİTAB VƏ KİTABXANA FƏALİYYƏTİ SAHƏSİNDƏ İN-TEQRASİYA PROBLEMLƏRİ	63
N.Ə.HƏSƏNOVA	INFORMASIYA VƏ KOMMUNIKASIYA TEXNO-LOGIYALARININ TƏHSIL PROSESİ-NƏ TƏTBIQINDƏ ELEKTRON KITABXANALARIN ROLU	69
S.İSMAYILOVA	İNCƏSƏNƏTİN RETROSPEKTİV BİBLİOQRAFİK MƏNBƏLƏRİNİN AXTARIŞ İMKANLARI	82
N.N.İSMAYILOVA	CƏMİYYƏTİN İNFORMASİYALAŞDI-RILMASINDA ELEKTRON KITABXANALARIN ROLU VƏ VƏZİFƏLƏRİ	88
S. İ.MƏMMƏDOVA	AZƏRBAYCAN ALİ MƏKTƏB KİTAB-XANALARINDA İSTİFADƏÇİLƏRƏ ELEKTRON İNFOMASİYA VASİTƏLƏRİ İLƏ XİDMƏT	93
H.O.ZEYNALOVA	MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKA ELMİ TİBB KİTABXANASININ İNFORMASİYA-LAŞDIRILMASI	101

E.E. MƏMMƏDOV	ORTA ƏSRLƏR AZƏRBAYCANINDA İLK ELMİ-TƏDQİQAT MÜƏSSİSƏLƏRİ-MARA-ĞA RƏSƏDXANASI VƏ ONUN KİTABXA-NASI	109
C.R. ŞİRİNOV	AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ PREZİDENT KİTABXANASINDA KİTABXANA-İNFORMASİYA PROSESLƏRİNİN İNFORMASİYA-LAŞDIRILMASI	117
V.B QULİYEVA	RESPUBLİKA ELMİ KƏND TƏSƏRRÜFATI KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ	125
L.C.MƏMMƏDOVA	KİTAB VƏ OXUCU MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ KITABXANALARIN ROLU	131
N.BABAXANOVA	1962-1972-Cİ İLLƏRDƏ AZƏRBAYCAN EA MƏRKƏZİ ELMİ KİTABXANASININ XARİCİ ƏLAQƏLƏRİ	137
A.V. HƏSƏNOVA	ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 91 İLLİK YUBILEYİ QARŞISINDA. Heydər Əliyev irsinə dair informasiya nəşrləri	148

CONTENTS

A.A. KHALAFOV	95 YEARS IN THE SERVICE OF SCIENCE AND EDUCATION	7
A. GURBANOV	AUTHORITATIVE DATA AND FUNCTIONAL REQUIREMENTS TO THEM	15
E.Y.AHMEDOV	INFORMATIZATION CHILDREN AND YOUTH LIBRARIES	26
K.I.ASLAN	ACTUAL PROBLEMS OF EDITING: MODERN CHARACTERISTICS, GOALS AND OBJECTIVES, TECHNOLOGICAL REQUIREMENTS	36
M.MAMMADOV	REPUBLICAN SCIENTIFIC AND TECHNICAL LIBRARY AND THE COMPOSITION ITS NORMATIVE – TECHNICAL DOCUMENTS FUND	51
P.F.KAZIMI	INTEGRATION ISSUES IN THE FIELD OF BOOK AND LIBRARY ACTIVITIES TURKIC-SPEAKING COUNTRIES	63
N.A.HASANOVA	THE ROLE OF DIGITAL LIBRARIES IN THE USE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN EDUCATION	69
S.ISMAILOVA	SEARCH CAPABILITIES OF RETROS-PECTIVE BIBLIOGRAPHIC SOURCES OF ART	82
N.N. ISMAYILOVA	ROLE AND DUTIES OF THE ELECTRO-NICS LIBRARIES INFORMATIZED SOCIETY	88
S. MAMMADOVA	THE ELECTRONIC LIBRARY SERVICES IN THE AZERBAIJAN UNIVERSITY LIBRARIES	93

H.O.ZEYNALOVA	THE SCIENTIFIC MEDICAL LIBRARY INFORMATION YEARS OF INDEPEN-DENCE	101
E.E. MAMMADOV	MEDIEVAL THE FIRST SCIENTIFIC RESEARCH INSTITUTIONS IN AZERBAIJAN - THE MARAGHA OBSERVA-TORY AND ITS LIBRARY	109
J.R. SHIRINOV	INFORMATIZATION OF LIBRARY AND INFORMATION PROCESSES IN ADMINISTRATIVE DEPARTMENT OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN PRESIDENTIAL LIBRARY (2000-2015)	117
V. GULIYEVA	REPUBLICAN SCIENTIFIC LIBRARY OF AGRICULTURE YEARS OF INDEPEN-DENCE	125
C.L.MAMMADOVA	THE ROLE OF THE LIBRARIES IN THE REGULATION OF RELATIONS BOOK AND READERS	131
N.H.BABAHANOVA	INTERNATIONAL RELATIONS OF CENTRAL SCIENTIFIC LIBRARY OF THE ACADEMY OF SCIENCES OF AZERBAIJAN IN 1962-1972 YEARS	137
A. V. HASANOVA	BEFORE 91 YEARS GREAT LEADER: INFORMATIONAL PUBLICATIONS ON THE HEYDAR ALIYEV 'S HERITAGE	148

СОДЕРЖАНИЕ

А.А. ХАЛАФОВ	95 ЛЕТ НА СЛУЖБЕ НАУКИ И ОБРАЗОВАНИЯ	7
А.КУРБАНОВ	АВТОРИТЕТНЫХ ДАННЫЕ И ФУНКЦИОНАЛЬНЫЕ ТРЕБОВА-НИЯ К НИМ	15
Э.Й.АХМЕДОВ	ИНФОРМАТИЗАЦИЯ ДЕТСКИХ И ЮНИЩИСКИХ БИБЛИОТЕК	26
К.И.АСЛАН	АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ РЕДАКТИРОВАНИЯ: СОВРЕМЕННЫЕ ХАРАКТЕРИСТИ-КИ, ЦЕЛИ И ЗАДАЧИ, ТЕХНОЛО-ГИЧЕСКИЕ ТРЕБОВАНИЯ	36
М.МАМЕДОВ	СОСТАВ НОРМАТИВНО – ТЕХНИЧЕС-КОЙ ДОКУМЕНТОВ РЕСПУБЛИКАНСКОМ НАУЧНО – ТЕХНИЧЕСКОМ БИБЛИОТЕКИ	51
П.Ф.КАЗИМИ	ВАПРОСЫ ИНТЕГРАЦИИ В СФЕРЕ КНИЖОЙ БИБЛИО-ТЕЧНОЙ ДЕЯТЕЛЬНОСТИ ТЮРКОЯЗЫЧНЫХ СТРАН	63
Н.А.ГАСАНОВА	РОЛЬ ЭЛЕКТРОННЫХ БИБЛИ-ОТЕК В ПРИМЕНЕНИИ ИНФОР-МАЦИОННО КОММУНИКА-ЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБРАЗОВАНИЯ	69
С. ИСМАЙЛОВА	ПОИСКСОВЫЕ ВОЗМОЖНОСТИ ИСТОЧНИКОВ РЕТРОСПЕКТИВ-НЫХ БИБЛИОГРАФИЧЕСКИХ ИСТОЧНИКОВ ПО ИСКУССТВУ	82
Н.Н.ИСМАИЛОВА	РОЛЬ И ЗАДАЧИ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК В ИНФОРМА-ТИЗАЦИИ ОБЩЕСТВО	88
С. МАМЕДОВА	ЭЛЕКТРОННО-ИНФОРМАЦИОННЫХ ОБС-ЛУЖИВАНИЯ В БИБЛИОТЕКАХ АЗЕРБАЙДЖАНСКИХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ	93

Х.О.ЗЕЙНАЛОВА	ИНФОРМАТИЗАЦИЯ НАУЧНО-МЕДИЦИНСКОЙ БИБЛИОТЕКИ В ЛЕТ НЕЗА-ВИСИМОСТИ	101
Э.Э. МАМЕДОВ	СРЕДНЕВЕКОВЬЕ ПЕРВЫЕ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЕ УЧРЕЖДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ - ОБСЕРВАТОРИЯ МАРАГА И ЕЕ БИБЛИОТЕКА	109
Д. Р. ШИРИНОВ	ИНФОРМАТИЗАЦИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ ПРОЦЕССОВ В УПРАВЛЕНИЕ ДЕЛАМИ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ПРЕЗИДЕНТСКАЯ БИБЛИОТЕКА (2000-2015)	117
В. КУЛИЕВА	РЕСПУБЛИКАНСКИЙ НАУЧНО БИБЛИОТЕКА СЕЛЬСКОГО ХОЗЯЙСТВА ГОДЫ НЕЗАВИСИМОСТИ	125
Л.Ч.МАМЕДОВА	РОЛИ БИБЛИОТЕК В РЕГУЛИРОВАНИИ ОТНОШЕНИЙ ЧИТАТЕЛЯ С КНИ-ГОЙ	131
Н.Х.БАБАХАНОВА	МЕЖДУНАРОДНЫЕ СВЯЗИ ЦЕНТРАЛЬНОЙ НАУЧНОЙ БИБЛИОТЕКИ АН АЗЕРБАЙДЖАНА В 1962-1972 ГОДАХ	137
А.В. ГАСАНОВА	ПЕРЕД 91-ЛЕТИЮ ВЕЛИКОГО ЛИДЕРА: ИНФОРМАЦИОННАЯ ПУБЛИКАЦИЯ О НАСЛЕДИИ ГЕЙДАРА АЛИЕВА	148

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:

1) Format – A4; Sətirlərarası interval – 1,0;
Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.
Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.
2) Şrift dəsti:
Azərbaycan dilində – Times New Roman
İngilis dilində – Times New Roman
Rus – Times New Roman
Şriftlərin ölçüsü 12 (Word 2003).
3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.
4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.
5) Müəllif haqqında aydın məlumat verilməkli, ad, ata adı, soyad açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.
6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.

Nəşriyyat redaktorları:
Şəhla Tahirqızı *(Azərbaycan mətni)*
Nərgiz Əliyeva *(ingilis mətni)*
Yafəs Quliyev *(rus mətni)*

Kompüter tərtibatı və dizayn:
Yeganə Məmmədova

Jurnal Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135. 16.03.2010.

Jurnal «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
çap olunmuşdur.

Çapa imzalanıb: 25.11.2014.
Format: 70x100 1/16. Qarnitur: Times.
Həcmi: 10,25 ş.ç.v. Tiraj: 120.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

KİTABXANALARIN DİQQƏTİNƏ:

"Kitabxanaşünaslıq və informasiya"
elmi-nəzəri və praktiki jurnalına
abunə yazılmaq məqsədi ilə
"AZƏRMƏTBUATYAYIMI"
açıq səhmdar cəmiyyəti

Az 1007, Bakı ş., C.Hacıbəyli küç.30.
E-mail. asc@mail.az
Tel.: 440-16-26
440-46-94